# MƏHƏMMƏD FÜZULİ

1123

## Seçilmiş əsərləri
I cild

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

Bakı 2005

84(5Aze)
F 99

Tərtib, ön söz və açıqlamaların müəllifi
professor **Xəlil Yusifli**

Elmi redaktor
AMEA-nın müxbir üzvü **Əlyar Səfərli**

ALTUN KİTAB

# Mədəni irsimizin Füzuli möcüzəsi

Azərbaycan dilində bütün orta əsrlər dövründə yaranan şerin ən böyük nümayəndəsi Məhəmməd Füzulidir. Onun yaradıcılığı məzmun və sənətkarlıq baxımından izahı çətin olan bir möcüzədir. İnsanlıq, alimlik, zövq möcüzəsidir. Türk dilində yüksək sənətkarlıqla yazılmış şerin az olduğunu görən, etiraf edən Füzuli mənsub olduğu xalqın qeyrətini çəkərək, onun dilində "nəzmi-nazik" yaratmaq qərarına gəlir və bu qərarını heç kəsin bacarmayacağı, bacarmadığı bir səviyyədə həyata keçirir. Doğma ana dilinə dərin, sonsuz bir məhəbbətlə yanaşan bu dildə ölməz əsərlər yaradan şair, fars və ərəb dillərində də dürlü janrlarda gözəl əsərlər yazmışdır.

Füzuli alimlərin təxmininə görə 1494-cü ildə Azərbaycandan köçüb getmiş bir ailədə Kərbəlada anadan olmuşdur. Bəzən alimlər onun Kərbəlada anadan olması fikrinin qəti olmadığını söyləyirlər. Belə ki, Füzuli bir qitəsində məskəninin, yaşadığı yerin Kərbala olduğunu bildirir, ancaq harada anadan olmasından danışmır. Füzuli şüurlu ömrünün çoxunu Kərbəlada yaşamış, burada dini idarədə qulluq edib maaş almış, Bağdad qazisi Seyyid Məhəmmədin hökmü ilə işdən azad olunmuşdur. 1556-cı ildə Kərbəlada taun xəstəliyindən vəfat etmiş, orada da dəfn olunmuşdur. Həyatının ilk illəri Bağdad və onun ətraflarının Səfəvilərə tabe olduğu dövrə düşür. 1534-cü ildə Bağdad və onun ətrafları Türkiyə sultanı Sultan Süleyman Qanuni tərəfindən işğal olunur. Füzuli bu dövrdə türk ziyalılarından, paşalarından hörmət və ehtiram görür, Xəyali bəy, Yəhya bəy kimi türk şairləri ilə görüşür, söhbətlər edir. Bu vaxt türk ziyalılarından bir neçəsi ondan türk dilində bir "Leyli və Məcnun" yazmağı xahiş edir. Bu xahişə əsasən Füzuli 1537-ci ildə "Leyli və Məcnun" poemasını yazır və onu Sultan Süleyman Qanuniyə ithaf edir. Bu vaxtlar Sultan Süleyman Qanuni Füzuliyə ayda 9 axça təqaüd verilməsi ilə bağlı bir

barat təqdim edir. Füzuli bu təqaüdü ala bilmir, bunun təsirilə "Şikayətnamə" və bir çox başqa əsərlərini yazır.

Məhəmməd Füzuli Azərbaycan, fars, ərəb dillərində zəngin bir irs yaratmışdır. Onun Azərbaycanca lirik şerlər divanı, üç dildə qəsidələr divanı, "Bəngü Badə", "Leyli və Məcnun", "Yeddi Cam" poemaları, "Hədəqətüs-süəda", "Rindü Zahid", "Səhhət və Mərəz" kimi nəsr əsərləri, epistolyar bədii nəsrin gözəl örnəkləri olan məktubları Füzuli dühasının nadir inciləridir.

Füzuli lirik və epik janrlarda yazdığı əsərləri ilə zəmanəsini, zəmanənin onun qəlbində, ruhunda oyatdığı ağrı-acıları əks etdirmişdir.

Füzuli hər şeydən əvvəl lirik şairdir, qəlb şairidir. O, lirik şerin qəzəl, qəsidə, qitə, rübai, müxəmməs, mürəbbe, müsəddəs, tərkibbənd, tərcibənd şəkillərində bənzərsiz əsərlər yazmışdır. Bu kitabda oxuculara təqdim edilən əsərlər şairin həmin şəkillərdə ana dilində yazdığı şerlərin müəyyən qismidir.

Ümid edirik ki, bu kitab oxucular üçün qiymətli bir hədiyyə olacaqdır.

***Professor Xəlil Yusifli***



# QƏZƏLLƏR

* * *

Qəd ənarəl-eşqə-lil-üşşaqi minhacəl hüda!
Saliki-rahi-həqiqət eşqə eylər iqtida[1].

Eşqdir ol nəş'eyi-kamil kim, ondandır müdam
Meydə təşviri-hərarət, neydə tə'siri-səda[2].

Vadiyi-vəhdət həqiqətdə məqami-eşqdir
Kim, müşəxxəs olmaz ol vadidə sultandan gəda[3].

Eyləməz xəlvətsərayi-sirri-vəhdət məhrəmi,
Aşiqi mə'şuqdən, mə'şuqi aşiqdən cüda[4].

Ey ki, əhli-eşqə söylərsən: "məlamət tərkin et!"
Söylə kim, mümkünmüdür təğyiri-təqdiri-xuda[5]?

Eşq kilki çəkdi xətt hərfi-vücudi-aşiqə -
Kim, ola sabit həq isbatında nəfyi-maəda[6].

Ey Füzuli, intihasız zövq buldun eşqdən;
Böylədir hər iş ki, həqq adilə qılsan ibtida[7].

---

[1] Eşq aşiqlərin haqq yolunu işıqlandırdı, həqiqət yolunun yolçusu eşqi təqlid edər.

[2] Eşq o kamil nəşədir ki, meydəki istiliyin həyəcanı, neydəki səsin təsiri həmişə ondandır.

[3] Vəhdət vadisi həqiqətdə eşq məqamıdır ki, o vadidə sultanla gəda seçilməz.

[4] Vəhdət sirrinin xəlvət evinin məhrəmi aşiqi məşuqdan və məşuqu aşiqdən ayırmaz.

[5] Ey eşq əhlinə "bu məlamət-danlaq yolunu tərk et" deyən, söylə ki, Allahın qədərini dəyişdirmək mümkündürmü?

[6] Eşq qələmi aşiqin varlıq hərfinin üstündən xətt çəkdi ki, haqqın isbatı üçün özgə nə varsa yoxluğu təsdiq olunsun.

[7] Ey Füzuli eşqdən sonsuz zövq tapdın, haqqın adı ilə başlanan hər iş belədir.

* * *

Yarəb, həmişə lütfünü et rəhnüma mana.
Göstərmə ol təriqi ki, getməz sana, mana[1].

Qət' eylə aşinalığım ondan ki, qeyrdir,
Ancaq öz aşinalərin et aşina mana[2].

Bir yolda sabit et qədəmi-e'tibarimi -
Kim, rəhbəri-şəriət ola müqtəda mana[3].

Yox məndə bir əməl sənə şayəstə, ah, əgər
Ə'malimə görə verə ədlin cəza mana[4].

Xövfi-xətadə müztəribəm, var ümid kim,
Lütfün verə bəşarəti-əfvü əta mana[5].

Mən bilməzəm mənə gərəkin, sən həkimsən,
Mən' eylə, vermə, hər nə gərəkməz sana, mana[6].

Oldur mənə murad ki, olur sənə murad.
Haşa ki, səndən özgə ola müddəa mana[7].

Həbsi-həvadə qoyma Füzulisifət əsir,
Yarəb, hidayət eylə təriqi-fəna mana[8]!

---

[1] Yarəb, həmişə lütfünü mənə yolgöstərən et, sənə getməyən yolu mənə göstərmə.
[2] Özgə olanlardan mənim dostluğumu kəs, məni ancaq öz dostlarınla dost elə.
[3] Etibar addımımı elə bir yolda sabit elə ki, arxasınca getdiyim şəriət rəhbərim olsun.
[4] Məndə sənə layiq bir əməl yoxdur, ədalətin mənə əməllərimə görə cəza versə, vay mənə!
[5] Xəta qorxusu ilə iztirabdayam, ümid var ki, mehribanlığın mənə əfv və bağışlanma xəbəri verər.
[6] Mənə lazım olanı mən bilmərəm, sən həkimsən, sənə gərək olmayanı mənə vermə, qabağını kəs.
[7] Mənim muradım odur ki, o sənin muradındır, haşa səndən özgə mənim bir istəyim ola!
[8] Yarəb, məni Füzuli kimi istəklər həbsxanasında əsir etmə, fəna yolunda mənə yolgöstərən ol!



* * *

Kargər düşməz xədəngi-tə'neyi düşmən mana.
Kəsrəti-peykanın etmişdir dəmirdən tən mana[1].

Eymənəm səngi-məlamətdən kim, alıb çevrəmi,
Oldu zənciri-cünun bir qəl'əyi-ahən mana[2].

Ondanam rüsva ki, seylabi-sirişkim çak edər,
Zəxmi - tiğin qanı geydirdikcə pirahən mana[3].

Dəmbədəm şəm'i-cəmalından münəvvər olmasa,
Ey gözüm nuri, gərəkməz dideyi-rövşən mana[4].

Hiç məskəndə qərarım yoxdurur ol zövqdən -
Kim, qaçan xaki-səri-kuyin ola məskən mana[5].

Başda bir sərvi-səmənbər vəslinin sövdası var,
Sud qılmaz bağiban nəzzareyi-gülşən mana[6].

Ey Füzuli, odlara yansın büsati-səltənət
Yeydir ondan, həq bilir, bir güşeyi-külxan mana[7].

---

[1] Düşmən tənəsinin oxu mənə təsir etməz, sənin peykanlarının çoxluğu mənə dəmirdən bədən düzəltmişdir.
[2] Dövrəmi almış danlaq daşlarından qorxum yoxdur, dəlilik zənciri mənə bir dəmir qala oldu.
[3] Ondan rüsvayam ki, sənin qılıncının vurduğu yaraların qanı mənə köynək geydirdikcə, göz yaşımın seli onu para-para edir.
[4] Ey gözümün işığı, anbaan sənin üzünün şamından işıq almasa, işıqlı gözüm mənə gərək deyildir.
[5] O zövqdən heç bir məskəndə qərar tuta bilmirəm ki, nə vaxt sənin olduğun yerin torpağı mənə məskən olacaq.
[6] Başda bir yasəmən sinəli sərvin vəslinə qovuşmaq sevdası var, ey bağban, gülşənə tamaşa etmək mənə fayda verməz.
[7] Ey Füzuli, səltənət təmtərağı odlara yansın, haqq bilir ki, mənə bir odluq bucaq ondan yaxşıdır.

* * *

Ey mələksima ki, səndən özgə heyrandır sana,
Həqq bilir, insan deməz hər kim ki, insandır sana[1].

Verməyən canın sənə bulmaz həyati-cavidan,
Zindeyi-cavid ona derlər ki, qurbandır sana[2].

Aləmi pərvaneyi-şəm'i-cəmalın qıldı eşq,
Cani-aləmsən, fəda hər ləhzə min candır sana[3].

Aşiqə şövqinlə can vermək ikən müşkül degil,
Çün Məsihi-vəqtsən, can vermək asandır sana[4].

Çıxma yarım gecələr, əğyar tə'nindən saqın,
Sən məhi-övci-məlahətsən, bu nöqsandır sana[5].

Padşahım, zülm edib aşiq sana zalim demiş;
Xubrulardan yaman gəlməz, bu böhtandır sana[6].

Ey Füzuli, xubrulardan təğafüldür yaman,
Gər cəfa həm gəlsə onlardan, bir ehsandır sana[7]!

---

[1] Ey mələk simalı səndən özgə hamı sənə heyrandır, haqq bilir, hər kim ki, insandır sənə insan deməz.

[2] Canını sənə verməyən əbədi həyat tapmaz, əbədi diri ona deyirlər ki, sənə qurbandır.

[3] Eşq dünyanı sənin üzünün şamına pərvanə etdi, dünyanın canısan, hər an sənə min can fəda olur.

[4] Şövqünlə aşiqə can vermək çox çətin deyil, çünki sən zəmanənin İsasısan, sənin üçün can vermək asandır.

[5] Gecələr yarım çıxma, yad tənəsindən çəkin, sən məlahət göyünün ayısan, bu, sənə nöqsandır.

[6] Padşahım, aşiq zülm edib sənə zalım demişdir, gözəlüzlülərdən yaman iş gəlməz, bu sənə böhtandır.

[7] Ey Füzuli, gözəlüzlülərdən xəbərsiz olmaq yamandır, onlardan bir cəfa da gəlsə, bu sənə bir ehsandır.



* * *

Cam içrə mey ki, dairə salmış hübab ona,
Ayinədir ki, əks salır afitab ona[1].

Zahid sual edərsə ki, meydən nədir murad?
Bizdə səfadır, onda küdurət,-cəvab ona[2].

Qan-yaş töküb yanında atəşin kəbab
Mə'şuqə bənzər atəşü aşiq kəbab ona[3].

Eylər könüldə əşk xətin şövqünü füzun,
Oddan çıxar buxar saçıldıqca ab ona[4].

Çeşmin mərizi oldu könül lə'ldən əm et,
Rənci-xumarə düşdü, dəvadır şərab ona[5].

Təklifi-cənnət eyləmə kuyində könlümə
Çün cənnət əhlidir, nə verirsən əzab ona[6]?

Məsduddur Füzuliyə meyxanələr yolu,
Yarəb, hidayət eylə təriqi-səvab ona[7]!

---

[1] Camın içindəki şərabın üzərində köpük bir dairə salmışdır, bu bir aynadır ki, günəş ona əks salır.

[2] Zahid sual etsə ki, şərabdan məqsəd nədir? Onun cavabı budur ki, bizə xatircəmlik, ona kədərdir.

[3] Kabab odun yanında qan-yaş töküb gəzər, məşuq oda bənzəyir, aşiq onun kababına.

[4] Göz yaşı ürəkdə xəttinin şövqünü çox edir, odun üzərinə su saçıldıqca ondan buxar çıxar.

[5] Ürək gözün xəstəsi oldu, ləldən ona əlac et, xumarlıq əziyyətinə düşdü, ona dərman şərabdır.

[6] Məhəlləndə könlümə cənnət təklif etmə, çünki o, cənnət əhlidir, ona niyə əzab verirsən?

[7] Meyxanələrin yolu Füzuliyə bağlıdır, yarəb, ona savab yolunu göstər.

* * *

Dustum, aləm səninçün gər olur düşmən mana,
Qəm degil, zira yetərsən dust ancaq sən mana[1].

Eşqə saldım mən məni, pənd almayıb bir dustdən,
Hiç düşmən eyləməz oni ki, etdim mən mana[2].

Canü tən olduqca, məndən dərdü dağ əskik degil,
Çıxsa can, xak olsa tən, nə can gərək, nə tən mana[3].

Vəsl qədrin bilmədim hicran bəlası çəkmədən,
Zülməti-hicr etdi çox mübhəm işi rövşən mana[4].

Dudü əxkərdir mana sərv ilə gül, ey bağiban,
Neylərəm mən gülşəni, gülşən sana, külxən mana[5].

Qəmzə tiğin çəkdi ol məh, olma qafil, ey könül!
Kim müqərrərdir bu gün ölmək sana, şivən mana[6].

Ey Füzuli, çıxdı can, çıxman təriqi-eşqdən,
Rəhgüzari-əhli-eşq üzrə qılın mədfən mana[7]!

---

[1] Dostum, aləm sənə görə mənimlə düşmən olsa da, qəm deyil, çünki dost kimi mənə ancaq sən bəssən.

[2] Bir dostdan nəsihət almayıb mən məni eşqə saldım, mənim mənə etdiyimi heç bir düşmən etməzdi.

[3] Can və bədən olduqca, məndən dərd və dağ əskik olmaz, can çıxsa, bədən torpaq olsa, nə can lazımdır mənə, nə bədən.

[4] Ayrılıq bəlasını çəkmədən vüsalın qiymətini bilmədim. Ayrılıq zülməti çox gizli işi mənə aydınlaşdırdı.

[5] Ey bağban, sərv ilə gül məndən ötrü tüstü və küldür, mən gülşəni neyləyirəm, gülşən sənin, küllük mənim.

[6] O ay qəmzə qılıncını çəkdi, ey ürək, qafil olma ki, bu gün sənin üçün ölmək, mənim üçün şivən yəqindir.

[7] Ey Füzuli, can çıxdı, eşq yolundan çıxmaram, məni eşq əhli olanların yolu üstündə dəfn edin.



* * *

Kəmali-hüsn veribdir şərabi-nab sana,
Sana həlaldir, ey müğbeçə, şərab sana[1].

Səni mələk görəli yazmaz oldu eşqi günah,
Vəli yazıldı bu üzdən bəsi səvab sana[2].

Ləbin sualına verməz cəvab üşşaqın,
Sual olursa bu səndən, nədir cəvab sana[3]?

Cəza günündə sorulmaz xətalar eylədiyin,
Yetər fəğan ilə mən verdiyim əzab sana[4].

Məni qərarım ilə qoymaz oldun, ey gərdun,
Yeridir ahim ilə versəm inqilab sana[5].

Şüai-cövhəri-tiğindən umma rəhm, ey dil,
Sağınma su verə, ey təşnə, ol sərab sana[6].

Füzuli, başına ol sərv sayə saldı bu gün,
Ülüvvi-rif'ət ilə yetməz afitab sana[7].

---

[1] Ey müğbeçə, saf şərab sənə bitkin bir gözəllik veribdir, sənə şərab halaldır.

[2] Mələk səni görəli eşqi günah yazmaz oldu, ancaq bu üzdən sənə çoxlu savab yazıldı.

[3] Dodağın aşiqlərin sualına (istəyinə) cavab vermir, bu səndən soruşulsa, sənin cavabın nədir?

[4] Cəza günündə xətalar etdiyin soruşulmaz, mənim fəğan ilə sənə verdiyim əzab sənə yetər.

[5] Ey fələk, məni olduğum kimi qoymadın, ahım ilə sənə bir dəyişiklik versəm yeridir.

[6] Ey ürək, onun qılıncının cövhərinin şüasından rəhm gözləmə, ey təşnə, düşünmə ki, o ilğım sənə su versin.

[7] Füzuli, o sərv bu gün sənin başına kölgə saldı, o uca yüksəkliyi ilə günəş də sənə çatmaz.

* * *

Qəm diyarında əcəl peyki güzar etməz mana,
Yox sanıb varım məgər kim, e'tibar etməz mana[1].

Yar cövr etməz mana əğyar tə'lim etmədən,
Billah, əğyar eyləyən ehsanı yar etməz mana[2].

Dağıdır hər ləhzə rəxti-eyşimi ahim yeli,
Qanğı nahəq zülmdür kim, ruzigar etməz mana[3].

Eşq zövqilə xoşam, tərki-nəsihət qıl, rəfiq,
Mən ki, tiryakimizacəm, zəhr kar etməz mana[4].

Çərxdən aşurmadan yadinlə ahi-atəşin,
Qədr edib gərdun şərərdən zər nisar etməz mana[5].

Nəqdi-can taraci-qəmdən saxlamaq düşvardır,
Eşq ta səngi-məlamətdən həsar etməz mana[6].

Yadi-lə'linlə Füzuli gözləyib rahi-ədəm,
Var bir tədbiri, əmma aşikar etməz mana[7].

---

[1] Qəm ölkəsində əcəl qasidi mənə sarı üz tutmaz, yoxsa varımı yox sanıb ki, mənə etibar etmir.
[2] Düşmən öyrətməmiş yar mənə zülm etməz, vallah, düşmənin mənə etdiyi yaxşılığı yar etmir.
[3] Ahımın yeli hər an nəşə varımı dağıdır, hansı nahaq zülm var ki, zəmanə mənə etmir.
[4] Yoldaş, mən eşq zövqü ilə yaxşıyam, öyüd verməyi tərk elə, mən tiryək təbiətliyəm, zəhər mənə təsir etməz.
[5] Səni yad edərək odlu ahlarımı çərxdən aşırmadan fələk mənə qiymət verib qığılcımlardan mənə qızıl saçmaz.
[6] Eşq məzəmmət daşlarından mənə hasar düzəltməyincə can nağdını qəm talanından qorumaq çətindir.
[7] Ləl dodağını yada salıb Füzuli yoxluq yolunu gözləyib, bir tədbiri var, ancaq açıb mənə demir.



* * *

Canımın cövhəri ol lə'li-gühərbarə fəda,
Ömrümün hasili ol şiveyi-rəftarə fəda[1].

Dərd çəkmiş başım ol xali-siyəh qurbanı,
Tab görmüş tənim ol türreyi-tərrarə fəda[2].

Gözlərimdən saçılan qətreyi-əşkim gühəri
Ləblərindən tökülən lö'löi-şəhvarə fəda[3].

Çak sinəmdə olan qanlı ciyər parələri
Məst çeşmində olan qəmzeyi-xunxarə fəda[4].

Parə-parə dili-məcruhi-pərişanımdan
Səri-kuyində olan hər itə bir parə fəda[5].

Canü dil qeydini çəkməkdən özüm qurtardım,
Canı cananəyə etdim, dili dildarə fəda[6].

Ey Füzuli, nola gər saxlar isəm canı əziz,
Vəqt ola kim, ola ol şuxi-sitəmkarə fəda[7].

---

[1] Canımın mayəsi o incisaçan ləl dodağa fəda olsun, ömrümün qazancı o işvəli rəftara fəda olsun.
[2] Dərd çəkmiş başım o qara xalın qurbanı, sınıqlıq görmüş bədənim o oğru qıvrımların (tellərin) fədası olsun.
[3] Gözlərimdən saçılan göz yaşlarımın damcılarının inciləri, dodaqlarından tökülən şahanə incilərə fəda.
[4] Parçalanmış sinəmdə olan qanlı ciyər parçaları sənin sərxoş gözündə olan qaniçən qəmzələrə fəda.
[5] Yaralanıb parça-parça olmuş dağınıq ürəyimdən sənin olduğun yerin hər itinə bir parça fəda.
[6] Can və ürək qeydini çəkməkdən özümü qurtardım, canı canana, ürəyi dildara fəda etdim.
[7] Ey, Füzuli, əgər canı əziz saxlasam, nə olar, vaxt ola ki, o zülümkar şuxa fəda olar.

* * *

Qəmdən öldüm, demədim hali-dili-zar sana,
Ey güli-tazə, rəva görmədim azar sana[1].

İç meyi-nab ki, bağrından edər cümlə kabab,
Atəşi-eşq ilə üşşaqi-cigərxar sana[2].

Meyi-gülgunda degil nərgisi-məstin əksi,
Qədəh olmuş, göz açıb, aşiqi-didar sana[3].

Arizin gül-gül edibdir meyi-gülgun tabi,
Vəh ki, bir güldən açılmış neçə gülzar sana[4].

Bağə seyr et bu rüxü lə'l ilə kim, qönçəvü gül
Göstərə xuni-dilü dideyi-xunbar sana[5].

Der idim qamətinə sərv, vəli özgə imiş
Hərəkatü rəvişü şivəvü rəftar sana[6].

Əgilib tərfi-binaguşinə dərdi-dilimi
Ya o taqın deyə, ya türreyi-dəstar sana[7].

Mən giriftarinəmü fitnədən olman azad,
Hiç kim olmasın, ey şux, giriftar sana[8].

Lə'li-nabin həvəsi bağrımı qan eylədiyin,
Ah kim, qanlı yaşım qılmadı izhar sana[9].

Ey Füzuli, fələkin var səninlə nəzəri
Kim, qəmü möhnətini verdi nə kim var sana[10].

---

[1] Qəmdən öldüm, ağlar ürəyimin halını sənə demədim, ey təzə gül, səni incitməyi rəva görmədim.
[2] Saf şərabı iç ki, ciyərini yeyən aşiqlər bütün kababı eşq odu ilə öz bağırlarından edərlər.
[3] Gül rəngli şərabdakı sərxoş nərgisin (gözlərin) əksi deyil, sənin didarına aşıq olan qədəh olub göz açmışdır.
[4] Gül rəngli şərabın parıltısı üzünü gül-gül edibdir, bəh-bəh bir güldən gör sənə neçə gülzar açılmışdır.
[5] Bu üz və ləl dodaqla bağa seyrə çıx ki, qönçə və gül ürəyinin qanını və qansaçan gözünü sənə göstərsin.
[6] Boyuna sərv deyirdim, ancaq sənin hərəkətlərin, yerişin, işvən, rəftarın özgə imiş.
[7] Qulağına sarı əyilib mənim ürəyimin dərdini sənə ya qaşının tağı deyə, ya çalmanın saçağı.
[8] Mən sənin əsirinəm, fitnədən azad olmuram, ey şux, heç kim sənə əsir olmasın.
[9] Saf ləlinin həvəsinin bağrımı qan etdiyini, ah ki, qanlı yaşım sənə bildirmədi.
[10] Ey Füzuli, fələyin sənə nəzəri var imiş ki, bütün qəm və möhnətini sənə verdi.



* * *

Qəmzəsin sevdin, könül, canın gərəkməzmi sana?
Tiğə urdun, cismi-üryanın gərəkməzmi sana[1]?

Atəşin ahimlə eylərsən mənə təklifi-bağ,
Bağiban, gülbərgi-xəndanın gərəkməzmi sana[2]?

Yelə vermə dağıdıb hər yan, ayaqlardan götür,
Ey pəri, zülfi-pərişanın, gərəkməzmi sana[3]?

Ey kəmanəbrü, rəqibə vermə qəmzəndən nəsib,
Ox atarsan daşə, peykanın, gərəkməzmi sana[4]?

Yandırıb canım, cahansuz etmə bərqi-ahimi,
Asiman, xurşidi-rəxşanın gərəkməzmi sana[5]?

Küfri-zülfündən məni mən' eyləmək layiqmidir,
Sufi, insaf eylə, imanın gərəkməzmi sana[6]?

Tutalım kim, əşk seylabinə yoxdur e'tibar,
Ey Füzuli, çeşmi-giryanın gərəkməzmi sana[7]?

---

[1] Könül, qəmzəsini sevdin, canın sənə gərək deyilmi? Qılınca çarpdın, çılpaq bədənin sənə gərək deyilmi?
[2] Odlu ahımla mənə bağ təklifi edirsən, ey bağban, açılmış gül yarpaqların sənə gərək deyilmi.
[3] Ey pəri, yelə verib hər yana dağıtma, ayaqlardan götür, dağınıq zülfün sənə gərək deyilmi?
[4] Ey yay qaşlı, qəmzəndən rəqibə pay vermə, daşa ox atırsan, peykannı sənə gərək deyilmi?
[5] Asiman, canımı yandırıb ahımın şimşəyini dünya yandıran eləmə, parlaq günəşin sənə gərək deyilmi?
[6] Sufi, saçın küfründən məni çəkindirmək layiqdirmi, insaf elə, imanın sənə gərək deyilmi?
[7] Tutalım ki, göz yaşı selinə etibar yoxdur, ey Füzuli, ağlar gözün sənə gərək deyilmi?

* * *

Gərçi, ey dil, yar üçün üz verdi yüz möhnət sana,
Zərrəcə qət'i-məhəbbət etmədin, rəhmət sana[1]!

Saxlama nəqdi-qəmi-eşqini, ey can, zahir et
Kim, verim həbsi-bədəndən çıxmağa rüsxət sana[2].

Çareyi-behbudimi sordum, müalicdən, dedi:
Dərd dərdi-eşqdir, mümkün degil sihhət sana[3].

Tutaram yarın qiyamətdə, həbibim, damənin,
Məstsən qəflət şərabından, bu gün möhlət sana[4].

Eşq əhlin atəşi-hicranə eylərsən kəbab,
Dönə-dönə imtəhan etdim, budur adət sana[5].

İncidir naləm səni, vəh nola gər bir tiğ ilə,
Çeşmi-cəlladın edə ehsan mənə, minnət sana[6].

Səndə dün gördüm, Füzuli, meyli-mehrabü nəmaz,
Tərki-eşq etməkmi istərsən, nədir niyyət sana[7]?

---

[1] Ey ürək, yar yolunda sənə yüz möhnət üz versə də, zərrəcə məhəbbətini kəsmədin, sənə rəhmət olsun.
[2] Ey can, eşq qəminin varını, saxlama, aşkara çıxar ki, bədən dustaqlığından çıxmağa sənə icazə verim.
[3] Sağalmağımın çarəsini həkimdən soruşdum, dedi: "Dərd eşq dərdidir, sənə sağalmaq mümkün deyil".
[4] Ey həbibim, qiyamətdə yarın ətəyindən tutaram, qəflət şərabından sərxoşsan, bu gün sənə möhlət olsun.
[5] Eşq əhlini ayrılıq odunda kabab edirsən, dönə-dönə yoxladım, sənin adətin budur.
[6] Naləm səni incidir, ancaq nola əgər bir qılıncla cəllad gözün mənə ehsan, sənə minnət edə.
[7] Füzuli, səndə dünən mehrab və namaz meyli gördüm, eşqi tərk etməkmi istəyirsən, sənin niyyətin nədir?!



* * *

Ey bivəfa ki, adət olubdur cəfa sana,
Billah, cəfadır, olma demək bivəfa sana[1].

Gəh nazü, gəh kirişməvü gəh işvədir işin,
Canın sevənlər olmasa yey aşina sana[2].

Min can olaydı kaş məni-dilşikəstədə,
Ta hər birilə bir gəz olaydım fəda sana[3].

Eşqində mübtəlalığımı eyb edən sanır
Kim, olmaq ixtiyar ilədir mübtəla sana[4].

Ey dil ki, hicrə doymayıb, istərsən ol məhi,
Şükr et bu halə, yoxsa gələr bir bəla sana[5].

Ey gül, qəmində əşk rüxi-zərdim etdi al,
Bildirdi ola surəti-halım səba sana[6].

Düşməz çü şah qürbi, Füzuli, gədalərə,
Ol şəhdən iltifat nə nisbət mana, sana[7].

---

[1] Ey vəfasız ki, cəfa etmək sənə adət olubdur, Allah haqqı, sənə vəfasız olma demək cəfadır.
[2] İşin gah naz, gah qəmzə, gah da işvədir, canını sevənlər səninlə dost olmasalar yaxşıdır.
[3] Kaş mən qəlbi qırıqda min can olaydı ki, hər biri ilə bir dəfə sənə fəda olaydım.
[4] Eşqində vurğunluğumu eyib sayan elə düşünür ki, sənə mübtəla olmaq ixtiyar ilədir.
[5] Ey ürək, ayrılığa dözməyib o ayı istəyirsən, bu vəziyyətə şükr et, yoxsa sənə bir bəla gələr.
[6] Ey gül, sənin qəmində göz yaşı sarı bənizimi qızartdı, yoxsa səba yeli halımın necə olduğunu sənə bildirdi.
[7] Füzuli, şahla yaxın olmaq gədalara düşmürsə, o şahdan mənə, sənə nə iltifat olar?

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

* * *

Hər zaman mənzur bir şuxi-sitəmgərdir mana.
Qanda olsam bir bəla həqdən müqəddərdir mana[1].

Ol xəmi-əbruyə qılsam səcdə hər saət nola,
Qiblə ilə ol xəmi-əbru bərabərdir mana[2].

Qəm deyil, cismimdə gər səngi-məlamət zəxmi var,
Şəhneyi-bazari-sevdayəm, bu ziyvərdir mana[3].

Gözdə xunaludə peykanın xəyalilə xoşam,
Hər biri, guya ki, bir bərgi-güli-tərdir mana[4].

Zəxmlərdən min ağız açdım ədayi-şükrə kim,
Hər oxun bir ne'məti-qeyri-mükərrərdir mana[5].

Əql irşadilə bulmaq kam mümkündür, vəli,
Dami-rah ol həlqeyi-zülfi-müənbərdir mana[6].

Əxtəri-bəxtim vəbalin gör ki, ol məhdən gələn
Mehrlərdir özgəyə,cövrü cəfalərdir mana[7].

Ey Füzuli, mənzili-məqsudə yetsəm nə əcəb,
Xidməti-piri-müğan irşadı rəhbərdir mana[8].

---

[1] Hər zaman bir zalım şux mənim məqsədimdir, harda olsam Allahdan bir bəla mənə hazırdır.

[2] O qaşın əyrisinə hər saat səcdə etsəm nə olar, o qaşın əyrisi ilə qiblə mənə bərabərdir.

[3] Əgər bədənimdə məzəmmət daşlarının yarası varsa, qəm deyil, mən sevda bazarının darğasıyam, bu mənə bəzəkdir.

[4] Gözümdəki qana bulaşmış peykanların xəyalı ilə şadam, hər biri, elə bil, mənə bir təzə-tər gül yarpağıdır.

[5] Şükr eləmək üçün yaralardan min ağız açdım ki, hər oxun mənim üçün təkrar olunmaz bir nemətdir.

[6] Ağlın yolgöstəriciliyi ilə murada çatmaq mümkündür, ancaq o ətirli saçın həlqəsi yolumun üstündə bir tələdir.

[7] Bəxt ulduzumun xətasına bax ki, o aydan özgəyə gələn sevgilərdir, mənə gələn cövrlər, cəfalardır.

[8] Ey Füzuli, məqsəd mənzilinə yetsəm, qəribə olmaz, çünki muğlar mürşidinə xidmət mənim yolgöstərən rəhbərimdir.



* * *

Mənim tək hiç kim zarü pərişan olmasın, yarəb!
Əsiri-dərdi-eşqü daği-hicran olmasın, yarəb[1]!

Dəmadəm cövrlərdir çəkdiyim birəhm bütlərdən,
Bu kafərlər əsiri bir müsəlman olmasın, yarəb[2]!

Görüb əndişeyi-qətlimdə ol mahi, budur virdim
Ki, bu əndişədən ol məh peşiman olmasın, yarəb[3]!

Çıxarmaq etsələr təndən, çəkib peykanın ol sərvin
Çıxan olsun dili-məcruh, peykan olmasın, yarəb[4]!

Cəfavü cövr ilə mö'tadəm, onlarsız nolur halım.
Cəfasinə hədü cövrinə payan olmasın, yarəb[5]!

Demən kim, ədli yox, ya zülmü çox hər hal ilə olsa,
Könül təxtinə ondan qeyri sultan olmasın, yarəb[6]!

Füzuli buldu gənci-afiyət meyxanə küncündə,
Mübarək mülkdür, ol mülk viran olmasın, yarəb[7]!

---

[1] Yarəb, heç kim mənim kimi ağlar və pərişan olmasın, eşq dərdinin və ayrılıq dağının əsiri olmasın.

[2] Anbaan rəhimsiz bütlərdən çəkdiyim cövrlərdir, yarəb, heç bir müsəlman bu kafirlərin əsiri olmasın.

[3] O ayı məni qətl etmək fikrində görüb dilimdə əzbərim budur ki, yarəb, fikirdən o ay peşman olmasın.

[4] O sərvin peykanını çəkib bədənimdən çıxarmaq istəsələr, çıxan yaralı ürəyim olsun, yarəb, peykan olmasın.

[5] Cəfa və cövrə adət etmişəm, onlarsız halım necə olar, yarəb, cəfasının həddi, cövrünün sonu olmasın.

[6] Demirəm ki, ədaləti yoxdur, ya zülmü çoxdur, hər hal ilə olsa, yarəb, könül taxtına ondan özgə bir sultan olmasın.

[7] Füzuli meyxanə küncündə sağlamlıq xəzinəsi tapdı, mübarək mülkdür, yarəb, o mülk viran olmasın.

* * *

Sübh salıb mah rüxündən niqab,
Çıx ki, təmaşayə çıxa afitab[1].

Riştəyi-canım yetər, et bir gireh,
Salma səri-zülfi-səmənsayə tab[2].

Məst çıxıb, salma nəzər hər yana,
Görmə rəva kim, ola aləm xərab[3].

Kəsmə nəzər canibi-üşşaqdən,
Naleyi-dilsuzdən et ictinab[4].

Şamlər əncüm sayıram sübhə tək,
Ey şəbi-hicrin, mənə ruzi-hesab[5].

Duzəxə girməz sitəmindən yanan,
Qabili-cənnət degil əhli-əzab[6].

Saldı ayaqdan qəmi-aləm məni,
Ver mənə qəm dəf'inə, saqi, şərab[7].

Rəhm qıl üftadələrin halına,
Hiç gərəkməzmi sənə bir səvab[8]?

Yar sual etsə ki, halın nədir,
Xəstə Füzuli, nə verərsən cəvab[9]?

[1] Sübh ay üzündən örtüyü salıb çıx ki, günəş tamaşaya çıxsın.
[2] Canımın sapı yetər, bir düyün et, yasəmən ətirli saçının ucuna qıvrım salma.
[3] Sərxoş çıxıb hər yana nəzər salma, rəva görmə ki, dünya viran ola.
[4] Aşiqlər tərəfdən nəzərini kəsmə, ürək yandıran nalədən çəkin.
[5] Ey ayrılıq gecəsi mənə qiyamət günü olan, gecələr sübhə kimi ulduz sayıram.
[6] Sənin zülmündən yanan cəhənnəmə girməz, əzab əhli olanlar cənnətə yararlı deyillər.
[7] Dünyanın qəmi məni ayaqdan saldı, qəmi dəf etmək üçün, saqi, mənə şərab ver.
[8] Düşkünlərin halına rəhm elə, sənə heç bir savab gərək deyilmi?
[9] Yar sual etsə ki, vəziyyətin necədir, xəstə Füzuli nə cavab verərsən?!



* * *

Qılsa vəslin şamımı sübhə bərabər yox əcəb;
Rəsmdir fəsli-bahar olmaq bərabər ruzü şəb[1].

Gün ki, sayən düşdüyü yerdən durar, bir vəchi var,
Gəlsə aliqədrlər fəqr əhli durmaqdır ədəb[2].

Olmadan meyxaneyi-eşqində məsti-cami-zövq,
Düzmədi bəzmi-fələkdə Zöhrə qanuni-tərəb[3].

Cənnəti-vəslindir ol məqsəd ki, iman əhlinə
Qılsa həq ruzi cəhənnəm atəşi oldur səbəb[4].

Qaliba məqsəd visalındır ki, dün-gün durmayıb,
Çərx sərgərdan gəzər, bilməz nədir rəncü təəb[5].

Bəsteyi-zənciri-zülfündür nəsimi-tərmizac,
Təşneyi-cami-visalındır mühiti-xüşkləb[6].

Qılma feyzi-ne'məti-vəslin Füzulidən diriğ,
Yoxdur özgə məqsədi, səndən səni eylər tələb[7].

[1] Vüsalın axşamımı sübhə bərabər etsə, bu təəccüblü deyildir, bahar fəslində gecə ilə gündüzün bərabər olması qaydadır.
[2] Günəş sənin kölgən düşən yerdən durar, bir səbəbi var; uca qədirli adamlar gələndə yoxsul adamların ayağa qalxması ədəbdir.
[3] Sənin eşq meyxanəndə zövq camından məst olmadan Zöhrə göylərin məclisində şadlıq qanununu düzmədi.
[4] Sənin vüsalının cənnəti o məqsəddir ki, Allah iman sahiblərinə cəhənnəm atəşini ruzi etsə, səbəb odur.
[5] Bəlkə məqsəd vüsalındır ki, çərx gecə-gündüz durmayıb sərgərdan gəzir, yorğunluq, məşəqqət nə olduğunu bilmir.
[6] Nəmli sənin zəncir saçına bağlıdır, dodağı qurumuş ümman sənin vüsal camının təşnəsidir.
[7] Vüsal nemətinin feyzini Füzulidən əsirgəmə, özgə məqsədi yoxdur, səndən səni istəyir.

* * *

Kuhkən Şirinə öz nəqşin çəkib vermiş firib,
Gör nə cahildir, yonar daşdan öziçün bir rəqib[1].

Qaşların yayı bir ox lütf eyləmiş hər aşiqə,
Mən həm ondan eylərəm bir ox təmənna, ya nəsib[2].

Tutiyayi-xaki-payin feyzinə yol bulmasam,
Nuri-çeşmim, eyb qılma, kor olur derlər qərib[3].

Müztəribdir çareyi-dərdimdə, vəh kim bilməyib,
Bir dəvasız dərdə uğratmış özün miskin təbib[4].

Bərqi-ahimdən evim hər guşə bulmuş rəxnələr,
Gəl gör, ey gül, kim, giriftari-qəfəsdir əndəlib[5].

Ey mənə səbr et deyən, hali-dilimdən bixəbər,
Eşq olan yerdə nədir aram, ya neylər şəkib[6]?

Ey Füzuli, incimə səndən təğafül qılsa yar,
Rəsmidir kim, göstərə əhbabə istiğna həbib[7].

---

[1] Dağçapan Şirinə öz nəqşini çəkib hiylə işlətmişdir, gör nə cahildir daşdan özü üçün bir rəqib yonur.
[2] Qaşlarının yayı hər aşiqə bir ox lütf etmişdir, mən də ondan bir ox təmənna edirəm, ya qismət!
[3] Ayaq tozunun tutiya feyzinə yol tapmasam, ey gözümün işığı, eyib tutma, deyirlər qərib kor olar.
[4] Dərdimin çarəsi üçün iztirab içindədir, bəh-bəh, bilməyib yazıq təbib (həkim) özünü bir davasız dərdə calmışdır.
[5] Ahımın ildırımından evimin hər bucağında dağılmalar var, ey gül, gəl gör ki, bülbül qəfəsdə əsirdir.
[6] Ey mənə səbr et deyən, ürəyimin halından xəbərsiz, eşq olan yerdə aram olmaq nədir, ya səbr neyləyər?!
[7] Ey Füzuli, yar səndən xəbərsiz olsa, incimə, qaydadır, dost dosta etinasızlıq göstərər.



* * *

Ol ki, hər saət gülərdi çeşmi-giryanım görüb,
Ağlar oldu halıma birəhm cananım görüb[1].

Eyləyən tə'yini-əczayi-müdava dərdimə,
Tərk edib, cəm etmədi hali-pərişanım görüb[2].

Lalərüxlər köksümün çakinə qılmazlar nəzər,
Hiç bir rəhm eyləməzlər daği-pinhanım görüb[3].

Tut gözün, ey dudi-dil, çərxin ki, dövrin tərk edib,
Qalmasın heyrətdə çeşmi-gövhərəfşanım görüb[4].

Pərtövi-xurşid sanmın yerdə, kim dövri-fələk,
Yerə vurmuş afitabın mahi-tabanım görüb[5].

Suda əksi-sərv sanmın, kim qoparıb, bağiban,
Suyə salmış sərvini, sərvi-xuramanım görüb[6].

Ey Füzuli, bil ki, ol gül arizin görmüş degil,
Kim ki, tə'n eylər mənim çaki-giribanım görüb[7].

---

[1] O adam ki, hər saat ağlar gözümü görüb gülərdi, rəhmsiz sevgilimi görüb halıma ağlamalı oldu.
[2] Dərdimə sağalmaq üçün dərmanlar təyin eyləyən məni tərk etdi, pərişan halımı cəm etmədi.
[3] Laləüzlülər mənim sinəmin yarasına nəzər salmazlar, gizli dağımı görüb heç bir rəhm eləməzlər.
[4] Ey ürəyimin tüstüsü, çərxin gözünü tut ki, dövr etməyini buraxıb, incisaçan gözümü görərək heyrətdə qalmasın.
[5] Yerdəki işığı günəşin işığı hesab etməyin, çünki fələyin dövranı parlaq ayımı görüb günəşini yerə vurmuşdur.
[6] Suda sərvin əksi olduğunu düşünməyin, bağban yeriyən sərvimi görüb sərvini qoparıb suya salmışdır.
[7] Ey Füzuli, bil ki, hər kim mənim parçalanmış yaxamı görüb tənə eyləyir, o gülün üzünü görməmişdir.

* * *

Ruzigarım buldu dövrani-fələkdən inqilab,
Qan içər oldum, əyağın çəkdi bəzmimdən şərab[1].

Şö'leyi-ah ilə yandırdım dili-sərgəşteyi,
Bir od oldum, cizginən çevrəmdə olmazmı kəbab[2]?

Lə'lin ilə badə bəhs etmiş, zəhi gümrahlıq,
Oldu vacib eyləmək ol biədəbdən ictinab[3].

Verməz oldu yol visalə piçi-zülfün, ah, kim,
Rişteyi-tədbirdən dövrani-kəcrov açdı tab[4].

Olmadı ol mahə rövşən yandığım hicran günü,
Yandığın şəb ta səhər şəm'in nə bilsin afitab[5].

Göz ki, peykanin qapub, göydən saçar hər yan sirişk,
Bir sədəfdir, qətreyi-barani eylər dürri-nab[6].

Oldu əbri-dudi-ahim pərdeyi-rüxsari-mah,
Ah kim, almaz cəmalından hənuz ol məh niqab[7].

Kəsmədi məndən səri-kuyində azarın rəqib,
Ey Füzuli, nişə cənnət içrə yox, derlər əzab[8].

---

[1] Fələyin dövranı ilə rüzgarım dəyişdi, qan içməli oldum, şərab məclisimdən ayağını çəkdi.
[2] Ahımın şöləsi ilə çaşqın ürəyimi yandırdım, bir od oldum, dövrəmdə dolanan kabab olmazmı?
[3] Şərab ləl dodağınla bəhs etmişdir, əcəb yol azmaqdır, o ədəbsizdən üz çevirmək vacib oldu.
[4] Saçının qıvrımları vüsala yol verməz oldu, ah bu əyri dövran tədbir ipindən düyünü açdı.
[5] Ayrılıq günü yandığım o aya aydın olmadı, axşamdan səhərə qədər şamın yandığını günəş nə bilsin?
[6] Göz peykanını qapıb göydən hər yana göz yaşı saçar, o, bir sədəfdir yağış damcısını saf inci edir.
[7] Ahımın tüstüsünün buludu ayın üzünün pərdəsi oldu, ah, o ay hələ üzündən örtüyü almır.
[8] Yarın olduğu yerdə rəqib məni incitməyini kəsmədi, ey Füzuli, nə üçün cənnətdə əzab yoxdur deyirlər?



* * *

Dərdi-eşqim dəf'inə zəhmət çəkər daim təbib,
Şükr kim, olmuş ona zəhmət, mənə rahət nəsib[1].

Bir zəbandır şərhi-qəm təqririnə hər bərgi-gül,
Eyləməz bihudə gül gördükdə əfğan əndəlib[2].

Bilsə zövqüm vəsldən firqətdə əfzun olduğun,
Vəsldən mən'im rəva görməzdi rəşkindən rəqib[3].

Tə'ni-qəflətdir pəritəl'ətlərə izhari-hal,
Sanma kim, əhbab halından olur qafil həbib[4].

Ah, bilmən neyləyim, qurtulmaq olmaz qeyddən,
Mən hərifi-sadədil, xüban cəmali dilfirib[5].

Şəm' qürbilə təfaxür qılma, ey pərvanə, kim,
Xirməni-ömrün göyər bərqi-fənadən ənqərib[6].

Nola ağlarsa Füzuli rövzeyi-kuyin anıb,
Lacərəm giryan olur qılğac vətən yadın qərib[7].

---

[1] Eşq dərdimi yox etmək üçün daim təbib zəhmət çəkir, şükür olsun ki, ona zəhmət, mənə rahatlıq qismət olub.
[2] Hər gül yarpağı qəmin şərhini yazmaq üçün bir dildir, gülü gördükdə bülbül boş yerə əfğan etməz.
[3] Ayrılıqda zövqümün vüsaldan daha artıq olduğunu bilsəydi, rəqib paxıllığından onun vüsalını qadağan etməyi rəva görməzdi.
[4] Pəriüzlülərə vəziyyəti danışmaq qəflət danlağıdır, sanma ki, sevgili sevdiklərinin halından xəbərsiz olsun.
[5] Ah, bilmirəm neyləyim, bağlılıqdan qurtulmaq olmur, mən sadədil bir həmdəm, gözəllərin camalı ürək aldadan.
[6] Ey pərvanə, şama yaxın olmaqla öyünmə, ömür xərmənin yoxduq ildırımından ən yaxın vaxtda yanar.
[7] Sənin kuyinin cənnətini xatırlayıb Füzuli ağlayarsa, təəccüblü nə var, qərib vətənini yadına salanda, əlbəttə, ağlayar.

* * *

Payibənd oldum səri-zülfi-pərişanın görüb,
Nitqdən düşdüm ləbi-lə'li-dürəfşanın görüb[1].

Oda yaxdım şəm'vəş canım baxıb rüxsarına,
Çərxə çəkdim dudi-dil sərvi-xuramanın görüb[2].

Gəzdirər hər yan gözüm əşk içrə bağrım parəsin,
Xəl' əti' gülgun ilə rəxş üzrə cövlanın görüb[3].

Bir zaman keçməz ki, dil tiğindən olmaz çak-çak,
Açılır hər dəm tutulmuş könlüm ehsanın görüb[4].

Könlümü tənhalıq eylərdi pərişan sinədə,
Olmasaydı cəm hər yanında peykanın görüb[5].

Bəndü zindani-qəmü möhnətdən olmuşdum xilas,
Ah kim, düşdüm yenə zülfü zənəxdanın görüb[6].

Ey Füzuli, bunca kim tutdun nihan hali-dilin,
Aqibət fəhm etdi el çaki-giribanın görüb[7].

---

[1] Sənin dağınıq saçının ucunu görüb ayağım bəndə düşdü, incisaçan ləl dodağını görüb danışmaqdan qaldım.

[2] Üzünə baxıb canımı şam kimi oda yaxdım, xuraman sərv boyunu görüb ürəyimin tüstüsünü çərxə çəkdim.

[3] Gül rəngli xələtdə at belində gəzdiyini görüb, gözüm göz içində bağrımın parçasını hər yana gəzdirir.

[4] Bir zaman keçməz ki, ürək onun qılıncından para-para olmasın, tutulmuş könlüm hər an onun ehsanını görüb açılır.

[5] Hər yanında peykanını görüb cəm olmasaydı, tənhalıq könlümü sinədə pərişan etməzdi.

[6] Qəm və möhnət əsirliyindən və zindandan xilas olmuşdum, ah, yenə saçını və çənənin çuxurunu görüb düşdüm.

[7] Ey Füzuli, ürək dərdini bu qədər ki, gizli tutdun, axırda el parçalanmış yaxanı görüb anladı.



* * *

Qeyrə eylər bisəbəb min iltifat ol nuş-ləb.
İltifat etməz mənə mütləq, nədir bilmən səbəb[1]?

Cövr olur adət qəzəb vəqti, nə adətdir bu kim,
Cövrün az eylər mənə ol tündxu qılğac qəzəb[2].

Nola qəmzən fikri düşdisə dili-suzanimə,
Zalimin gər olsa atəş mənzili, olmaz əcəb[3].

Dəmbədəm gər düşsə gözdən dürri-əşkim, vəchi var,
Yaş uşaqlardır yetim, onlarda yox rəsmi-ədəb[4].

Cövri könlümdür çəkən, gözdür görən rüxsarını,
Allah, Allah, kam alan kimdir, çəkən kimdir təəb[5].

Yar bidad eyləməz üşşaq fəryad etmədən,
Hər necə ruzi müqəddər olsa, vacibdir tələb[6].

Mütrib, ağlatma surudinlə Füzuli xəstəni,
Seyli-əşkindən saqın, qopmaya bünyadi-tərəb[7].

---

[1] O şirin dodaqlı özgələrə səbəbsiz min mehribanlıq edir, mənə mütləq iltifat etmir, bilmirəm səbəb nədir.

[2] Qəzəb vaxtı zülm eləmək adət olur, bu nə adətdir ki, o tünd xasiyyətli qəzəblənən vaxt mənə zülmünü az edir.

[3] Qəmzənin fikri yanan ürəyimə düşdüsə, nə olar, zalımın mənzili əgər od olsa, qəribə olmaz.

[4] Anbaan əgər gözdən göz yaşımın inciləri düşsə, səbəbi var, kiçik yetim uşaqlardır, onlarda ədəb qaydası yoxdur.

[5] Zülmü çəkən könlümdür, yanağını görən gözdür, Allah, Allah, gör kam alan kimdir, zəhmət çəkən kim.

[6] Aşiqlər fəryad etmədən yar zülm etməz, qismətdə nə yazılıbsa, onu istəmək vacibdir.

[7] Mütrüb, nəğmənlə xəstə Füzulini ağlatma, göz yaşımın selindən çəkin, şadlığın əsası qopmasın.

* * *

Əksi-rüxsarın ilə oldu müzəyyən mir'at,
Bədəni-mürdəyə feyzi-nəzərin verdi həyat[1].

Bənzədərdim qədi-mövzuninə fil-cümlə əgər,
Can içində əlif etsəydi qəbuli-hərəkat[2].

Xət bu məzmun ilədir tərfi-zənəxdanında
Ki, bu zindanın əsirinə yox ümmidi-nəcat[3].

Kakilin qıldı müqərrər mənə sərgəştəliyi,
Deməsin kimsə ki, var gərdişi-gərdunə səbat[4].

Qəmzə peykanin edər aşiqə çeşmin sədəqə,
Öylə kim, mərdümi-mün'im verə möhtacə zəkat[5].

Afərin cövhəri-məqbulinə kim, aləmdə
Mümkin olmaz bu sifat ilə ki, sənsən bir zat[6].

Ey Füzuli, vərə'ü zöhd ilə mö'tad oldun,
Bilmədin halını, bihudə keçirdin ovqat[7].

[1] Yanağının əksi ilə güzgü ziynətləndi, baxışının feyzi ölü bədənə həyat verdi.
[2] Can içində əlif hərəkət qəbul etsəydi, onu büsbütün mövzun boyuna bənzədərdim.
[3] Zənəxdanının bir tərəfində yazılan xətt bu məzmundadır ki, bu zindanın əsirinə xilas olmaq ümidi yoxdur.
[4] Kakilin mənim heyranlığımı sabitləşdirdi, kimsə deməsin ki, fələyin hərəkətində sabitlik yoxdur.
[5] Gözün aşiqə qəmzə peykanını sədəqə edər, necə ki, varlı adam möhtaca zəkat verər.
[6] Afərin o məqbul cövhərinə ki, sənin kimi sifətləri olan bir zat dünyada mümkün deyil.
[7] Ey Füzuli, zöhdə və vərəyə adət etdin, halını bilmədin, vaxtını boş keçirdin.



* * *

Ey əsiri-dami-qəm, bir güşeyi-meyxanə tut!
Tutma zöhhadın müxalif pəndini, peymanə tut[1]!

Dişlədimsə lə'lin, ey qanım tökən, qəhr eyləmə,
Tut ki, qan etdim, ədalət eylə, qanı qanə tut[2]!

Cizginirkən başına şəm'i-rüxündən canımı,
Mən' qılma, anı həm ol şəm'ə bir pərvanə tut[4]!

Gər sənə əfğanimi bihudə dersə müddəi,
Ol sözə tutma qulaq, mən çəkdiyim əfğanə tut[5]!

Tutmazam zənciri-zülfü tərkin, ey naseh, məni
Xah bir aqil xəyal et, xah bir divanə tut[6].

Ey olub sultan, deyən dünyada məndən qeyri yox,
Sən səni bir cüğd bil, dünyanı bir viranə tut[6].

Ey Füzuli, dəhr zalinin firibindən saqın,
Olma qafil, ər kimi təprən, işin mərdanə tut[7].

[1] Ey qəm tələsinin əsiri, bir meyxana bucağı tut, zahidlərin müxalif öyüdünü tutma, piyalə tut.
[2] Ey qanımı tökən, ləl dodağını dişlədimsə, qəhr eləmə, elə düşün ki, qan etdim, ədalət elə, qanı qana tut.
[3] Başına dolanarkən üzünün şamından canımı ayırma, onu da o şama bir pərvanə tut.
[4] Əgər düşmən mənim əfğanımı bihudə deyirsə, o sözə qulaq tutma, mən çəkdiyim əfğana tut.
[5] Onun zəncir zülfünü tərk etmərəm, ey öyüdçü, sən məni istər bir ağıllı xəyal elə, istər bir divanə tut.
[6] Ey sultan olub dünyada məndən özgəsi yoxdur deyən, sən səni bir bayquş bil, dünyanı bir viranə tut.
[7] Ey Füzuli, dünya qarısının hiyləsindən çəkin, qafil olma, kişi kimi tərpən, işini mərdanə tut.

* * *

Mürdə cismim iltifatından bulur hərdəm həyat,
Ölərəm gər qılmasan hərdəm mənə bir iltifat[1].

Yazə bilməz ləblərin vəsfin təmami-ömrdə,
Abi-heyvan versə Xizrə kilkü zülmətdən dəvat[2].

Mən fəqirəm, sən qəni, vergil zəkati-hüsn kim,
Şər içində həm mənədir, həm sənə vacib zəkat[3].

Görməyincə hüsnünü imanə gəlməz aşiqin,
Yüz peyəmbər cəm olub, göstərsələr min mö'cüzat[4].

Məzhəri-asari-qüdrətdir vücudi-kamilin,
Feyzi-fitrətdən qərəz sənsən, tüfeylin kainat[5].

Cövhəri-zatindədir məcmui-övsafi-kəmal,
Bu sifat ilə ki, sənsən, qandadır bir pak zat[6]?

Eşqə ta düşdüm Füzuli, çəkmədim dünya qəmin
Bil ki, qeydi-eşq imiş dami-təəllüqdən nəcat[7].

---

[1] Ölü bədənim iltifatından hər an həyat tapır, əgər hər an mənə bir iltifat göstərməsən ölərəm.

[2] Xızra dirilik suyu qələm, zülmətdən mürəkkəb versə, bütün ömründə dodağının tərifini yaza bilməz.

[3] Mən yoxsulam, sən dövlətli, gözəllik zəkatı ver ki, şəriətdə həm mənə, həm sənə zəkat vacibdir.

[4] Yüz peyğəmbər toplanıb min möcüzə göstərsələr də, gözəlliyini görməyincə aşiqin imana gəlməz.

[5] Kamil vücudun qüdrət əsərinin rəmzidir, yaradılışın feyzindən məqsəd sənsən, kainat sənin tüfeylindir.

[6] Kamillik sifətlərinin toplusu zatının cövhərindədir, səndəki sifətlərə malik bir pak zat hardadır?

[7] Füzuli ta eşqə düşdüm, dünya qəmi çəkmədim, bil ki, əlaqələr torundan xilas yolu eşq əsirliyində imiş.



* * *

Səba, əğyardan pinhan, qəmim dildarə izhar et!
Xəbərsiz yarımı hali-xərabimdən xəbərdar et[1]!

Gətir yadım onun yanında, vər görsən ki, qəhr eylər,
Xəmuş olma, yenə düşnam təqribilə təkrar et[2]!

Könül, qəm günlərin tənha keçirmə, istə bir həmdəm
Əcəl xabından, əfqanlar çəkib, Məcnunu bidar et[3]!

Çü yox eşq atəşi bir şö'lə çəksə taqətin, ey ney,
Baş ağrıtma, dəmi-eşq urma, ancaq naleyi-zar et[4]!

Məni rəşk oduna pərvanə tək, ey şəm, yandırma,
Yetər, xurşidi-rüxsarın çirağı-bəzmi-əğyar et[5]!

Giriftari-ğəmi-eşq olalı azadeyi-dəhrəm,
Qəmi-eşqə məni bundan betər, yarəb, giriftar et[6].

Füzuli, baxmaq olur, ol günəş yadilə xurşidə,
Nə vəch ilən kim, olsa' gün keçər, fikri-şəbi-tar et[7].

---

[1] Səba rəqibdən gizlincə qəmimi dildara bildir, xəbərsiz yarımı pozulmuş halımdan xəbərdar elə.

[2] Onun yanında məni xatırla, əgər görsən ki, qəzəbi tutur, susma, yenə söyüşə yaxın bir yolla təkrar elə.

[3] Könül, qəm günlərini tənha keçirmə, bir həmdəm istə, əfğanlar çəkib əcəl yuxusundan Məcnunu oyat.

[4] Ey ney, eşq atəşi bir şölə çəksə, taqətin yoxdursa, baş ağrıtma, eşqdən dəm vurma, ancaq ağla və nalə elə.

[5] Ey şam, məni pərvanə kimi həsəd oduna yandırma, yetər yanağının günəşini rəqibin məclisinin çırağı elədiyin.

[6] Eşq qəminin əsiri olalı dünyanın ən azad adamıyam, yarəb, məni eşq qəminə bundan betər əsir elə.

[7] Füzuli, o günəşi xatırlayaraq, günəşə baxmaq olur, nə qayda ilə olsa, gün keçər, qaranlıq gecənin fikrini elə.

* * *

Xətti-rüxsarın edər lütfdə reyhan ilə bəhs,
Hüsni-surətdə cəmalın güli-xəndan ilə bəhs[1].

Cənnəti kuyinə zöhd əhli münasib desələr,
Nə münasib ki, qılam bir neçə nadan ilə bəhs[2].

Üzünə durmasın ayinə urub lafi-səfa,
Nə rəva məh qıla xurşidi-dirəxşan ilə bəhs[3].

Gərçi şümşaddə çox lafi-lətafət vardır,
Yorulur eyləsə ol sərvi-xuraman ilə bəhs[4].

Qılsa can lə'lin ilən feyz yetirmək bəhsin,
Canibi-lə'lini tut, ey könül, et can ilə bəhs[5].

Düşər od şəm' dilinə bu səbəbdən ki, qılır
Dil uzadıb gecələr ol məhi-taban ilə bəhs[6].

Sifəti-hüsnün edər, xəstə Füzuli, nə əcəb,
Hüsni-göftardə gər eyləsə Həssan ilə bəhs[7].

---

[1] Üzünün xətti lətafətdə reyhan ilə bəhs edər, surətin gözəlliyində camalın açılmış gül ilə bəhs edər.
[2] Zöhd əhli cənnəti sənin olduğun yerə münasib desələr, münasib olmaz ki, bir neçə nadanla bəhs edim.
[3] Güzgü saflıqdan dəm vurub üzünə durmasın, nə rəvadır ki, ay parlaq günəşlə bəhs etsin.
[4] Şümşad lətafətdə özündən çox desə də, o xuraman sərv ilə bəhs etsə, yorular.
[5] Can ləl dodağın ilə feyz yetirmək bəhsinə girsə, ləlinin tərəfini tut, ey könül can ilə bəhs elə.
[6] Şamın dilinə bu səbəbdən od düşər ki, gecələr dil uzadıb o parlaq ayla bəhs edir.
[7] Xəstə Füzuli, gözəlliyinin vəsfini deyir, nə əcəb, əgər danışıq gözəlliyində Həssan ilə bəhs eləsə.



* * *

Can çıxır təndən könül zikri-ləbi-yar eyləgəc,
Tən bulur can yenlədən ol ləfzi təkrar eyləgəc[1].

Qılma, ey əfğan, gözün bidar, məsti-xab ikən.
Olmaya bir fitnə peyda ola, bidar eyləgəc[2].

Söhbətimdən ar edib, ey gül, məni tərk etmə kim,
Gül olur əfsürdə tərki-söhbəti-xar eyləgəc[3].

Varımı fikri-dəhanınla yox etdim, kim qəza
Böylə əmr etmiş mana, yoxdan məni var eyləgəc[4].

Ərzi-rüxsar et bu gün, ey məh, güm olsun göydə gün.
Öylə kim əncüm olur, gün ərzi-rüxsar eyləgəc[5].

Hər zəban bir tiğdir guya Züleyxa qətlinə,
Yusifi almaqda əhli-eşq bazar eyləgəc[6].

Naleyi-zarım, Füzuli, xoş gəlir ol gülrüxə,
Açılır gül könlü bülbül naleyi-zar eyləgəc[7].

---

[1] Könül yarın dodağının zikrini etdikcə, can bədəndən çıxır, o sözü təkrar eyləyən kimi bədən yenidən can tapır.
[2] Ey əfğan, o yuxuda məst ikən gözünü oyatma, oyadan kimi, olmaya bir fitnə peyda ola.
[3] Ey gül, mənim dostluğumdan ar edib məni tərk etmə ki, gül tikanın dostluğunu atan kimi solur.
[4] Ağzının fikri ilə varımı yox etdim, çünki qəza məni yoxdan var eyləyən kimi mənə belə əmr etmişdir.
[5] Ey ay, bu gün üzünü göstər ki, göydə gün yox olsun, günəş üzünü göstərən kimi ulduz yox olur.
[6] Eşq əhli Yusifi almaqda bazar eyləyən kimi, hər dil sanki Züleyxa qətlinə bir qılınc olur.
[7] Füzuli, ağlar naləm o gülüzlüyə xoş gəlir, bülbül nalə eyləyən kimi gülün könlü açılır.

* * *

Könlüm açılır zülfi-pərişanını görgəc,
Nitqim tutulur qönçeyi-xəndanını görgəc[1].

Baxdıqca sənə qan saçılır didələrimdən,
Bağrım dəlinir navəki-müjganını görgəc[2].

Rə'nalıq ilə qaməti-şümşadı qılan yad,
Olmazmı xəcil sərvi-xuramanını görgəc[3].

Çox eşqə həvəs edəni gördüm ki, həvasın
Tərk etdi, sənin aşiqi-nalanını görgəc[4].

Kafər ki, degil mö'tərifi-nari-cəhənnəm
İymanə gələr atəşi-hicranını görgəc[5].

Naziklik ilə qönçeyi-xəndanı edən yad,
Etməzmi həya lə'li-dürəfşanını görgəc[6].

Sən hali-dilin söyləməsən nola, Füzuli,
El fəhm qılır çaki-giribanını görgəc[7].

---

[1] Dağınıq saçını görən kimi könlüm açılır, açılmış qönçəni görən kimi nitqim tutulur.

[2] Sənə baxdıqca gözlərimdən qan saçılır, sənin kirpiyinin peykanını görən kimi bağrım dəlinir.

[3] Şümşadın boynunu rənalıq ilə yad edən sənin xuraman sərvini görən kimi xəcil olmazmı?

[4] Çox eşqə həvəs edəni gördüm ki, sənin ağlar aşiqini görən kimi həvəslərini tərk etdi.

[5] Kafir ki, cəhənnəm odunu etiraf etmir, sənin ayrılığının odunu görən kimi imana gələr.

[6] Açılmış qönçəni naziklik ilə yad eləyən, sənin dür saçan ləlini görən kimi utanmazmı?

[7] Sən ürəyinin halını söyləməsən, nə olar, Füzuli, el yaxanın parça-parça olduğunu görən kimi anlayır.



* * *

Münhərifdir, saqiya, ənduhi-dünyadən mizac.
Badə tut kim, illəti-ənduhə qəflətdir ilac[1].

Fəqr mülkün tut gər istiğnadə istərsən kəmal,
Səltənətdən keç kim, ol vadidə çoxdur ehtiyac[2].

Çəkmə təxtü tac qeydin, bisərü palıq gözət
Kim, əyağə bənddir təxtü bəladır başə tac[3].

Bir pəri zülfün tutub xalından alsan kami-dil,
Tut ki, Çin mülkini tutdun, Hinddən aldın xərac[4].

Tərkü təcrid ıxtiyar et kim, diyari-eşqdə
Fəqr bazarinə əsbabi-fənadəndir rəvac[5].

Nəqşi-zayildir, ümuri-dəhrə qılma e'tibar,
Olsa hasil fəqrdən hüznü ğinadən ibtihac[6].

Ey Füzuli, mən məlamət mülkünün sultaniyəm,
Bərqi-ahim taci-zər, simi-sirişkim təxti-ac[7].

---

[1] Ey saqi, dünyanın qəmindən səhhət pozulub, şərab ver ki, qəm xəstəliyinin əlacı qəflətdir.

[2] Ehtiyacsızlıqda kamala çatmaq istəyirsənsə, yoxsulluq mülkünü tut, səltənətdən keç ki, o vadidə ehtiyac çoxdur.

[3] Taxt-tac qayğısı çəkmə, başsız-ayaqsız ol ki, taxt ayağa zəncir, tac başa bəladır.

[4] Bir pəri zülfünü tutub, xalından ürək kamını alsan, tut ki, Çin mülkünü tutdun, Hinddən xərac aldın.

[5] Köç və ayrılıq yolunu seç ki, eşq ölkəsində yoxsulluq bazarı yoxluq mətahı ilə qızışır.

[6] Yoxsulluqdan kədər, sərvətdən sevinc törəsə də, dünyanın işlərinə etibar etmə, onun nəqşi müvəqqətidir.

[7] Ey Füzuli, mən məlamət (məzəmmət) mülkünün sultanıyam, ahımın ildırımı qızıl tac, göz yaşımın gümüşü fil sümüyündən qurulmuş taxtımdır.

* * *

Ey könül, yarı istə, candan keç,
Səri-kuyin gözət, cəhandan keç[1]!

Ya təmə kəs həyat zövqindən,
Ya ləbi-lə'li-dilsitandan keç[2]!

Mülki-təcriddir fərağət evi,
Tərki-mal eylə, xanimandan keç[3]!

Laməkan seyrinin əzimətin et,
Bu xərab olacaq məkandan keç[4]!

E'tibar etmə mülki-dünyayə,
E'tibari-ülüvvi-şandan keç[5]!

Əhli-dünyanın olmaz axirəti,
Gər bunu istər isən, ondan keç[6]!

Məskənin bəzmgahi-vəhdətdir,
Ey Füzuli, bu xakdandan keç[7]!

---

[1] Ey könül, yarı istə, candan keç, onun olduğu yeri gözlə, dünyadan keç.
[2] Ya həyat zövqündən tamahını kəs, ya da canalan ləl dodağından keç.
[3] Asudəlik evi yalnızlıq mülküdür, malı tərk elə, evdən-eşikdən keç.
[4] Məkansızlığı seyr etmək üçün hərəkətə başla, bu dağılacaq məkandan keç.
[5] Dünya mülkünə etibar etmə, uca şan-şöhrətə inanmaqdan keç.
[6] Dünya əhlinin axirəti yoxdur, əgər bunu istəyirsənsə, ondan keç.
[7] Məskənin vəhdət məclisidir, ey Füzuli, bu torpaq evdən keç.



* * *

Gər degil bir mah mehrilən mənim tək zar sübh,
Başin açib nişə hər gün yaxasın yırtar sübh[1].

Gün degil, hər gün bir ay mehrilə köksün çak edib,
Tazə-tazə dağlərdir kim, qılır izhar sübh[2].

Tiği-xurşid ilə rəf' olsa yeridir kim, müdam
Yandırıb pərvaneyi, şəm'ə verir azar sübh[3].

Sübhi şamü sübh olmuş mənəm aləmdə kim,
Şam şəm'i-bəzm olub, ayrıldı məndan yar sübh[4].

Gör nə aşiqdir ki, bir xurşid vəslin bulmağa
Sərf edər hər ləhzə min-min lö'löi-şəhvar sübh[5].

Eşqdə sadiqlik izhar etdi dağın göstərib,
Qaliba derlərdi kazib, qıldı ondan ar sübh[6].

Hicr şamında qəm etmişdi, Füzuli, qəsdi-can,
Olmasaydı mərhəmətdən dəm vurub qəmxar sübh[7].

---

[1] Əgər sübh mənim kimi bir ayın eşqi ilə ağlamırsa, niyə hər gün başını açıb yaxasını yırtır.
[2] Günəş deyil, hər gün sübh bir ay eşqi ilə köksünü yırtıb təzə-təzə dağlar göstərir.
[3] Sübh günəşin qılıncı ilə yox edilsə yeridir, çünki həmişə pərvanəni yandırıb şama əziyyət verir.
[4] Dünyada sübhü axşam və axşamı sübh olmuş mənəm, çünki yarım axşam məclis şamı olub, sübh məndən ayrıldı.
[5] Gör necə aşiqdir ki, bir günəşin vüsalını tapmaq üçün sübh hər an min-min şahanə ləl sərf edir.
[6] Sübhə yalançı deyirdilər, deyəsən, ondan utandı, dağını göstərərək sadiq olduğunu bildirdi.
[7] Füzuli, sübh mərhəmətdən dəm vurub qəmxar olmasaydı, ayrılıq axşamında qəm cana qəsd etmişdi.

* * *

Qansı mahin, bilməzəm, mehrilə olmuş zar sübh,
Hər gün eylər xəlqə bir daği-nihan izhar sübh[1].

Batdı əncüm, çıxdı gün, ya bir əsiri-eşqdir,
Tökdü dürri-əşki, çəkdi ahi-atəşbar sübh[2].

Nola gər əmvatə ehya versə sübhün dəmləri,
Zikri-lə'lindir kim, eylər dəmbədəm təkrar sübh[3].

Bir müsəvvirdir ki, zərrin kilk ilə hər gün çəkər,
Səfheyi-gərdunə nəqşi-arizi-dildar sübh[4].

Müjdə bir xurşiddən vermiş məgər badi-səhər
Kim, nisar eylər ona, yüz min düri-şəhvar sübh[5].

Aşiqi-sadiqdir izhari-qəm eylir hər səhər
Ah ilə xəlqi yuxusundan qılır bidar sübh[6].

Ey Füzuli, şami-qəm əncamına yoxdur ümid,
Bir təsəllidir sənə ol söz ki, derlər var sübh[7].

---

[1] Bilmirəm, sübh hansı ayın sevgisi ilə ağlayır, hər gün insanlara bir gizli dağ göstərir.

[2] Ulduzlar batdı, gün çıxdı, yoxsa sübh bir sevgi əsiridir ki, göz yaşı inciləri tökdü, od yağdıran ahlar çəkdi.

[3] Sübhün nəfəsləri ölülərə həyat versə, nə var ki, sübh anbaan sənin ləl dodağının zikrini təkrar edir.

[4] Sübh bir rəssamdır ki, hər gün qızıl qələmlə fələyin səhifəsinə dildarın üzünün nəqşini çəkir.

[5] Yoxsa səhər yeli bir günəşdən xoş xəbər vermişdir ki, sübh ona min şahanə inci nisar edir.

[6] Sübh bir sadiq aşiqdir ki, hər səhər qəmini bildirir, xalqı ah ilə yuxusundan oyadır.

[7] Ey Füzuli, qəm axşamının sonuna ümid yoxdur, o söz sənə bir təsəllidir ki, deyirlər, sübh var.



* * *

Kimsədə rüxsarına taqəti-nəzzarə yox,
Aşiqi öldürdü şövq, bir nəzərə çarə yox[1].

Bağrı bütünlər mənə tə'nə edərlər müdam,
Halımı şərh etməyə bir ciyəri parə yox[2].

Yığdı mənim başıma dəhr qəmin, neyləsin,
Badiyeyi-eşqdə mən kimi avarə yox[3].

Dəhrdə həmta sənə var pərirüx desəm,
Var gözəl çox, vəli, sən kimi xunxarə yox[4].

Gözdə gəzib cizginir qətreyi-əşkim müdam,
Qətreyi-əşkim kimi çərxdə səyyarə yox[5].

Çak görüb köksümü qılma ilacım, təbib,
Zaye olur mərhəmin, məndə bitər yarə yox[6].

Zarlığım eşqdən var, Füzuli, vəli,
Ol məhi-bimehrdən rəhm məni-zarə yox[7].

---

[1] Kimsədə sənin üzünə baxmağa taqət yoxdur, aşiqi şövq öldürdü, bir nəzərə çarə yoxdur.

[2] Bağrıbütünlər həmişə mənə tənə edirlər, halımı şərh etmək üçün bir nəfər ciyəri para olan yoxdur.

[3] Zəmanə qəmini mənim başıma yığdı, neyləsin, eşq çölündə mənim kimi bir avara yoxdur.

[4] Zəmanədə sənə tay olacaq bir pəriüzlü var desəm, gözəl var, ancaq sənin kimi qaniçən yoxdur.

[5] Göz yaşımın damlaları həmişə gözümdə gəzib dolanır, göz yaşımın damlası kimi çərxdə səyyarə yoxdur.

[6] Təbib, sinəmi yaralı görüb əlac etmə, dərmanın zay olar, məndə bitən yara yoxdur.

[7] Füzuli, eşqdən ağlamağım var, ancaq o mehrsiz aydan mən ağlara mərhəmət yoxdur.

* * *

Nola gər qucsa miyanın kəməri-zər güstax,
Gətirib çoxları ortayə zər, eylər güstax[1].

Xaki-sağər Cəmü Cəmşiddir, ey piri-müğan,
Xəbər et saqiyə kim, tutmaya sağər güstax[2].

Rəşk odilə yaxılır riştеyi-canım ki, neçün
Dəyər ol arizə geysuyi-müənbər güstax[3].

Rövzənindən qoma kim gün düşə xəlvətgəhinə,
Hərəmi-şahə nə layiq girə çakər güstax[4].

Saxla, ey əşk, ədəb getmə səri-kuyinə çox
Ki, düşər gözdən üzdən sürülür hər güstax[5].

Həvəsim badeyi-gülgunə bu ümmid ilədir
Kim, olam məstü tutam daməni-dilbər güstax[6].

Bənzədirsən özünü itlərinə hər saət,
Ey Füzuli, ola bilməz sənə bənzər güstax[7].

---

[1] Qızıl kəmər həyasızlıq edib belini qucsa, nə olar, çoxlarını qızıl ortaya çıxarıb həyasız edər.

[2] Qədəhin torpağı Cəm və Cəmşiddir, ey muğlar xocası, saqiyə xəbər ver ki, qədəhi ədəbsiz tutmasın.

[3] Can ipim qısqanclıq odu ilə yanır ki, nə üçün ətirli saçlar həyasızcasına o üzə toxunur.

[4] Qoyma bacandan xəlvət otağına gün düşsün, nökərin ədəbsizlik edib şah hərəminə girməsi nə layiqdir.

[5] Ey göz yaşı, ədəb gözlə, onun olduğu yerə çox getmə, çünki hər bir həyasız gözdən düşüb üzdən sürgün edilir.

[6] Bu ümid ilə gül rəngli şəraba meylim var ki, sərxoş olam, cəsarətlə dilbərin ətəyini tutam.

[7] Ey Füzuli, hər saat özünü itlərinə bənzədirsən, sənə bənzər həyasız ola bilməz.



* * *

Ləblərin tək, lə'lü ləfzin tək düri-şəhvar yox,
Lə'lü gövhər çox, ləbin tək lə'li-gövhərbar yox[1].

Səndən etmən dad: "cövrün var, lütfün yox" deyib,
Məsti-zövqi-şövqinəm, birdir yanımda var, yox[2].

Kimə izhar eyləyim bilmən bu pünhan dərdi kim,
Var yüz min dərdi-pünhan, qüdrəti-izhar yox[3].

Dövr sərməsti-şərabi-qəflət etmiş aləmi,
Munca sərməstin tamaşasinə bir hüşyar yox[4].

Xəlqi mədhuş eyləmiş xabi-şəbi-tuli-əməl,
Sübh təhqiqi əlamətinə bir bidar yox[5].

Surəti ziba-sənəmlər yox demən bütxanədə,
Var çox, əmma sənə bənzər büti-xunxar yox[6].

Ey Füzuli, səhldir hər qəm ki, qəmxarı ola,
Qəm budur kim, məndə min qəm var, bir qəmxar yox[7].

---

[1] Dodaqların kimi ləl, sözlərin kimi şahanə inci yoxdur, ləl və inci çoxdur, dodağın kimi gövhər saçan ləl yoxdur.

[2] "Zülmün var, mehrin yoxdur" deyə səndən dad etmirəm, şövqümün zövqünün sərxoşuyam, yanımda varla yox birdir.

[3] Bilmirəm bu gizli dərdimi kimə bildirim ki, yüz min gizli dərdim var, onu bildirmək qüdrəti yoxdur.

[4] Dövr dünyanı qəflət şərabı ilə məst etmişdir, bu qədər sərməstin tamaşasına durmaq üçün bir ayıq yoxdur.

[5] Xam xəyallar gecəsinin yuxusu xalqı huşsuz etmişdir, sübhün əlamətlərini bilməyə bir oyaq yoxdur.

[6] Bütxanada surəti gözəl sənəmlər yoxdur deməyrəm, çox var, ancaq sənə bənzər qaniçən gözəl yoxdur.

[7] Ey Füzuli, qəmxarı olan qəm asandır, qəm odur ki, məndə min qəm var, bir qəmxar yoxdur.

* * *

Nalədəndir ney kimi avazeyi-eşqim büləndi,
Nalə tərkin qılmazam ney tək kəsilsəm bənd-bənd[1].

Qıl mədəd, ey bəxt vərnə, kami-dil mümkün degil,
Böylə kim ol dilrüba bidərddir, mən dərdmənd[2].

Dağlərdir odlu könlümdə qarası qopmamış,
Ya səbati-eşq üçün od üzrə bir neçə sipənd[3].

Açılır könlüm gəhi kim giryeyi-təlxim görüb,
Açar ol gülrux təbəssüm birlə lə'li-nuşxənd[4].

Xaki-rahindən məni qaldıra bilməz sayə tək,
Qılsa gərdun afitabın hər şuaın bir kəmənd[5].

Cam tut der, saqiyi-gülçöhrə, zahid, tərki-cam,
Ey könül, fikr eylə, gör kim, qansıdır tutmalı pənd[6].

Ey Füzuli, surəti-fəqrin qəbuli-dustdur,
Hiç dərvişi sənin tək görmədim sultanpəsənd[7].

---

[1] Eşqimin səsi ney kimi nalədən ucalmışdır, ney kimi buğum-buğum kəsilsəm də, naləni tərk etmərəm.

[2] Ey bəxt, mədəd elə, yoxsa ürək kamı mümkün deyil, belə ki, o ürək alan dərdsizdir, mən dərdli.

[3] Odlu könlümdəki qarası qopmamış dağlardır, ya eşqin sabitliyi üçün od üstünə bir neçə üzərrik atılmışdır.

[4] O gül üzlü hərdən acı-acı ağlamağımı görüb şirin gülüşlü ləlini təbəssümlə açanda könlüm açılır.

[5] Fələk günəşin hər şüasını bir kəmənd etsə də, yolumun torpağından kölgə kimi məni qaldıra bilməz.

[6] Gül üzlü saqi deyir cam tut, zahid deyir, camı tərk et, ey könül, fikir elə, gör, hansı öyüd tutmalıdır.

[7] Ey Füzuli, yoxsul surətin dostun qəbuludur, heç bir dərvişi sənin kimi sultanpərəst görmədim.



* * *

Göz xətindən mərdümin məhv etmədən bulmaz murad,
Zaye eylər hüsnünü xəttin səvad üzrə səvad[1].

Ola bilməz çini-zülfündən cüda göz mərdümü,
Cari olmuşdur bu adət türrəsiz olmaz midad[2].

Könlün ahimdən tərəhhüm surətin göstərdi, leyk
Mövcdən su nəqşinə çox etmək olmaz e'timad[3].

Əşkü ahim nifrəti qət etdi eldən ülfətim,
Cizginən devrəmdə ya girdabdır, ya girdibad[4].

Keçdi təndən oxların, tənha qalıb dil, dəmbədəm,
Nalələr eylər keçən həmdəmlərin etdikcə yad[5].

Çaki-sinəmdən könül çıxdıqca şad olsam nola.
Oylə afətdən yaxasın qurtaran olmazmı şad[6]?

Şiveyi-şümşad qəddin görsə, eylər bağıban
E'tidali-sərvdən əlbəttə səlbi-e'tiqad[7].

Qoyma naqis əhli-dərd içrə Füzulini, təbib.
Eylə bir dərman ki, dərdim edə gün-gündən ziyad[8].

---

[1] Göz bəbəyini məhv etmədən xəttindən murad tapmaz, qara üstündən qara gözəlliyini zay edər.

[2] Göz bəbəyi saçının qıvrımından ayrı ola bilməz, bu adət yayılmışdır ki, qələm türrəsiz olmaz.

[3] Könlün ahımdan mərhəmət üzünü göstərdi, ancaq dalğadan su şəklinə çox etimad etmək olmaz.

[4] Göz yaşım və ahıma nifrət eldən ülfətimi kəsdi, ətrafımda dolanan ya burulğandır, ya da tufan.

[5] Oxların bədəndən keçdi, ürək tənha qalıb, anbaan keçən həmdəmlərini xatırladıqca, nalələr edir.

[6] Sinəmin yarığından ürəyim çıxdıqca şad olsam, nə olar, elə bir bəladan yaxa qurtaran şad olmazmı?

[7] Bağban sənin şümşad boyunun ədasını görsə, sərvin mötədil boylu olmasından, əlbəttə, etiqadını kəsər.

[8] Ey təbib, Füzulini dərd əhli olanlar içində yarımçıq qoyma, bir dərman et ki, dərdimi gün-gündən artıq etsin.

* * *

Ey məzaqi-cana cövrin şəhdü-şəkkər təkləziz,
Dəmbədəm zəhri-qəmin qəndi-mükərrər tək ləziz[1].

Atəşi-bərqi-fəraqın nari-duzəx tək əlim,
Cür'eyi-cami-visalın abi-kövsər tək ləziz[2].

Şərhi-əhvalım sənə məstə nəsihət kimi təlx,
Təlx göftarın mənə məxmurə sağər tək ləziz[3].

Daği-eşqin dərdi zövqi-səltənət tək dilpəzir,
Xaki-kuyin seyri fəthi-həft kişvər tək ləziz[4].

Nola bulsam zövq köydürdükcə sinəm üzrə dağ,
Əhli-dərdə dağ olur, bidərdə zivər tək ləziz[5].

Tazə-tazə daği-dərdindir dili-suzanıma
Filməsəl hirs əhlinə cəm'iyyəti-zər tək ləziz[6].

Ey Füzuli, aləmin gördüm qamu ne'mətlərin,
Hiç ne'mət görmədim didari-dilbər tək ləziz[7].

---

[1] Ey zülmü can damağına bal və şəkər kimi dadlı olan, anbaan qəminin zəhəri nabat kimi dadlı olan.

[2] Sənin ayrılığının ildırımı cəhənnəm odu kim incidəndir, vüsal camının bir cürəsi kövsər suyu kimi dadlıdır.

[3] Mənim əhvalımın sənə şərhi sərxoşa nəsihət kimi acı, acı danışığın mənə xumar olmuşa qədəh kimi dadlıdır.

[4] Eşqinin dağının dərdi səltənət zövqü kimi ürək oxşayan, olduğun yerin torpağı yeddi ölkənin fəth olunduğunu seyr etmək kimi dadlıdır.

[5] Sinəmə dağ basıldıqca zövq alsam, nə olar, dərdsizə bər-bəzək nə qədər dadlıdırsa, dərd əhli olana da dağ elə dadlıdır.

[6] Yanan ürəyimə sənin dərdinin təzə-təzə dağı, söz məsəli, tamah əhlinə qızıl toplamaq ləzzətli olan kimi dadlıdır.

[7] Ey Füzuli aləmin bütün nemətlərini gördüm, dilbəri görmək qədər dadlı bir nemət görmədim.



* * *

Cilveyi-əksi-rüxün ayinədə, ey rəşki-hur,
Rövşən etmiş onu kim xurşiddəndir ayə nur[1].

Bərqi-ahim göy üzün tutmuş, sirişkim yer üzün,
Söhbətimdən həm vühüş etmiş tənəffür, həm tüyur[2].

Eşq rəsmi gər budur, müşkül yetər dərmanə dərd,
Dərd əhli bizəban, bidərdlər məsti-qürur[3].

Daği-dilsuzi fəraqın qıldı gün-gündən füzun,
Nuri-mah əfzun olur, xurşiddən olduqca dur[4].

Vədeyi-vəslin çox, əmma bəxt yar olmaz, nə sud,
Gül gətirməz abi-şirin vermək ilə xaki-şur[5].

Tari-zülfündürmü rüxsarında canlar məskəni,
Ya buraxmış bir rəhi pürpiçü xəm gülzarə mur[6].

Ol səri-kuy itləri içrə, Füzuli, yox yerim,
Bəs mənə matəmsəra, mən qandanu bəzmi-sürur[7]?

---

[1] Ey hurinin həsəd etdiyi, aynada üzünün əksinin cilvəsi ayın nurunun günəşdən olduğunu aydınlaşdırmışdır.

[2] Ahımın ildırımı göy üzünü, göz yaşım yer üzünü tutmuşdur, dostluğumdan həm vəhşilər iyrənib, həm də quşlar.

[3] Eşqin qaydası əgər budursa, dərdin dərmana yetməsi çətin işdir: dərd əhli olanların dili yoxdur, dərdsizlər isə qürurdan sərxoşdurlar.

[4] Sənin ayrılığının ürək yandıran dağı gün-gündən artdı, günəşdən uzaq olduqca, ayın işığı çox olur.

[5] Vüsal vədən çoxdur, ancaq bəxt yar olmur, nə faydası; şoran torpaq şirin su verməklə gül gətirməz.

[6] Canların məskəni üzündəki zülfünün telləridirmi, yoxsa qarışqa gülzara əyri-üyrü bir yol buraxmışdır?

[7] Füzuli, o olduğu yerin itləri içində yerim yoxdur, mənə bir yas evi bəsdir, mən hara, şadlıq məclisi hara?!

* * *

Gəh gözdə, gəh könüldə xədəngin məkan tutar,
Hər qanda olsa qanlını, əlbəttə, qan tutar[1].

Dil çəksə nola canü təni xaki-kuyinə,
Xarü xəs iltər onda ki, quş aşiyan tutar[2].

Zikri-ləbinlə zülfünə can buldu dəstrəs,
Onun kimi ki, oxuyub əfsun ilan tutar[3].

Dil tutdu qönçə ilə bərabər dəhanını,
Bu əqli-naqis ilə özün xürdədan tutar[4].

Xurşid xirməninə vuran şö'lə-şö'lə od,
Ahım ki, ləhzə-ləhzə rəhi-asiman tutar[5].

Can eylədikdə meyli-təmaşayi-qamətin,
Göz rovzənin sirişki-rəvanım rəvan tutar[6].

Tutmaq dilər qapunda Füzuli məqam, leyk
Bu sirri kimsəyə aça bilməz, nihan tutar[7].

---

[1] Oxun gah gözdə,gah könüldə yer alır, harda olsa, qanlını, əlbəttə, qan tutar.
[2] Ürək can ilə bədəni sən olan yerə çəksə, nə olar, quş yuva tikdiyi yerə çör-çöp daşıyar.
[3] İlan tutan əfsun oxuyub ilan tutan kimi, can, dodağının zikri ilə zülfünə əl yetirə bildi.
[4] Ürək ağzını qönçə ilə bərabər tutdu, bu nöqsanlı ağılla özünü incə düşünən tutur.
[5] Zaman-zaman göyün yolunu tutan ahım günəşin xırmanına şölə-şölə od vurur.
[6] Can boyunun tamaşasına meyl eylədikdə o saat axan göz yaşım göz pəncərəsini tutar.
[7] Füzuli qapında yer tutmaq istəyir, ancaq bu sirri heç kimə aça bilmir, gizli tutur.



* * *

Xoşam kim, dəmbədəm giryan gözüm ol xaki-padəndir,
Ziyanı olmaz ol göz yaşının kim, tutiyadəndir[1].

Dəmadəm mərdümi-çeşmim içər qan zülfü xalından,
Bəli əksər məaşı əhli-dəryanın qəradəndir[2].

Demə Fərhad qanın tökmüş ancaq eşq şəmşiri,
Mənim gör qanlı yaşım kim, bu həm ol macəradəndir[3].

Müənbər sünbülündən almadan bu, olmadan rüsva,
Bu rüsvalıq mənə səndən degil, badi-səbadəndir[4].

Hübabi-əşk içində muyi-julidəmlə xoşhaləm,
Başımda bu hümayun sayə ol ali binadəndir[5].

Vəfa rəsmin unutmuşsan deyə incinməzəm zira,
Bu kim məndən cəfa kəm eyləməzsən, həm vəfadəndir[6].

Kəmali-hüsni-məşrəb, ari olmaqdır təərrüzdən,
Riya əhlinə həm çox e'tiraz etmək riyadəndir[7].

Füzuli, tökmə çox yaş, ehtiyat et, getməsin nagəh
Gözündən sürmə kim, xaki-rəhi-əhli-səfadəndir[8].

---

[1] Sevinirəm ki, hər an gözüm o ayağın torpağından ağlayır, tutiyadan olan göz yaşının ziyanı olmaz.
[2] Hər an göz bəbəyim zülf və xalından qan içir, bəli, dərya əhlinin maaşının çoxu qaradandır.
[3] Demə eşq qılıncı ancaq Fərhadın qanını töküb, mənim qanlı yaşımı gör ki, bu da o macəradandır.
[4] Ətirli sünbülündən (saçından) bir qoxu alıb rüsvay olmamış, bu rüsvalıq mənə səndən deyil, səba yelindəndir.
[5] Göz yaşı köpüyünün içində dağınıq saçımla xoş haldayam, başımdakı bu xoşbəxtlik kölgəsi o uca binadandır.
[6] Vəfa qaydasını unudubsan deyə səndən incimərəm, zira bu ki, mənə cəfanı az eləməzsən, özü də vəfadandır.
[7] Xasiyyət gözəlliyinin kamal dərəcəsi hücum etmələrdən təmiz olmaqdır, ikiüzlülərə çox etiraz etmək özü də ikiüzlülükdür.
[8] Füzuli, çox yaş tökmə, ehtiyat et ki, saf insanların yolunun torpağından olan sürmə birdən gözündən getməsin.

* * *

Pərişan xəlqi-aləm ahü əfğan etdigimdəndir,
Pərişan olduğum xəlqi pərişan etdigimdəndir[1].

Təni-zarimdə dərdi-eşq gün-gündən füzun olmaq,
Yetən bidərd tədbirilə dərman etdigimdəndir[2].

Gözüm kim bağrımın qanın tökər pərkalə-pərkalə,
Dəmadəm arizuyi-lə'li-canan etdigimdəndir[3].

Degil bihudə gər yağsa fələkdən başimə daşlar,
Binasın tişeyi-ahimlə viran etdigimdəndir[4].

Qaçan rüsva olurdum, qan udub səbr edə bilseydim,
Məlamət çəkdiyim bihudə əfğan etdigimdəndir[5].

Xəta səndən degil, cismim oxundan binəsib olsa,
Hübabi-əşki-gülgun içrə pünhan etdigimdəndir[6].

Füzuli, ixtilati-mərdümi-aləmdən ikrahim,
Pərivəşlər xəyalın munisi-can etdigimdəndir[7].

---

[1] Aləm xalqı ah və əfğan etdiyimdən pərişandır, qəmlidir, mənim pərişan olmağım xalqı pərişan etdiyimdəndir.

[2] Ağlar bədənimdə eşq dərdinin gün-gündən artıq olmağı hər yetən dərdsizin tədbiri ilə dərman etdiyimdəndir.

[3] Gözüm ki, ciyərimin qanını parça-parça tökər, hər an cananın ləlini arzu etdiyimdəndir.

[4] Əgər göydən başıma daşlar yağsa, boşuna deyil, binasını ahımın külüngü ilə uçurduğumdandır.

[5] Əgər qan udub səbr edə bilsəydim, haçan rüsvay olardım, məzəmmət çəkdiyim boş yerə əfğan etdiyimdəndir.

[6] Bədənim oxundan bir pay görməsə, günah səndə deyil, gül rəngli göz yaşı köpüyü içində gizlətdiyimdəndir.

[7] Füzuli, dünya insanları ilə əlaqədən ikrah etməyim pəriüzlülərin xəyalını canıma həmdəm etdiyimdəndir.



* * *

Qəbrim daşına kim, qəm odundan zəbanədir,
Tə'n oxun atma kim, xətəri çox nişanədir[1].

Eylər qədəh zəmanə qəmin dəf' qaliba
Dövri-qədəh müxalifi-dövri zəmanədir[2].

Qaldırdı əşk dün məni ol asitanədən
Kim, məqsədim mənim dəxi ol asitanədir[3].

Vaiz sözünə tutma qulaq, qafil olma kim,
Qəflət yuxusunun səbəbi ol fəsanədir[4].

Nəzr etmişəm fəraqinə kim, yox nihayəti,
Nəqdi-sirişkimi ki, tükənməz xəzanədir[5].

Can verməyimmi qürbətə kim bimi-tə'nədən
Yadi-vətən fəğanıma sənsiz bəhanədir[6].

Ey dil, həzər qıl atəşi-ahinlə yanmasın
Cismim ki, dərd quşlarına aşiyanədir[7].

Məndən, Füzuli, istəmə əş'ari-mədhü zəmm,
Mən aşiqəm, həmişə sözüm aşiqanədir[8].

---

[1] Qəbrimin daşına ki, qəm odundan bir alov dilidir, tənə oxu atma, çünki xətərində çox nişanələr var.

[2] Qədəh zəmanə qəmini yox edir, deyəsən, qədəhin dövr etməsi zəmanənin dövr etməsinin əksidir.

[3] Göz yaşı gecə məni o astanadan qaldırdı ki, mənim məqsədim də elə o astanadır.

[4] Vaizin sözünə qulaq tutma, qafil olma ki, qəflət yuxusunun səbəbi o əfsanədir.

[5] Tükənməz bir xəzinə olan göz yaşımın varını sənin sonu olmayan ayrılığına nəzir etmişəm.

[6] Qürbətə can verməyimmi ki, tənə qorxusundan sənsizlikdən etdiyim fəğanıma vətəni yad etmək bir bəhanədir.

[7] Ey ürək, ehtiyatlı ol, dərd quşlarına yuva olan bədənim ahının odu ilə yanmasın.

[8] Füzuli, məndən tərif və tənqid şerləri istəmə, mən aşiqəm, həmişə sözüm aşiqanədir.

* * *

Canı kim canani üçün sevsə cananın sevər,
Cani üçün kim ki, cananın sevər, canın sevər[1].

Hər kimin aləmdə miqdarıncadır təb'ində meyl,
Mən ləbi-cananımı, Xizr abi-heyvanın sevər[2].

Başə dəm düşdükcə təqsir eyləməz, eylər mədəd,
Ol səbəbdən müttəsil çeşmim cigər qanın sevər[3].

Mişki-Çin avara olmuşdur vətəndən mən kimi,
Qansı şuxun bilməzəm zülfi-pərişanın sevər[4].

Su ki sərgərdan gəzər başında vardır bir həva,
Qaliba, bir gülrüxün sərvi-xuramanın sevər[5].

Aqibət rüsva olub mey tək düşər xəlq ağzına,
Kim ki, bir sərməst saqi lə'li-xəndanın sevər[6].

Nolacaqdır, tərki-eşq etmə, Füzuli, vəhm edib.
Qayəti, derlər, ola bir bəndə sultanın sevər[7].

---

[1] Kim canı cananı üçün sevirsə, cananı sevir, kim ki, cananını canı üçün sevir, canını sevir.

[2] Hər kəsin dünyada təbindəki istək qədrinin miqdarına görədir, mən cananımın dodağını, Xızr dirilik suyunu sevir.

[3] Başa dəm düşdükcə ziyan eləmir, kömək edir, o səbəbdən həmişə gözüm cigər qanı sevir.

[4] Çin mişki məni kimi vətəndən avara olmuşdur, bilmirəm hansı şuxun pərişan zülfünü sevir.

[5] Şu ki, sərgərdan gəzir, başında bir hava var, bəlkə bir gülüzlünün xuraman sərvini sevir.

[6] Hər kim bir sərxoş saqinin açılmış ləl dodağını sevərsə, axırda rüsvay olub şərab kimi xalqın ağzına düşər.

[7] Füzuli, qorxub eşqi tərk etmə, nə olacaqdır, uzağı deyərlər ki, bir bəndənin sultanını sevməsi olar.



* * *

Ğübari-səcdeyi-rahin xəti-lövhi-cəbinimdir,
Sücudi-dərgəhin sərmayeyi-dünyavü dinimdir[1].

Əgər əzmi-rəh etsəm şövqi-vəslin hadiyi-rahim
Və gər aram həm dutsam, xəyalın həmnişinimdir[2].

Həvayi-rövzeyi-kuyin bahari-gülşəni-canım,
Nihali-qamətin sərvim, üzarın yasəminimdir[3].

Yəqinimdir ki, məqsudum olur hasil sənə etsəm,
Bihəmdullah mənə səndən yana rəhbər yəqinimdir[4].

Tələbkari-visaləm müjdeyi-vəslin diriğ etmə
Kim, ol müjdə fərəhbəxşi-dili-ənduh kinimdir[5].

Çıxardı zövq vəslin xatirimdən rövzə pərvasin,
Sözün kövsər, münəvvər məclisin xüldi-bərinimdir[6].

Mənə üz göstərər hər ləhzə yüz min şahidi-dövlət
Çü mir'ati-rüxün, mənzuri-çeşmi-pakbinimdir[7].

Səriri-səltənət zövqindən əfzundur mənə ol söz
Ki, lütf ilə demişsən bir qulami-kəmtərinimdir[8].

Bəri oldum, Füzuli, ğeyridən, ol dilrüba ancaq,
Ənisim, munisim, yarım, nigarım, nazəninimdir[9].

---

[1] Yoluna səcdə tozu alın lövhəmin yazısıdır, qapına səcdə etməyim dinimin və dünyamın mayasıdır.

[2] Əgər yol getsəm, vüsalının şövqü yolumun rəhbəridir, əgər aram tutsam, xəyalın həmdəmimdir.

[3] Sənin olduğun yerin cənnət havası can gülşənimin baharıdır, boyunun fidanı sərvim, yanağın yasəmənimdir.

[4] Əgər sənə yetsəm, yəqin edirəm ki, məqsədimə çataram, Allaha şükür sən tərəfdən mənim rəhbərim yəqinimdir.

[5] Vüsal istəyirəm, vüsal müjdəsini məndən əsirgəmə, çünki o müjdə qəmli könlümün sevinc bəxş edənidir.

[6] Vüsal zövqün cənnət həvəsini xatirimdən çıxardı, sözün kövsər, işıqlı məclisin uca cənnətimdir.

[7] Mənə hər an yüz min bəxt şahidi (gözəli) üz göstərir, ayna yanağın kimi onlara da təmiz nəzərli gözümlə baxıram.

[8] Lütf ilə dediyin ən kiçik bir qulumdur, sözün mənə sultanlıq taxtımın zövqündən artıqdır.

[9] Füzuli, özgədən uzaq oldum, ancaq o ürək alan mənim ənisim, munisim, yarım, nigarım, nazəninimdir.

* * *

Müjəm sərçeşmələr mənzil qılan aşüftə məcnundur,
Anunçün bəsteyi-zənciri-seyli-əşki-gülgundur[1].

Səvadi-nöqteyi-girdabə bənzər mərdumi-çeşmim,
Ki, daim ğərqeyi-girdabi-çeşmi-əşki-pürxündur[2].

Eşit dərdi-dilim, əfsaneyi-Məcnunə meyl etmə
Kim, ol əfsanədən həm anlanan mütləq bu məzmundur[3].

Fərəhbəxşi-dili-mə'şuq olur şərhi-qəmi-aşiq,
Sürudi-bəzmi-Şirin naleyi-Fərhadi-məhzundur[4].

Kəməndi-çini-zülfün vəhmi getməz zar könlümdən,
Mənə ol riştеyi əjdər qılan bilmən nə əfsundur[5]?

Xəmidə qamətim kim, daği-dildən qanə qərq olmuş,
İçində nöqtəsi guya ki, qan altındakı nundur[6].

Füzuli, vermədi tə'n oxları göz yaşinə təskin,
Önün bənd etmək olmaz, xarü xaşak ilə Ceyhundur[7].

---

[1] Kirpiyim bulaqlar başında mənzil salan çaşqın bir dəlidir, ona görə gül rəngli göz yaşı selinin zəncirinə bağlıdır.
[2] Göz bəbəyim burulğan nöqtəsinin qaraltısına bənzəyir, çünki qan dolu göz yaşımın burulğanında həmişə qərq olmuşdur.
[3] Ürəyimin dərdini eşit, Məcnun əfsanəsinə meyl etmə, çünki o əfsanədən anlaşılan da mütləq bu məzmundur.
[4] Aşiqin qəminin söylənilməsi məşuqun ürəyinə fərəh bağışlayır, dərdli Fərhadın naləsi Şirin məclisinin nəğməsidir.
[5] Qıvrım zülfünün kəməndinin qorxusu ağlar ürəyimdən getməz, mənə o ipi bir əjdər edən bilmirəm nə əfsundur.
[6] Əyilmiş boyum ürək dağından qana qərq olmuşdur, içində nöqtəsi sanki qan altındakı nundur.
[7] Füzuli, tənə oxları göz yaşına təskinlik vermədi, qabağında bənd qurmaq olmaz, bu, çör-çöplə Ceyhundur.



* * *

Demiş hər qönçəyə aşiqligim razın səba derlər,
El ağzın tutmaq olmaz, qorxuram, ey gül, sana derlər[1].

Əsiri-dərdi-eşqü məsti-cami-hüsn çox, əmma
Bizüz məşhur olan, Leyli sənə, Məcnun mana derlər[2].

Sənin mehrü vəfa göstərdiyin əğyarə çox gördüm,
Qələtdir kim, səni bimehr oxurlar, bivəfa derlər[3].

Sənə derlər büti-Çin, zülfünə zünnar söylərlər,
Zəhi-imanı yoxlar, küfr söylərlər, xəta derlər[4].

Mənə derlərdi əvvəl bir mələkdir sevdiyin, hala
Görənlər sən fəqirə-göydən enmiş bir bəla derlər[5].

Mərizi-eşq iqdi-zülfün eylər arizu, zira
Müaliclər bu mühlik dərdə, müşkildir dəva, derlər[6].

Füzuli, aşiqə onlar ki, derlər tərki-eşq eylə,
Deməzlərmi xəta, təğyir qıl hökmi-qəza derlər[7].

---

[1] Deyirlər, səba aşiqliyimin sirrini hər qönçəyə demişdir, el ağzını tutmaq olmaz, qorxuram, ey gül, sənə deyərlər.
[2] Eşq dərdinin əsiri və gözəllik camının məsti çoxdur, ancaq məşhur olan bizik, sənə Leyli, mənə Məcnun deyirlər.
[3] Sənin düşmənə mehr və vəfa göstərdiyini çox gördüm, yanlışdır ki, səni mehrsiz sayırlar, vəfasız deyirlər.
[4] Sənə Çin bütü deyirlər, zülfünə zünnar söyləyirlər. Əhsən, imanı yoxlar, küfr söyləyirlər, xəta deyirlər.
[5] Əvvəl mənə deyirdilər sevdiyin bir mələkdir, indi görənlər, "sən yazığa göydən bir bəla enmişdir" deyirlər.
[6] Eşq xəstəsi saçının düyününü arzu edir, çünki həkimlər bu öldürücü dərdə dəva etmək çətindir deyirlər.
[7] Füzuli, onlar ki, aşiqə eşqi tərk eylə deyirlər, xəta demirlərmi, qəzanın hökmünü dəyiş deyirlər.

* * *

Ah eylədiyim sərvi-xuramanın üçündür,
Qan ağladığım qönçeyi-xəndanın üçündür[1].

Sərgəştəliyim kakili-mişginin ucundan,
Aşüfətliyim zülfi-pərişanın üçündür[2].

Bimar tənəm nərgisi-məstin ələmindən,
Xunin çigərim lə'li- dürəfşanın üçündür[3].

Yaxdım tənimi vəsl günü şəm'tək, əmma
Bil kim, bu tədarük şəbi-hicranın üçündür[4].

Qurtarmağa yəğmayi-ğəmindən dilü canı,
Sə'yim nəzəri-nərgisi-fəttanın üçündür[5].

Can ver, könül ol qəmzəyə kim, munca zamanlar
Can içrə səni bəslədiyim anın üçündür[6].

Vaiz bizə dün duzəxi vəsf etdi, Füzuli,
Ol vəsf sənin külbeyi-əhzanın üçündür[7].

---

[1] Ah etdiyim nazlı sərvin üçündür, qan ağladığım açılmış qönçən üçündür.

[2] Sərgərdanlığım mişk ətirli tellərinin ucundandır, pərişan olmağım pərişan saçın üçündür.

[3] Sərxoş nərgizinin (gözünün) dərdindən bədənim xəstədir, bağrımın qan olması dür saçan ləlin (dodağın) üçündür.

[4] Vüsal günü canımı şam kimi yandırdım, ancaq bil ki, bu tədarük ayrılıq gecən üçündür.

[5] Ürək və canımı sənin qəminin talan etməsindən qurtarmaq üçün çalışmağım fitnəli gözlərinin bir nəzər salması üçündür.

[6] Ey ürək, o qəmzəyə can ver ki, bu qədər zaman içində canımın içində səni bəslədiyim onun üçündür.

[7] Vaiz gecə bizə cəhənnəmi təsvir etdi, Füzuli, o təsvir sənin qəmli daxman üçündür.



* * *

Qansı gülşən gülbüni sərvi-xuramanınca var?
Qansı gülbün üzrə ğönçə, lə'li-xəndanınca var[1]?

Qansı gülzar içrə bir gül açılır hüsnün kimi,
Qansı gül bərgi, ləbi-lə'li-dürəfşanınca var[2]?

Qansı bağın var bir nəxli, qədin tək barvər,
Qansı nəxlin hasili sibi-zənəxdanınca var[3]?

Qansı xuni sən kimi cəlladə olmuşdur əsir,
Qansı cəlladın qılıncı tiği-müjganınca var[4]?

Qansı bəzm olmuş münəvvər bir qədin tək şəm'dən,
Qansı şəm'in şö'ləsi rüxsari-tabanınca var[5]?

Qansı yerdə bulunur nisbət sənə bir gənci-hüsn,
Qansı gəncin əjdəri zülfi-pərişanınca var[6]?

Qansı gülşən bülbülün derlər, Füzuli, sən kimi,
Qansı bülbülün sürudi ahü əfğanınca var[7]?

---

[1] Hansı gülşənin gül ağacı sərv boyun kimidir, hansı gül ağacındakı qönçə sənin gül dodağın kimidir?

[2] Hansı gülzarda sən gözəllikdə bir gül açılır, hansı gül yarpağı dürr saçan ləl dodağınca var?

[3] Hansı bağın sənin boyun kimi barlı bir ağacı var, hansı ağacın meyvəsi çənənin alması qədərdir?

[4] Hansı qanlı (qatil) sənin kimi bir cəllada əsir olmuşdur, hansı cəlladın qılıncı kirpiyimin qılıncıca var?

[5] Hansı məclis sənin boyun kimi bir şamdan işıqlanmışdır, hansı şamın şöləsi işıq saçan üzün qədər var?

[6] Hansı yerdə sənə bənzər bir gözəllik xəzinəsi tapılar, hansı xəzinənin əjdahası pərişan zülfün qədərdir?

[7] Füzuli, hansı gülşənin bülbülü sənin kimidir deyirlər, hansı bülbülün nəğməsi ah və əfğanın kimidir.

* * *

Hüsnün olduqca füzun eşq əhli artıq zar olur,
Hüsn nə miqdar olursa, eşq ol miqdar olur[1].

Cənnət üçün mən' edən aşiqləri didardən,
Bilməmiş kim, cənnəti aşiqlərin didar olur[2].

Eşq dərdindən olur aşiq mizaci müstəqim,
Aşiqin dərdinə timar etsələr bimar olur[3].

Zahidi-xudbin nə bilsin zövqünü eşq əhlinin,
Bir əcəb meydir məhəbbət kim, içən hüşyar olur[4].

Eşq sevdasinə sərf eylər Füzuli ömrünü.
Bilməzəm bu xabi-qəflətdən qaçan bidar olur[5].

---

[1] Gözəllyin çox olduqca, eşq əhli də artıq ağlar olur, gözəllik nə miqdar olursa, eşq o miqdarda olur.

[2] Cənnətdən ötrü aşiqləri yarı görməkdən çəkindirən bilməyib ki, aşiqlərin cənnəti yarla görüşməkdir.

[3] Aşiqin səhhəti eşq dərdindən qaydaya düşür, aşiqin dərdinə əlac etsələr, xəstə düşür.

[4] Özündən xəbərsiz zahid eşq əhlinin zövqünü nə bilsin, məhəbbət bir əcəb şərabdır ki, içən ayıq olur.

[5] Füzuli ömrünü eşq sevdası ilə sərf eyləyir, bilmirəm bu qəflət yuxusundan nə vaxt oyanacaq.



* * *

Ey gül, nə əcəb silsileyi-mişki-tərin var,
Vey sərv, nə xoş can alıcı işvələrin var[1]!

Acıtdı məni acı sözün, tünd nigahın,
Ey nəxli-məlahət, nə bəla təlx bərin var[2]?

Peykanları ilə doludur çeşmi-pürabım,
Ey bəhr, saqınma, sənin ancaq gühərin var[3]!

Ol səng-dilə naleyi-zarın əsər etmiş,
Ey dil, sənə bu zövq yetər ta əsərin var[4].

Eşq içrə, könül, demə ki, mən bixüdəm ancaq,
Ey qafil, özündən sənin ancaq xəbərin var[5].

Çox baxdığına qəmzə ilən bağrın əzərsən,
Hər kimə ki, baxmazsan onunla nəzərin var[6].

Eşq əhlinə ol mah, Füzuli, nəzər etmiş,
Sən həm özünü göstər əgər bir hünərin var[7].

---

[1] Ey gül, nə qəribə tər mişk qoxulu hörüklərin var, ey sərv, nə gözəl can alan işvələrin var?!

[2] Acı sözün, acıqlı baxışın məni acıladı, ey məlahət ağacı, nə bəlalı acı meyvən var?!

[3] Yaş dolu gözüm peykanların ilə doludur, ey dəniz, elə sayma ki, ancaq sənin gövhərin var.

[4] O daş ürəkliyə ağlar naləm təsir etmişdir, ey ürək, nə qədər əsərin var, sənə bu zövq bəsdir.

[5] Ey ürək, demə ki, eşq aləmində ancaq mən özümdən xəbərsizəm, ey xəbərsiz, sənin ancaq özündən xəbərin var.

[6] Qəmzən ilə çox baxdığının bağrını əzirsən, hər kimə ki, baxmırsan, deməli ona nəzərin (lütfün) var.

[7] Füzuli, o ay eşq əhlinə nəzər yetirmişdir, əgər bir hünərin varsa, sən də özünü göstər.

* * *

Tökdükcə qanımı oxun, ol asitan içər,
Bir yerdəyəm əsir ki, torpağı qan içər[1].

Əhli-zəmanə qanına çox təşnədir zəmin,
Qanın kimin tökərsə fələk, ol zəman içər[2].

Mey içmədən açılmaz imiş babi-məğfirət,
Sovgəndlər bu babdə piri-müğan içər[3].

Üqbadə kövsər istəməsin rindi-meykədə,
Dünyadə bəs degilmi meyi-ərğüvan, içər[4].

Qəmzən görünməyib gözə, qanlar içər müdam,
Zahid kimi ki, badəni eldən nihan içər[5].

Meydən əgərçi tövbə verir el Füzuliyə,
Ey sərv, sən qədəh sunar olsan, rəvan içər[6].

[1] Oxun qanımı tökdükcə o astana içər, bir yerdə əsirəm ki, torpağı qan içər.
[2] Torpaq zəmanə adamlarının qanına susamışdır, fələk kimin qanını tökərsə, o saat içər.
[3] Şərab içmədən bağışlanma qapısı açılmazmış, muğlar piri bu barədə çox andlar içir.
[4] Meyxana rindi bəqa aləmində (axirətdə) kövsər istəməsin, bəs deyilmi ki, dünyada qırmızı şərab içir?
[5] Zahid şərabı eldən gizlin içdiyi kimi, qəmzən gözə görünməyib həmişə qanlar içir.
[6] El Füzuliyə şərabdan tövbə versə də, ey sərv, sən ona qədəh verəsi olsan, o saat içər.



* * *

Məndə Məcnundan füzun aşiqlik iste'dadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var[1].

Nola qan tökməkdə mahir olsa çeşmim mərdümü,
Nütfeyi-qabildürür, qəmzən kimi ustadı var[2].

Qıl təfaxür kim, sənin həm var mən tək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var[3].

Əhli-təmkinəm, məni bənzətmə, ey gül, bülbülə,
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var[4].

Öylə bədhaləm ki, əhvalım görəndə şad olur,
Hər kimin kim, dövr cövründən dili-naşadı var[5].

Gəzmə, ey könlüm quşu, qafil fəzayi-eşqdə
Kim, bu səhranın güzərgəhlərdə çox səyyadı var[6].

Ey Füzuli, eşq mən'in qılma nasehdən qəbul,
Əql tədbiridir ol, sanma ki, bir bünyadı var[7].

[1] Məndə Məcnundan artıq aşiqlik istedadı var, sadiq aşiq mənəm, Məcnunun ancaq adı var.
[2] Göz bəbəyim qan tökməkdə mahir olsa, təəccüblü deyil, bacarıqlı nütfədir, qəmzən kimi ustadı var.
[3] Fəxr elə ki, sənin də mənim kimi aşiqin var, necə ki, Leylinin Məcnunu, Şirinin Fərhadı var.
[4] Ey gul, mən təmkin əhliyəm, məni bülbülə bənzətmə, onun dərdə səbri yoxdur, hər an min fəryad qoparır.
[5] Elə pis haldayam ki, hər kimin ki, zəmanə zülmündən dərdli ürəyi varsa, vəziyyətimi görəndə şad olur.
[6] Ey könlümün quşu, eşq fəzasında qafil gəzmə, çünki bu çölün keçidlərində çox ovçunlar var.
[7] Ey Füzuli, nəsihət verənlərdən eşq qadağasını qəbul etmə, ağıl tədbiridir, elə düşünmə ki, bir əsası var.

* * *

Müqəvvəs qaşların kim, vəsmə birlə rəng tutmuşlar,
Qılınclardır ki, qanlar tökmək ilə cəng tutmuşlar[1].

Qılıb təğyiri-surət vəsmədən yağma qılırlar dil
Hərami qaşların rəsmü rəhi-neyrəng tutmuşlar[2].

Könül mir'atını eylər mükəddər əql təklifi,
Xoş ol bibaklər kim, tərki-namü nəng tutmuşlar[3].

Fəzayi-ömrdən guya degillər qönçə tək vaqif
Olar kim, özlərin dünya üçün diltəng tutmuşlar[4].

Məni kim, səngsari-möhnətəm bazari-eşq içrə,
Bəla dağın çəkən Fərhad ilə həmsəng tutmuşlar[5].

Ləbin dövründə zahidlər tutub meyxanələr küncün
Qılıb təsbih tarın tərk zülfi-çəng tutmuşlar[6].

Səhər bülbüllər əfğanı degil bihudə gülşəndə,
Füzuli naleyi-dilsuzinə ahəng tutmuşlar[7].

---

[1] Vəsmə ilə rəng tutmuş qövs kimi qaşların o qılınclardır ki, qan tökməklə pas tutmuşlar.

[2] Vəsmədən surətlərini dəyişib ürəyi qarət edirlər, haramı qaşların hiylə qaydası və yolunu tutmuşlar.

[3] Ağlın təklifi könül güzgüsünü tozlandırar, əhsən o qorxusuz insanlara ki, ad və namusu tərk etmişlər.

[4] Guya ömür fəzasından qönçə kimi xəbərdar deyillər, ola bilər ki, özlərini dünya üçün ürəyi daralmış saymışlar.

[5] Mən eşq bazarı içində möhnət daşqalağıyam, məni bəla dağını çəkən Fərhad ilə bir çəkili saymışlar.

[6] Dodağının dövründə zahidlər meyxanalar küncünü tutmuşdur, təsbih ipini tərk edib, çəng zülfünü tutmuşlar.

[7] Səhər bülbüllərin gülşəndə əfğan çəkməsi boşuna deyildir, Füzulinin ürək yandıran naləsinə ahəng tutmuşlar.



* * *

Aşiyani-mürği-dil zülfi-pərişanındadır,
Qanda olsam, ey pəri, könlüm sənin yanındadır[1].

Eşq dərdilə xoşam, əl çək əlacımdan, təbib,
Qılma dərman kim, həlakim zəhri-dərmanındadır[2].

Çəkmə damən naz edib üftadələrdən, vəhm qıl
Göylərə açılmasın əllər ki, damanındadır[3].

Gözlərim yaşın görüb şur, etmə nifrət kim, bu həm
Ol nəməkdəndir ki, lə'li-şəkkərəfşanındadır[4].

Məsti-xabi-naz olub, cəm' et dili-sədparəmi
Kim, onun hər parəsi bir növki-müjganındadır[5].

Bəs ki, hicranındadır xasiyyəti-qət'i-həyat,
Ol həyat əhlinə heyranəm ki, hicranındadır[6].

Ey Füzuli, şəm' tək mütləq açılmaz yanmadan,
Tablar kim, sünbülündən rişteyi-canındadır[7].

---

[1] Ürək quşunun yuvası pərişan zülfündədir, ey pəri, harada olsam, könlüm sənin yanındadır.

[2] Eşq dərdi ilə vəziyyətim yaxşıdır, təbib, əlacımdan əl çək, dərman etmə ki, mənim həlak olmağım sənin dərmanının zəhərindədir.

[3] Naz edib ətəyini çəkmə, düşkünlərdən qorx, ətəyində olan əllər göylərə açılmasın.

[4] Gözlərimin yaşını duzlu görüb, nifrət etmə ki, bu da o duzdandır ki, şəkərsaçan dodağındadır.

[5] Naz yuxusunun məsti olub yüz parça olan ürəyimi bir yerə yığ, axı onun hər parası bir kirpik oxunun ucundadır.

[6] Həyatın dayanması sənin ayrılığına bağlıdırsa, səndən ayrı yaşaya bilənlərə heyranam.

[7] Ey Füzuli, şam kimi yanmadan onun sünbülündən sənin can sapında olan düyünlər açılmaz.

* * *

Saqiya, cam tut ol aşiqə kim, qayğuludur,
Qayğu çəkmək nə üçün, cam ilə aləm doludur[1].

Təlx göftarsız olmaz ləbi-yar, ey aşiq,
Çox həvəs eyləmə ol şərbətə kim, ağuludur[2].

Qoyalım başı xümi-badə əyağinə gəlin,
Tutmamaq olmaz onun hürmətini, bir uludur[3].

Bunca kim, kuh sifət başimə daşlar urulur,
Dideyi-bəxtim oyanmaz, nə ağır uyğuludur[4].

Dili-pürxunimə yağdırma bəla peykanın,
Həzər et şişəyə, nagah zərər eylər, doludur[5].

Könlümün zəxminə peykanını etdim mərhəm,
Gənci-ğəmdir, nola gər böylə dəmir qapuludur[6].

Nərgisin fikri, Füzuli, gözü könlümdə gəzər,
Tutar ahu vətən ol yerdə ki, otlu, suludur[7].

---

[1] Ey saqi, qayğılı olan o aşiqə cam ver, qayğı çəkmək nə üçündür, cam ilə aləm doludur.
[2] Ey aşiq, yarın dodağı acı sözsüz olmaz, o şərbətə çox həvəs göstərmə ki, o ağılıdır.
[3] Gəlin başı şərab xümünün ayağına qoyaq, onun hörmətini tutmamaq olmaz, bir uludur.
[4] Bu qədər ki, başıma dağ kimi daşlar vurulur, bəxtimin gözü oyanmır, nə ağır yuxuludur.
[5] Qanlı ürəyimə bəla peykanlarını yağdırma, ehtiyatlı ol, birdən şüşəyə zərər verər, doludur.
[6] Ürəyimin yarasına peykanını mərhəm etdim, belə dəmir qapılıdırsa, nə olar, qəm xəzinəsidir.
[7] Füzuli, nərgizin fikri gözümdə və könlümdə gəzir, ahu o yerdə vətən tutar ki, otlu, suludur.



* * *

Məni zikr etməz el, əfsaneyi-Məcnunə maildir,
Nə bənzər ol mənə, dərdi onun dərmanə qabildir[1].

Biyabanlarda Məcnundan qəmü dərdim sual etmin,
Nə bilsin bəhr halın ol ki, mənzilgahi sahildir[2].

Mənim tək ola bilməz şöhreyi-şəhri-bəla Məcnun
Qəbul eylərmi bu rüsvalığı hər kim ki, aqildir[3].

Nə müşkil halı olsa aşiqin mə'şuq edər çarə,
Gər ol bidərd bilməzsə bu hali, hal müşkildir[4].

Fəraq əyyami seylabi-sirişkimdən xəbər tutmaz,
Qiyamət macərasından gör ol zalim nə qafildir[5].

Fəqihi-mədrəsə mə'zurdur inkari-eşq etsə,
Yox özgə elminə inkarımız, bu elmə cahildir[6].

Füzuli, el səni Məcnundan əfzun der məlamətdə,
Buna münkir degil, Məcnun dəxi mə'qulə qaildir[7].

---

[1] El məni yada salmır, Məcnun əfsanəsinə maildir, o, mənə bənzəmir, onun dərdi dərmanla sağalandır.
[2] Mənim qəm və dərdimi çöllərdə Məcnundan soruşmayın, mənzil yeri sahil olan dənizin halını nə bilsin?
[3] Məcnun mənim qədər bəla şəhərinin məşhuru ola bilməz, hər kim ki, ağıl sahibidir bu rüsvaylığı qəbul edərmi?
[4] Aşiqin nə çətin işi olsa, məşuq çarə edər, əgər o dərdsiz bu halı bilmirsə, vəziyyət çətindir.
[5] Ayrılıq vaxtında göz yaşımın selindən xəbər tutmaz, qiyamət əhvalatından o zalım gör necə xəbərsizdir.
[6] Mədrəsə fəqihi eşqi inkar etsə, üzürlüdür, özgə elmini inkar etməyimiz yoxdur, bu elmdə cahildir.
[7] Füzuli, el səni qınanmaqda Məcnundan artıq deyir, bunu inkar etmir, Məcnun özü də ağlabatanı etiraf edir.

* * *

Ol pərivəş kim, məlahət mülkünün sultanıdır,
Hökm onun hökmüdürür, fərman onun fərmanıdır[1].

Sürdü Məcnun növbətin, imdi mənəm rüsvayi-eşq,
Doğru derlər hər zaman bir aşiqin dövranıdır[2].

Ləhzə-ləhzə könlüm odundan şərərlərdir çıxan,
Qətrə-qətrə göz tökən sanmın sirişkim qanıdır[3].

Çakilər cismimdə tiği-eşqdən, eyb etməyiz,
Kim, cünun gülzarının bunlar güli-xəndanıdır[4].

Ey Füzuli, ola kim rəhm edə yar əfğanına,
Ağlagil zar, onca kim, zar ağlamaq imkanıdır[5].

[1] O pəri kimi olan gözəllik mülkünün sultanıdır, hökm onun hökmüdür, fərman onun fərmanıdır.

[2] Məcnun növbəsini sürdü, eşqin rüsvayı indi mənəm, doğru deyirlər hər zaman bir aşiqin dövranıdır.

[3] Anbaan ürəyimin odundan çıxan qığılcımlardır, damcı-damcı gözümdən tökülən, düşünməyin ki, göz yaşımın qanıdır.

[4] Eşq qılıncından bədənimdəki yaraları mənə eyib tutmayın, çünki bunlar dəlilik gülzarının açılmış gülləridir.

[5] Ey Füzuli, ola bilər ki, yarın əfğanına rəhm edə, zar-zar ağlamaq imkanı olduqca o qədər zar-zar ağla.



* * *

Mənim kim, bir ləbi-xəndan üçün giryanlığım vardır,
Pərişan türrələr dövründə sərgərdanlığım vardır[1].

Yaşım təxti-rəvandır, taci-zərrin şö'leyi-ahim,
Görün kim, dövləti-eşq ilə nə sultanlığım vardır[2].

Yumulmaz əşk tüğyanından ansız çeşmi-xunbarım,
Xəyali-surəti-canan ə xoş heyranlığım vardır[3].

Sirişkim gör, məni, ey əbr, özündən kəm xəyal etmə,
Həvayi-eşq ilə min səncə əşkəfşanlığım vardır[4].

Füzuli, cami-mey tərkin qılıb zöhd ilə təqvadən,
Qamu danayə rövşəndir bu kim, nadanlığım vardır[5].

[1] Mənim ki, bir gülən dodaq üçün ağlamağım vardır, pərişan tellərin dövrəsində sərgərdan dolanmağım vardır.

[2] Göz yaşım bir üzən taxtdır, ahımın şöləsi bir qızıl tacdır, görün ki, eşqin dövləti ilə necə sultanlığım vardır.

[3] Göz yaşı tüğyanından qansaçan gözüm əsla yumulmur, canan surətinin xəyalı ilə xoş heyranlığım vardır.

[4] Göz yaşımı gör, ey bulud, məni özündən əskik xəyal etmə, eşq havası ilə min sən qədər göz yaşı saçmağım vardır.

[5] Füzuli möminlik və dindarlıqdan şərab camını atıb, bütün bilənlərə bu aydındır ki, nadanlığım vardır.

* * *

Hər kitabə kim, ləbi-lə'lin hədisin yazələr,
Rişteyi-canbirlə zövq əhli onu şirazələr[1].

Bu nə sirdir, sirri-eşqin deməddən bir kimsəyə,
Şəhrə düşmüş mən səni sevdim deyən avazələr[2].

Şeyxlər meyxanədən üz döndərərlər məscidə,
Bitəriqətlər gərək kim, doğru yoldan azələr[3].

Çaklər köksümdə, sanmın kim, açıbdır tiği-eşq
Könlümün şəhrinə mehrin girməyə dərvazələr[4].

Ey Füzuli, yar əgər cövr etsə ondan incimə,
Yar cövrü aşiqə hər dəm məhəbbət tazələr[5].

---

[1] Hansı kitaba ləl dodağın sözünü yazsalar, zövq əhli olanlar onu can ipi ilə bağlayarlar.
[2] Bu nə sirdir, eşqinin sirrini bir kimsəyə demədən şəhərə "mən səni sevdim" deyən səslər düşmüşdür?
[3] Şeyxlər meyxanadan məscidə üz döndərərlər, yolsuzlar gərəkdir ki, doğru yoldan azalar.
[4] Köksümdəkiləri yaralar hesab etməyin, çünki eşq qılıncı mehrinin könlümün şəhərinə girməsi üçün darvazalar açıbdır.
[5] Ey Füzuli, əgər yar cövr etsə, incimə, yarın cövrü aşıq üçün hər an məhəbbəti təzələyir.



* * *

Sərvi-azad qədinilə mənə yeksan görünür,
Nəyə sərgəştə olan baxsa xuraman görünür[1].

Can görünməz desələr təndə inanman, nişə kim,
Lütfdən hər necə baxsam təninə can görünür[2]

Dərəm əhvalımı, canane qılam ərz, vəli,
Görə bilmən özümü onda ki, canan görünür[3].

Ey deyən: səbr qıl, ah eyləmə yarı göricək,
Mənə düşvardır ol, gər sənə asan görünür[4].

Sordum əhvalımı eşqində münəccimlərdən,
Baxdılar tale evinə, dedilər: qan görünür[5].

Nə kəmandarsan, ey məh ki, atıb qəmzə oxun.
Yıxdığın seyddə nə zəxm, nə peykan görünür[6].

Bir sənəm zülfünə guya ki, veribdir könlün
Ki, Füzulinin ikən halı pərişan görünür[7].

---

[1] Azad sərv mənə sənin boyunla bərabər görünür, çaşqın olan nəyə baxsa ona nazla yeriyən görünür.
[2] Bədəndə can görünməz desələr inanmaram, çünki bədəninə hər necə baxsam, lətafətdən can görünür.
[3] Deyirəm, əhvalımı canana bildirim, ancaq canan görünəndə özümü görə bilmirəm.
[4] Ey deyən, səbr et, yarı görəndə ah eləmə, o mənə çətindir, bəlkə sənə asan görünür.
[5] Onun eşqində vəziyyətimi münəccimlərdən soruşdum, tale evinə baxdılar, dedilər: qan görünür.
[6] Ey ay, necə yay çəkənsən ki, qəmzə oxunu atırsan, vurduğun ovda nə yara, nə peykan görünür.
[7] Füzulinin halı çox pərişan görünür, deyəsən, ürəyini bir sənəmin zülfünə veribdir.

* * *

Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor,
Zülali-ləl zövqün təşneyi-didar olandan sor[1].

Ləbin sirrin gəlib göftarə məndən özgədən sorma,
Bu pünhan nüktəni bir vaqifi-əsrar olandan sor[2].

Gözü yaşlıların halın nə bilsin mərdümi-qafil,
Kəvakib seyrini şəb ta səhər bidar olandan sor[3].

Xəbərsiz olma fəttan gözlərin cövrün çəkənlərdən
Xəbərsiz məstlər bidadını hüşyar olandan sor[4].

Qəmindən şəm' tək yandım, səbadən sorma əhvalım,
Bu əhvalı şəbi-hicran mənimlə yar olandan sor[5].

Xərabi-cami-eşqəm, nərgisi-məstin bilir halım,
Xərabət əhlinin halını bir xummar olandan sor[6].

Məhəbbət ləzzətindən bixəbərdir zahidi-qafil,
Füzuli, eşq zövqün zövqi-eşqi var olandan sor[7].

---

[1] Vüsalın şəfasının qədrini ayrılıq ilə xəstə olandan soruş, ləl dodağın zülalının zövqünü görüş təşnəsi olandan soruş.

[2] Dilə gəlib dodağın sirrini məndən özgədən soruşma, bu gizli mənanı bir sirləri biləndən soruş.

[3] Gözü yaşlıların halını qafil insan hardan bilsin, ulduzların seyrini axşamdan səhərə kimi oyaq olandan soruş.

[4] Fitnəli gözlərin zülmünü çəkənlərdən xəbərsiz olma, xəbərsiz sərxoşların zülmünü ayıq olandan soruş.

[5] Qəmindən şam kimi yandım, halımı səbadan soruşma, bu əhvalı ayrılıq gecəsi mənimlə yar olandan soruş.

[6] Eşq camının sərxoşuyam, sərxoş nərgizin halımı bilir, meyxana əhlinin halını bir şərab satandan soruş.

[7] Qafil zahid məhəbbət ləzzətindən xəbərsizdir, Füzuli, eşq zövqünü eşq zövqü olandan soruş.



* * *

Xəm açıldıqca zülfündən bəlavü möhnətim artar,
Bihəmdillah ki, ömrüm uzanar, cəm'iyyətim artar[1].

Demən* əksik məni tədric ilə yaqut olan daşdan,
Boyandıqca cigər qanilə qədrü qiymətim artar[2].

Tuta gör göz yolun, ey əşk kim, təmkinim əksikdir,
Bu surətxanənin gördükcə nəqşin heyrətim artar[3].

Mərizi-dərdi-eşqəm, tərki-aləmdir muradım kim,
Bu naxoş mülkdə əyləndigimcə zəhmətim artar[4].

Büküldü qamətim həsrət yükündən, vəh ki, aləmdə
Ümidim əskilib hər ləhzə, yüz min həsrətim artar[5].

Nə şərbətdir qəmin kim, içdigimcə əksilir səbrim,
Nə sehr eylər rüxün kim, baxdığımca rəğbətim artar[6].

Çox olduqca qəmü dərdim rəhi-eşq içrə xoşhalım,
Füzuli, şad olub şükr etməyimmi, ne'mətim artar[7].

---

[1] Saçından qıvrımlar açıldıqca bəla və möhnətim artır, Allaha şükür ki, ömrüm uzanır, yığnağım artır.

[2] Məni təcrid ilə yaquta çevrilən daşdan əksik deməyin, ciyər qanı ilə boyandıqca qədrim və qiymətim artır.

[3] Ey göz yaşım, göz yolunu tut ki, təmkinim əksikdir, bu surətxananın nəqşini gördükcə heyrətim artır.

[4] Eşq dərdinin xəstəsiyəm, muradım dünyanı tərk etməkdir, çünki bu naxoş mülkdə dayandıqca zəhmətim artır.

[5] Həsrət yükündən qamətim büküldü, vay, vay ki, dünyada ümidim hər an əksilir, yüz min həsrətim artır.

[6] Qəmin nə şərbətdir ki, içdikcə səbrim əksilir, üzün nə sehr edir ki, baxdıqca rəğbətim artır.

[7] Eşq yolu içində qəm və dərdim çox olduqca xoşhal oluram, Füzuli, şad olub şükr etməyimmi, nemətim artır.

* * *

Səbrim alıb fələk, mənə yüz min bəla verər,
Az olsa bir məta, ona el çox bəha verər[1].

Düşdüm bəlayi-eşqə xirədməndi-əsr ikən,
El indi məndən aldığı pəndi mana verər[2].

Sanmın əcəb, rütəb yerinə versə lə'li-tər,
Nəxli ki, qan-yaşım ona nəşvü nəma verər[3].

Xaki-dərindir ol ki, dünü gün səvab üçün,
Həm ayə sürmə, həm günəşə tutiya verər[4].

Qılmaz qəbul surəti-iqbal bunca kim,
Ayineyi-vücuduma cövrin cila verər[5].

Ney kimi cismim oldu oxundan dəlik-dəlik,
Dəm urduğumca yerli-yerindən səda verər[6].

Hər dərdsizdən umma, Füzuli, dəvaye-dərd,
Səbr eylə, kim ki, dərd veribdir, dəva verər[7].

[1] Fələk səbrimi alıb, mənə yüz min bəla verir, bir mal az olsa, el ona çox qiymət verir.
[2] Əsrin ağıllısı ikən eşq bəlasına düşdüm, el məndən aldığı öyüdü indi mənə verir.
[3] Xurma yerinə tər inci versə, təəccüblü saymayın, bir ağac ki, qanlı yaşım onu becərib cücərdir.
[4] Gecə-gündüz səvab üçün həm aya sürmə, həm günəşə tutiya verən sənin qapının torpağıdır.
[5] Sənin cövrün bu qədər ki, vücud aynama cila verir, bəxtimin surəti qəbul etməz.
[6] Bədənim oxundan ney kimi dəlik-dəlik oldu, nəfəs verdikcə yerli-yerindən səs çıxar.
[7] Füzuli, hər dərdsizdən dərdə dərman umma, səbr eylə ki, dərd veribdir, dərman da verər.



* * *

Əzəl katibləri üşşaq bəxtin qarə yazmışlar,
Bu məzmun ilə xətt ol səfheyi-rüxsarə yazmışlar[1].

Xəvasi-xaki-payın şərhini təhqiq edib mərdüm,
Qübarilə bəyazi-dideyi-xünbarə yazmışlar[2].

Gülüstani-səri-kuyin kitabın bab-bab, ey gül,
Xəti-reyhan ilə cədvəl çəkib, gülzarə yazmışlar[3].

İki sətr eyləyib ol iki meygun lə'llər vəsfin,
Görənlər hər birin bir çeşmi-gövhərbarə yazmışlar[4].

Girib bütxanəyə qılsan təkəllüm, can bulur şəksiz,
Müsəvvirlər nə surət kim, dərü divarə yazmışlar[5].

Mühərrirlər yazanda hər kəsə aləmdə bir ruzi,
Mənə hər gün dili-sədparədən bir parə yazmışlar[6].

Yazanda Vamiqü Fərhadü Məcnun vəsfin əhli-dərd,
Füzuli adını, gördüm, səri-tumarə yazmışlar[7].

[1] Əzəl katibləri aşiqlərin bəxtini qara yazmışlar, bu məzmun ilə o üzün səhifəsinə bir yazı yazmışlar.
[2] Adamlar ayaq torpağının xassələrinin şərhini öyrəniblər və qansaçan gözün ağına qübar (toz, qübari xətt) ilə yazmışlar.
[3] Ey gül, reyhani xətt ilə cədvəl çəkib sənin olduğun yerin gülüstan kitabını fəsil-fəsil gülzara yazmışlar.
[4] Görənlər o iki şərabrəngli dodağın tərifini iki sətir eyləyib hərəsini bir inçisaçan gözə yazmışlar.
[5] Bütxanaya girib danışsan, şəksiz, rəssamların qapı və divara çəkdiyi surətlər can tapar.
[6] Yazanlar dünyada hər kəsə, bir ruzi yazanda mənə də hər gün yüz parça olan ürəyimdən bir parça yazmışlar.
[7] Dərd əhli olanlar Vamiq, Fərhad və Məcnunun vəsfini yazanda gördüm ki, Füzuli adını kağızın başına yazmışlar.

* * *

Xəm qədilə ağlaram ol türreyi-tərrarsız,
Gərçi derlər çəngdən çıxmaz tərənnüm tarsız[1].

Sineyi-çakimdən əksik etmə tiri-qəmzəni,
Ey güli-rə'na, bilirsən kim, gül olmaz xarsız[2].

Saxlamazdım navəkin gözdə, bəlasın çəkməsəm,
Su verib ol nəxli bəslərdimmi olsa barsız[3]?

Yol azarsan zülməti-heyrətdə, ėy dil, vaqif ol,
Zinhar ol kuyə, varma ahi-atəşbarsız[4].

Giryeyi-zar ilə xoşhaləm ki, bəhri-eşqdə,
Əşksiz göz bir sədəfdir lö'löi-şəhvarsız[5].

Canə azari-xədəngin xoş gəlir, ey qaşı yay,
Bir sifariş qil ki, bizdən ötməsin azarsız[6].

Zöhddən keçməz Füzuli, eyləməz tərki-riya.
Pənd çox verdim eşitməz arsızdır, arsız[7].

---

[1] Əyilmiş qamətimlə o oğru tellərinsiz ağlayıram, hərçənd deyirlər ki, telsiz (simsiz) çəngdən səs çıxmaz.

[2] Ey gözəl gül, yaralı sinəmdən qəmzə oxunu əksik eləmə, bilirsən ki, gül tikansız olmaz.

[3] Bəlasını çəkməsəydim, oxunu gözümdə saxlamazdım, o ağaca su verib bəsləyərdimmi, barsız olsaydı?

[4] Ey ürək, heyrət zülmətində yolu azarsan, anla, amandır, atəşsaçan ahlarsız o yerə getmə.

[5] Zar-zar ağlamaqla xoşhalam, çünki eşq dənizində göz yaşı olmayan bir göz şahanə incisi olmayan bir sədəfdir.

[6] Ey qaşı yay, oxunun incitməsi cana xoş gəlir, bir sifariş et ki, bizi incitmədən ötməsin.

[7] Füzuli zöhddən keçmir, ikiüzlülüyü tərk eləmir, çox öyüd verdim, eşitmir, arsızdır, arsız.



* * *

Aləm oldu şad səndən, mən əsiri-qəm hənuz,
Aləm etdi tərki-qəm, məndə qəmi-aləm hənuz[1].

Can bağışlardı ləbin izhari-göftar eyləyib,
Vurmadan İsa ləbi canbəxşlikdən dəm hənuz[2].

Səcdəgah etmişdi eşq əhli qaşın mehrabını,
Qılmadan xeyli-məlaik səcdeyi-Adəm hənuz[3].

Canə dərdin, cismə peykanın rəvan etmişdi hökm,
Cism ilə can irtibatı olmadan möhkəm hənuz[4].

Əşk sərf eylər fələkdən kam hasil qılmağa,
Bu gühər qədrini bilməz dideyi-pürnəm hənuz[5].

Pərdeyi-çeşmim məqam etmişdi bir tərsabeçə,
Olmadan məhdi-Məsiha, daməni-Məryəm hənuz[6].

Ey Füzuli, eylədi hər dərdə dərman ol təbib,
Bir mənim zəxmimdir ancaq bulmayan mərhəm hənuz[7].

---

[1] Aləm səndən şad oldu, mən hələ qəm əsiriyəm, dünya qəmi tərk etdi, məndə hələ dünyanın qəmi var.

[2] İsanın dodağı hələ can bağışlamaqdan dəm vurmazdan əvvəl sənin dodağın danışmağa başlayıb can bağışlayardı.

[3] Mələklər dəstəsi hələ Adəmə səcdə etməzdən əvvəl aşiqlər sənin qaşının mehrabını səcdəgah etmişdilər.

[4] Canla bədənin əlaqəsi hələ möhkəm olmadan dərdin cana, oxun bədənə hökmünü yeridirdi.

[5] Fələkdən kam əldə etmək üçün göz yaşı xərcləyir, hələ bu nəmli göz bu gövhərin qədrini bilmir.

[6] Hələ Məryəmin ətəyi Məsihin beşiyi olmamış bir xaçpərəst balası gözümün pərdəsində yer eləmişdi.

[7] Ey Füzuli, o təbib hər dərdə dərman elədi, hələ mərhəm tapmayan bircə mənim yaramdır.

* * *

Razi-eşqin saxlaram eldən nihan, ey sərvinaz,
Getsə başım şəm' tək mümkün degil ifşayi-raz[1].

Xublər mehrabi-əbrusinə meyl etməz fəqih,
Ölsə kafərdir, müsəlmanlar, ona qılmın nəmaz[2].

Kimsə ol bədxuyə izhar edə bilməz halımı,
Ey sürudi-nalə, tanriçün sən olğıl çarəsaz[3].

Qalibim görmüş tühi, tökmək dilər bir tazə ruh,
Bərqi-ahim kim, gələn peykanına vermiş güdaz[4].

Xubsurətlərdən, ey naseh, məni mən' etmə kim,
Pərtövi-ənvari-xurşidi-həqiqətdir məcaz[5].

Mən xud öldüm, ey türabımdan olan sağər, müdam,
Rindlər bəzmin gəzib bir-bir yetir məndən niyaz[6].

Ey Füzuli, qalmışam heyrətdə, bilmən neyləyim,
Dövr-zalim, bəxt-nafərcam, tələb-çox, ömr-az[7].

---

[1] Ey nazlı sərv, eşqinin sirrini eldən gizli saxlaram, şam kimi başım getsə də, sirrin açılması mümkün deyil.

[2] Fəqih gözəllərin qaşının mehrabına meyl etməz, ölsə, kafirdir, müsəlmanlar, ona namaz qılmayın.

[3] Heç kim o tünd xasiyyətliyə mənim halımı deyə bilməz, ey naləmin musiqisi, Tanrı üçün, sən çarə edən ol.

[4] Yardan gələn peykanları əridən ahımın ildırımı qəlibimi boş görüb təzə ruh tökmək istəyir.

[5] Ey öyüd verən, məni gözəl surətlilərdən çəkindirmə, çünki məcaz həqiqət günəşinin nurlarının parıltısıdır.

[6] Mən özüm öldüm, ey torpağımdan olan qədəh, həmişə rindlər məclisində gəzib,bir-bir məndən dua yetir.

[7] Ey Füzuli, heyrətdə qalmışam, bilmirəm neyləyim, dövr zalım, bəxt tərs, istək çox, ömür azdır.



* * *

Fəğan kim, bağrımın ol lalərüx qan olduğun bilməz,
Cigər pərkaləsində daği-pinhan olduğun bilməz[1].

Həbibim könlümü cəm' eyləməz rüxsarı dövründə,
Məgər zülfü kimi halım pərişan olduğun bilməz[2]?

Qılır təqsir, edib bir lütf hər dəm könlüm almaqdan,
Vəfa rəsmin sanır düşvar, asan olduğun bilməz[3].

Gözəllər dövləti-vəslin bulub, məğrur olan aşiq,
Nəşati-vəsldə ənduhi-hicran olduğun bilməz[4].

Dili-sədparədən bidad kəsməz qəmzeyi-məstin,
Nə qafil padişəhdir, mülk viran olduğun bilməz[5].

Sanır zahid özün xali xəyalından, qələtdir bu,
Bu, heyran olduğundandır ki, heyran olduğun bilməz[6].

Füzuli xəstəyə düşmən sözilə dust cövr eylər,
Zəhi sadə, müariz qovli böhtan olduğun bilməz[7].

---

[1] Fəğan ki, o lalə yanaqlı bağrımın qan olduğunu bilmir, ciyər parçasında gizli dağ olduğunu bilmir.

[2] Sevdiyim könlümü üzünün dövrəsində bir yerə yığmır, yoxsa saçları kimi halımın pərişan olduğunu bilmir.

[3] Hər an bir lütf könlümü almaqda qüsura yol verir, vəfa qaydasını çətin sayır, asan olduğunu bilmir.

[4] Gözəllərin vüsalının dövlətini tapıb məğrur olan aşiq vüsal sevincində ayrılıq qəmi olduğunu bilmir.

[5] Sərxoş qəmzən yüz parça olmuş ürəyimə zülm etməyini dayandırmaz, necə qafil padşahdır, ölkənin viran olduğunu bilmir.

[6] Zahid özünü sənin xəyalından xali sayır, bu yanlışdır, bu, heyran olduğundandır ki, heyran olduğunu bilmir.

[7] Xəstə Füzuliyə düşmən sözü ilə dost zülm edir, əcəb sadədir, düşmən sözünün böhtan olduğunu bilmir.

* * *

Neçə illər səri-kuyi-məlamət bəkləriz,
Ləşgəri-sultani-irfaniz, vilayət bəkləriz[1].

Sakini-xaki-dəri-meyxanəyiz şamü səhər,
İrtifai-qədr üçün babi-səadət bəkləriz[2].

Cifeyi-dünya degil kərkəs kimi mətlubumuz,
Bir bölük ənqaləriz, Qafi-qənaət bəkləriz[3].

Xab görməz çeşmimiz əndişeyi-əğyardən,
Pasibaniz, gənci-əsrari-məhəbbət bəkləriz[4].

Surəti-divar edibdir heyrəti-eşqin bizi,
Ğeyr seyri-bağ edər, biz künci-möhnət bəkləriz[5].

Karivani-rahi-təcridiz xətər xofin çəkib,
Gah Məcnun, gah mən dövr içrə növbət bəkləriz[6].

Sanmanız kim, gecələr bühudədir fəryadımız,
Mülki-əşq içrə həsari-istiqamət bəkləriz[7].

Yatdılar Fərhadü Məcnun məsti-cami-eşq olub,
Ey Füzuli, biz olar yatdıqca söhbət bəkləriz[8].

---

[1] Neçə illərdir danlaq yurdunun başında gözləyirik, ürfan sultanının qoşunuyuq, vilayəti gözləyirik.
[2] Meyxana qapısının torpağının sakiniyik, gecə-gündüz qədrimizin yüksəlməsi üçün səadət qapısını gözləyirik.
[3] Mətləbimiz quzğun kimi dünya cəmdəyi deyil, bir bölük ənqalarıq, qənaət Qafını gözləyirik.
[4] Düşmənin fikrindən gözümüz yuxu görmür, gözətçiyik məhəbbət sirlərinin xəzinəsini gözləyirik.
[5] Eşqinin heyrəti bizi divardakı surətə çevirmişdir, özgə bağı seyr edir, biz möhnət bucağını gözləyirik.
[6] Təcrid yolunun karvanıyıq, təhlükə qorxusu çəkib, gah Məcnun, gah mən dövr içində növbə gözləyirik.
[7] Gecələr etdiyimiz fəryadımızın bihudə olduğunu düşünməyin, eşq ölkəsi içərisində sabitlik hasarını gözləyirik.
[8] Fərhad və Məcnun eşq camından sərxoş olub yatdılar, ey Füzuli, onlar yatdıqca biz söhbət gözləyirik.



* * *

Könüldə min qəmim vardır ki, pünhan eyləmək olmaz,
Bu həm bir qəm ki, el tə'nindən əfğan eyləmək olmaz[1].

Nə müşkül dərd olursa bulunur aləmdə dərmanı,
Nə müşkül dərd imiş eşqin ki, dərman eyləmək olmaz[2].

Fəna mülkünə çox əzm etmə, ey dil, çəkmə zəhmət kim,
Bu tədbir ilə dəf'i-dərdi-hicran eyləmək olmaz[3].

Saqın könlüm, yıxarsan, pənddən dəm vurma, ey naseh,
Həvayi-nəfs ilə bir mülki viran eyləmək olmaz[4].

Dəhanın üzrə lə'lin istəmiş dil, dəf'i müşküldür,
Görünməz hiç cürmü, yox yerə qan eyləmək olmaz[5].

Dualar eylərəm, məndən yana bir dəm güzar etməz,
Nə çarə, sehrilə sərvi xuraman eyləmək olmaz[6].

Füzuli, aləmi-qeyd içrəsən, dəm urma eşqindən
Kəmali-cəhl ilə də'vayi-irfan eyləmək olmaz[7].

---

[1] Könüldə min qəmim vardır ki, gizləmək olmaz, bu da bir qəmdir ki, elin tənəsindən əfğan eyləmək olmaz.
[2] Nə çətin dərd olursa, dünyada min dərmanı tapılır, eşqin nə çətin dərd imiş ki, dərman eyləmək olmaz.
[3] Ey ürək, yoxluq mülkünə doğru çox hərəkət etmə, zəhmət çəkmə ki, bu tədbir ilə ayrılıq dərdini aradan qaldırmaq olmaz.
[4] Ey öyüdçü, çəkin, könlümü yıxarsan, nəsihətdən dəm vurma, nəfs istəyi ilə bir mülkü viran eyləmək olmaz.
[5] Ürək ağzın üstündə dodağını istəmişdir, rədd etmək çətindir, günahı heç görünmür, yox yerə qan eləmək olmaz.
[6] Dualar edirəm, mənə sarı bir gəlmir, nə çarə, sehr ilə sərvi nazla yeriyən etmək olmaz.
[7] Füzuli, qayğılar aləmindəsən, eşqindən dəm vurma, tam bir cəhl ilə ürfan davası etmək olmaz.

* * *

Təşneyi-cami-visalın abi-heyvan istəməz,
Maili-muri-xətin mülki-Süleyman istəməz[1].

Zülməti-zülfün giriftarı dəm urmaz nurdən,
Talibi-şəm'i-rüxün xurşidi-rəxşan istəməz[2].

Eyləməz meyli-behişt üftadeyi-xaki-dərin,
Sakini-künci-qəmin seyri-gülüstan istəməz[3].

Cövrdən ah etmə, ey aşiq ki, eyni-lütfdür,
Dust, əsbabi-kəmali-hüsnə nöqsan istəməz[4].

Eşqdən vəhm etməsin aşiq, yıxar könlüm deyib,
Hiç sultanəm deyən mülkünü viran istəməz[5].

Aşiq isən rindü rüsvalıqdan ikrah etmə kim,
Eşq sirrin iqtizayi-dövr pinhan istəməz[6].

Ey Füzuli, müttəsil dövran müxalifdir mana,
Qaliba ərbabi-iste'dadı dövran istəməz[7].

---

[1] Sənin vüsal camının təşnəsi dirilik suyu istəməz, xəttinin qarışqasına mail olan Süleyman mülkü istəməz.

[2] Saçının zülmətinə əsir olan nurdan dəm vurmaz, üzünün şamını axtaran parlaq günəş istəməz.

[3] Qapının torpağına düşən cənnət meyli eləməz, qəm küncünün sakini gülüstan gəzintisi istəməz.

[4] Ey aşiq, zülm əlindən ah etmə, eynən lütfdür, dost gözəlliyin kamala çatma vasitələrinə nöqsan istəməz.

[5] Könlümü yıxar deyib aşiq eşqdən qorxmasın, heç bir sultanam deyən mülkünü viran etməz.

[6] Əgər aşiqsənsə rind və rüsvalıqdan ikrah eləmə ki, eşq sirrini dövran gizli istəməz.

[7] Ey Füzuli, həmişə dövran mənə ziddir, çox güman, istedad sahiblərini dövran istəmir.



* * *

Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz[1].

Artıran söz qədrini sidqilə qədrin artırır,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz[2].

Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz[3].

Bir nigari-ənbərinxətdir könüllər almağa
Göstərir hərdəm niqabi-qeybdən rüxsar söz[4].

Xazini-gəncineyi-əsrardır hərdəm çəkər
Rişteyi-izharə min-min gövhəri-əsrar söz[5].

Olmayan qəvvasi-bəhri-mə'rifət arif degil
Kim, sədəf tərkibi-təndir, lö'löi-şəhvar - söz[6].

Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz[7].

---

[1] Söz hər an ağzın sirrini xalqa bildirir, bu nə sirdir ki, hər göz qırpımında söz yoxdan var olur.

[2] Doğruluqla sözün qiymətini artıran öz qiymətini artırır, çünki söz nə qiymətdə olsa, sahibini də o qiymətdə edir.

[3] Sözə can ver ki, ölüm yuxusu səni tutduqda söz səni həmişə o yuxudan oyatsın.

[4] Söz ənbər ətirli xətti olan bir gözəldir ki, könülləri almaq üçün hər an qeyb pərdəsindən üzünü göstərir.

[5] Söz sirlər xəzinəsinin xəzinədarıdır, hər an danışıq sapına minlərlə sirlər incisi düzür.

[6] Mərifət dənizində üzgüçü olmayan arif deyil, çünki bədən tərkibi sədəfdirsə, söz şahanə incidir.

[7] Füzuli, əgər izziətini çox istəyirsənsə, sözü az et, çünki söz çox olmaqdan çox əzizləri xar (hörmətsiz) edibdir.

* * *

Mənə badi-səba ol sərvi-gülrüxdən xəbər verməz,
Açılmaz qönçeyi-bəxtim, ümidim nəxli bər verməz[1].

Töküb göz yaşını sənsiz həlakim istərəm, əmma
Əcəl peykinə seyli-əşk girdabi güzər verməz[2].

Gözümdə məskən et, xari-müjəmdən e'tiraz etmə,
Güli-xəndanə sordum, xarə yar olmaq zərər verməz[3].

Əgər can almaq istərsən, tənimdən oxunu kəsmə,
Ki, pəjmürdə nihalə verməyincə su səmər verməz[4].

Qiyas et şəm'dən, vəhm eylə çərxin inqilabından
Kim, ol baş almağa qəsd etməyincə taci-zər verməz[5].

Bəla zimnində rahət olduğun izhar edər xəlqə
Fələk, bihudə xari-xüşkdən gülbərgi-tər verməz[6].

Füzuli, dəhrdən kam almaq olmaz olmadan giryan,
Sədəf su almayınca əbri-nisandan gühər verməz[7].

[1] Səhər yeli mənə o gülüzlü sərvdən xəbər vermir, bəxtimin qönçəsi açılmır, ümidimin ağacı bar vermir.

[2] Sənsiz göz yaşımı töküb özümü öldürmək istəyirəm, ancaq əcəl qasidinə göz yaşı selinin burulğanı yol vermir.

[3] Gözümdə məskən et, kirpiyimin tikanından çəkinmə, açılmış güldən soruşdum, tikana yar olmaq ziyan vermir.

[4] Əgər can almaq istəyirsənsə, qılıncını bədənimdən kəsmə, çünki solmuş ağaca su vermədikcə meyvə verməz.

[5] Şamdan nümunə götür, çərxin dəyişməsindən çəkin, çünki o, baş almağa qəsd etməmiş qızıl tac verməz.

[6] Fələk nahaq yerə quru tikandan tər gül yarpağı vermir, xalqa bəla içində rahatlıq olduğunu bildirir.

[7] Füzuli, ağlamadan dünyadan kam almaq olmaz, sədəf neysan buludundan su almayınca inci verməz.



* * *

Kuhkəndən gözükür kuhdə asar hənuz.
Ol nə bənzər mənə, onun əsəri var hənuz[1].

Çəkdi Məcnun ayağın badiyədən, leyk verir
Qanlı güllər ayağından çəkilən xar hənuz[2].

Vadiyi-eşqdə sevda ilə sərgəştə idim,
Gəlmədən gərdişə bu günbədi-dəvvar hənuz[3].

Nöqteyi-xalinə bağlanmış idi canü könül,
Gəzmədən daireyi-dövrdə pərgar hənuz[4].

Mahə çəkdim şəbi-hicran ələmi-şö'leyi-ah,
Ah kim, olmadı ol mah xəbərdar hənuz[5].

Naleyi-zarım ilə xəlqə həram oldu yuxu,
Qarə bəxtim yuxudan olmadı bidar hənuz[6].

Mərhəmi-vəslin ilə buldu qamu dərdə dəva,
Bu Füzuli ələmi-hicr ilə bimar hənuz[7].

[1] Dağçapandan hələ dağda izlər görünür, o mənə hardan bənzəyər, onun hələ izi var.

[2] Məcnun ayağını çöldən çəkdi, ancaq ayağından çəkilən tikan hələ qanlı güllər verir.

[3] Hələ bu fırlanan çərx hərəkətə gəlmədən mən eşq çölündə sevda ilə sərgərdan idim.

[4] Hələ dövranın dairəsində pərgar gəzmədən mənim canım və könlüm xalının nöqtəsinə bağlanmışdı.

[5] Ayrılıq gecəsi ahımın şöləsinin bayrağını aya ucaltdım, ah ki, o ay hələ də xəbərdar olmadı.

[6] Ağlar naləm ilə xalqa yuxu haram oldu, qara baxtım yuxudan hələ də oyanmadı.

[7] Vüsalının mərhəmi ilə bütün dərdlər dərman tapdı, bu Füzuli isə hələ ayrılıq qəmi ilə xəstədir.

* * *

Məskən, ey bülbül, sənə gəh şaxi-güldür, gəh qəfəs,
Necə aşiqsən ki, ahindən tutuşmaz xarü xəs[1].

Yar kuyində gər olsaydı, müsəlmanlar, yerim,
Kafərəm gər rövzeyi-rizvanə eylərdim həvəs[2].

Kuh fəryadi-sədasin verdi Fərhadın demin,
Nəqşi-Şirindir verir avaz, olub fəryadrəs[3].

Naqə Leyli məhmilin çəkmiş biyaban seyrinə,
Eylə Məcnunu bu halətdən xəbərdar, ey cərəs[4]!

Bir nəfəs qalmış həyatımdan, həbibim, sübh tək,
Nola gər bir mehr göstərsən mənə axır nəfəs[5].

Xali etdim dil həvayi-ixtilati-xəlqdən,
Bəzmi-qəmdə ney kimi həmdəm mənə fəryad bəs[6].

Ey Füzuli, gər sənə cəm'iyyəti-dildir murad,
Bağla bir dildarə könlün, qeyrdən peyvəndi kəs[7].

---

[1] Ey bülbül, sənin məskənin gah gül budağıdır, gah qəfəs, necə aşiqsən ki, ahından çör-çöp od tutmur?

[2] Ey müsəlmanlar, yarın olduğu yerdə əgər yerim olsaydı, cənnət bağçasına həvəs eləsəm, kafirəm.

[3] Deməyin ki, dağ Fərhadın fəryadının sədasını verdi, səs verən Şirinin nəqşidir, fəryada yetmək istəyir.

[4] Ey zınqırov, dəvə Leylinin kəcavəsini çöl gəzintisinə çəkib, Məcnunu bu işdən xəbərdər eylə.

[5] Sevgilim, sübh kimi həyatımdan bir nəfəs qalmışdır, əgər mənə bu axır nəfəsdə bir mehr göstərsən, nə olar.

[6] Könlümü xalqla əlaqə havasından boşaltdım, ney kimi qəm məclisində fəryadımın həmdəm olmağı bəsdir.

[7] Ey Füzuli, əgər sənin muradın ürəyinin bir yerə yığılmağıdırsa, ürəyini bir dildara bağla, özgə ilə əlaqəni kəs.



* * *

Ey xoş ol məst ki, bilməz qəmi-aləm nə imiş,
Nə çəkər aləm üçün qəm, nə bilir qəm nə imiş[1].

Bir pəri silsileyi-eşqinə düşdüm nagah,
Şimdi bildim səbəbi-xilqəti-Adəm nə imiş[2].

Vaiz ovsafi-cəhənnəm deyər, ey əhli-vərə,
Var onun məclisinə, bil ki, cəhənnəm nə imiş[3].

Oxu köksümdən ötüb, qalmış imiş peykanı,
Ah, bildim səbəbi-ahi-dəmadəm nə imiş[4].

Ey Füzuli, məzeyi-saqiyü səhba bildin,
Tövbə qıl, ta biləsən zərqü riya həm nə imiş[5].

---

[1] O sərxoşun xoşa halına ki, dünyanın qəminin nə olduğunu bilməz imiş, nə dünya üçün qəm çəkir, nə də qəm nə olduğunu bilirmiş.

[2] Birdən bir pərinin eşq zəncirinə düşdüm, indi bildim ki, Adəmin yaranmasının səbəbi nə imiş.

[3] Vaiz cəhənnəmin təsvirini söyləyir, ey mömin, onun məclisinə get, bil ki, cəhənnəm nə imiş.

[4] Oxu köksümdən ötüb, peykanı qalıbmış, ah, bildim anbaan ah çəkməyin səbəbi nə imiş.

[5] Ey Füzuli, saqinin və şərabın dadını bildin, tövbə et, ta biləsən ki, saxtakarlıq və ikiüzlülük nə imiş.

* * *

Büti-novrəsim nəmazə şəbü ruz rağib olmuş,
Bu nə dindir, Allah-Allah, bütə səcdə vacib olmuş[1].

Əsəri-qəbuli-taət ona vermiş öylə halət
Ki, qülubi-əhli-halə hərəkatı cazib olmuş[2].

Fərəhim görüb, cəfasın həsənatə daxil eylər,
Nə mələk kim, ol pərinin əməlinə katib olmuş[3].

Nə əcəb gər olsa qəmdən dünümü günüm bərabər,
Nəzərimdən ol üzü gün neçə gün ki, qaib olmuş[4].

Qəmi-hicrdir kim, artar əsərilə eşq zövqü,
Qələt eyləmiş Füzuli ki, vüsalə talib olmuş[5].

[1] Yeniyetmə bütüm (gözəlim) gecə-gündüz namaz qılmağa rəğbət göstərir, bu nə dindir. Allah! Allah! Bütə səcdə etmək vacib olmuşdur.

[2] Taətinin qəbulunun təsiri ona elə bir görkəm vermişdir ki, hərəkətləri hal əhli olanların qəlbini özünə çəkmişdir.

[3] O pərinin əməllərini yazan mələk mənim fərəhləndiyimi görüb onun cəfasını yaxşı əməllər sırasına daxil edir.

[4] Neçə gün o günəş üzlü gözümdən qaib olmuşdu, gecəmlə gündüzüm əgər qəmdən bərabər olsa, burada təəccüblü nə var?

[5] Ayrılıq dərdidir ki, onun təsiri ilə eşq zövqü artar, Füzuli səhv edib ki, vüsal istəmişdir.



* * *

Bilməz idim, bilmək ağzın sirrini düşvar imiş,
Ağzını derlərdi yox, dediklərincə var imiş[1].

Aciz olmuş yıxmağa ah ilə kuhi Kuhikən,
Neyləsin miskin, onun eşqi həm ol miqdar imiş[2].

Daşə çəkmiş xəlq üçün Fərhad, Şirin surətin,
Ərz qılmış xəlqə məhbubin, əcəb biar imiş[3].

Kə'bə ehraminə zahid, dedilər, bel bağladı,
Eylədim təhqiq; onun bağlandığı zünnar imiş[4].

Ömrlərdir eylərəm əhvali-dünya imtəhan,
Nəqdi-ömrü hasili-dünya həman bir yar imiş[5].

Zövqi-didarilə dildarın yox etdim varimi,
Dövləti-baqi ki, derlər, dövləti-didar imiş[6].

Dun Füzuli arizin görgəc, rəvan-tapşırdı can,
Laf edib derdi ki, canım var, əmanətdar imiş[7].

[1] Bilməzdim ki, ağzın sirrini bilmək çətin imiş, deyirdilər ağzı yoxdur, dedikləri qədər var imiş.

[2] Dağçapan dağı ahı ilə yıxmağa aciz olmuşdur, yazıq neyləsin, onun eşqi də o qədər imiş.

[3] Fərhad Şirinin surətini xalq üçün daşa çəkmişdir, sevgilisini xalqa göstərmişdir, əcəb arsız imiş.

[4] Dedilər, zahid Kəbə həraminə bel bağladı, öyrəndim, onun bağlandığı zünnar imiş.

[5] Ömürlərdir dünyanın halını imtahan edirəm, ömrün varı, dünyanın qazancı elə bir yar imiş.

[6] Dildarın üzünü görmək zövqü ilə varımı yox etdim, əbədi (baqi) dövlət dedikləri onun üzünü görmək dövləti imiş.

[7] Gecə Füzuli üzünü görən kimi can verdi, boş-boş danışıb deyirdi ki, canım var, demə ancaq əmanət saxlayan imiş.

* * *

Dil ki, sərmənzili ol zülfi-pərişan olmuş,
Nola cürmi ki, asılmasına fərman olmuş[1].

Şahisən mülki-məlahətdə, sənə qullar çox,
Biri oldur ki, varıb Misrdə sultan olmuş[2].

Rəhm edib aşiqini həşr günü yaqmayalar,
Ki, bu dünyada əsiri-qəmi-hicran olmuş[3].

Dedilər qəm gedirər badə, çox içdim, sənsiz
Qəmi-hicranə müfid olmadı ol qan olmuş[4].

Bağibani-çəməni-dəhrə xəyali-dəhənin
Səbəbi-tərbiyəti-qönçeyi-xəndan olmuş[5].

Adəm əvvəl səri-kuyin verib almış cənnət,
Eşidib tə'ni-mələk, sonra peşiman olmuş[6].

Ey Füzuli, mənim əhvalimə bir vaqif yox,
Böylə kim, aləm onun hüsnünə heyran olmuş[7].

---

[1] Ürəyin məskəni o pərişan zülf olmuşdur, günahı nə olmuşdur ki, asılmasına fərman verilmişdir.
[2] Gözəllik mülkündə şahsan, sənə qullar çoxdur, biri odur ki, gedib Misirdə sultan olmuşdur.
[3] Rəhm edib qiyamət günü aşiqini yandırmayalar, çünki bu dünyada ayrılıq qəminin əsiri olmuşdur.
[4] Dedilər: şərab qəmi aparır, çox içdim, sənsiz ayrılıq qəminə o qan olmuş fayda vermədi.
[5] Ağzının xəyalı dünya çəməninin bağbanı üçün açılmış qönçəni bəsləməyin səbəbi olmuşdur.
[6] Adəm əvvəlcə olduğu yeri verib cənnət almış, mələklərin tənəsini eşidib sonra peşman olmuşdur.
[7] Ey Füzuli, mənim əhvalımı bir bilən yoxdur, belə ki, aləm onun gözəlliyinə heyran olmuşdur.



* * *

Ta ki, taqi-zərnigarın çərx viran eyləmiş.
Xişti-zərrinin səba fərşi-gülüstan eyləmiş[1].

Katibi-təqdir xətti-səbz təhrir etməyə
Lövhi-gülzari xəzan bərgi zərəfşan eyləmiş[2].

Qət' edib fəsli-xəzan abi-rəvan şirazəsin,
Nüsxeyi-gülzarın övraqın pərişan eyləmiş[3].

Dövr cövrün gör ki, nüzhətgahi-əhli-zövq ikən,
Cuybari-gülşəni zənciri-zindan eyləmiş[4].

Eyləmiş tədbiri-təşvişi-xəzan taracının
Lalə, rəngin rəxtini dağ içrə pinhan eyləmiş[5].

Ruzigarin tirə, bəxtin qarə, nitqin lal edib,
Matəmi-gül bülbülü zağ ilə yeksan eyləmiş[6].

Ey Füzuli, dəhr halin şaxi-güldən qıl qiyas
Kim, verib əvvəl təcəmmül, sonra üryan eyləmiş[7].

---

[1] Elə ki, çərx qızıl naxışlı tağını viran etmişdir, səba qızıl kərpiclərini gülüstanın döşəməsi etmişdir.
[2] Qədər katibi yaşıl xətlər yazmaq üçün gülzarın lövhəsini qızılsaçan etmişdir.
[3] Payız fəsli axar suyun qaytanını kəsib gülzar duasının vərəqlərini dağıtmışdır.
[4] Dövrün zülmünə bax ki, zövq əhlinin sevinc yeri olduğu halda gülşənin arxını zindan zəncirinə çevirib.
[5] Lalə payız talanı təşvişinə tədbir görmüşdür, əlvan paltarını dağın içində gizlətmişdir.
[6] Gülün matəmi bülbülün halını xarab, ruzigarını qaranlıq, bəxtini qara, dilini lal edərək özünü qarğaya tay etmişdir.
[7] Ey Füzuli, dünyanın halını gül budağından anla ki, əvvəl bəzək verib, sonra çılpaq etmişdir.

* * *

Cismimi yandırma, rəhm et yaşimə, ey bağrı daş!
Ehtiyat et, yanmasın nagah quru odunda yaş[1].

Xoş keçər nəzzareyi-hüsnünlə ömrüm, var ümid
Kim, edə məqbuli-dərgahın məni hüsni-məaş[2].

Tovfi-kuyində ayağdan başə irmiş bir məded,
Nola gər qəddim büküb hərdəm, ayağım olsa baş[3].

Fitnə yayın qurmağa atəşmi olmuş ehtiyac
Kim, urarsan aləmə atəş, çatub peyvəstə qaş[4].

Ey hübabi-əşk, nayab et təni-üryanımı
Kim, bu rüsva pərdəmi çak etdi, sirrim qıldı faş[5].

Parə-parə könlümün suzi-dərunə tabı yox,
Göz yolundan qətrə-qətrə qan olub, çıxsaydı kaş[6].

Ey Füzuli, qərqi-xunab etdi göz mərdümlərin,
Görəyim qüllabi-müjganə urulsun qanlı yaş[7].

---

[1] Ey bağrı daş, bədənimi yandırma, yaşıma rəhm elə, ehtiyat elə, quru odunda birdən yaş da yanmasın.

[2] Gözəlliyinə baxmaqla ömrüm xoş keçər, ümid var ki, dərgahında qəbul olunmağım məni xoşbəxt etsin.

[3] Sənin olduğun yerin başına dolanmaq üçün ayaqdan başa bir kömək çatmışdır, əgər hər an qamətimi əyib ayağım baş olsa, təəccüblü deyil.

[4] Fitnə yayını qurmaq üçün atəşəmi ehtiyac olmuşdur ki, həmişə qaşını çatıb dünyaya od vurarsan.

[5] Ey göz yaşımın köpüyü, çılpaq bədənimi elə tapılmaz et ki, bu rüsvaçı pərdəmi yırtdı, sirrim faş oldu.

[6] Para-para olmuş könlümün daxili yanğıya dözümü yoxdur, kaş damcı-damcı qan olub göz yolundan çıxaydı.

[7] Ey Füzuli, göz bəbəyini qanlı yaşa qərq etdi, görüm kirpik qarmağına qanlı yaş vurulsun.



* * *

Xəlqə xublardan vüsali-rahətəfzadır qərəz,
Aşiqə ancaq təsərrüfsüz təmaşadır qərəz[1].

Zahida, tərk etmə şahidlər vüsali-rahətin,
Gər ibadətdən həmin qılmanü huradır qərəz[2].

Hurü kövsərdən ki, derlər rövzeyi-rizvanda var,
Saqiyi-gülçöhrəvü cami-müsəffadır qərəz[3].

Zövqsüz lazım çıxar dünyadan ol dünyapərəst
Kim, ona dünyadan ancaq zövqi-dünyadır qərəz[4].

Rahət olsaydı qərəz, dünyadə fəqr istərdi xəlq,
Qaliba kim, xəlqə bir bihudə qovğadır qərəz[5].

Arif ol, sevdayi-eşq inkarın etmə, ey həkim
Kim, vücudi-xəlqdən ancaq bu sevdadır qərəz[6].

Qıl Füzuli, tərk ibrami-təkəllüm kim, yetər
Surəti-halın, gər izhari-təmənnadır qərəz[7].

---

[1] Xalqa gözəllərdən məqsəd rahatlıq artıran görüşdür, aşiqə məqsəd ancaq heç nə istəmədən tamaşa etməkdir.

[2] Ey zahid əgər ibadətdən məqsəd haman qılman və huridirsə, gözəllərin rahatlıq vüsalını tərk etmə.

[3] Deyirlər ki, cənnət bağında huri və kövsər vardır, bundan qərəz gülüzlü saqi və saf şərab dolu camdır.

[4] O dünyapərəst dünyadan lazımdırsa zövqsüz çıxar, çünki ona dünyadan məqsəd ancaq dünya zövqüdür.

[5] Məqsəd rahatlıq olsaydı, xalq dünyada yoxsulluq istəyərdi, deyəsən, xalqa məqsəd boş bir qovğadır.

[6] Ey həkim, arif ol, eşq sevdasını inkar etmə, çünki xalqın var olmağında məqsəd ancaq bu sevdadır.

[7] Füzuli danışmaqda israr etməyi tərk et ki, əgər məqsədin istəyini bildirməkdirsə, vəziyyətinin necəliyi yetər.

* * *

Qıl, səba, könlüm pərişan olduğun canana ərz,
Surəti-halın bu viran mülkün et sultanə ərz[1].

Dərhəm olmuş sünbülün guya ki, qılmışdır ona
Mu bə-mu hali-dilim, dillər uzadıb şanə ərz[2].

Təndə canım bir pərinindir əmanət saxlaram
Ol zamandan kim, əmanət qıldılar insanə ərz[3].

Xəlq küfr əhlinə iman ərz edər, mən dəmbədəm
Küfri-zülfün eylərəm köksümdəki imanə ərz[4].

Surəti-bican ilə cənnət dolar bütxanə tək,
Qılsalar cənnətdə təsvirin çəkib qılmanə ərz[5].

Mün'imin ərzi-təcəmmüldür işi fəqr əhlinə,
Nola gər dil qılsa hərdəm dərdi-eşqin canə ərz[6].

Ey Füzuli, böylə pünhan tutma əşki-alını,
Eylə hər rəngilə kim, var ol güli-xəndanə ərz[7].

---

[1] Səhər yeli, könlümün pərişan olduğunu canana bildir, bu xaraba mülkün vəziyyətinin necəliyini sultana bildir.

[2] Sünbül saçın dağılmışdır, sanki, ürəyimin halını bircə-bircə daraq dil uzadıb ona bildirmişdir.

[3] Bədəndə canım bir pərinin əmanətidir, o zamandan saxlayıram ki, əmanəti insana bildiriblər.

[4] Xalq küfr əhli olanlara iman bildirir, mən hər an zülfünün küfrünü köksümdəki imana ərz edirəm.

[5] Cənnətdə sənin təsvirini çəkib qılmana göstərsələr, cənnət bütxana tək cansız surətlərlə dolar.

[6] Varlının işi yoxsullara öz bər-bəzəyini göstərməkdir, əgər dil eşq dərdini hər an cana bildirsə, nə olar!

[7] Ey Füzuli, qırmızı göz yaşını belə gizli tutma, hər cür hiylə ilə get o açılmış gülə bildir.



* * *

Qılmağıl möhkəm, könül, dünyayə iqdi-irtibat,
Sən bir avarə müsafirsən, bu bir viran ribat[1].

Bu çəməndə qönçələr, güllər görən arif bilir
Kim, səbat üstündə qalmaz hiç qəbzü inbisat[2].

Əhli-irfandır cahan keyfiyyətin təhqiq edən
Kim, nəşatından bulur yüz qəm, qəmindən yüz nəşat[3].

Eşq dövranı mənə tapşırdı Məcnun növbətin
Xali olmaz nəqşi-ərbabi-vəfadən bu büsat[4].

Hər görən məhruyə sərf etmə, Füzuli, ömrünü,
Bivəfalərdən həzər qıl, tut təriqi-ehtiyat[5].

---

[1] Könül dünyaya əlaqə bağlarını möhkəm etmə, sən bir avara qonaqsan, bu bir xaraba karvansara.

[2] Bu çəməndə qönçələr, güllər görən arif bilir ki, heç bir tutulma və açılma sabitlik üstündə qalmır.

[3] Dünyanın keyfiyyətini öyrənən ürfan əhlidir, çünki onun sevincindən yüz qəm tapır, qəmindən yüz sevinc.

[4] Eşq dövranı Məcmunun növbəsini mənə tapşırdı, bu xalı vəfa sahiblərinin nəqşindən boş olmaz.

[5] Füzuli, ömrünü hər görən ay üzlüyə sərf etmə, vəfasızlardan çəkin, ehtiyat yolunu tut.

* * *

Dürcdür lə'li-rəvanbəxşin, düri-şəhvar ləfz,
Dürcdən dürlər tökərsən eyləsən izhar ləfz[1].

Öylə ağzın təngdir kim, söyləşir saət sənə,
Gərçi nazikdir, verir əlbəttə bir azar ləfz[2].

Yetmək olmaz ləfzi-canbəxşinlə ağzın sirrinə,
Vəhydir guya bu kim, mütləq ağız yox, var ləfz[3].

Nişə lə'lin gec gəlir göftarə, guya kim, bilir,
Mən kimi, ol lə'ldən ayrılmağı düşvar ləfz[4].

Qönçə lə'linə lətafətdən dəm urmuş, bilməzəm
Neylər izhar eyləgəc ol lə'li -gövhərbar ləfz[5].

Ey Füzuli, istərəm dildar halim sormaya,
Rəşkdən kim, bulmasın vəsli-ləbi-dildar ləfz[6].

---

[1] Can bağışlayan ləlin bir mücrüdür, söz şahanə incidir, söz deməyə başlasan, mücrüdən incilər tökərsən.

[2] Ağzın elə dardır ki, saat sənə söyləşir, hərçənd nazikdir, əlbəttə söz ona bir əziyyət verir.

[3] Can bağışlayan sözlərinlə ağzın sirrinə yetmək olmaz, sanki bu bir vəhydir ki, mütləq ağız yoxdur, söz isə var.

[4] Ləlin nə üçün danışmağa gec başlayır, sanki mənim kimi söz o ləl dodaqdan ayrılmağı çətin bilir.

[5] Qönçə öz ləlinin lətafətindən dəm vurmuş, bilmirəm, o inci yağdıran ləl söz danışmağa başlayan kimi neyləyər.

[6] Ey Füzuli, qısqanclıqdan istəyirəm ki, dildar halımı soruşmasın, ona görə ki, söz dildarın dodağının vüsalını tapmasın.



* * *

Dil uzadır bəhs ilə ol arizi-xəndanə şəm,
Od çıxar ağzından, etməzmi həzər kim yanə şəm[1].

Nola qeyrət atəşi canım əritsə mum tək,
Bu nə sözdür kim, demişlər arizi-cananə şəm[2]?

Arizi-canan ilə bəhsi-kəmali-hüsn edər,
Dil ucundandır ki, hər saət düşər nöqsanə şəm[3].

Gəh ayağı bağlı, gəh boynu, nədəndir bilməzəm,
Bir pəri eşqindən olmuşdur məgər divanə şəm[4].

Nola canım qamətin istərsə, könlüm arizin,
Rəsmdir aləmdə: bülbül gül sever, pərvanə şəm[5].

Qıl şəbistanı münəvvər kim, nisarın qılmağa
Riştədən dürlər çəkib cəm eyləmiş damanə şəm[6].

Ey Füzuli, şövqdən yaqdın tənin ruzi-vüsal,
Netdin, ey qafil, gərəkməzmi şəbi-hicranə şəm[7]?

---

[1] Şam bəhs etmək üçün o gülər üzə dil uzadır, ağzından od çıxır, şam qorxmurmu ki, yanar.

[2] Qeyrət atəşi canımı mum kimi əritsə, nə olar, bu nə sözdür ki, cananın yanağına şam demişlər.

[3] Şam cananın yanağı ilə kamil gözəllik bəhsi edir, o dil ucundan hər saat nöqsana düşür (azalır).

[4] Gah ayağı bağlı olur, gah boynu bilmirəm nədəndir, yoxsa şam bir pərinin eşqindən divanə olmuşdur?

[5] Canım boyunu istəyirsə, ürəyim yanağını, təəccüblü deyil, dünyada qaydadır: bülbül gül sevər, pərvanə şam.

[6] Yataq otağını işıqlandır ki, sənə nisar etmək üçün şam ipə dürlər çəkib ətəyinə yığmışdır.

[7] Ey Füzuli, vüsal günü bədənini şövqdən oda yaxdın, ey qafil, nə etdin, ayrılıq gecəsi sənə şam lazım deyilmi?

* * *

Eyş üçün bir türfə mənzildir bahar əyyamı bağ,
Onda tutsun qönçəvəş hər kim ki, eyş istər otağ[1].

Qönçələr açıldı, seyri-bağ edin, ey əhli-dil
Kim, görüb güllər könüllər açılan çağdır bu çağ[2].

Səndən, ey bülbül, füzundur məndə möhnət fəsli-gül,
Sənsənü min tazə gül, hala mənü min tazə dağ[3].

Bağə sərvim gəldigin bilmiş səhərdən şaxi-gül,
Rövşən etmiş rəhgüzari üzrə hər yan min çirağ[4].

Çəksələr zəncir ilə gülzarə getmən kim, mənə
Sünbüli-zülfün fəraqından müşəvvəşdir dimağ[5].

Mövsimi-güldür, vəli getmən çəmən seyrinə kim,
Rövzeyi-kuyin mənə ol seyrdən vermiş fərağ[6].

Məhrəm olmaz rindlər bəzminə mey nuş etməyən,
Ey Füzuli, çək ayaq ol bəzmdən, ya çək əyağ[7].

---

[1] Bahar vaxtı bağ əylənmək üçün gözəl bir mənzildir, kim eyş-işrət istəyirsə, qönçə kimi orda bir otaq tutsun.

[2] Ey ürək sahibləri, qönçələr açıldı, bağ seyrinə çıxın, çünki bu çağ gülləri görüb könüllər açılan çağdır.

[3] Ey bülbül, gül fəslində məndə olan qəm səndən artıqdır, sənsən, bir də min təzə gül, indi mənəm min təzə dağ.

[4] Gül budağı sərvin bağa gəldiyini səhərdən bilmişdir, yolunun üstündə hər yanda min çıraq yandırmışdır.

[5] Məni zəncir ilə gülzara çəksələr, getmərəm, çünki mənim beynim sünbül zülfün ayrılığından qarışmışdır.

[6] Gül mövsümüdür, ancaq çəməni gəzməyə getmərəm, çünki sənin olduğun yerin bağçası məni o gəzintidən ayrı salmışdır.

[7] Mey nuş etməyən rindlər məclisinə yaxın olmaz, ey Füzuli, ya o məclisdən ayağını çək, ya da qədəh götür.



* * *

Möhnəti-eşq, ey dil, asandır deyib, çox urma laf,
Eşq bir yükdür ki, xəm olmuş onun altında Qaf[1].

Olma xali dürdkəşlər söhbətindən, ey könül,
Gər dilərsən edəsən ayineyi-idrakı saf[2].

Sübhdəm zülfün dağıt, ya şam ərzi-ariz et,
Qoyma sübhü şam arasında təriqi-ixtilaf[3].

Rəşki-rüxsarın dili-xurşidə salmış iztirab,
Qeyrəti-qəddin mizaci-şəm'ə vermiş inhiraf[4].

Xaki-kuyin Kə'bəyə nisbət qılan bilməzmi kim,
Bunda hərdəm, onda bir növbət olur vacib təvaf[5].

Vəhmim ondandır ki, mümkün olmaya qəmdən nəcat,
Fərric-il lahümmə həmmi, nəccini mimma nəxaf[6].

Ey Füzuli, zahid ər də'vayi-əql eylər, nə sud,
Nəf'i-zövqi-eşqdir cəhlinə eyni-e'tiraf[7].

---

[1] Ey ürək, eşq qəmi asandır deyib, çox özündən dəm vurma, eşq bir yükdür ki, onun altında Qaf dağının beli əyilmişdir.

[2] Ey könül, əgər idrak aynasını pak etmək istəyirsənsə, xılt içənlər söhbətindən uzaq olma.

[3] Sübh çağı zülfünü dağıt, ya axşam yanağnı göstər, sübh ilə axşam arasında ziddiyyət yolu qoyma.

[4] Yanağının qısqanclığı günəşin ürəyinə dərd salmışdır, boyunun həsədi şamın səhhətinə xarab olma vermişdir.

[5] Olduğun yerin torpağını Kəbəyə bənzədən bilməzmi ki, bunda hər an, onda bir növbə təvaf (başa dolanma) vacib olur.

[6] Qorxum ondandır ki, qəmdən qurtarmaq mümkün olmasın, "Allah mənim qəmimi qurtar, qorxduğum şeydən mənə nicat ver".

[7] Ey Füzuli, əgər zahid ağıl iddiası eyləsə, nə faydası, eşq zövqünü inkar etmək onun cəhalətinin eynən etirafıdır.

* * *

Qıldı zülfün tək pərişan halimi xalin sənin,
Bir gün, ey bidərd, sormazsan: nədir halın sənin[1]?

Getdi başından, könül, ol sərvqəddin sayəsi,
Ağla kim, idbarə təbdil oldu iqbalin sənin[2].

Zinət üçün cism divarında etməzdim yerin,
Çəkməsəydi eşq lövhi-canə timsalin sənin[3].

Tiz çəkməzsən cəfa tiğin məni öldürməyə,
Öldürər axir məni bir gün bu ehmalin sənin[4].

Qərqi-xunabi-cigər qılmış gözüm mərdümlərin.
Arizuyi-xali-mişkinü rüxi-alin sənin[5].

Damigahi-eşqdən tut bir kənar, ey mürği-dil,
Sınmadan səngi-məlamətdən pərü balin sənin[6].

Sayəvəş çoxdan Füzuli xaki-kuyin yaslanır,
Budur ümmidi ki, bir gün ola pamalin sənin[7].

---

[1] Zülfün kimi xalın da halımı pərişan etdi, bir gün, ey dərdsiz, soruşmursan: halın necədir?

[2] Ey ürək, o sərvboylunun kölgəsi başından getdi, ağla ki, sənin bəxtin bəxtsizliklə əvəz olundu.

[3] Eşq can lövhəsinə sənin şəklini çəkməsəydi, ziynət üçün sənin yerini bədən divarında etməzdim.

[4] Cəfa qılıncını məni öldürmək üçün tez çəkmirsən, sənin bu ləngiməyin axır məni bir gün öldürər.

[5] Sənin mişkin xalının və qırmızı yanağının arzusu gözümün bəbəklərini ciyərimin qanında qərq etmişdir.

[6] Ey könül quşu, danlaq daşlarından qol-qanadın sınmadan eşq tələsindən bir yana dur.

[7] Füzuli çoxdan kölgə kimi olduğun yerin torpağına döşənmişdir, ümidi budur ki, bir gün ayağın altında qalsın.



* * *

Şəm'i-ruyin afitabi-aləmaradır sənin,
Nuri-həqq xurşidi-rüxsarında peydadır sənin[1].

Sənsən ol cövhər ki, dürci-mümkinat içrə bu gün
Mümkün olan eybdən zatın mübərradır sənin[2].

Can verir lə'lin təmənnasında min abi-həyat,
Feyzinə ləbtəşnə yüz Xizrü Məsihadır sənin[3].

Sərvü gül nəzzarəsin neylər sənə heyran olan
Kim, qədin sərvü, rüxün gülbərgi-rə'nadır sənin[4].

Razi-eşqin xəlqdən qılmaq nihan mümkün degil,
Aşiqin ol vəchdən aləmdə rüsvadır sənin[5].

Qıldı şövqün, əşk qəvvası gözüm mərdümlərin,
Ey düri-tər, mənzilin guya bu dəryadır sənin[6].

Cümlə afaq əhldən çəkmiş təəllüq damənin.
Ta Füzuli xəstəyə vəslin təmənnadır sənin[7].

---

[1] Üzünün şamı dünyanı bəzəyən günəşdir, sənin günəş üzündə haqq nuru aşkardır.

[2] Bu gün mümkünlük mücrüsü içində olan o cövhər sənsən, sənin təbiətin mümkün olan eybdən uzaqdır.

[3] Ləl dodağın təmənna ediləndə min dirilik suyu can verir, yüz Xızr və Məsiha sənin nemətinə susamışdır.

[4] Sənə heyran olan sərv və gülə baxmağı neyləyir, çünki sənin boyun sərv və üzün gözəl bir gül yarpağıdır.

[5] Eşqinin sirrini xalqdan gizli saxlamaq mümkün deyil, o səbəbdən sənin aşiqin aləmdə rüsvadır.

[6] Şövqün gözümün bəbəklərini göz yaşında üzgüçü etdi, ey tər inci, sənin mənzilin sanki dəryadır.

[7] Ta Füzuli xəstə sənin vəslini istəyir, bütün dünya adamlarından əlaqə ətəyini çəkmişdir.

* * *

Öylə rə'nadır, gülüm, sərvi-xuramanın sənin
Kim, görən bir gəz olur, əlbəttə, heyranın sənin[1].

Kakilin tək başına çizginmək istər xatirim,
Ey mənü yüz mən kimi sərgəştə qurbanın sənin[2].

Arizin dövründə cəm'iyyətdən olsun naümid,
Olmayan aşüfteyi-zülfi-pərişanın sənin[3].

Çün əcəbdir lə'lə guyalığ, nə mö'cizdir bu kim,
Eylər izhari-süxən lə'li-dürəfşanın sənin[4].

Çərx yayından atıldı canıma tiri-əcəl,
Leyk ondan tizrək dəprəndi müjganın sənin[5].

Daği-hicranın odun bənzətmək olmaz duzəxə,
Olmasın kafər əsiri-daği-hicranın sənin[6].

Ey Füzuli, öylə kim bimari-dərdi-eşqsən,
Yoxdurur ölməkdən özgə hiç dərmanın sənin[7].

---

[1] Gülüm, sənin nazlı sərvin elə gözəldir ki, bir dəfə səni görən, əlbəttə, sənin heyranın olur.

[2] Xatirim kakilin kimi başına dolanmaq istəyir, ey mən və mənim kimi yüz sərgərdan qurbanın olan.

[3] Sənin pərişan zülfünün divanəsi olmayan sənin üzünün dövrəsində cəm olmaqdan ümidini kəssin.

[4] Lələ danışmaq qəribədir, bu nə möcüzədir ki, sənin incisaçan ləlin sözlər söyləyir.

[5] Çərxin yayından canıma əcəl oxu atıldı, ancaq sənin kirpiyin ondan tez tərpəndi.

[6] Ayrılıq dağının odunu cəhənnəmə bənzətmək olmaz, kafir də sənin ayrılıq dağının əsiri olmasın.

[7] Ey Füzuli, o cür ki, eşq dərdinin xəstəsisən, sənin ölməkdən başqa heç bir dərmanın yoxdur.



* * *

Daği-hicran ilə yanmaqdan cigər qan olsa yey,
Mülki-dil qəm mənzili olunca, viran olsa yey[1].

Yarı əğyar ilə görmək aşiqə düşvar irir,
Böylə görməkdən əsiri-dərdi-hicran olsa yey[2].

Sinəmə peykanını göndər könül dəf'inə kim,
Sinədə suzan könül olunca, peykan olsa yey[3].

Sirrimi rüsvalığım faş etmədən aləmlərə,
Zar cismim əşk girdabında pünhan olsa yey[4].

Dağıdırsa, nola, iqdi-zülfünü badi-səba,
Fitnə əhli olanın cəm'i pərişan olsa yey[5].

Dün Füzuli səhv edib keçmiş meyü məhbubdən
Tövbə edib, bu yaman işdən peşiman olsa yey[6].

---

[1] Ayrılıq dağı ilə yanmaqdansa, cigər qan olsa yaxşıdır, ürək mülkü qəm mənzili olunca, viran olsa yaxşıdır.

[2] Yarı əğyar ilə görmək aşiqə çətin gəlir, belə görməkdənsə, ayrılıq dərdinin əsiri olsa yaxşıdır.

[3] Könlümü aradan götürmək üçün sinəmə peykanını göndər, sinədə yanan könül olunca, peykan olsa yaxşıdır.

[4] Rüsvalığımın sirrimi aləmlərə faş etməyindən ağlar bədənimin göz yaşı burulğanında görünməz olması yaxşıdır.

[5] Səhər yeli zülfünün bağını dağıdırsa, təəccüblü deyil, fitnə əhli olanın yığnağı dağılsa yaxşıdır.

[6] Gecə Füzuli səhv edib şərabdan və sevgilidən keçmişdir, tövbə edib bu yaman işdən peşman olsa yaxşıdır.

* * *

Qıymadın sakini-kuyin olana peykanın,
Bir içim su ilə ağırlamadın mehmanın[1].

Navəki-qəmzə diriğ eyləmə aşiqlərdən,
Kəsmə ərbabi-vəfadən nəzəri-ehsanın[2].

İstəyin can idi, xaki-rəhinə tapşırdım,
Yetdi ol xud yerinə, indi nədir fərmanın[3]?!

Canə yetdim ələmi-hicrin ilə, ey zalim,
Rəhm qıl canın üçün var isə bir dərmanın[4].

Dad-xahəm sənə, damən nə çəkirsən məndən,
Yoxmu vəhmin ki, tutam həşr günü damanın[5]?

Zalim olsan nə əcəb, yox sənə duzəx vəhmi,
Sənə xud yetməyəcəkdir sənin öz hicranın[6].

Vəsl əyyami rəvan yarə fəda eyləmədin,
Ey Füzuli, qəmi-hicran ilə çıxsın canın[7].

---

[1] Peykanını sən olan yerdə məskən salana qıymadın, bir içim su ilə qonağına hörmət göstərmədin.

[2] Aşiqlərdən qəmzə oxunu əsirgəmə, ehsan nəzərini vəfa sahibi olanlardan kəsmə.

[3] İstəyin can idi, ayağının torpağına tapşırdım, o öz yerinə yetdi, indi fərmanın nədir?

[4] Ey zalım, ayrılıq qəmi ilə cana yetdim, bir dərmanın varsa, canın üçün, rəhm et.

[5] Səndən imdad istəyənəm, məndən ətəyini niyə çəkirsən, qorxun yoxdurmu, məhşər günü ətəyindən tutaram.

[6] Zalım olsan, nə əcəb, sənin cəhənnəm qorxun yoxdur, sənin öz ayrılığın sənin özünə yetməyəcəkdir.

[7] Vüsal vaxtı canı yara fəda eləmədin, ey Füzuli, ayrılıq qəmi ilə canın çıxsın!



* * *

Ey məh, mənimlə dustlərim düşmən eylədin,
Düşmən həm eyləməz bu işi kim, sən eylədin[1].

Peykanlarınla doldu tənim, afərin sənə,
Bidad çəkməyə tənimi ahən eylədin[2].

Təhsin sənə ki, könlüm evin tirə qoymadın,
Hər zəxmi-navəkin ona bir rövzən eylədin[3].

Olsun ziyadə rif'ətin, ey ahi-atəşin,
Möhnətsəramizi bu gecə rövşən eylədin[4].

Əksilməsin təravətin, ey əşki-laləgun,
Gül-gül damıb məqamımızı gülşən eylədin[5].

Can çıxsa, mənzil etməyə ev tut hübabdan,
Ey göz yaşı ki, qəsdi-binayi-tən eylədin[6].

Mümkün degil, Füzuli, cahanda iqamətin,
Bihudə sən bu mərhələdə məskən eylədin[7].

---

[1] Ey ay, dostlarımı mənimlə düşmən eylədin, bu işi ki, sən eylədin, düşmən də eləməz.

[2] Bədənim peykanlarınla doldu, sənə afərin, zülm çəkmək üçün bədənimi dəmir eylədin.

[3] Əhsən sənə ki, könlümün evini qaranlıq qoymadın, hər ox yarası ilə ona bir pəncərə düzəltdin.

[4] Ey odlu ah, yüksəlişin artıq olsun, dərd evimizi bu gün işıqlandırdın.

[5] Ey lalə rəngli göz yaşı, təravətin əksilməsin, gül-gül damıb, yerimizi gülşən eylədin.

[6] Ey göz yaşı, can çıxsa, mənzil etməyə köpükdən bir ev tut ki, bədən binasına qəsd etdin.

[7] Füzuli, dünyada iqamət etməyin mümkün deyil, sən boş yerə bu mərhələdə məskən eylədin.

* * *

Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdin,
Təni-məhzunə candan, canə canandan xəbər verdin[1].

Xəzani-qəmdə gördün iztirabın bülbüli-zarın,
Bahar əyyamı tək gülbərgi-xəndandan xəbər verdin[2].

Sözünü vəhyi-nazil gər derisəm hiç küfr olmaz,
Cahanı tutmuş ikən küfr, imandan xəbər verdin[3].

Dedilər, yar üşşaqin gəlir cəm etməyə könlün,
Məgər kim, yarə üşşaqi-pərişandan xəbər verdin[4].

Süleyman məsnədindən divi-gümrəh rəğbətin kəsdin,
Dənizdə xatəmi-hökmi-Süleymandan xəbər verdin[5].

Füzuli ruzgarın tirə gördün şami-hicrandan,
Nəsimi-sübh tək xurşidi-rəxşandan xəbər verdin[6].

---

[1] Səhər yeli, lütf etdin, dərdliyə dərmandan xəbər verdin, dərdli bədənə candan, cana canandan xəbər verdin.

[2] Ağlar bülbülün iztirabını qəm xəzanında gördün, bahar vaxtı kimi açılmış gül yarpağından xəbər verdin.

[3] Sözünü göydən enmiş bir vəhy adlandırsam, heç küfr olmaz, küfr dünyanı tutduğu bir vaxtda imandan xəbər verdin.

[4] Dedilər, yar gəlir ki, aşiqlərin könlünü bir yerə cəm etsin, yoxsa sən dərdli aşiqlərdən yara xəbər verdin?

[5] Yolunu azmış divin Süleyman taxtına olan meylini-istəyini kəsdin, dənizdə Süleyman hökmünün üzüyündən xəbər verdin.

[6] Füzulinin gününü ayrılıq axşamından qaranlıq gördün, səhər yeli kimi parlaq günəşdən xəbər verdin.



* * *

Bəqa mülkün diləırsən, fani et varini dünya tək,
Ətək çək gördüyündən afitabi-aləmara tək[1].

Təəllüq zülmətin təcrid xurşidinə qıl mətlə',
Əgər aləmdə bir gün görmək istərsən Məsiha tək[2].

Könül hər surəti-Şirinə vermə, iç meyi-mə'ni,
Həzər qıl, daşə çalma tişəni Fərhadi-şeyda tək[3].

Rəfiqin olsa dilsiz canəvər, həm saqla raz ondan,
Saqın, sirrin düşürmə dillərə Məcnuni-rüsva tək[4].

Yetər tavus tək ücbilə qıl arayişi-surət,
Vücudundan keçib, aləmdə bir ad eylə ənqa tək[5].

Göhər tək qılma təğyiri-təbiət dəlsələr bağrın,
Qərar et, hər həvadan olma şurəngiz dərya tək[6].

Füzuli, kainat əsbabının qıldım təmaşasın,
Nədamətsiz tənə'üm yox, təsərrüfsüz təmaşa tək[7].

---

[1] Bəqa (əbədi olan) mülkü istəyirsənsə, dünya kimi varını yox elə, dünyanı bəzəyən günəş kimi gördüyündən ətək çək.

[2] Əgər Məsiha (İsa) kimi aləmdə bir gün görmək istəyirsənsə,əlaqələr zülmətini tənhalıq günəşinə başlanğıc elə.

[3] Məna şərabı iç, hər Şirin surətliyə ürək vermə, bax, vurğun Fərhad kimi külüngü daşa çalma.

[4] Yoldaşın dilsiz bir heyvan olsa da, ondan sirrini gözlə, çəkin, rüsva Məcnun kimi sirrini dillərə salma.

[5] Yetər tavus quşu kimi məğrurluqla surətini bəzəmə, vücudundan keçib sən də ənqa kimi bir ad elə.

[6] Bağrını dəlsələr də, gövhər kimi təbiətini dəyişdirmə, qərar elə, dərya kimi hər havadan təlatümə gəlmə.

[7] Füzuli, kainat alətlərinin tamaşasını etdim, israfsız tamaşa kimi peşmançılıqsız firavanlıq da yoxdur.

* * *

Dəhənin dərdimə dərman dedilər cananın,
Bildilər dərdimi, yoxdur dedilər dərmanın[1].

Olsa məhbublərin eşqi cəhənnəm səbəbi,
Hurü qılmanı qalır kəndisinə Rizvanın[2].

Keçdi meyxanədən el, məsti-meyi-eşqin olub,
Nə mələksən ki, xərab etdin evin şeytanın[3]?

Vurmazam sihhət üçün mərhəm oxun yarəsinə,
İstərəm çıxmaya zövqi-ələmi-peykanın[4].

Nə bilir oxumayan müshəfi-hüsnün şərhin,
Yerə göydən nə üçün endigini qur'anın[5].

Yerdən, ey dil, göyə qovmuşdu sirişkin mələgi.
Onda həm qoymayacaqdır oları əfğanın[6].

Ey Füzuli, olubam qərqeyi-girdabi-cünun,
Gör nə qəhrin çəkirəm dönə-dönə dövranın[7].

---

[1] Cananın ağzını dərdimə dərman dedilər, dərdimi bildilər, dedilər dərmanın yoxdur.

[2] Gözəllərin eşqi cəhənnəm səbəbi olsa, Rizvanın (cənnətin) huri və qılmanları özünə qalacaqdır.

[3] El sənin eşqinin sərxoşu olub meyxanadan keçdi, necə mələksən ki, şeytanın evini uçurdun.

[4] Sağalmaq üçün oxunun yarasına dərman vurmaram, istəyərəm ki, peykanının qəminin zövqü çıxmasın.

[5] Quranın göydən yerə nə üçün endiyini gözəlliyinin kitabının şərhini oxumayan nə bilir.

[6] Ey ürək, göz yaşın mələyi yerdən göyə qovmuşdu, əfğanın onları orada da qoymayacaqdır.

[7] Ey Füzuli, dəlilik burulğanında qərq olmuşam, gör dövranın dönə-dönə nə zülmünü çəkirəm.



* * *

Ey müsəvvir, yar timsalinə surət vermədin,
Zülfü rüx çəkdin, vəli tabü təravət vermədin[1].

Eşq sevdasından, ey naseh, məni mən' eylədin,
Yox imiş əqlin, mənə yaxşı nəsihət vermədin[2].

Dün ki, fürsət düşdü xaki-dərgəhindən kam alam,
Noldu, ey göz yaşı göz açmağə fürsət vermədin[3].

Göz yumub aləmdən, istərdim açam rüxsarinə,
Canım aldın, göz yumub-açınca möhlət vermədin[4].

Bumudur rəhmin ki, xalin eylər ikən qəsdi-can,
Çıxdı xəttin kim, onu mən' edə, rüxsət vermədin[5].

Vermə hüsn əhlinə, yarəb, qüdrəti-rəsmi-cəfa,
Çün cəfa çəkməkdən eşq əhlinə taqət vermədin[6].

Ey Füzuli, öldün, əfğan etmədin, rəhmət sənə
Rəhm qıldın xəlqə, əfğanınla zəhmət vermədin[7].

---

[1] Ey rəssam, yarın şəklinə surət vermədin, saç və üz çəkdin, ancaq parlaqlıq və təravət vermədin.

[2] Ey öyüdçü, məni eşq sevdasından çəkindirmə, ağlın yox imiş, mənə yaxşı nəsihət vermədin.

[3] Dünən fürsət düşdü ki, qapının torpağından kam alım, ey göz yaşı, nə oldu, göz açmağa fürsət vermədin.

[4] Dünyaya göz yumub sənin üzünə göz açmaq istəyirdim, canımı aldın göz yumub-açmağa möhlət vermədin.

[5] Xalın canıma qəsd edərkən, xəttin çıxdı ki, onu çəkindirsin, icazə vermədin, sənin rəhmin budurmu?!

[6] Yarəb, gözəllərə cəfa etmək qüdrəti vermə, çünki eşq əhlinə cəfa çəkmək üçün taqət vermədin.

[7] Ey Füzuli, öldün, əfğan etmədin, sənə rəhmət olsun, xalqa rəhm etdin, əfğanınla zəhmət vermədin.

* * *

Mülki-hüsnün böylə zalim padişahi olmağıl,
Kim sənə zalim desə, adil güvahi olmağıl[1].

Qəmzə tiğin çəkmə hər saət könül yəğmasinə,
Hökmə tabe', mülkə qarətgər sipahi olmağıl[2].

Ahını, ey mah, üşşaqin yetirmə göylərə,
Dərd əhlinin nişani-tiri-ahi olmağıl[3].

Gər dilərsən şəm' tək qeyrət oduna yanmayım,
Şamlər əğyar şəm'i-bəzmgahi olmağıl[4].

Adət etmək xoş degil bidadə, rəhm et tanrıçün,
Gah olsan maili-bidad, gahi olmağıl[5].

Aşiqi rüsva görüb, mən' etmə, ey naseh, məni,
Münkiri-asari-təqdiri-ilahi olmağıl[6].

Ey Füzuli, eyləmə taət riyayi, tərkin et,
Tövbə qıl, minbə'd, məşğuli-mənahi olmağıl[7].

---

[1] Gözəllik mülkünün belə zalım padşahı olma, kim sənə zalım desə, ədalətli şahid olma.

[2] Ürəyi qarət etmək üçün hər saat qəmzə qılıncını çəkmə, hökmə tabe olan, ölkəni qarət edən əsgər olma.

[3] Ey ay, aşiqlərin ahını göylərə çatdırma, dərdlilərin ah oxunun hədəfi olma.

[4] Əgər istəyirsən ki, şam kimi qısqanclıq oduna yanmayım, gecələr düşmən məclisinin şamı olma.

[5] Zülmə adət etmək yaxşı deyil, tanrı üçün rəhm elə, bəzən zülmə meyl etsən də, bəzən etmə.

[6] Aşiqi rüsvay görüb, ey öyüdçü, məni çəkindirmə, ilahi qədərin təsirini inkar etmə.

[7] Ey Füzuli, ikiüzlülüklə taət eyləmə, tərk elə, tövbə et, bundan sonra qadağan olunmuş şeylərlə məşğul olma.



* * *

Eylə müstəsna gözəlsən kim, sənə yoxdur bədəl,
Səndən, ey can, münqəte' qılmaz məni illa əcəl[1].

Necə surət bağlasın könlüm xilasi-eşqdən,
Eşqdir bir hal kim, ol halə könlümdür məhəl[2].

Eşqimə nöqsan gətirməz görməmək ol arizi,
Cövhərə təğyiri-asari-ərəz verməz xələl[3].

Eylədi rüsva könül çaki-giribani-ədəb,
Gör nə əhli-elmdir, adab ilən eylər cədəl[4].

Halimi gördükcə mən'i-əhli-eşq eylər fəqih,
Höccəti-məqtui yox, eylər qiyas ilən əməl[5].

Mədrəsə içrə müdərris verdiyi min dərsdən,
Yey dürür meyxanədə bir cam vermək bir gözəl[6].

Ey Füzuli, mən dəm urmuşdum səfayi-eşqdən,
Mətləi-xurşid icad olmadan sübhi-əzəl[7].

---

[1] Elə müstəsna bir gözəlsən ki, sənə əvəz yoxdur, ey can, məni səndən əcəldən başqa heç nə ayırmaz.

[2] Eşqdən xilas olmaq üçün könlüm necə surət bağlasın (şəkil çəksin), eşq bir haldır ki, o halın yeri könlümdür.

[3] O üzü görməmək mənim eşqimə nöqsan gətirməz, ərəz nişanələrinin dəyişməsi cövhərə (substansiya) ziyan verməz.

[4] Könül, ədəb yaxasının yaralanması məni rüsva elədi, gör nə elm adamıdır ki, ədəblə mübahisə edir.

[5] Fəqih halımı gördükcə eşq əhlinin yolunu kəsir, qəti dəlili yoxdur müqayisə ilə iş görür.

[6] Mədrəsədə müəllimin verdiyi min dərsdən bir gözəlin meyxanada bir cam verməsi daha yaxşıdır.

[7] Ey Füzuli, əzəl sübhü vaxtı günəşin çıxması icad olmadan mən eşqin səfasından dəm vurmuşdum.

* * *

Ey rüxün qibleyi-can, xaki-dərin Kə'beyi-dil,
Rəhi-eşqində fəna sərhədi, əvvəl mənzil[1].

Lalərəng etdi gözüm qan ilə xaki-dərini,
Kimyagərdir edər gördüyü torpağı qızıl[2].

Ol ki, yarın şəbi-hicrinə qiyamət günü der,
Xəlq arasında qiyamət günü olmazmı xəcil[3]?

Qatı müşküldür işim zülfi-girehgirindən,
Səbr bu müşkili derlər açar, əmma müşkil[4].

Etmək olmaz səni agah könül halından,
Yazıq ol kim, sənə könlün verə səndən qafil[5].

Sevirəm zahidi kim, guşeyi-mehrabı sevər,
Xəmi-əbrunə rəqibim olub-olmaz mail[6].

Dəli dersəm nola üşşaqına gülçöhrələrin,
Özünü göz görə odlarə salırmı aqil[7]?

Səni canan sanıram, çıx bədənimdən, ey can!
Mənü cananım arasında çox olma hail[8].

Ey Füzuli, yanıram kim, nə üçün ol üzü gül
Mənə yanar od olur, özgəyə şəm'i məhfil[9].

---

[1] Ey üzün can qibləsi, qapının torpağı ürək Kəbəsi, eşqin yolunda fəna sərhədi əvvəl mənzildir.

[2] Gözüm qapının torpağını qan ilə lalə rəngində etdi, kimyaçıdır, gördüyü torpağı qızıl edir.

[3] O kəs ki, yarın ayrılıq gecəsinə qiyamət günü deyir, qiyamət günü zamanı xalq arasında utanmazmı?

[4] Düyün-düyün saçından işim çox çətindir, səbr bu müşkülü açar, ancaq çətin.

[5] Ürəyin halından səni agah etmək olmaz, yazıq o adama ki, könlünü sənə verə və səndən qafil ola.

[6] Zahidi sevirəm, çünki mehrabın bucağını sevir, qaşının əyrisinə rəqibim mail olub, ya olmaz.

[7] Gül yanaqlıların aşiqlərinə dəli desəm, təəccüblü deyil, ağıllı adam özünü göz görə-görə oda salarmı?

[8] Ey can, səni canan sanıram, bədənimdən çıx, mənimlə cananım arasında çox əngəl olma.

[9] Ey Füzuli, yanıram ki, o üzü gül nə üçün mənə yanar od olur, özgəyə məclis şamı?



* * *

Hiç sünbül sünbüli-zülfün kimi mişkin degil,
Nafeyi-Çini saçın tək derlər, əmma çin degil[1].

Var gül bərgində həm əlhəq, nəzakət birlə rəng,
Leyk canpərvər ləbi-lə'lin kimi şirin degil[2].

Mehriban derlər səni əğyarə, lakin mən ona
Bavər etmən kim, sənə mehr eyləmək ayin degil[3].

Xublər mehrabi-əbrusinə qılmazsan sücud,
Dinini döndərgil, ey zahid ki, yaxşı din degil[4].

Ta Füzuli qamətü rüxsarına vermiş könül,
Maili-sərvü həvaxahi-gülü nəsrin degil[5].

---

[1] Heç bir sünbül sənin sünbül zülfün kimi mişk ətirli deyil, Çin nafəsini saçın kimi deyirlər, ancaq çin (düz) deyil.

[2] Gül yarpağında da, həqiqətən, incəlik və rəng var, ancaq can bəsləyən ləl dodağın kimi şirin deyil.

[3] Səni özgəyə mehriban deyirlər, ancaq mən ona inanmıram, çünki mehriban olmaq sənin qaydan deyil.

[4] Gözəllərin qaşının mehrabına səcdə etmirsən, ey zahid, dinini döndər, dəyiş, yaxşı din deyil.

[5] Ta Füzuli, sənin boyuna və üzünə könül vermişdir, sərvə mail və gül ilə nəsrinə aşiq deyil.

* * *

Degilsən çoxdan, ey gərdun, cahan seyrində yoldaşım,
Nola xəm olsa qəddim, səndən artıqdır mənim yaşım[1].

Tərazuyi-əyari-möhnətəm bazari-eşq içrə,
Gözüm hərdəm dolub, min daşə hər saət dəgər başım[2].

Sirişkim al, bağrım parə, bir kuhi-bəlayəm kim,
Həmişə laləvü lə'l ilə rəngindir içim, daşım[3].

Mənə manənd bir divanə surət bağlamaz, guya,
Qələm sındırdı təsvirim çəkəndən sonra nəqqaşım[4].

Füzuli, xazini-gənci-vəfayəm, ol səbəbdəndir,
Gühərlər tökdü israf ilə bu çeşmi-gühərpaşım[5].

---

[1] Ey fələk çoxdan dünya seyrində yoldaşım deyilsən, qəddim əyilsə, təəccüblü deyil, mənim yaşım səndən artıqdır.

[2] Eşq bazarında möhnət ölçüsünün tərəzisiyəm, hər an gözüm dolur, hər saat başım min daşa dəyər.

[3] Göz yaşım qırmızı, bağrım parça-parça, bir bəla dağıyam ki, həmişə lalə və ləl ilə içim və çölüm rənglidir.

[4] Nəqqaş mənə bənzər bir divanə surəti çəkməz, sanki təsvirimi çəkəndən sonra nəqqaşım qələmi sındırdı.

[5] Füzuli, mən vəfa xəzinəsinin xəzinədarıyam, o səbəbdən bu gövhər saçan gözüm bədxərcliklə incilər tökdü.



* * *

Tənimdə zəxmi-tiğin çeşmi-xunəfşanə bənzətdim,
Oxun kim, səf-səf ətrafındadır, müjganə bənzətdim[1].

Bəqayi-ruhimi bildim zülali-lə'li-nabindən,
Həyatımdır dedim bağrıma basdım, qanə bənzətdim[2].

Sökülmüş köksümü kim, doludur qəmzən xəyalilə,
Həramilər yatağı mənzili-viranə bənzətdim[3].

Tənimdən incinib çıxmış rəvan can kimi peykanın,
Nəçük incinməsin, yetdikdə zövqün, canə bənzətdim[4].

Gözümdə bəslənib, qiymət bulan peykanını gördüm,
Sədəfdə gövhər olan qətreyi-baranə bənzətdim[5].

Füzuli, öldürər hərdəm məni əhli-nəzər tə'ni
Ki, neyçün, yar lə'lin çeşmeyi-heyvanə bənzətdim[6].

---

[1] Bədənimdə qılıncının yarasını qansaçan gözə bənzətdim, onun ətrafında olan cərgə-cərgə oxlarını kirpiyə bənzətdim.

[2] Ruhumun yaşamağının ləl dodağının saf zülalından bildim, həyatımdır deyib bağrıma basdım, qana bənzətdim.

[3] Qəmzənin xəyalı ilə dolu olan sökülmüş köksümü həramilər (quldurlar) yatağı olan viran bir mənzilə bənzətdim.

[4] Peykanın inciyib can kimi bədənimdən çıxmışdır, necə inciməsin, zövqün yetişdikdə cana bənzətdim.

[5] Gözümdə bəslənib qiymət tapan peykanını gördüm, sədəf içində inciyə çevrilən yağış damcısına bənzətdim.

[6] Füzuli, hər an məni nəzər sahiblərinin tənəsi öldürür ki, nə üçün mən yarın ləl dodağını dirilik suyuna bənzətdim.

* * *

Eşqdən canımda bir pinhan mərəz var, ey həkim!
Xəlqə pinhan dərdim izhar etmə zinhar, ey həkim[1]!

Var bir dərdim ki, çox dərmandan artıqdır mənə,
Qoy məni dərdimlə, dərman eyləmə, var, ey həkim[2]!

Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,
Al əmanət, qılma hər bidərdə izhar, ey həkim[3]!

Gəl mənim tədbiri-bihudəmdə sən bir səy qıl
Kim, olam bu dərdə artıqraq giriftar, ey həkim[4]!

Gör təni-üryan ilə əhvalımı hicran günü,
Var imiş ruzi-qiyamət, qılma inkar, ey həkim[5]!

Çəkməyincə çareyi-dərdimdə zəhmət bilmədin
Kim, olur dərmani-dərdi-eşq dişvar, ey həkim[6]!
Rənc çəkmə, sihhət ümidin Füzulidən götür
Kim, qəbuli-sihhət etməz böylə bimar, ey həkim[7]!

---

[1] Eşqdən canımda gizli bir xəstəlik var, ey həkim, xalqa gizli dərdimi bildirmə, zinhar, ey həkim!

[2] Bir dərdim var ki, çox dərmandan mənə artıqdır, məni dərdimlə qoy, dərman eləmə, get, ey həkim!

[3] Əgər əlini nəbzimə basıb dərdimi müəyyənləşdirsən, əmanət al, hər dərdsizə bildirmə, ey həkim!

[4] Gəl mənim bu bihudə tədbirimdə bir səy elə ki, bu dərdə daha artıq tutulum, ey həkim!

[5] Çılpaq bədənimlə vəziyyətimi ayrılıq günü gör, qiyamət günü var imiş, onu inkar etmə, ey həkim!

[6] Mənim dərdimin çarəsi üçün zəhmət çəkməyincə bilmədin ki, eşq dərdinin dərmanı çətin olur, ey həkim!

[7] Əziyyət çəkmə, sağlamlıq ümidini Füzulidən götür, çünki belə xəstə sağlamlığı qəbul etməz, ey həkim!



* * *

Qəmindən başə dün həsrət əlilə ol qədər vurdum
Ki, sübh olunca mürdə cismimi toprağə tapşurdum[1].

Büküldü qəddim, ahim yetdi xurşidə, saqın, ey məh,
Ki, möhnət oxunu peykanladım, qəm yayını qurdum[2].

Demin Məcnunə aşiq kim, başında quş yuva tutmuş,
Mənəm aşiq ki, seyli-çeşmimi başımdan aşurdum[3].

Gümanından mürəttib eylədi bürhani-isbatın,
Nə sahib kəşfə kim, dürci-dəhanın sirrini sordum[4].

Təcərrüd seyrinə sayəmdən özgə bulmadım həmrəh,
Təriqi-eşq içində çoxlarilə durdum, oturdum[5].

Həvayi-eşq sərgərdanı olmuş girdibadəm kim,
Savurdum göylərə torpağımı hər qanda kim durdum[6].

Füzuli, eşqə mühlik derdim, ol məhvəş inanmazdı,
Bihəmdillah ki, can verməkk təriqilə inandurdum[7].

---

[1] Gecə qəmindən həsrət əli ilə başıma o qədər vurdum ki, sübh olan kimi ölmüş bədənimi torpağa tapşırdım.

[2] Qamətim büküldü, ahım günəşə yetdi, ey ay, çünki möhnət oxunu peykanladım, qəm yayını qurdum.

[3] Məcnuna aşiq deməyin ki, başında quş yuva tutmuşdur, aşiq mənəm ki, gözümün selini başımdan aşırdım.

[4] Hansı kəşf sahibindən ağzının mücrüsünün sirrini soruşdumsa, isbatının dəlilini gümanından tərtib elədi.

[5] Tənhalıq aləminin gəzintisinə kölgəmdən özgə bir yoldaş tapmadım, eşq yolunda çoxları ilə oturub durdum.

[6] Eşq havasının sərgərdanı olmuş bir qasırğayam ki, harda durdumsa, torpağımı göylərə sovurdum.

[7] Füzuli, eşqə öldürücü deyirdim, o ayabənzər inanmazdı, Allaha şükür, can vermək yolu ilə inandırdım.

* * *

Dəhanın şövqünü cansuz güman etməz idim,
Yoxsa birdəm onu mən munisi-can etməz idim[1].

Vəsfi-xəti-ləbini bilsə idim naməqdur,
Arizusunda qara bağrımı qan etməz idim[2].

Xublər aşiqə meyl etmədiyin bilsə idim,
Özümü eşq ilə rüsvayi-cahan etməz idim[3].

Düşməsəydi gözümün yaşinə feyzi-nəzərin,
Onu hər sərvin ayağinə rəvan etməz idim[4].

Salmasaydım dili-viranə imarət tərhin,
Onda gənci-gühəri-eşqi nihan etməz idim[5].

Sitəmi-tə'neyi-əğyarə degildim vaqif,
Yoxsa yarın səri-kuyində məkan etməz idim[6].

Etməsəydi sitəmi-yar, Füzuli, məni-zar,
Bunca fəryad çəkib, ahü fəğan etməz idim[7].

---

[1] Ağzının şövqünü canyandıran güman etməz idim, yoxsa mən onu bir an canıma həmdəm etməz idim.
[2] Dodağının xalının tərifinin qeyri-mümkün olduğunu bilsə idim, onun arzusu ilə qara bağrımı qan etməz idim.
[3] Gözəllərin aşiqə meyl etmədiyini bilsə idim, özümü eşq ilə dünyada rüsvay etməz idim.
[4] Gözümün yaşına baxışının təsiri düşməsəydi, onu hər sərvin ayağına axıtmazdım.
[5] Xaraba könlümə abad olma planını salmasaydım, onda eşqin inci xəzinəsini gizlətməzdim.
[6] Özgənin tənə zülmünü bilməzdim, yoxsa yarın olduğu yerdə məkan etməz idim.
[7] Füzuli, məni yarın zülmü ağlar etməsəydi, bu qədər fəryad çəkib ah və fəğan etməz idim.



* * *

Nurini mah mehri-rüxündən alır müdam,
İnkâr edərsə, şəhr, güvahım durur tamam[1].

Mehrab imiş qaşın ki, ona qarşı kipriyin
Səf-səf gəlir qiyamə qılıb qəmzəni imam[2].

Ol hur və'dəsinə behişti-vüsal üçün,
Qur'anca e'tibar edübəm hasili-kəlam[3].

Əksi-rüxün oğurladığıçün dönə-dönə,
Asıldı güzgü şəhrdə, eldən sürüldü cam[4].

Dəşt üzrə girdbadmı, ya gəldiyim görüb,
Məcnun qubarıdır ki, durub eylər ehtiram[5].

Durğurma yolların yügürüb tutma, ey sirişk,
Ol sərv edəndə naz ilə bizdən yana xüram[6].

Həmsöhbət oldu daneyi-əngur zahidə,
Əsli budur ki, oxudular badəni həram[7].

Meyxanədir cahanda, Füzuli, məqami-əmn,
Cəhd et bir ev hübab kimi, onda tut müdam[8].

---

[1] Ay işığını həmişə üzünün günəşindən alır, inkar edərsə, bütün şəhər şahidimdir.
[2] Qaşın mehrab imiş ki, ona qarşı kirpiyin qəmzəni imam edib cərgə-cərgə qiyama (qiyam namazda hərəkətin adı) gəlir.
[3] O hurinin vüsal cənnəti üçün vədəsinə, sözün qisası, Qurana görə etibar edirəm.
[4] Üzünün əksini oğurladığı üçün dönə-dönə güzgü şəhərdə asıldı, cam eldən sürüldü.
[5] Çöl üzərində olan qasırğadırmı, ya Məcnunun qübarıdır (toz, qəm), gəldiyimi görüb ehtiram göstərir.
[6] Ey göz yaşı, o sərv naz ilə bizə sarı hərəkət edəndə yüyürüb yollarını tutma, dayandırma.
[7] Üzüm dənəsi zahidlə həmsöhbət oldu, əsli budur ki, şərabı haram buyurdular.
[8] Füzuli, dünyada əmin-amanlıq yeri meyxanadır, cəhd elə orada köpük kimi həmişə bir ev tut.

* * *

Pənbeyi-daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim[1].

Canı canan diləmiş, verməmək olmaz, ey dil!
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim[2].

Daş dələr ahim oxu şəhdi-ləbin şövqindən,
Nola zənbur evinə bənzəsə beytül-həzənim[3].

Tövqi-zənciri-cünün daireyi-dövlətdir,
Nə rəva kim, məni ondan çıxara zə'fi-tənim[4].

Eşq sərgəştəsiyəm, seyli-sirişk içrə yerim,
Bir hübabəm ki, həvadən doludur pirəhənim[5].

Bülbüli-qəmzədəyəm, bağü baharım sənsən,
Dəhənü qəddü rüxün qönçəvü sərvü səmənim[6].

Edəmən tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim[7]!

[1] Bədənim dəlilik dağının pambığı içində gizlənmişdir, diri olduqca bu libasımdır, ölsəm kəfənimdir.
[2] Canı canan diləmişdir, ey ürək verməmək olmaz, necə qovğa edək, o nə sənindir, nə mənim.
[3] Bal dodağın şövqündən ahımın oxu daşı dələr, qəm evim arı evinə bənzəsə, təəccüblü deyil.
[4] Dəlilik zəncirinin həlqəsi dövlət dairəsidir, nə rəva ki, bədənimin zəifliyi məni ondan çıxara.
[5] Eşq sərgərdanıyam, yerim göz yaşı seli içindədir, bir köpüyəm ki, köynəyim hava ilə doludur.
[6] Qəm vurmuş bir bülbüləm, baharım və bağım sənsən, ağzın qönçəm, boyun sərvim, üzün yasəmənimdir.
[7] Füzuli, yarın olduğu yeri tərk etmərəm, vətənimdir, vətənimdir, vətənimdir, vətənim.



* * *

Faş qıldın qəmim, ey dideyi-xunbar, mənim!
Eylədin mərdümə nəm olduğun izhar mənim[1].

Dəhənin istərəm, ey eşq, yox et varlığımı
Ki, yox olmaqda bu gün bir qərəzim var mənim[2].

Çıxmış əğyar ilə seyr etməyə ol mərdümi-çeşm,
Bu əcəb, mərdümi çıxmış gözüm ağlar mənim[3].

Bu təmənnadə ki, ol şəm'ilə həmsöhbət olam,
Dudi-ah etdi dünüm tək, günümü tar mənim[4].

Mövc ilə könlümü, ey əşk, qopar yanımdan,
Nalə ilə başım ağrıtdı bu bimar mənim[5].

Çıxmış ol şux bu gün tökməyə qanın görənin,
Girmə, ey göz, kərəm et, qanıma zinhar mənim[6].

Ey Füzuli, dərü divarə qəmim yazmaqdan
Şahidi-hali-dilimdir dərü divar mənim[7].

[1] Ey qanyağdıran göz, mənim qəmimi faş elədin, mənim nəyim olduğunu adamlara (göz bəbəyimə) bildirdin.
[2] Ey eşq, ağzını istəyirəm, varlığımı yox et, çünki yox olmaqda bu gün mənim bir məqsədim var.
[3] O göz bəbəyim özgə ilə gəzməyə çıxmışdır, bu qəribədir ki, mənim bəbəyi çıxmış gözüm ağlayır.
[4] O şam ilə həmsöhbət olmaq təmənnası ilə ahımın tüstüsü gecəm kimi mənim günümü də qaranlıq etdi.
[5] Ey göz yaşı, dalğa ilə könlümü yanımdan qopar, bu xəstə nalə ilə mənim başımı ağrıtdı.
[6] O şux bu gün çıxmışdır ki, görənin qanını töksün, ey göz kərəm eylə, mənim qanıma girmə.
[7] Ey Füzuli, qəmimi qapı və divara yazmaqdan qapı və divar mənim ürəyimin vəziyyətinin şahidi olmuşdur.

* * *

Ol mah vüsalilə xoş et bir gecə halim,
Ey əxtəri-tale' qoma boynunda vəbalim[1]!

Fəryad ki, bər vermədi bidaddan özgə,
Göz yaşı ilə bəslədiyim türfə nihalim[2].

Sınmış müjə tək xəlq gözündən axıdır yaş,
Nəzzareyi-zə'fi-bədəni-muymisalim[3].

Ol şəm' xəyalilə xoşam, ola ki, daim,
Bu surət ilə cizginə fanusi-xəyalim[4].

Suzandır odumdan tənimə sancılan oxlar,
Pərvanəyəm, ey şəm' tutuşmuş pərü balim[5],

Saqi, qəmi-dövran ilə qayətdə məluləm,
Bir cami-fərəhbəxş ilə dəf' eylə məlalim[6].

Lütf eylə, Füzuli, mənim əhvalımı ərz et
Ol sərvə ki, söyləşməyə qalmadı məcalim[7].

---

[1] O ay vüsalı ilə bir gecə halımı xoş elə, ey bəxt ulduzu, vəbalımı boynunda qoyma.

[2] Fəryad ki, göz yaşı ilə bəslədiyim gözəl ağacım zülmdən özgə meyvə vermədi.

[3] Mənim tükə bənzər bədənimin zəifliyini görərək xalq gözündən sınmış kiprik kimi yaş axıdır.

[4] O şamın xəyalı lə xoş haldayam, bəlkə daim xəyal fənərim bu qayda ilə dolana.

[5] Bədənimə sancılan oxlar odumdan yanır, ey şam, pərvanəyəm, qolum-qanadım od tutmuşdur.

[6] Saqi, dövranın qəmi ilə son dərəcə qəmliyəm, bir fərəh-sevinc bağışlayan cam ilə qəmimi yox elə.

[7] Lütf eylə, Füzuli, mənim əhvalımı o sərvə bildir ki, mənim danışmağa taqətim qalmadı.



* * *

Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim?
İxtiyar olsaydı, rahət ixtiyar etməzmidim[1]?

Ləhzə-ləhzə surətin görseydim ol şirinləbin,
Sən kimi, ey Bisütun, mən həm qərar etməzmidim[2]?

Nişə məhrəm eylədin şəm'i, məni məhrum edib,
Mən sənin bəzmində can nəqdin nisar etməzmidim[3]?

Dərdimi aləmdə pünhan tutduğum naçardır,
Uğrasaydım bir təbibə aşikar etməzmidim[4]?

Yar ilə əğyarı həmdəm görməyə olsaydı səbr,
Tərki-qürbət eyləyib, əzmi-diyar etməzmidim[5]?

Baizin bəzmin mənim rüsvalığımdan qıl qiyas,
Onda sidq olsaydı, mən təqva şüar etməzmidim[6]?

Ol güli-xəndanı görmək mümkün olsaydı mənə,
Sən tək, ey bülbül, gülüstanə güzar etməzmidim[7]?

Ey Füzuli, dağı-hicran ilə yanmış könlümü,
Laləzar açsaydı, seyri-laləzar etməzmidim[8]?

---

[1] Ağıl mənə yar olsaydı, yarın eşqini tərk etməzdimmi, ixtiyarım olsaydı, rahatlığı seçməzdimmi?

[2] O Şirin dodaqlının surətini hər an görsəydim, ey Bisütun mən də sənin kimi bir yerdə qərar etməzdimmi?

[3] Nə üçün məni məhrum edib şamı məhrəm etdin, mən sənin məclisində canımın varını qurban etməzdimmi?

[4] Dərdimi dünyada gizli saxladığım naçarlıqdandır, bir təbibə rast olsaydım, açıb deməzdimmi?

[5] Özgəni yar ilə həmdəm görməyə səbr olsaydı, qürbəti tərk edib öz diyarıma getməzdimmi?

[6] Vaizin məclisini mənim rüsvalığımla müqayisə elə, onda doğruluq olsaydı, mən təqvanı şüar etməzdimmi?

[7] O açılmış gülü görmək mənə mümkün olsaydı, ey bülbül, sənin kimi gülüstana üz tutmazdımmı?

[8] Ey Füzuli, ayrılıq dağı ilə yanmış könlümü laləzar açsaydı, laləzar seyrinə getməzdimmi?

* * *

Zülfi kimi ayağın qoymaz öpəm nigarım,
Yoxdur onun yanında bir qılca e'tibarım[1].

İnsaf xoşdur, ey eşq, ancaq məni zəbun et,
Ha böylə möhnət ilə keçsinmi ruzigarım[2]?

Bildi təmami-aləm kim, dərdməndi-eşqəm,
Yarəb, hənuz halım bilməzmi ola yarım[3]?

Vəslindən ayrı nola qanim tökülsə gül-gül,
Mən gülbüni-bəlayəm, bu fəsldir bəharım[4].

Təsvir edən vücudim yazmış əlimdə sağər,
Rəf' olmağa bu surət yox əldə ixtiyarım[5].

Dur istəmən zəmani mey sayəsin başımdan,
Torpaq olanda, yarəb, dürdi-mey et qübarım[6].

Rüsvalərindən ol məh saymaz məni, Füzuli,
Divanə olmayımmı, dünyadə yoxmu arım[7]?

---

[1] Sevgilim zülfü kimi ayağını öpməyə qoymaz, onun yanında bir tük qədər etibarım yoxdur.

[2] Ey eşq, insaf yaxşıdır, ancaq məni əsir elə, günüm elə belə möhnətləmi keçsin?

[3] Bütün aləm bildi ki, eşq dərdlisiyəm, yarəb, hələ halımı yarım bilmirmi?

[4] Vüsalından ayrı qanım gül-gül tökülsə, nə olar, mən bəlanın gül ağacıyam, baharım bu fəsildir.

[5] Bədənimi təsvir edən əlimdə qədəh yazmışdır, bu sürətin yox olması üçün əlimdə ixtiyarım yoxdur.

[6] Başımdan şərab kölgəsini bir an uzaq istəmərəm, yarəb, torpaq olanda tozumu şərab xıltı elə.

[7] Füzuli, o ay məni öz rüsvalarından saymır, dəli olmayımmı, dünyada arım yoxdurmu?



* * *

Canlar verib, sənin kimi cananə yetmişəm,
Rəhm eylə kim, yetincə sənə canə yetmişəm[1].

Şükraneyi-vüsalinə can verdiyim bu kim,
Çox dərd çəkmişəm ki, bu dərmanə yetmişəm[2].

Halım deyib, muradıma yetsəm əcəb degil,
Bir bəndəyəm ki, dərgahi-sultanə yetmişəm[3].

Muri-mühəqqərəm ki, sərasimə çox gəzib,
Nagah barigahi-Süleymanə yetmişəm[4].

Bir bülbüləm ki, gülşən olubdur nişimənim,
Ya tutiyəm ki, bir şəkəristanə yetmişəm[5].

Dövri-fələk müyəssər edibdir muradımı,
Guya ki, talibi-gövhərəm, kanə yetmişəm[6].

Miskin Füzuliyəm ki, sənə tutmuşam üzüm,
Ya bir kəminə qətrə ki, ümmanə yetmişəm[7].

---

[1] Canlar verib, sənin kimi canana yetmişəm, rəhm eylə ki, sənə yetincə cana yetmişəm.

[2] Vüsalına şükr etmək üçün can verdiyim budur ki, çox dərd çəkmişəm ki, bu dərmana yetmişəm.

[3] Halımı deyib muradıma yetsəm, əcəb deyil, bir bəndəyəm ki, sultan qapısına yetmişəm.

[4] Aciz bir qarışqayam ki, dəli kimi çox gəzib, birdən Süleyman sarayına yetmişəm.

[5] Bir bülbüləm ki, məskənim gülşən olubdur, ya bir tutiyəm ki, şəkəristana yetmişəm.

[6] Fələyin dövr etməsi muradımı yerinə yetiribdir, sanki bir gövhər axtaranam, mədənə yetmişəm.

[7] Miskin Füzuliyəm ki, üzümü sənə tutmuşam, ya kiçik bir damcıyam, ümmana yetmişəm.

* * *

Yar hali-dilimi zar bilibdir, bilirəm,
Dili-zarımda nə kim var, bilibdir, bilirəm[1].

Yari əğyar bilibdir ki, mənə yar olmaz,
Mən dəxi onu ki, əğyar bilibdir, bilirəm[2].

Zülfünü əhli-vəfa seydinə dam eyləyəli,
Məni ol damə giriftar bilibdir, bilirəm[3].

Mən nə hacət ki, qılam şərh ona dərdi-dilimi,
Qamu dərdi-dilimi yar bilibdir, bilirəm[4].

Yar həmsöhbətim olmazsa, Füzuli, nə əcəb,
Özünə söhbətimi ar bilibdir, bilirəm[5].

---

[1] Yar ürəyimin halını ağlar bilibdir, bilirəm, ağlar ürəyimdə nə ki var, bilibdir, bilirəm.
[2] Yarı özgə bilibdir ki, mənə yar olmaz, mən də onu ki, özgə bilibdir, bilirəm.
[3] Zülfünü vəfa sahibi olanları ovlamaq üçün bir tor eləyəli, məni o tora əsir bilibdir, bilirəm.
[4] Ürəyimin dərdini nə ehtiyac var ki, mən ona şərh edim, yar ürək dərdimi bütün bilibdir, bilirəm.
[5] Füzuli, yar həmsöhbətim olmazsa, təəccüblü deyil, dostluğumu özünə ar bilibdir, bilirəm.



* * *

Xoş ol zaman ki, hərimi-vüsalə məhrəm idim,
Nə mübtəlayi-bəla, nə müqəyyədi-qəm idim[1].

Gəzərdim itlərin içrə fəzayi-kuyində,
Yerim behişti-bərin idi, mən bir Adəm idim[2].

Həmişə səcdəgəhim xaki-asitanın idi,
Bu e'tibar ilə bir sərbüləndi-aləm idim[3].

Gədayi-kuyin idim, böylə zillətim yox idi,
Səriri-səltənəti-qürbidə müəzzəm idim[4].

Zaman-zaman əsəri-pərtövi-cəmalindən,
Müalici-dili-pürdərdü çeşmi-pürnəm idim[5].

Ziyadə qəmzədəyəm hicr ilə, xoş ol günlər
Ki, mən bu qəmzədəlikdən ziyadə xürrəm idim[6].

Füzuli, olmaz imiş möhnəti-fəraqə müfid,
Bu zövqi-zikr ki, bir vəqt yarə həmdəm idim[7].

---

[1] O zaman xoş idi ki, vüsal hərəminə məhrəm idim, nə bəlaya düçar, nə qəmə əsir idim.
[2] Olduğun yerin fəzasında itlərinin içində gəzərdim, yerim uca cənnət, mən bir Adəm idim.
[3] Həmişə səcdə yerim astananın torpağı idi, bu etibar ilə dünyanın başı ucası idim.
[4] Olduğun yerin bir gədası idim, belə zillətim yox idi, yaxınlıq səltənətinin taxtında böyük bir adam idim.
[5] Zaman-zaman camalının parıltısının təsirindən çox dərdli ürəyimi və nəmli gözlərimi sağaldırdım.
[6] Ayrılıq ilə çox qəmliyəm, o günlər nə xoş idi ki, mən bu qəmlilikdən daha çox şad idim.
[7] Füzuli, bir vaxt yar ilə həmdəm olduğumu zikr etməklə aldığım zövq ayrılıq qəmində bir fayda verməzmiş.

* * *

Ney kimi, hərdəm ki, bəzmi-vəslini yad eylərəm,
Ta nəfəs vardır quru cismimdə, fəryad eylərəm[1].

Ruzi-hicrandır sevin, ey mürği-ruhim kim, bu gün
Bu qəfəsdən mən səni, əlbəttə, azad eylərəm[2].

Vəhm edib ta salmaya sən mahə mehrin hiç kim,
Kimə yetsəm zülmü cövründən ona dad eylərəm[3].

Qan yaşım qılmaz vəfa, giryan gözüm israfına,
Bunca kim, hərdəm cigər qanından imdad eylərəm[4].

İncimən hər necə kim, əğyar bidad eyləsə,
Yar cövriçün, könül, bidadə mö'tad eylərəm[5].

Bilmişəm bulman vüsalın, leyk bir ümmid ilə,
Gah-gah öz xatiri-naşadımı şad eylərəm[6].

Lövhi-aləmdən yudum əşk ilə Məcnun adını,
Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm[7].

---

[1] Ney kimi hər an vüsal məclisini yad eyləyərəm, quru cismimdə nə qədər nəfəs var, fəryad eyləyərəm.

[2] Ey ruhumun quşu, ayrılıq günüdür, sevin, çünki, bu gün mən səni, əlbəttə, bu qəfəsdən azad edərəm.

[3] Qorxub heç kim sənə mehr salmasın deyə, kimə yetsəm, zülm və cövründən ona şikayət edərəm.

[4] Ağlar gözümün israfçılığına görə bu qədər ki, hər an ciyər qanından imdad edərəm, qan yaşım vəfa etmir.

[5] Özgə nə qədər zülm etsə, incimərəm, könül, yar cövrü üçün zülmə adət edərəm.

[6] Bilmişəm, vüsalını tapmaram, ancaq bir ümüd ilə zaman-zaman öz qəmli könlümü şad edirəm.

[7] Dünyanın lövhəsindən göz yaşımla Məcnun adını yudum, ey Füzuli mən də dünyada bir ad eylərəm.



* * *

Şəm'i şami-firqətəm, sübhi-vüsalı neylərəm?
Bulmuşam yanmaqda bir hal, özgə halı neylərəm[1]?

Qeyrə ərz et hər nə əsbabın ki, var, ey dəhri-dun,
Mən bir əhli-zövqəm, əsbabi-məlalı neylərəm[2].

Yox əcəb gər malə rəğbət, mülkə qılman iltifat,
Mən gədayi-kuyi-eşqəm, mülkü malı neylərəm[3]?

Əhli-haləm, demə büt vəsfin mənə, ey bütpərəst,
Hal bilməz dilbəri-sahibcəmali neylərəm[4]?

Ehtimali-hicr təşvişinə dəyməz zövqi-vəsl,
Vəsl kim, var onda hicran ehtimalı, neylərəm[5]?

Nəxli-qəddin istərəm kandan bəladır hasilim,
Baxmazam şümşadə, bər verməz nihalı neylərəm[6]?

Ey Füzuli, qıl kəmali-fəzl kəsbin, yoxsa mən,
Kamili-eşqəm, dəxi özgə kəmalı neylərəm[7]?

---

[1] Ayrılıq axşamının şamıyam, vüsal sübhünü neyləyirəm, yanmaqda elə bir hal tapmışam ki, özgə halı neyləyirəm.

[2] Ey alçaq dünya, hər nə alətlərin var özgəyə bildir, mən bir zövq əhliyəm, qəm vasitələrini neyləyirəm?

[3] Əgər mala rəğbət, mülkə iltifat göstərmirəmsə, təəccüblü deyil, mən eşq yurdunun yolçusuyam, mülk və malı neyləyirəm?

[4] Mən hal əhliyəm, ey bütpərəst, mənə büt tərifini demə, hal bilməyən gözəllik sahibi dilbəri neyləyirəm?

[5] Vüsal zövqü ayrılıq ehtimalının təşvişinə dəyməz, bir vüsal ki, onda ayrılıq ehtimalı var, onu neyləyirəm?

[6] Boyunun ağacını istəyirəm ki, ondan qazancım bəladır, şümşada baxmaram, bar verməyən ağacı neyləyirəm!

[7] Ey Füzuli, fəzl-bilik yetkinliyi qazan, yoxsa mən eşq yetkiniyəm özgə yetkinliyi neyləyirəm.

* * *

Bağə girdim, səri-kuyin anıb əfğan etdim,
Gül görüb, yadın ilə çaki-giriban etdim[1].

Baxuban nərgisə, əyyar gözün qıldım yad,
Nərgisi naləvü əfğanıma heyran etdim[2].

Qönçəvü lalə deme, dağ qarasın qoparıb,
Alü alayə sarıb səbzədə pinhan etdim[3].

Güli-tər üzrə düşən şəbnəmə düşdü nəzərim,
Gözümü şövqi-cəmalında dürəfşan etdim[4].

Bərgi-gül sanma ki, xunabə tökən dəmdə gözüm,
Neçə yaprağə cigər qanı silib, qan etdim[5].

Görücək sünbülü, andım şikəni-kakülini.
Sünbülü giryəvü ahimlə pərişan etdim[6].

Ey Füzuli, rəvişi-əql məlul etdi məni,
Səhv qandım ki, cünun dərdinə dərman etdim[7].

---

[1] Bağa girdim, olduğun yer yadıma düşüb əfğan elədim, gül görüb, səni yada salıb yaxamı cırdım.

[2] Nərgizə baxıb, aldadıcı gözün yadıma düşdü, nərgizi nalə və əfğanıma heyran etdim.

[3] Qönçə və lalə demə, dağ qarasını qoparıb qırmızı və alaya büküb göylükdə gizlətdim.

[4] Tər gül üstünə düşən şehə nəzərim düşdü, gözümü camalının şövqü ilə, incisaçan etdim.

[5] Gül yarpağı zənn etmə, gözüm qan yaş tökən dəmdə ciyər qanımı neçə yarpağa silib, qan etdim.

[6] Sünbülü görəndə saçının qıvrımlarını xatırladım, sünbülü ağlamağım və ahımla pərişan etdim.

[7] Ey Füzuli, ağlın hərəkəti məni kədərləndirdi, səhv elədim, elə bildim ki, dəlilik dərdinə dərman etdim.



* * *

Tutuşdu qəm oduna şad gördüyün könlüm,
Müqəyyəd oldu ol azad gördüyün könlüm[1].

Diyari-hicrdə seyli-sitəmdən oldu xərab,
Fəzayi-eşqdə abad gördüyün könlüm[2].

Nə gördu badədə bilmən ki, oldu badəpərəst,
Mürid məşrəbü zöhhad gördüyün könlüm[3].

Fəraqın odunu gördükcə mum tək əridi,
Səbatü səbrdə fulad gördüyün könlüm[4].

Gətirdi əcz, görüb eşq müşkül olduğunu,
Qamü hünərlərə ustad gördüyün könlüm[5].

Degildi böylə, dəmində bir əhli-işrət idi,
Bu qanlar içməyə mö'tad gördüyün könlüm[6].

Füzuli, eylədi ahəngi-eyşxaneyi-Rum,
Əsiri-möhnəti-Bağdad gördüyün könlüm[7].

---

[1] Şad gördüyün könlüm qəm oduna tutuşdu, azad gördüyün könlüm əsir oldu.

[2] Eşq fəzasında abad gördüyün könlüm ayrılıq diyarında zülm selindən xarabaya çevrildi.

[3] Bilmirəm, şərabda nə gördü ki, şərabpərəst oldu, mürid xasiyyətli və zahidlər kimi gördüyün könlüm.

[4] Dözüm və səbrdə polad kimi gördüyün könlüm, ayrılıq odunu gördükdə mum kimi əridi.

[5] Bütün hünərlərdə ustad gördüyün könlüm, eşq çətin olduğunu görüb acizlik göstərdi.

[6] Belə deyildi, bir vaxt şadlıq sevən bir adam idi, bu qanlar içməyə adət etmiş gördüyün könlüm.

[7] Füzuli, Bağdad möhnətinin əsiri olan könlüm Rum (Türkiyə) eyşxanasına getməyə üz tutdu.

* * *

Qaçan kim, qamətindən ayrı seyri-busitan etdim,
Qoparıb əşk-seylabilə min sərvi-rəvan etdim[1].

Götürdüm girdibadi-ah ilə gərdunə tapşırdım,
Qübari-rəhgüzarın cövhərin gözdən nihan etdim[2].

Nişani-surəti-xubin verib, bütlər sücudində
Fəsadi-e'tiqadin kafirin xatirnişan etdim[3].

Olub sərməst, qıldım nəş'eyi-zövqi-ləbin fikrin,
Meyə rağib olanlar küfrünü xəlqə əyan etdim[4].

Görüb divarlərdə Kuhkən nəqşin demin aşiq,
Mənəm aşiq ki, tutdum dəşt, tərki-xaniman etdim[5].

Rəhi-eşqində ol gülrüx, cigər qan etdiyim bilmiş,
Çəkər hərdəm mənə tiği-siyasət, sanki qan etdim[6].

Füzuli, şahibazi-ovci-istiğna ikən, bilmən,
Nə səhv etdim ki, bu viranə deyri aşiyan etdim[7]?

---

[1] Nə vaxt boyundan ayrı bustanı seyr etdimsə, göz yaşı seli ilə min sərvi qoparıb axıtdım.
[2] Ahımın burulğanı ilə yolunun üstündəki tozların cövhərini gözdən gizlətdim, götürüb fələyə tapşırdım.
[3] Sənin gözəlliyinin surətinin nişanını verib, bütlərə səcdə etməkdə kafirin etiqadının çürüklüyünü yaddaşıma qeyd etdim.
[4] Sərxoş olub dodağının zövqünün nəşəsinin fikrini etdim, şəraba rəğbət göstərənlərin küfrünü xalqa əyan etdim.
[5] Dağçapanın nəqşini divarlarda görüb ona aşiq deməyin, aşiq mənəm ki, çöl yolunu tutdum, ev-eşiyi tərk etdim.
[6] O gül üzlü eşqinin yolunda ciyər qan etdiyimi bilmiş, hər an mənə cəza qılıncını çəkir, sanki qan etmişəm.
[7] Füzuli, qənaət zirvəsinin şahbazı olduğum halda, bilmirəm, nə səhv etdim ki, bu xaraba kilsəni yuva etdim.



* * *

Müxalif dövrdən gülgun şərabı qanə dəgşirdim,
Sürudin çəngü udun naləvü əfğanə dəgşirdim[1].

Dəxi zövqi-vüsali-dust şövqin istəmin məndən
Ki, mən zövqi-vüsali möhnəti-hicranə dəgşirdim[2].

Məni, ey bağiban, mə'zur tut gülzar seyrindən
Ki, mən gülzar seyrin külbeyi-əhzanə dəgşirdim[3].

Könül verdim fənavü fəqrə, tərki-e'tibar etdim,
Bihəmdillah ki, axir küfrümü iymanə dəgşirdim[4].

Niqabi-surəti-hal eylədim xuni-cigər seylin,
Əyan rüsvalığı dərdü qəmi-pünhanə dəgşirdim[5].

Könüldən zövq bulmazdım, çıxardım çaki-köksümdən,
Qaşı yaylar xədəngilə gələn peykanə dəgşirdim[6].

Füzuli, məndə zövqi-afiyət az istə kim, çoxdan
Mən anı arizuyi-təl'əti-cananə dəgşirdim[7].

---

[1] Düşmən zəmanədən gülrəngli şərabı qana dəyişdim, çəng və udun nəğməsini nalə və əfğana dəyişdim.
[2] Daha məndən dost vüsalı zövqünün şövqünü istəməyin, çünki mən vüsal zövqünü ayrılıq qəminə dəyişdim.
[3] Ey bağban, məni gülzar seyrindən üzürlü say, çünki mən gülzar seyrini qəm daxmasına dəyişdim.
[4] Fəna (heçlik) və yoxsulluğa könül verdim, etibarı tərk etdim, Allaha şükür, axır küfrümü imana dəyişdim.
[5] Ciyər qanını halımın surəti üçün örtük etdim, açıq rüsvalığı gizli dərd və qəmə dəyişdim.
[6] Könüldən zövq tapmazdım, yaralı sinəmdən çıxartdım, qaşı yayların oxu ilə gələn peykana tapşırdım.
[7] Füzuli, məndən can sağlığı zövqünü az istə ki, mən onu çoxdan cananın simasının arzusuna dəyişdim.

* * *

Qıldı ol sərv səhər nazilə həmmamə xüram,
Şəm'i-rüxsarı ilə oldu münəvvər həmmam[1].

Görünürdü bədəni çaki-giribanından,
Camədan çıxdı, yeni ayını göstərdi tamam[2].

Niligun futəyə sardı bədəni-üryanın,
San bənəfşə içinə düşdü müqəşşər badam[3].

Oldu pabusi-şərifilə müşərrəf ləbi-hovz,
Buldu didari-lətifilə ziya dideyi-cam[4].

Sandılar kim, satılar daneyi-dürri-ərəqi,
Vurdu əl kisəyə çoxlar qılıb əndişeyi-xam[5].
Kakilin şanə açıb, qıldı həvayi mişkin,
Tiğ muyin dağıdıb, etdi yeri ənbərfam[6].

Tas əlin öpdü, həsəd qıldı qara bağrımı su,
Yetdi su cisminə, rəşk aldı tənimdən aram[7].
Çıxdı həmmamdən o, pərdeyi-çeşmim sarınıb,
Tutdu asayiş ilə guşeyi-çeşmimdə məqam[8].

Mərdümi-çeşmim ayağinə rəvan su tökdü
Ki, gərək su tökülə sərvin ayağinə müdam[9].

Müzdi-həmmam, Füzuli, verərəm can nəqdin
Qılmasın sərf zər ol sərvqədü siməndam[10].

---

[1] O sərv səhər naz ilə hamama getdi, üzünün şamı ilə hamam işıqlandı.
[2] Yaxasının cırığından bədəni görünürdü, paltardan çıxdı, yeni ayını tamam göstərdi.
[3] Çılpaq bədənini nilrəngli fitəyə sarıdı, sanki soyulmuş badam bənövşə içinə düşdü.
[4] Hovuzun dodağı şərəfli ayaq öpməsi ilə şərəfləndi, onun lətif üzünü görməklə camın gözü işıq tapdı.
[5] Düşündülər ki, onun tərinin inci dənələri satılar, çoxları xam xəyal edib kisəyə əl vurdu.
[6] Daraq saçını açıb, havanı mişk ətirli etdi, qılınc saçını dağıdıb, yeri ənbər qoxulu etdi.
[7] Tas əlini öpdü, qara bağrımı həsəd suya döndərdi, bədəninə su yetdi, qısqanclıq bədənimdən aramı apardı.
[8] O, hamamdan gözümün pərdəsinə sarınıb çıxdı, gözümün bir bucağında arxayınlıqla məskən tutdu.
[9] Göz bəbəyim o saat ayağına su tökdü ki, gərək sərvin ayağına həmişə su tökülə.
[10] Füzuli, hamam haqqı olaraq can nəqdini verərəm, o sərv boylu və gümüş əndamlı qızıl xərcləməsin.



* * *

Ey kəmanəbrü, şəhidi-navəki-müjganinəm,
Bulmuşam feyzi-nəzər səndən, sənin qurbaninəm[1].

Kakilin tarinə peyvənd etmişəm can rıştəsin,
Başın üçün bir tərəhhüm qıl ki, sərgərdaninəm[2].

Nola qılsam tərki-mey, minnət qılıb zahidlərə,
Neylərəm mey nəş'əsin, mən kim, sənin heyraninəm[3].

Şanəvəş yüz navəki-qəm sancılıbdır canıma,
Ta əsiri-həlqeyi-giysuyu-mişkəfşaninəm[4].

Əl çəkib, qət'i-nəzər qılmış əlacımdan təbib,
Bildi guya kim, xərabi-nərgisi-fəttaninəm[5].

Canə meylin var isə, hökm eylə, təslim eyləyim,
Şah sənsən, mən sənin bir bəndeyi-fərmaninəm[6].

Qönçə qılmaz şad, gül açmaz tutulmuş könlümü,
Arizuməndi-rüxi-alü ləbi-xəndaninəm[7].

Qan edib bağrım, işim ah etmə hər dəm, ey fələk,
Hörmətim tut bir-iki gün kim, sənin mehmaninəm[8].

Ey Füzuli, atəşi-ah ilə yandırdın məni,
Qaliba sandın ki, şəm'i-külbeyi-ehzaninəm[9].

---

[1] Ey yay qaşlı, sənin kiprik oxunun şəhidiyəm, səndən bir baxış feyzi tapmışam, sənin qurbanınam.
[2] Can ipini kakilinin telinə bağlamışam, başın üçün bir rəhm elə, sənin avaranam.
[3] Zahidlərə minnət qoyub, şərabı tərk eləsəm, təəccüblü deyil, şərabın nəşəsini neyləyirəm, mən ki, sənin heyranınam.
[4] Nə vaxtdan ki, sənin mişk saçan saçının həlqəsinin əsiriyəm, daraq kimi canıma yüz qəm oxu sancılıbdır.
[5] Təbib mənim əlacımdan əl çəkib, gözünü kəsmişdir, sanki bildi ki, fitnəli nərgislərinin xarabıyam.
[6] Cana meylin vardırsa, hökm eylə, təslim edim, şah sənsən, mən sənin fərmanına tabe olan bir bəndəyəm.
[7] Tutulmuş könlümü qönçə şad etməz, gül açmaz, qırmızı yanağını və gülən dodağını istəyirəm.
[8] Ey fələk, hər an bağrımı qan edib, işimi ah eləmə, hörmətimi tut ki, bir-iki gün sənin qonağınam.
[9] Ey Füzuli, ah atəşi ilə məni yandırdın, deyəsən elə düşündün ki, mən sənin qəmli daxmanın şamıyam.

* * *

Səcdədir hər qanda bir büt görsəm ayinim mənim,
Xah möm'in, xah kafir tut, budur dinim mənim[1].

Bağiban, şümşadü nəsrinin mənə ərz etmə kim,
Ol qədü rüxsardir şümşadü nəsrinim mənim[2].

Xaki-dərgahin nəzərdən sürmə, ey seylabi-əşk,
Qılma zaye sürmeyi-çeşmi-cəhanbinim mənim[3].

Əşk mövci gəzdirər hər yan tənim xaşakini,
Mümkün olmaz əşk təhrikilə təskinim mənim[4].

Çarə umdum ləli-şirinindən əşki-təlximə,
Təlx göftar ilə aldın cani-şirinim mənim[5].

Məndə sakin oldu dərdi-eşq Məcnundan keçib,
Ondan artıqdır məgər eşq içrə təmkinim mənim[6]?

Ey Füzuli, hər yetən tə'n eylər oldu halimə,
Bu yetər əhli-məlamət içrə təhsinim mənim[7].

[1] Harda bir büt görsəm, qaydam səcdə etməkdir, istər mömin, istər kafir hesab elə, mənim dinim budur.
[2] Bağban, mənə şümşad və nəsrinini göstərmə ki, mənim şümşadım və nəsrinim o boy və üzdür.
[3] Ey göz yaşı seli, onun dərgahının torpağını nəzərdən qaçırma, mənim dünyanı görən gözümün sürməsini zay eləmə!
[4] Göz yaşımın dalğaları bədənimin çör-çöplərini hər yana gəzdirər, göz yaşımın təhriki ilə məni təskin etmək mümkün olmaz.
[5] Acı göz yaşıma şirin ləlindən (dodağından) çarə umdum, acı danışıq ilə şirin canımı aldın.
[6] Eşq dərdi Məcnundan keçib məndə sakin oldu, yoxsa eşq içrə mənim təmkinim ondan artıqdır?

Ey Füzuli, hər yetən mənim halıma tənə eylər oldu, tənə əhli olanlar arasında mənim bu təhsinim yetər.



* * *

Kərəm qıl, kəsmə, saqi, iltifatın binəvalərdən,
Əlindən gəldiyi xeyri diriğ etmə gədalərdən[1].

Əsiri-qürbətiz bir səndən özgə aşinamız yox,
Ayağın kəsmə başinçün bizim möhnətsəralərdən[2].

Səba, kuyində dildarın nədir üftadələr hali?
Bizim yerdən gəlirsən, bir xəbər ver aşinalərdən[3].

Demə zahid ki, tərk et simbər bütlər təmaşasın
Məni kim qurtarar tanrı sataşdırmış bəlalərdən[4].

Girib məscidlərə gər müqtədalər peyrəvi olman,
Budur vəchi ki, hərgiz görmədim üz müqtədalərdən[5].

Təbiba, xaki-kuyi-yardəndir əşk təskini,
Bizə artırma zəhmət, göz yaşarar tutiyalərdən[6].

Fələkdir mehri zayil, yar qafil, ömr müstəcil,
Nədir tədbir bilmən, canə yetdim bivəfalərdən[7].

Vücudim ney kimi surax-surax olsa ah etmən,
Məhəbbətdən dəm urdum, incimək olmaz cəfalərdən[8].

Füzuli, nazəninlər görsən izhari-niyaz eylə,
Tərəhhüm umsa eyb olmaz gədalər padişalərdən[9].

[1] Saqi, kərəm elə, binəvalardan (yazıqlardan) mərhəmətini kəsmə, əlindən gələn xeyri yoxsullardan əsirgəmə.
[2] Biz qürbət əsiriyik, səndən özgə bir dostumuz yoxdur, başın üçün, bizim bu möhnət evlərindən ayağını kəsmə.
[3] Səhər yeli, dildarın olduğu yerdə düşkünlərin halı necədir, bizim yerdən gəlirsən, dostlardan bir xəbər ver.
[4] Zahid demə ki, gümüş qucaqlı gözəllərin tamaşasını tərk et, məni tanrı mənə calamış bəlalardan kim qurtarar?
[5] Məclislərə girib əgər böyüklər arxasınca getmirəmsə, səbəbi budur ki, əsla o böyüklərdən üz görmədim.
[6] Ey təbib, göz yaşının təskinliyi yarın olduğu yerin torpağındandır, bizim zəhmətimizi artırma, tutiyalardan gözümüz yaşarar.
[7] Fələyin mehri keçici, yar qafil, ömür tələsəndir, bilmirəm tədbir nədir, vəfasızlardan cana yetdim.
[8] Vücudum ney kimi dəlik-dəlik olsa da, ah etmərəm, məhəbbətdən dəm vurdum, cəfalardan incimək olmaz.
[9] Füzuli, nazəninlər görsən yalvarışlarını söylə, gədalar padşahlardan mərhəmət umsa, eyb olmaz.

* * *

Yaqma canım, naleyi-biixtiyarımdan saqın!
Tökmə qanım, abi-çeşmi-əşkbarımdan saqın[1]!

Su verər hər sübhdəm göz yaşı tiği-ahimə,
Çox məni incitmə, tiri-abidarımdan saqın[2]!

Cövr odu yaqdı məni, yanımda durma, ey könül!
Bir tutuşmuş atəşəm, qürbü civarımdan saqın[3]!

Tən evindən rəxtini cəhd eylə, ey can, dışra çək,
Afəti-seyli-sirişki-biqərarımdan saqın[4]!

Gərçi bir xaki-rəhəm, kimsə məni almaz gözə,
Çox həqarətlə nəzər qılma, qübarımdan saqın[5]!

Gəlmə qəbrim üzrə, ey eşq içrə mən tək olmayan!
Tə'nə daşidir sənə, səngi-məzarımdan saqın[6]!

Şahi-mülki-möhnətəm xeylü sipahim-dərdü qəm,
Xeyli-bihəddü sipahi-bişümarımdan saqın[7]!

Ey Füzuli, qansı məhbubi ki, sevsən rəhmi var,
Qıl həzər, ancaq mənim birəhm yarımdan saqın[8]!

---

[1] Canımı yandırma, ixtiyarsız nalələrimdən çəkin, qanımı tökmə, göz yaşları yağdıran gözümün suyundan çəkin.

[2] Hər sübh vaxtı göz yaşı ahımın qılıncına su verir, məni çox incitmə, sulu ahlarımdan çəkin.

[3] Cövr odu məni yandırdı, ey könül, yanımda durma, bir alovlanmış atəşəm, yaxınlığımdan və ətrafımdan çəkin.

[4] Bədən evindən köçünü, ey can, cəhd elə bayıra çək, qərarsız axan göz yaşı selinin bəlasından çəkin.

[5] Düzdür, bir yol torpağıyam, kimsə məni gözə almaz, çox həqarətlə nəzər salma, qübarımdan (qəm, toz) çəkin.

[6] Ey eşq içində mənim kimi olmayan, qəbrimin üstünə gəlmə, sənə tənə daşıdır, məzarımın daşından çəkin.

[7] Möhnət mülkünün şahıyam, qoşunum və ordum dərd və qəmdir, saysız atlı dəstəmdən və hesabsız qoşunumdan çəkin.

[8] Ey Füzuli, hansı gözəli sevsən, rəhmi var, ancaq mənim rəhmsiz yarımdan həzər et və çəkin.



* * *

Ey geyib gülgun, dəmadəm əzmi-cövlan eyləyən,
Hər tərəf cövlan edib, döndükcə yüz qan eyləyən[1].

Ey məni məhrum edib bəzmi-vüsalından müdam,
Qeyri xani-iltifati üzrə mehman eyləyən[2].

Ey dəmadəm rəşk tiğilə mənim qanım tökük,
Mey içib, əğyar ilə seyri-gülüstan eyləyən[3].

Bunca kim, əfğanımı, ey məh, eşitdin gecələr,
Demədin bir gecə kimdir bunca əfğan eyləyən[4]?

Nola gər cəm'iyyəti-xatirdən olsam naümid,
Cəm' olurmu xublar zülfi pərişan eyləyən[5]?

Yar dün çəkmişdi qətlim qəsdinə tiği-cəfa,
Yetməsin məqsudinə, yarəb, peşiman eyləyən[6].

Eşq dərdilə olur aşiq mizacı müstəqim,
Düşmənimdir, dustlar, bu dərdə dərman eyləyən[7].

Zahidin tə'n ilə döndərdim üzün mehrabdan,
Necə bulmaz əcr, min kafir müsəlman eyləyən[8].

Dərdi-hicran natəvan etmiş Füzuli xəstəni,
Yoxmudur, yarəb, dəvayi-dərdi-hicran eyləyən[9]?!

---

[1] Ey gülrəngli paltar geyib fırlanmağa gedən, hər tərəfi dolanıb döndükcə yüz qan edən.

[2] Ey məni vüsalının məclisindən həmişə məhrum edib, özgəni öz iltifat süfrəsinə qonaq edən.

[3] Ey hər an qısqanclıq qılıncı ilə mənim qanımı tökük, şərab içib, özgə ilə gülüstanı seyr eyləyən.

[4] Ey ay, bu qədər ki gecələr əfğanımı eşitdin, bir gecə demədin bu qədər əfğan eyləyən kimdir?

[5] Könlümün cəm olmasından ümidimi kəssəm, təəccüblü deyil, gözəllər zülfü pərişan (dağınıq) eyləyən cəm olurmu?

[6] Gecə yar məni qətl etmək üçün zülm qılıncını çəkmişdi, yarəb, onu peşman eyləyən diləyinə çatmasın.

[7] Eşq dərdi ilə aşiqin səhhəti düzəlir, dostlar, bu dərdə dərman eyləyən düşmənimdir.

[8] Tənə ilə zahidin üzünü mehrabdan döndərdim, min kafiri müsəlman eyləyən necə mükafat tapmaz.

[9] Xəstə Füzulini ayrılıq dərdi gücsüz etmişdir, yarəb, ayrılıq dərdinə dərman eyləyən yoxdurmu?

* * *

Nola zahid bilsə küfri-zülfün iman olduğun,
Şimdi görmüşlərmidir kafir müsəlman olduğun[1].

Mən əgər aşiq olub, din verməsəydim qarətə,
Kim bilirdi eşq mülkün kafiristan olduğun[2].

Qıl səvab, ey göz, töküb qan, vaqif et qafilləri,
Meyl edənlər eşqə bilsinlər cigər qan olduğun[3].

Daşə bənzər qanlı hər parkalə kim, gözdən çıxar,
Ondan etdim fəhm, könlüm şəhri viran olduğun[4].

Və'deyi-vəslinə ol gündən ki, verdim könlümü,
Mən onun bilməzmidim axir peşiman olduğun[5].

Eşqini asan görüb, oldum əsiri tifl ikən,
Bilmədim gəldikcə bir aşubi-dövran olduğum[6].

Ey Füzuli, xublar vəslinə eylərsən həvəs,
Guiya bilməzsən ol vəsl içrə hicran olduğun[7].

[1] Zülfünün küfrünün iman olduğunu zahid bilsə, nə olar, kafirin müsəlman olduğunu indimi görüblər?

[2] Əgər mən aşiq olub, dinimi qarətə verməsəydim, eşq mülkünün kafiristan (kafirlər ölkəsi) olduğunu kim bilərdi?

[3] Ey göz, qan töküb, savab iş gör, qafilləri vaqif et, eşqə meyl edənlər cigərin qan olduğunu bilsinlər.

[4] Gözdən çıxan hər qanlı yaş parçası daşa bənzəyir, könlümün şəhərinin viran olduğunu ondan bildim.

[5] Sənin vüsal vədinə o gündən ki, könlümü verdim, mən onun axırda peşman olduğunu bilməzdim.

[6] Eşqini asan görüb uşaq ikən əsiri oldum, gəldikcə bir dövran qalmağalı olduğumu bilməzdim.

[7] Ey Füzuli, gözəllər vəslinə həvəs eyləyirsən, sanki o vəsldə ayrılıq olduğunu bilmirsən.



* * *

Dust bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun[1].

Sayeyi-ümmid zayil, afitabi-şövq gərm,
Rütbeyi-idbar ali, payeyi-tədbir dun[2].

Əql dun-himmət, sədayi-tə'nə yer-yerdən bülənd,
Bəxt kəmşəfqət, bəlayi-eşq gün-gündən füzun[3].

Mən qəribi-mülkü rahi-vəsl pür təşvişü məkr,
Mən hərifi-sadəlövhü dəhr pür nəqsü füsun[4].

Hər səhiqəd cilvəsi, bir seyli-tufani-bəla,
Hər hilaləbru qaşı bir sərxəti-məşqi-cünun[5].

Eldə bərgi-lalə tək, təmkini-daniş bisəbat,
Sudə əksi-sərv tək, tə'siri-dövlət vajigun[6].

Sərhədi-mətlub pür möhnət təriqi-imtəhan,
Mənzili-məqsud pür asib, rah-azımun[7].

Şahidi-məqsəd nəvayi-çəng tək pərdənişin,
Sağəri-işrət hübabi-safi-səhba tək nigun[8].

Təfriqə hasil, təriqi-mülki-cəm'iyyət məxuf,
Ah, bilmən neyləyim, yox bir müvafiq rəhnümun[9].

Çöhreyi-zərdin Füzulinin tutubdur əşki-al,
Gör ona nə rənglər çəkmiş sipehri-niligun[10].

[1] Dost biganə, fələk rəhmsiz, dövran narahat, dərd çox, həmdərd yox, düşmən güclü, tale məğlub.

[2] Ümid kölgəsi keçici, şövq günəşi isti, bəxtsizlik rütbəsi uca, tədbir dərəcəsi alçaq.

[3] Ağıl alçaq hümmətli, tənə sədaları yer-yerdən yüksəlir, bəxt kəmfürsət, eşq bəlası günü-gündən artıq.

[4] Mən ölkədə qərib və vəsl yolu təşviş və məkrlə dolu, mən sadəlövh bir hərif, dünya naxış və əfsunla dolu.

[5] Hər düz qamətlinin cilvəsi bir bəla tufanının seli, hər hilalqaşlının qaşı bir dəlilik məşqinin ilk xətti.

[6] Eldə lalə yarpağı kimi bilik təmkini qeyri-sabit, suda sərvin əksi tək, dövlətin (bəxtin) təsiri başayaq.

[7] Mətləb sərhədi möhnət və imtahan yolu ilə dolu, məqsəd mənzili müsibət dolu, yol sınaq.

[8] Məqsəd gözəli çəngin havası kimi pərdədə oturan, işrət qədəhi saf şərab köpüyü kimi başı aşağıdır.

[9] Ələ gələn parçalanma, cəmiyyət mülkünün yolu qorxulu, ah, bilmirəm neyləyim, bir müvafiq yolgöstərən yoxdur.

[10] Füzulinin sarı bənizini qırmızı göz yaşı tutubdur, gör ona nilrəngli fələk nə rənglər çəkmişdir.

* * *

Ucaldın qəbrim, ey bidərdlər, səngi-məlamətdən
Ki, mə'lum ola dərd əhlinə qəbrim ol əlamətdən[1].

Məzarım üzrə qoymun mil, əgər kuyində can versəm
Qoyun bir sayə düşsün qəbrimə ol sərv qamətdən[2].

Görən saətdə ol qamət qiyamın, qıymadım canə,
Qiyamət həm gələ qurtulmayam mən bu nədamətdən[3].

Qiyamətdə hesabı olmayanlardandır ol qafil
Ki, fərq eylər firaqın şamini sübhi-qiyamətdən[4].

Təriqi-səbrü tədbiri-səlamət ləzzətin bilmən,
Mənə eşqü məlamət yey gəlir səbrü səlamətdən[5].

Təbiət inhirafın gör həvayi-eşqdən təndə,
İlac et düşmədən, saqi, mizacım istiqamətdən[6].

Füzuli, keç səlamət kuçəsindən, səbr kuyindən,
Fərağət olmayan yerdə səfər yeydir iqamətdən[7].

---

[1] Ey dərdsizlər, qəbrimi danlaq daşından ucaldın ki, o əlamətdən qəbrim dərd əhlinə məlum ola.

[2] Əgər onun olduğu yerdə can versəm, məzarım üstünə mil qoymayın, qoyun o sərv boyludan qəbrimin üstünə bir kölgə düşsün.

[3] O boyun ayağa durduğunu görən saatda cana qıymadım, qiyamət də gəlsə, mən o peşmanlıqdan qurtarmaram.

[4] O qafil ki, ayrılıq axşamını qiyamət sübhündən fərqləndirər, o, qiyamətdə hesabı olmayanlardandır.

[5] Səbr yolunun və salamatlıq tədbirinin ləzzətini mən bilmirəm, mənə eşq və danlaq səbr və salamatlıqdan yaxşı gəlir.

[6] Bədəndəki eşq havasından təbiətdəki dəyişməni seyr elə, saqi, sağlamlığım yönündən düşmədən əlac et.

[7] Füzuli, salamatlıq küçəsindən, səbr yurdundan keç, asudəlik olmayan yerdə qalmaqdan səfər etmək yaxşıdır.



* * *

Budur fərqi, könül, məhşər gününün ruzi-hicrandan
Kim, ol can döndərər cismə, bu cismi ayırır candan[1].

Tutub rahi-ədəm, bulmuş dəhanından könül kamın,
Mənə həm cəzmdir ol əzm, mən həm qalmazam andan[2].

Qəmim şərh etmək üçün istərəm hər gördügüm saət,
Tutam, damanını, dəgməz əlim çaki-giribandan[3].

Təvafi-kuyin istərdim qılam bari-qəmi-eşqin,
Xəm etdi qamətim, yollar tutuldu xari-müjgandan[4].

Nə xoş ülfət tutubdur natəvan cismimlə can, guya
Sanır bir tari-mudur ol səri-zülfi pərişandan[5].

Oxun gəldikdə çeşmim töksə bağrım qanın ondandır
Ki, bağrım qanına yer qalmadı sinəmdə peykandan[6].

Sitəm daşı, məlamət xəncəri, bidad şəmşiri,
Füzuli, hər cəfa kim gəlsə xoşdur canə canandan[7].

---

[1] Könül, məhşər gününün ayrılıq günündən fərqi budur ki, o, canı cismə döndərir, bu cismi candan ayırır.

[2] Könül yoxluq yolunu tutub ağzından öz kamını almışdır, o qəti qərar mənə həm də qət etməkdir, mən də ondan qalmaram.

[3] Qəmimi şərh etmək üçün hər gördüyüm saatda ətəyindən tutmaq istəyirdim, ancaq yaxamın yırtığından ətəyinə əlim dəyməz.

[4] İstəyirdim olduğun yeri təvaf edim (ətrafına dolanım), eşqin qəm yükü qamətimi əydi, kirpiklərinin tikanı ilə yollar tutuldu.

[5] Gücsüz bədənimlə can nə xoş ülfət tutubdur, sanki, elə düşünür ki, o pərişan zülfün ucundan bir saç telidir.

[6] Oxun gəldikdə gözüm bağrımın qanını töksə, ondandır ki, sinəmdə peykandan bağrımın qanına yer qalmadı.

[7] Sitəm daşı, danlaq xəncəri, zülm qılıncı - Füzuli, cana canandan hər cəfa gəlsə, xoşdur.

* * *

Bəzmi-eşq içrə şərabımdır sirişki-laləgun,
Qıldı qəm qəddim büküb, cami-şərabım sərnigun[1].

Hər tərəf pürxun əliflərdir çəkilmiş köksümə.
Ya havadan mövc urur bağrımdakı dəryayi-xun[2].

Artırır əyyami-hicranın sirişkim hiddətin,
Müddəti-əyyam mey keyfiyyətin eylər füzun[3].

Məskən etmiş yar mari-zülfi çeşmim rəxnəsin,
Pənd vermin kim, onu, ondan çıxarmaz min füsun[4].

Qət'i-ülfət qaliba düşvardır kim, eyləmiş
Nəqşi-Şirin ilə Fərhadı müqəyyəd Bisütun[5].

Rişteyi-can eylədim peyvənd tari-zülfinə,
Ah kim, çəkməkdə imdad eyləməz bəxti-zəbun[6].

Ey Füzuli, mən məlamət gövhərinin gənciyəm,
Əjdahadır kim, yatır çevrəmdə zənciri-cünun[7].

---

[1] Lalə rəngli göz yaşım eşq məclisində şərabımdır, qəm qəddimi büküb şərab canımı ağzı üstə çevirdi.

[2] Hər tərəfdə köksümə qan dolu əliflər çəkilmişdir, ya bağrımdakı qan dəryası havadan dalğalanır.

[3] Ayrılıq əyyamı göz yaşımın hiddətini artırır, vaxtın müddəti də şərabın keyfiyyətini çoxaldır.

[4] Yarın zülfünün ilanı gözümün boşluğunu məskən etmişdir, öyüd verməyin ki, onu oradan min əfsun belə çıxarmaz.

[5] Yaxınlığı kəsmək, deyəsən, çətindir, çünki Bisütun Şirinin nəqşi ilə Fərhadı əsir etmişdir.

[6] Can ipini zülfünün telinə bağladım, ah çəkməkdə zəif bəxtim imdad eləmir.

[7] Ey Füzuli, mən danlaq gövhərinin xəzinəsiyəm, dəlilik zənciri çevrəmdə yatan bir əjdahadır.



* * *

Əgərçi ignə tək keçdim cahanın hər nə varından,
Hənuz ardımcadır qeydi-təəllüq zülfü tarından[1].

Şəhidi-eşq olub, feyzi-bəqa kəsb eyləmək xoşdur,
Nə hasil bivəfa dəhrin həyati-müstəarından[2].

Hübabi-əşkü ahi-pürşərər qılmış məni fariğ,
Cahanın qəsri-siməndudü kaxi-zərnigarından[3].

Görünməz surəti-ümmidi-vəslin lövhi-canımdan,
Mükəddərdir məgər ol ayinə cismim qubarından[4].

Uzanır rişteyi-tuli-əməl didar zövqilə,
Xəm açıldıqca ol gülçöhrə zülfi-tabidarından[5].

Sənədir iqtidası tovfi-kuyi-Leyli etməkdə,
Xəsü xarı qopar, ey naqə, Məcnun rəhgüzarından[6].

Füzulidən məlamat ehtirazın istəyən guya,
Degil vaqif dili-suzanü çeşmi-əşkbarından[7].

---

[1] Düzdür, iynə kimi dünyanın bütün varından keçdim, onun zülfünün teli ilə əlaqələr əsirliyi hələ ardımcadır.

[2] Eşq şəhidi olub, bəqa neməti əldə etmək xoşdur, vəfasız dünyanın borc alınmış həyatından nə hasil?!

[3] Göz yaşımın köpüyü və qığılcımlar saçan ahım məni dünyanın gümüşə tutulmuş qəsrlərindən və qızıl ilə bəzədilmiş sarayından asudə etmişdir.

[4] Canımın lövhəsindən vüsal ümidinin surəti görünməz, yoxsa bədənimin qübarından o ayna toz olmuşdur.

[5] O gülüzlünün parlaq zülfünün əyriləri açıldıqca, görüş zövqü ilə əməlimin ipi uzanır.

[6] Leylinin olduğu yerin ətrafına fırlandıqca səni təqlid edən Məcnunun keçdiyi yoldan, ey dəvə, çör-çöp və tikan qopar.

[7] Füzulidən onun danlaqdan çəkinməyini istəyən sanki yanan ürəyindən və göz yaşı yağdıran gözündən xəbərdar deyil.

* * *

Şəfa lütf et məni-bimarə lə'li-nuşxəndindən,
İkən həm olma, ey bidərd, qafil dərdməndindən[1].

Səməndin qətlimə səgritdin, əmma qorxum ondandır
Ki, səbqət edə nagəh tovsəni-ömrüm səməndindən[2].

Müradi-xatirin gər müşkül olmaqdır işim, olsun,
Nə çarə, keçmək olmaz xatiri-müşkülpəsəndindən[3].

Bilərdim səndə həm var ol həva kim, məndə var, ey ney,
Dəm urduqca əgər çıxsaydı atəş bənd-bəndindən[4].

Həris eylər məni pəndin məzaqi-eşqə, ey naseh!
Diriğ etmə ki, məhzuzəm sənin peyvəstə pəndindən[5].

Kəməndi-dudi-ahindir, Füzuli, çərx boynunda,
Əcəb səyyadsən kim, çərx qurtulmaz kəməndindən[6].

---

[1] Ey dərdsiz, mən xəstəyə şirin-şirin gülən ləl dodağından şəfa bəxş et, həm də dərdini çəkəndən çox qafil olma.
[2] Atını məni qətl etmək üçün səgritdin, ancaq qorxum ondandır ki, ömrümün bərk gedən atı birdən sənin səməndindən birinciliyi ala.
[3] Əgər ürəyinin muradı, mənim işimin müşkil olmağıdırsa, olsun, nə çarə sənin çox çətin bəyənən xatirindən keçmək olmaz.
[4] Ey ney, əgər nəfəs verdikcə, sənin də buğumlarından atəş çıxsaydı, bilərdim ki, məndə olan hava səndə də vardır.
[5] Ey öyüdçü, sənin öyüdün eşqə olan damağımı daha həris eyləyər, əsirgəmə, sənin öyüdündən həmişə şad oluram.
[6] Füzuli, çərxin boynunda olan sənin ahının tüstüsünün kəməndidir, əcəb ovçusan ki, çərx sənin kəməndindən qurtula bilmir.



* * *

Ələ alır gəzicək ol güli-rə'na ətəgin,
Vəhm edər kim, tuta bir aşiqi-şeyda ətəgin[1].

Bildi kim, xaki-rəh oldum ətəgin tutmaq üçün,
Götürər, düşməyə qoymaz yerə əmda ətəgin[2].

Dadilər qılmağa ol kafir əlindən, gecələr
Çıxar ahim göyə ta tutə Məsiha ətəgin[3].

Şamlar qanlu yaşım movcinə əlbəttə dəgər,
Hər necə kim, götürür çərxi-müəlla ətəgin[4].

Öylə üryan gərək avareyi-səhrayi-cünun,
Ki, təəllüq tikəni tutmaya qət'a ətəgin[5].

Rind xak olsa dəxi, dürdi-xümi-badə olur,
Nə isə, qoymaz əlindən meyi-səhba ətəgin[6].

Güllər açıldı, Füzuli, yaxalar çak edibən,
Gəl tutalım meyü məhbub ilə səhra ətəgin[7].

---

[1] Gəzən kimi o gözəl gül ətəyini əlinə alır, qorxur ki, bir şeyda aşiq ətəyini tuta.
[2] Bildi ki, ətəyini tutmaq üçün yol torpağı oldum, götürər, qəsdən ətəyini yerə düşməyə qoymaz.
[3] O kafirin əlindən dad etməyə gecələr ahım göyə çıxar ki, Məsihanın ətəyini tutsun.
[4] Axşamlar uca çərx ətəyini hər necə götürsə də, əlbəttə qanlı yaşımın dalğasına dəyər.
[5] Dəlilik çölünün avarası gərək elə çılpaq olsun ki, əlaqə tikanı qətiyyən ətəyini tutmasın.
[6] Rind torpaq olsa da, şərab xümünün (küp) xıltı olur, nə olsa, əlindən şərabın ətəyini qoymaz.
[7] Füzuli, güllər açıldı, yaxalar cırıb, gəl şərab və gözəl ilə səhra ətəyini tutaq.

* * *

Görməsəm hər göz açanda ol güli-rə'na üzün,
Göz yumunca əşki-gülgunim tutar dünya üzün[1].

Gərçi kafirsən sənə, ey büt, yetər ol əcr kim,
Rəğbətin bütxanədən döndərdi yüz tərsa üzün[2].

Pərdeyi-çeşmimdə nəqşi-cövhəri-tiğin sənin,
Movcə bənzər kim, tutar təhrikilə dərya üzün[3].

Olma, ey səhranişin, qafil, degil hər su sərab,
Mövci-əşki-çeşmi-Məcnundur tutan səhra üzün[4].

Yadi-rüxsarilə ol mahın gözüm qan-yaş tökər,
Hər görən saətdə xurşidi-cahanara üzün[5].

Naz edib döndərmə, ey bidərd, üz üşşaqdən,
Bunca həm göstərmə fəqr əhlinə istiğna üzün[6].

Ey Füzuli, dudi-ahim tirə eylər aləmi,
Görməsəm bir ləhzə ol mahi-mələksima üzün[7].

---

[1] Hər göz açanda o gözəl gülün üzünü görməsəm, göz yumunca gül rəngli göz yaşım dünya üzünü tutar.

[2] Düzdür, kafirsən, ey büt, sənə o mükafat yetər ki, sənin rəğbətin yüz tərsanın (xaçpərəstin) üzünü bütxanadan döndərdi.

[3] Sənin qılıncının cövhərinin nəqşi gözümün pərdəsində elə bir dalğaya bənzər ki, hərəkət edərək dərya üzünü tutar.

[4] Ey səhra sakini, qafil olma, hər su ilğım deyil, səhra üzünü tutan Məcnunun göz yaşının dalğasıdır.

[5] Dünyanı bəzəyən günəşin üzünü hər görən saatda o ayın üzünü yad etməklə gözüm qan-yaş tökür.

[6] Ey dərdsiz, naz edib aşiqlərdən üz döndərmə, həm də yoxsullara bu qədər etinasızlıq üzünü göstərmə.

[7] Ey Füzuli, o mələk simalı ayın üzünü bir an görməsəm, ahımın tüstüsü dünyanı qaranlıq edər.



* * *

Qurutmuş qaliba şövq odu Fərhadın gözü yaşın
Ki, gər axsaydı lə'l eylərdi bişək Bisütun daşın[1].

Bəla yolunda qovğayə qaçan mən tək dözər Məcnun,
Qaçan olmaz duran tək yey bilir hər kimsə yoldaşın[2].

Demən göz yaşı ilə dəf olur eşq atəşi təndən,
Bu od hər yerə düşsə fərq qılmaz qurusun, yaşın[3].

Bəyani-eşq bəsdir lövhi-rüxsarimdə xuni-dil,
Bəsirət əhlinə zahir qılır hər nəqş nəqqaşın[4].

Füzuli, badəxari duzəxi der xəlq, heyranəm
Ki həq neyçün salıbdır cənnətə meyxanə ovbaşın[5].

---

[1] Şövq odu Fərhadın gözünün yaşını, deyəsən qurutmuşdur, əgər axsaydı, şəksiz, Bisütunun daşını inciyə çevirərdi.

[2] Bəla yolunda qovğaya Məcnun mənim kimi haçan dözər, qaçan duran kimi yaxşı olmaz, hər kəs yoldaşını yaxşı tanıyır.

[3] Göz yaşı ilə eşq atəşi bədəndən yox olur deməröm, bu od hər yerə düşsə, qurusuna, yaşına fərq qoymaz.

[4] Üzümün lövhəsində ürəyimin qanı eşqin bəyanı olmaq üçün bəsdir, bəsirət sahiblərinə hər nəqş onun nəqqaşını göstərir.

[5] Füzuli, şərab içəni xalq cəhənnəm əhli deyir, heyranam ki, Allah nə üçün meyxana alçağını cənnətə salıb?

* * *

Kuhikən künd eyləmiş min tişəni bir dağilən,
Mən qoparıb salmışam min daği bir dırnağilən[1].

Qəm yolunda mən qalıb, getdisə Məcnun, yox əcəb,
Sayruya düşvardır həmrəhlik etmək sağ ilən[2].

Gərdi-rahin verməsə göz yaşinə təskin, nola,
Tutmaq olmaz böylə seylabın yolun toprağilən[3].

Qəm oğurlar eşq bazarında nəqdi-ömrümü,
Qılmaq olmaz sud sövdadə yaman ortağilən[4].

Rovzeyi-kuyində bulmuşdur Füzuli bir məqam,
Kim, ona cənnət quşu yetməz min il uçmağilən[5].

---

[1] Dağçapan min külüngü bir dağ ilə kütləşdirmişdir, mən bir dırnaq ilə min dağı qoparıb salmışam.

[2] Qəm yolunda mən qalıb, Məcnun getdisə, təəccüblü deyil, xəstəyə sağ olan bir adamla yol yoldaşlığı etmək çətindir.

[3] Yolunun tozu göz yaşına təskinlik verməsə, təəccüblü deyil, belə selin yolunu torpaqla tutmaq olmaz.

[4] Eşq bazarında ömrümün varını qəm oğurlayır, sövdada yaman ortaq ilə fayda görmək olmaz.

[5] Füzuli sənin olduğun yerin bağçasında bir məqam tutmuşdur ki, cənnət quşu min il uçmaqla ora yetməz.



* * *

Ta sirişki-dideyi-Fərhadi gördü laləgun,
Çeşmələr suyini gözdən saldı kuhi-Bisütun[1].

Ta ələm qaldırdı ahi-atəşinim şərm edib,
Qıldı xurşidin fələk zərrin livasın nilgun[2].

Daş bağırlı olmasaydı Bisütun, Fərhad üçün,
Su yerinə gözlərindən axıdardı seyli-xun[3].

Ey görən min dağ ilə səbrü səbatım, eyləmə
Nisbətim Fərhadə kim, bir dağ ilə olmuş zəbun[4].

Quş yuvası sanma kim, sərgəştə Məcnun başinə
Xarü xəs cəm' eyləmiş girdabi-dəryayi-cünun[5].

Ta göründü səfheyi-hüsnündə xəttin, rəşkdən
Daşə çaldı afitabi-sadəlövhün çərxi-dun[6].

Ey Füzuli, xaki-kuyi-yarə yetdim, qanı Xızr
Kim, verəm kamın, olam abi-həyatə rəhnümun[7].

---

[1] Fərhadın gözünün yaşının lalə rəngli olduğunu görüb Bisütun dağı bulaqların suyunu gözdən saldı.

[2] Elə ki, mənim odlu ahım bayraq qaldırdı, fələk xəcalət çəkib günəşin qızıl libasını nil rəngində (göy) elədi.

[3] Bisütun daş bağırlı olmasaydı, Fərhad üçün gözlərindən su yerinə qan seli axıdardı.

[4] Ey min dağ ilə, səbr və dözümümü görən, məni Fərhad ilə müqayisə eləmə ki, o, bir dağ ilə aciz olmuşdur.

[5] Quş yuvası zənn etmə, dəlilik dəryasının burulğanı sərgərdan Məcnunun başına çör-çöp toplamışdır.

[6] Elə ki, gözəlliyinin səhifəsində xəttin göründü, alçaq fələk sadəlövh günəşini qısqanclıqdan daşa çaldı.

[7] Ey Füzuli, yarın olduğu yerin torpağına yetdim, Xızr hanı ki, muradını verəm, dirilik suyuna yolgöstərən olam.

* * *

Cəm' könlün dövr cövründən pərişan olmasın,
Çərx fərmanınla gəzməkdən peşiman olmasın[1].

Yer işi, gög cünbüşü rə'yində bir dəm olmasa,
Yeddi iqlimü doquz gərduni-gərdan olmasın[2].

Bir binadır dövlətin, olmuş pənahi-xasü am,
Ol bina, yarəb, cahan olduqca viran olmasın[3].

Qılmasa aləm muradınca mədar, olsun xərab,
Olmasa dövran sənin rə'yinlə, dövran olmasın[4].

Cizginirkən dustlar kamınca fərmanində çərx,
Hakimi-təqdirdən təğyiri-fərman olmasın[5].

Tabe olsun cümleyi-aləm sənin fərmanına,
Cümleyi-aləmdə səndən qeyri sultan olmasın[6].

Ləhzə-ləhzə gülşəni-mədhində guya olmasa,
Bülbüli-nitqi Füzulinin xoşəlhan olmasın[7].

---

[1] Toplu könlün dövrün zülmündən dağınıq olmasın, çərx fərmanınla gəzməkdən peşman olmasın.
[2] Yer işi, göyün hərəkəti bir an sənin rəyinlə olmasa, yeddi iqlim (yer), doqquz fırlanan fələk olmasın.
[3] Dövlətin bir binadır, xasların və kütlənin pənahı olmuşdur, o binanı, yarəb, dünya durduqca viran olmasın.
[4] Dünya muradınca hərəkət etməsə, viran olsun, dövran sənin rəyinlə olmasa, dövr etməyi olmasın.
[5] Çərx dostların fərmanı ilə fırlanarkən qədər hakimi tərəfindən fərmanın dəyişməsi olmasın.
[6] Bütün aləm sənin fərmanına tabe olsun, bütün aləmdə səndən özgə sultan olmasın.
[7] Hər an səni mədh etmək gülşənində dil açmasa, Füzulinin dilinin bülbülü xoş ləhcəli olmasın.



* * *

Bari-möhnətdən nihali-qamətin xəm olmasın,
Başımızdan sayeyi-sərvi qədin kəm olmasın[1].

Hasilim rüxsarü lə'lü çeşmü qəmzən olmasa,
Ömr bir an, bir nəfəs, bir ləhzə, bir dəm olmasın[2].

Gərdi-rahin əzmi-gərdun etdi kim, bu qədr ilə
Şöhreyi-aləm h[illegible]ayi-Məryəm olmasın[3].

İltimas etdim səbadən tutiya çəkdirməyə,
Ağlama ey göz [illegible]übari-dərgəhi nəm olmasın[4].

Sən tək afət gəldiyin bilmişdi kim, həqdən mələk
İltimas eylərdi kim, aləmdə Adəm olmasın[5].

Der imiş zahid ki, olmaq eybdir rüsvayi-eşq,
Bu sözü faş etməsin, rüsvayi-aləm olmasın[6].

Ey Füzuli, zövqi-dərdi-eşqə nöqsan heyfdir,
Ehtiyat et, pənbeyi- dağında mərhəm olmasın[7].

---

[1] Möhnət yükündən qamətinin ağacı əyilməsin, sərv boyunun kölgəsi başımızdan əskik olmasın.
[2] Üzün, ləlin, gözün, qəmzən qismətim olmasa, ömrüm bir an, bir nəfəs, bir ləhzə, bir dəm olmasın.
[3] Yolunun tozu göyə doğru hərəkət etdi ki, bu qədr ilə aləmdə şöhrət qazanan Məryəmin İsası olmasın.
[4] Səhər yelindən tutiya çəkdirmək üçün xahiş etdim, ey göz, ağlama, qapısının tozu nəm olmasın.
[5] Mələk sənin kimi bir bəla gəldiyini bilmişdi ki, haqdan xahiş edirdi ki, dünyada Adəm olmasın.
[6] Zahid deyirmiş ki, eşq ilə rüsvay olmaq eyibdir, bu sözü yaymasın, dünyada rüsvay olmasın.
[7] Ey Füzuli, eşq dərdinin zövqünə nöqsan heyifdir, ehtiyat elə, dağ pambığında mərhəm (dərman) olmasın.

* * *

Gör sirişkim şəbi-hicran, demə kim, qandır bu,
Zərrə-zərrə şərəri-atəşi-hicrandır bu[1].

Sanmanız qanlı dügün, sinə dəlib, baş çəkmiş,
Şö'leyi-atəşi-ahi-dili-suzandır bu[2].

Kəsmə ümmid könül başına cizginməkdən,
Ola nagəh, düşə fürsət ələ, dövrandır bu[3].

Dəmbədəm canımı ey dərdü bəla, incitmin!
Lütf edin bir-iki dəm kim, sizə mehmandır bu[4].

Nə yaqırsan oxun, ey atəşi-dil, vəsl günü,
Bizə hicran gecəsi şəm'i-şəbistandır bu[5].

Könül istər ala bir bu səri-zülfündən, leyk,
Vermədən can dilər almaq, sanır asandır bu[6].

Dün demişsən ki, Füzuli mənə qurban olsun!
Sənə qurban olayım, yenə nə ehsandır bu[7].

---

[1] Ayrılıq gecəsi göz yaşıma bax, demə ki, bu qandır, bu ayrılıq atəşinin zərrə-zərrə qığılcımlarıdır.

[2] Qanlı bir düyün saymayın, bu, yanan ürəyin ahının atəşinin şöləsidir, sinəni deşib başını çıxarmışdır.

[3] Könül başına dolanmaqdan ümidini kəsmə, birdən olar, ələ fürsət düşər, bu dövrandır.

[4] Zaman-zaman, ey dərd və bəla, canımı incitməyin, lütf edin ki, bir-iki an bu sizə qonaqdır.

[5] Ey ürək atəşi, vüsal günü oxunu niyə yandırırsan, bu, ayrılıq gecəsi bizə yataq otağının şamıdır.

[6] Könül zülfünün ucundan bir qoxu almaq istəyir, ancaq can vermədən almaq istəyir, elə düşünür ki, bu, asandır.

[7] Dünən demişsən ki, Füzuli, mənə qurban olsun, sənə qurban olum, bu yenə nə ehsandır?



* * *

Nihali-dərddir Məcnun, yer etmiş sayəsin ahu,
Başında quş qanadı bərg, ayağında səlasil su[1].

Mənə zali-fələk çəkdirdi ol muyi-miyan cövrün,
Görün bir tari-muyi necə əjdər etmiş ol cadu[2].

Olur meyli-dil əfzun astanın daşına hərdəm,
Əgərçi rəsmidir yasdıqdan ikrah eyləmək sayru[3].

Tərəhhüm qıl bükülmüş qəddimə, vəhm eylə ahimdən,
Saqın çıxmayə nagəh yaydən ol ox, ey kəmanəbru[4].

Nədir, – dedim,-rüxi-safində əksi-mərdümi-çeşmim?
Dedi: gəlmiş gəmilə Rumə dərya qət' edib hindu[5].

Qaşın yayı fərağindən xədəngin kimi incəldim,
Necə bir çəkdirər eşqin mənə zülmün, nə gücdür bu[6]?

Füzuli, ayrı düşdün yardən, səbr etməyə yer yox,
Düşüb səhrayə əfğan edəlim sən ayru, mən ayru[7].

---

[1] Məcnun bir dərd ağacıdır, kölgəsində ahu yer etmişdir, başında quş qanadı yarpaq, ayağındakı zəncir sudur.

[2] Mənə qoca fələk o tük kimi belin zülmünü çəkdirdi, görün o cadu bir saç telini necə əjdaha etmişdir?

[3] Düzdür, xəstənin yastıqdan iyrənməsi qaydadır, ancaq astananın daşına ürəyin meyli hər an artıq olur.

[4] Bükülmüş qəddimə rəhm elə, ahımdan qorx, ey yay qaşlı, çəkin birdən o ox yaydan çıxar.

[5] Saf üzündə göz bəbəyimin əksi nədir, dedim, dedi: "Bir hindli gəmi ilə dərya qət edib Ruma (Türkiyəyə) gəlmişdir".

[6] Qaşının yayının ayrılığından oxun kimi incəldim, eşqin zülmünü mənə nə bir çəkdirir, bu, nə gücdür?

[7] Füzuli, yardan ayrı düşdün, səbr etməyə yer yoxdur, çölə düşüb sən ayrı, mən ayrı əfğan edək.

* * *

Bülbüli-dil gülşəni-rüxsarın eylər arizu,
Tutiyi-can lə'li-şəkkərbarın eylər arizu[1].

Naməvü qasid pəyamiylə xoş olmaz xatirim,
Öz ləbindən ləhceyi-göftarın eylər arizu[2].

Sərvü gül nəzzarəsin neylər sənə heyran olan,
Arizinlə qəddi-xoşrəftarın eylər arizu[3].

Arizu eylər ki, mən tək müttəsil bimar ola,
Kim ki, vəsli-nərgisi-bimarın eylər arizu[4].

Hicr bimari tənim badi-səbadən dəmbədəm,
Sihhət üçün sihhəti-əxbarın eylər arizu[5].

Zülməti-hicrində baxmaz şəm'ə çeşmim mərdümü,
Pərtövi-rüxsari-pürənvarın eylər arizu[6].

Arizuməndi-vüsalındır Füzuli xəstədil,
Vəslin istər, dövləti-didarın eylər arizu[7].

---

[1] Ürək bülbülü üzünün gülşənini arzulayır, can tutisi şəkər yağdıran ləlini arzulayır.
[2] Məktub və qasid xəbəri ilə xatirim xoş olmur, öz dodağından danışıq ləhcəni arzulayır.
[3] Sənə heyran olan sərv və gülə tamaşa etməyi neyləyir, yanağınla xoş rəftarlı boyunu arzulayır.
[4] Kim ki, xəstə nərgizinin vüsalını arzulayır, mənim tək arzu edir ki, həmişə xəstə olsun.
[5] Ayrılıq xəstəsi olan bədənim hər an səhər yelindən sağlamlıq üçün sağlamlıq xəbərlərini arzulayır.
[6] Gözümün bəbəyi ayrılıq zülmətində şama baxmaz, sənin çox işıqlı üzünün parıltısını arzulayar.
[7] Xəstə ürəkli Füzuli vüsalının arzusundadır, vəslini istəyir, didarının (səni görməyin) dövlətini arzulayır.



* * *

Rəməzan oldu çəkib şahidi-mey pərdəyə ru,
Mey üçün çəng tutub tə'ziyə açdı giysu[1].

Bildi mütrib ki, nədir hal götürdü qopuzun,
Bəzmdən çəkdi ayağini sürahiyyü səbu[2].

Bəzm qanuni pozuldu, nə üçün çəng ilə dəf,
Yığılıb etməyələr hakim eşigində ğülu[3].

Rəməzan ayı gərək açıla cənnət qapısı,
Nə rəva kim, ola meyxanə qapısı bağlu[4].

Fəthi-meyxanə üçün oxuyalım fatihələr,
Ola kim, üzümüzə açıla bir bağlı qapu[5].

Afitabi-qədəh etməz rəməzan ayı tülu'
Nə bəladır bizə, ya rəb, na qara gündür bu[6]?

İntizari-meyi-gülrəng ilə bayram ayına,
Baxa-baxa enəcəkdir gözümüzə qara su[7].

Rəməzan oldu, budur vəhmi Füzulinin kim,
Neçə gün içməyə mey, zöhd ilə nagəh tuta xu[8].

---

[1] Ramazan oldu, şərab şahidi üzü pərdəyə çəkib, şərab üçün çəng tutub saçı təziyyə açdı.
[2] Mütrüb vəziyyətin nə yerdə olduğunu bilib qopuzunu götürdü, sürahi və sovça məclisdən ayağını çəkdi.
[3] Məclis qanunu pozuldu, çəng ilə dəf nə üçün yığılıb hakimin qapısının eşiyində qışqırmayalar.
[4] Ramazan ayı gərək cənnət qapısı açıla, nə rəva ki, meyxana qapısı bağlı ola.
[5] Meyxananın fəthi üçün "fatihə" oxuyaq, bəlkə üzümüzə bir bağlı qapı açıla.
[6] Ramazan ayı qədəh günəşi çıxmaz, yarəb, bu nə bəladır, nə qara gündür?
[7] Gül rəngli şərabın intizarı ilə bayram ayına baxa-baxa gözümüzə qara su enəcəkdir.
[8] Ramazan oldu, Füzulinin qorxusu budur ki, neçə gün şərab içməyə, birdən zöhd ilə uyğunlaşa.

* * *

Aşiq oldum yenə bir tazə güli-rə'nayə
Ki, salır al ilə hərdəm məni yüz qovğayə[1].

Müşt urub qalibi-fərsudəmi gəh həbs qılır,
Gah sərasiməvü üryan buraxır səhrayə[2].

Üzümün qanilə kiməxtini al etdim kim,
Aləti-sən'ət ola ol büti- bipərvayə[3].

Bu nə işdir ki, bizi iynə kimi incəldib,
Salır iplik kimi hərdəm bir uzun sevdayə[4].

Ayağın bağlamış avarələrin sən'ət ilə,
Yox nihayət səri-kuyində gəzən şeydayə[5].

Ləxt-ləxt olmuş ikən qəmzə dirəfşini çəkib,
Çarəsaz olmadı bir gün məni-qəmfərsayə[6].

Yaxa çak edəni başmaq kimi salır ayağa,
Ey Füzuli, bax onun etdiyi istiğnayə[7].

---

[1] Yenə bir təzə gözəl gülə aşiq oldum ki, hər an məni hiylə ilə yüz qovğaya salır.
[2] Gah yumruq vurub əprimiş qəlibimi həbs edir, gah sərsəm və çılpaq çölə buraxır.
[3] Üzümün qanı ilə sağrı dərisini qızartdım ki, o qorxusuz gözələ bir sənət aləti olsun.
[4] Bu nə işdir ki, bizi iynə kimi incəldib, bir iplik kimi hər an uzun bir sevdaya salır.
[5] Avaraların ayağını sənət ilə bağlamışdır, onun olduğu yerdə gəzən şeydalara son yoxdur.
[6] Parça-parça olmuş ikən qəmzə bayrağını çəkib, bir gün qəmdən büzülmüş olan mənə çarə etmədi.
[7] Yaxa cıranı başmaq kimi ayağa salır, ey Füzuli, onun etdiyi etinasızlığa bax!



* * *

Olsaydı məndəki qəm Fərhadi-mübtəladə,
Bir ah ilə verərdi min Bisütuni badə[1].

Verseydi ahi-Məcnun faryadımın sədasın,
Quşmu qərar edərdi başındaki yuvadə[2]?

Fərhadü zövqi-surət, Məcnunü seyri səhra,
Bir rahət içrə hər kəs, ancaq mənəm bəladə[3].

Əşki-rəvanimə el cəm' oldu, var ümidim
Kim, ola varə-varə cəm'iyyətim ziyadə[4].

Gəh qəmzən içmək istər qanimi, gah çeşmin,
Qorxum budur ki, nagəh qanlar ola aradə[5].

Sərvərlik istər isən, üftadəlik şüar et
Kim, düşmədən əyağə çıxmadı başə badə[6].

Gər görməmək dilərsən rəsmi-cəfa, Füzuli,
Olma vəfayə talib dünyayi-bivəfadə[7].

---

[1] Məndəki qəm eşqə düşmüş Fərhadda olsaydı, bir ah ilə min Bisütunu yelə verərdi.
[2] Məcnunun ahı fəryadımın sədasını versəydi, başındakı yuvada quş qərar edərdimi?
[3] Fərhad və surət zövqü, Məcnun və səhrə seyri, hər kəs bir rahatlıq içindədir, bəlada ancaq mənəm.
[4] Axan göz yaşıma el yığıldı, ümidim var ki, gedə-gedə yığnağım çoxala.
[5] Qanımı gah qəmzən içmək istəyir, gah gözün, qorxum budur ki, arada nahaq qanlar ola.
[6] Başçılıq istəyirsənsə, düşkünlük şüarı elə, çünki şərab ayağa (qədəh) düşmədən başa çıxmadı.
[7] Füzuli, əgər cəfa qaydası görməmək istəyirsənsə, vəfasız dünyada vəfa axtarma.

* * *

İstədim mərhəm oxundan cigərim yarəsinə,
Atdı min ox ki, dəgər hər biri bir parəsinə[1].

Bir-birilə çəkişir gərdi-rəhinçün müjələr,
Gör nə qanlar düşəcəkdir oların arəsinə[2].

Çəkməz oldu könül oxlar yükün, ol sərv məgər
Çəkərək atə oxun, rəhm edə biçarəsinə[3].

Qanı göz yaşı kimi əhli-nəzər kim, yügürüb
Bir içim su verə dəşti-ğəmin avarəsinə[4].

Hər tərəf əkslərimdir görünən, ya yığılıb
Gəldi su xəlqi sirişkim suyu nəzzarəsinə[5].

Bilməzəm kim, nəzər əhli nəsini əksildər,
Qəzəb eylər nəzər etsəm məhi-rüxsarəsinə[6].

Ey Füzuli, cigərim qanını qoymaz tökülə,
Can fəda ol sənəmin qəmzeyi-xunxarəsinə[7].

---

[1] Ciyərimin yarasına oxundan mərhəm istədim, min ox atdı ki, hər biri bir parçasına dəyə.
[2] Kirpiklər yolunun tozu üçün bir-biri ilə çəkişir, göz onların arasına nə qanlar düşəcəkdir!
[3] Könül oxlar yükünü çəkməz oldu, bəlkə o sərv oxunu çəkərək ata, öz biçarəsinə rəhm edə.
[4] Göz yaşı kimi bir nəzər sahibi hanı ki, yüyürüb qəm çölünün avarasına bir içim su verə.
[5] Hər tərəfdə görünən mənim əkslərimdir, ya da su xalqı yığılıb göz yaşımın suyuna baxmağa gəldi.
[6] Bilmirəm ki, nəzər əhlinin nəyi əksilər, mən onun ay üzlüsünə nəzər salsam, qəzəblənir.
[7] Ey Füzuli, ciyərimin qanını tökülməyə qoymur, o sənəmin qan içən qəmzəsinə can fəda olsun!



* * *

Bağə gir, bülbülə ərzi-güli-rüxsar eylə,
Yıq gülün irzini, bülbül gözünə xar eylə[1].

Bağ şahidlərinə zülf ilə çeşmin göstər,
Sünbülü dərhəm edib, nərgisi bimar eylə[2].

Qönçəyə lafi-lətafətdə ağız açdırma,
Ləhzə-ləhzə onu şərməndeyi-göftar eylə[3].

Sərvə azadəlik ismilə yaraşmaz yürümək,
Onu həm şiveyi-rəftarə giriftar eylə[4].

Dari-dünyanı könül cəhd qılıb tərk edə gör,
Xabi-qəflətdə ikən özünü bidar eylə[5].

A cigər zəxmi, ağız açma xədəngin görübən,
Yetənə razi-nihanım yetər izhar eylə[6].

Kəs, Füzuli, təməin qeyr təmənnalərdən,
Qanda olsan tələbi-dövləti-didar eylə[7].

---

[1] Bağa gir, bülbülə yanağının gülünü göstər, gülün şərəfini yıx, bülbül gözünə tikan batır.
[2] Bağ gözəllərinə zülf ilə gözünü göstər, sünbülü dağıt, nərgizi xəstə elə.
[3] Qönçəyə lətafətdən dəm vurmaq üçün ağız açdırma, hər an onu danışıqda şərməndə (xəcalətli) elə.
[4] Sərvə azadəlik adı ilə yerimək yaraşmaz, onu da yeriş qaydası ilə əsir et.
[5] Könül, dünya evini cəhd göstərib tərk elə, qəflət yuxusunda ikən özünü oyat.
[6] A ciyər yarası, oxunu görüb ağız açma, yetənə gizli sirrini yetər, izhar etmə!
[7] Füzuli, özgə təmənnalardan tamahını kəs, harda olsan üzünü görmək dövlətini istə!

* * *

Daraldar qönçə həlqin, dürci-lə'lin gəlsə göftarə,
Qaraldar afitabı sayə çəksən pərdə rüxsarə[1].

Sənə bir söz deyincə keçdi ömrüm həsbətən-lillah,
Sualım kami-dil verməkdə möhtac etmə təkrarə[2].

Dili-sədparəyi cəm' eyləmək kuyində müşküldür,
Olurmu cəm'ə qabil hər itin ağzında bir parə[3]!

Səri-zülfündə hər mu, seyd qılmış bir dili-suzan,
Düşübdür sanasan bir şö'lə od şəm' üzrə hər tarə[4].

Təmənnayi-vüsalinçün degil giryəm, budur qəsdim
Ki, seyli-əşkdən yer qalmaya kuyində əğyarə[5].

Başım qaldırmasın xaki-rəhindən, sərnigun çəksin,
Çəkər olsa, müsəvvir surətim kuyində divarə[6].

Füzuli, zə'fi-tən üzrilə kəsmə naleyi-zarın,
Bizi çün çəng tək mö'tad qıldın naləvü zarə[7].

---

[1] Ləl mücrün danışığa gəlsə, qönçə boğazını daraldar, üzə pərdədən kölgə salsan, günəşi qaraldar.
[2] Sənə bir söz deyincə, ömrüm keçdi, Allah üçün, ürək kamı verməkdə məni xahişimi təkrar etməyə möhtac etmə.
[3] Sənin olduğun yerdə yüz yerə parçalanmış ürəyimi cəm etmək çətindir, hər itin ağzında bir para cəm olmağa qabil olurmu?
[4] Saçının ucunda hər tük bir yanan ürəyi ovlamışdır, elə bil, şamın üzərində hər telə bir od şöləsi düşübdür.
[5] Ağlamağım vüsalını istəmək üçün deyil, məqsədim budur ki, göz yaşımın selindən sənin olduğun yerdə özgəyə yer qalmasın.
[6] Rəssam sənin olduğun yerdə mənim surətimi çəkəsi olsa, başımı ayağının torpağından qaldırmasın, ağzı üstə çəksin.
[7] Füzuli, bədən zəifliyinin üzrü ilə ağlar naləni kəsmə, bir halda ki, bizi çəng kimi ağlamağa və nalə etməyə adət etdirdin.



* * *

Rəhm et, ey şəh, məni-dərviş çəkən ahlərə
Ki, gəda ahı əsər eylər olur şahlərə[1].

Mehri yox mahlərə ah əsər etməz, yarəb!
Ver bir insaf bu mehri yox olan mahlərə[2].

Qaşların taqinə versəm dili-suzan, nə əcəb
Rəsmdir, asıla qəndil nəzərgahlərə[3].

Maili-sərv qədin vəslinə yetməz, nişə kim,
Bəxt şayəstə degil himməti kutahlərə[4].

Saqiyi-bəzmi-cünun nərgisi-məstindir kim,
İçirir badeyi-qəflət dili-agahlərə[5].

Baxma, ey didə, zənəxdanına məhbublərin,
Gəzmə qafil, həzər et düşməyəsən çahlərə[6].

Ey Füzuli, vərə' əhli rəhi-məscid tutmuş,
Sən rəhi-meykədə tut, uyma bu gümrahlərə[7].

---

[1] Ey şah, mən yoxsul çəkən ahlara rəhm elə, gədalar çəkən ahlar şahlara əsər edər.
[2] Mehrsiz aylara, yarəb, ah əsər etmir, bu mehri olmayan aylara bir insaf ver.
[3] Qaşlarının tağına yanan ürək versəm, təəccüblü deyil, qaydadır görünən yerlərdən qəndil asarlar.
[4] Sərv boyuna mail olan vəslinə yetməz, ona görə ki, hümməti gödək olanlara bəxt layiq deyil.
[5] Dəlilik məclisinin saqisi sənin sərxoş nərgizindir, ürəyi agah olanlara qəflət şərabı içirir.
[6] Ey göz, gözəllərin çənə çökəyinə baxma, qafil gəzmə, çəkin ki, quyulara düşməyəsən.
[7] Ey Füzuli, haramdan çəkinənlər məscid yolunu tutmuşlar, sən meykədə yolunu tut, bu yolunu azmışlara uyma.

* * *

Yenə ol mah mənim aldı qərarım bu gecə,
Çıxacaqdır fələyə naleyi-zarım bu gecə[1].

Şəm' vəş məhrəmi-bəzm eylədi ol mah məni,
Yanacaqdır yenə eşq oduna varım bu gecə[2].

Həm vüsali urur od canıma, həm hicranı,
Bir əcəb şəm' ilə düşdü səri-karım bu gecə[3].

Nə tütündür ki, çıxar çərxə, dili-zarə məgər
Hicr dağını urur laləüzarım bu gecə[4]?

Sübhə saldı bu gecə şəm' kimi qətlimi hicr,
Ola kim, sübh gəlincə gələ yarım bu gecə[5].

Parə-parə cigərim itlərinə nəzr olsun,
Ol səri-kuyə əgər düşsə güzarım bu gecə[6].

Var idi sübh vüsalinə, Füzuli, ümmid,
Çıxmasa həsrət ilə cani-fiqarım bu gecə[7].

---

[1] O ay yenə bu gecə mənim qərarımı aldı, ağlar nalələrim bu gecə fələyə çıxacaqdır.

[2] O ay məni şam kimi məclis məhrəmi elədi, bu gecə yenə varım eşq oduna yanacaqdır.

[3] Həm vüsalı canıma od vurur, həm ayrılığı, bu gecə işim bir əcəb şam ilə düşdü.

[4] Çərxə çıxan nə tüstüdür, yoxsa ağlar ürəyimə laləüzlüm bu gecə ayrılıq dağı vurur.

[5] Ayrılıq qətlimi bu gecə şam kimi sübhə saldı, ola bilsin ki, sübh gələndə bu gecə yarım gəlsin.

[6] Əgər onun olduğu yerə bu gecə yolum düşsə, para-para olmuş ciyərim itlərinə nəzir olsun.

[7] Füzuli, yaralı canım bu gecə həsrət ilə çıxmasa idi, vüsal sübhünə ümid var idi.



* * *

Nihalı-sərvdir qəddin, qaşın nun ol nihal üzrə,
Misali-nöqteyi-nun xalın ol mişkin hilal üzrə[1].

Olub heyran götürmən xəttü xalından nəzər guya,
Gözüm mərdümləridir nöqtələr ol xəttü xal üzrə[2].

Xəm etdin qamətin, gər tərki-sər qıldımsa mə'zurəm,
Nə üzrüm var əgər derlərsə olmaz nöqtə dal üzrə[3].

Zülali-xuni-dildəndir gözüm peymanəsi məmlu,
Hübab altındadır ol nöqtə kim, qorlar zülal üzrə[4].

Yazar göz pərdəsinə əşk şərhi-hal, bilməz kim,
Oxunmaz qan ilə yazılsa xət ovraqi-al üzrə[5].

Dəmadəm kilki-müjganilə tifli-mərdümi-çeşmim,
Xəti-sevdayi-xalın məşq edər lovhi-xəyal üzrə[6].

Füzulinin təriqi-nəzmə təb'in müstəqim etmiş,
Xəyali-qamətin kim, bir əlifdir e'tidal üzrə[7].

---

[1] Boyun sərv ağacıdır, qaşın o ağac üzərindəki nundur, xalın o mişkin hilal üzərindəki nun hərfinin nöqtəsi kimidir.

[2] Heyran olub xətt və xalından gözümü götürmürəm, sanki gözümün bəbəkləri o xətt və xal üzərindəki nöqtələrdir.

[3] Qamətimi əydin, əgər başımı tərk etdimsə, üzürlüyəm, əgər dal üzərində nöqtə olmaz deyirlərsə, nə üzrüm var?

[4] Gözümün camı ürək qanının zülalı ilə doludur, zülal üstündə qoyulan nöqtə köpük altındadır.

[5] Göz yaşı göz pərdəsinə halının şərhini yazır, bilmir ki, qırmızı vərəqlər üzərində qan ilə xətt yazılsa, oxunmaz.

[6] Hər an kirpik qələmi ilə göz bəbəyimin uşağı xəyal lövhəsi üzərində xalının sevdasının xəttini məşq edir.

[7] Füzulinin təbini boyunun xəyalı ki, etidal üzərində bir əlifdir, nəzm yoluna düz yönəltmişdir.

* * *

Müshəf demək xətadır ol səfheyi-cəmalə,
Bu bir kitab sözdür fəhm edən əhli-halə[1].

Rüxsarə nöqtə qoymaq rəsmi-xət olmasaydı,
Düşməzdi mənzil etmək rüxsarın üzrə xalə[2].

Heyrani-mahi-ruyin xurşidə mehr salmaz,
Müştaqi-taqi-əbrun əksik baxar hilalə[3].

Qondurdu gərd xəttin ayineyi-muradə,
Qıfl urdu iqdi-zülfün gəncineyi-vüsalə[4].

Dövran mənə qələm tək sevda qapısın açdı,
Ta qəddimi qəmindən döndərdi zə'f nalə[5].

Rəsmi-vəfa, Füzuli, səndən kəmalə yetmiş,
Xoş kamili-zamansan, əhsəntü bu kəmalə[6].

---

[1] O camala müshəf (Quran) demək xətadır, anlayan hal əhlinə bu, bir kitab sözdür.

[2] Rüxsar (üz) sözünə nöqtə qoymaq yazı qaydası olmasaydı, rüxsarın üzərində xalın mənzil etməsi olmazdı.

[3] Üzünün ayının heyranı olan günəşə mehr salmaz, qaşının tağının müştaqı hilala əskik baxar.

[4] Xəttin murad güzgüsünə toz qondurdu, zülfünün düyünü vüsal xəzinəsinə qıfıl vurdu.

[5] Dövran mənə qələm tək sevda qapısını açdı, ta boyumu qəmindən zəiflik nala döndərdi.

[6] Füzuli, vəfa qaydası səndən kamala yetmişdir, zamanın yaxşı kamilisən, əhsən olsun bu kamala.



* * *

Həzər qıl ah odundan, cövrünü üşşaqə az eylə,
Xəsü xaşaki yaqma, şö'ləsindən ehtiraz eylə[1]!

Sənəmlər səcdəsidir bizdə taət, tanrıçün, zahid,
Kimi görsən sən öz dinində təklifi-nəmaz eylə[2]!

Həqiqət xəttini yazmaq dilərsən, lövhi-zatında
Xətin gülrüxlərin mənzur tut, məşqi-məcaz eylə[3].

Sənəmlər səngdillərdir, eşitməzlər sözü, zahid,
Yetər bihudə mən tək onlara ərzi-niyaz eylə[4]!

Sənin nazın görəndə əql qalmaz, həsbətən lillah,
Aman ver talibi-didarə, birdəm tərki-naz eylə[5]!

Yolunda intizari-məqdəminlə xak olan çoxdur,
Xuram et bir qədəm, min xakisarı sərfəraz eylə[6]!

Füzuli, canə tapşırdın xəyalın, şimdi rüsvasan,
Sənə kim der ki, hər naməhrəmə ifşayi-raz eylə[7]!

---

[1] Ah odundan çəkin, aşiqlərə zülmünü az elə, çör-çöpü yandırma şöləsindən ehtiyat et.

[2] Sənəmlərə səcdə etmək bizdə taətdir, zahid, kimi görsən sən öz dinində namaz təklifi elə.

[3] Həqiqət xəttini yazmaq istəyirsənsə, zatının lövhəsində gülüzlülərin xəttini nəzərdə tut, məcazın məşqini et.

[4] Sənəmlər (gözəllər) daş ürəklilərdir, zahid, sözü eşitməzlər, mənim kimi boş yerə onlara yalvarma!

[5] Sənin nazını görəndə ağıl qalmaz, Allah xatirinə, səni görmək istəyənə aman ver, bir an nazını tərk elə.

[6] Yolunda qədəmlərini gözləyib torpaq olan çoxdur, bir addım yeri, min zəlilin başını ucalt.

[7] Füzuli, xəyalını cana tapşırdın, indi rüsvasan, sənə kim deyir ki, hər məhrəm olmayana sirr aç!

* * *

Batalı qanə oxun dideyi-giryan içrə,
Bir əlifdir sanasan kim yazılur qan içrə[1].

Yeridir sineyi-suzanıma külxən desələr,
Bəs ki, yanmışdır oxun sineyi-suzan içrə[2].

Canı tən içrə nə saqlardım əgər bilsə idim
Ki, degil gizli qəmi-lə'li-ləbin can içrə[3].

Ala gör oxlarını didələrimdən, ey dil,
Heyfdir, olmaya nagəh itə müjgan içrə[4].

Çak könlüm arasında yaraşır peykanın,
İqdi-şəbnəm xoş olur qönçeyi-xəndan içrə[5].

Qəddinə sərv demiş, qönçələrin tə'nindən,
Duramaz badi-səba hiç gülüstan içrə[6].

Ey Füzuli, kimə suzi-dilimi şərh qılım,
Yox mənim kimi yanan atəşi-hicran içrə[7].

---

[1] Ağlar göz içində oxun qana batalı, sanasan ki, qan içində yazılmış bir əlifdir.
[2] Yanan sinəmə küllük desələr, yeridir, od tutan sinəm içində nə qədər oxun yanmışdır!
[3] Əgər bilsəydim ki, ləl dodağının qəmi can içində gizli deyildir, canı bədən içində saxlamazdım.
[4] Ey ürək, oxlarını gözlərimdən al, heyifdir, birdən olmaz, kirpiklər içində itər.
[5] Yaralı könlümün arasında peykanın yaraşıqlı görünür, açılmış qönçə içərisində şeh düyünü yaxşı olur.
[6] Boyuna sərv demişdir, qönçələrin tənəsindən səhər yeli heç bir gülüstan içində dura bilmir.
[7] Ey Füzuli, ürəyimin göynərtisini kimə şərh edim, ayrılıq atəşi içərisində mənim kimi yanan yoxdur.



* * *

Arizin görsə fələk, mehr buraxmaz ayə,
Zərrə-zərrə qılıb onu buraxır səhrayə[1].

Surətin əksin alıb, bağə girər hərdəm su,
Rəşkdən qan içirir bərgi-güli-rə'nayə[2].

Yeridir əksinə ayinə dəmir bənd ursa,
Nə üçün qarşı durur sən kimi bihəmtayə[3].

Bulduğu yerdə həsəddən gün urar sayənə tiğ
Ki, rəfiq olmaya sən mahi-mələksimayə[4].

Oxa peykan degilir qəmzən üçün peyvəstə.
Toxunur tənə oxu qaşın ucundan ayə[5].

Lə'li-nabın sifəti şəhdi-müsəffadır, leyk
Acı etmiş onu səfrayi-həsəd səhbayə[6].

Yar meylin sənə salmazsa, Füzuli, nə əcəb,
Necə meyl etmək olur sən kimi bir rüsvayə[7].

---

[1] Fələk üzünü görsə, aya mehr (günəş) buraxmaz, onu zərrə-zərrə edib çölə buraxar.
[2] Üzünün əksini alıb su hər an bağa girər, qısqanclıqdan incə gülün yarpağına qan içirir.
[3] Ayna əksinə dəmir bənd vursa,yeridir, nə üçün sənin kimi bir bənzərsizə qarşı durur.
[4] Səni tapdığı yerdə gün həsəddən kölgənə qılınc vurur ki, sən mələk simalı aya yoldaş olmasın.
[5] Həmişə qəmzən üçün oxa peykan deyilir, qaşının ucbatından aya tənə oxu toxunur.
[6] Saf ləlinin sifəti təmiz baldır, ancaq həsəd səfrası onu şəraba acı etmişdir.
[7] Füzuli, yar sənə meylini salmırsa, təəccüblü deyil, sənin kimi bir rüsvaya necə meyl etmək olar?

* * *

Yürütməyin ərəqi məclis içrə badə ilə,
Həramzadəni qoymın həlalzadə ilə[1].

Verir sitəm səbəqin tifli-xəttinə zülfün,
Qoman bu üzü qaranı o lövhi sadə ilə[2].

Mənə zaman ilə Məcnun müqəddəm olsa nola,
Oyunda şah bərabər degil piyadə ilə[3].

Qaşın bəlasına düşdüm, fələk qəmin çəkərək,
Bu güclü yayı çəkər oldum ol kəbadə ilə[4].

Qapında xəm qədimi gəzdirib, yürür könlüm,
İtin durur, yügürür hər tərəf qəladə ilə[5].

Mənəm müdərrisi-elmi-cünun, qanı Məcnun
Ki, bərmürad ola dövrümdə istifadə ilə[6].

Başım ayağına gər düşsə mən' eyləməzəm,
Nə eylədi mənə, nəm var bir fütadə ilə[7].

Məni sağınma, Füzuli, qəm içrə Məcnun tək
Ki, mən ziyadəyəm ondan qəmi-ziyadə ilə[8].

---

[1] Məclisdə arağı şərab ilə yürütməyin, haramzadanı halalzadə ilə bir yerdə qoymayın.

[2] Zülfün xəttinin uşaqlarına sitəmdən ilk dərs verir, bu üzü qaranı o lövhəsi sadə ilə qoymayın.

[3] Zaman etibarı ilə Məcnun məndən əvvəl olsa, təəccüblü deyil, oyunda şah piyada ilə bərabər deyil.

[4] Fələyin qəmini çəkərək qaşının bəlasına düşdüm, bu güclü yayı o təlim yayı ilə çəkəsi oldum.

[5] Qapında ürəyim əyri qəddimi gəzdirib yüyürür, bir itindir, qəladə (xış) ilə hər tərəfə yüyürür.

[6] Dəlilik elminin dərsini deyən mənəm, hanı Məcnun ki, mənim dövrümdə istifadə edib murada çata.

[7] Başım ayağına düşsə də, geri durmaram, mənə neylədi, mənim bir yıxılmışla nə işim var!

[8] Füzuli, qəm içində məni Məcnunla bir sayma, çünki mən qəmimin çoxluğu ilə ondan artığam.



* * *

Könül, səccadəyə basma ayaq, təsbihə əl urma,
Namaz əhlinə uyma, onlar ilə durma, oturma[1]!

Əgilib səcdəyə, salma fərağət tacını başdan,
Vüzudən su səpib, rahət yuxusun gözdən uçurma[2]!

Saqın, pamal olursan buriya tək, məscidə girmə
Və gər naçar girsən onda minbər kimi çox durma[3]!

Müəzzin naləsin alma qulağə, düşmə təşvişə,
Cəhənnəm qapısın açdırma, vaizdən xəbər sorma[4]!

Cəmaət izdihami məscidə salmış küdurətlər,
Küdurət üzrə, lütf et, bir küdurət sən həm artürma[5]!

Xətibin sanma sadiq, məscidin, qovlilə fe'l etmə,
İmamın sanma aqil, ixtiyarın ona tapşurma[6]!

Füzuli, bəhrə verməz taəti-naqis, nədir cəhdin,
Kərəm qıl, zərqi taət surətində həddən aşurma[7].

---

[1] Könül, səccadəyə ayaq basma, təsbihə əl vurma, namaz əhlinə uyma, onlar ilə durma, oturma.

[2] Əyilib səcdəyə başdan asudəlik tacını salma, vüzudan su səpib rahatlıq yuxusunu gözdən uçurma!

[3] Saqın, ayaq altında qalarsan, buriya kimi məscidə girmə, əgər naçar girsən, orada minbər kimi çox durma.

[4] Müəzzin naləsini qulağa alma, təşvişə düşmə, cəhənnəm qapısını açdırma, vaizdən xəbər sorma.

[5] Camaat izdihamı məscidə qəm-kədər salmışdır, lütf elə, qəm-kədər üstünə bir qəm-kədər də sən artırma.

[6] Xətibini sadiq sayma, məscidin sözü ilə iş görmə, imamını ağıllı bilmə, ixtiyarını ona tapşırma.

[7] Füzuli, nöqsanlı taət bəhrə verməz, cəhdin nədir, kərəm qıl, ikiüzlülülüyü taət surətində həddən aşırma.

* * *

Ey vücudi-kamilin, əsrari-hikmət məsdəri,
Məsdəri-zatın olan əşya sifatın məzhəri[1].

Məzhəri hər hikmətin sənsən ki, kilki-qüdrətin
Səfheyi-əflakə nəqş etmiş xütuti-əxtəri[2].

Əxtəri məs'ud olan oldur ki, təb'i-pakinin
Qabili-feyz ola lütfündən səfayi-cövhəri[3].

Cövhəri mə'yub olan naqis mənəm kim, müttəsil
Sadədir xəttin xəyalilə zəmirim dəftəri[4].

Dəftəri-ə'malımın xətti xətadəndir siyah,
Qan tökər çeşmim, xəyal etdikcə hovli-məhşəri[5].

Məhşəri əşkim verər seylabə, gər ruzi-cəza
Olmasa məqbul dərgahə sirişkim gövhəri[6].

Gövhəridir eşq bəhrinin, Füzuli, abi-çeşm,
Leyk bir gövhər ki, lütfi-həqq onadır müştəri[7].

---

[1] Ey kamil vücudun hikmət sirlərinin mənbəyi, zatının mənbəyi olan əşya sifətlərinin təzahürüdür.

[2] Hər hikmətin göstəricisi sənsən ki, qüdrətinin qələmi fələklərin səhifəsinə ulduzların xətlərini yazmışdır.

[3] Ulduzu xoşbəxt olan odur ki, pak təbinin cövhərinin saflığı lütfündən nemətə qabil ola.

[4] Cövhəri eyibli olan naqis mənəm ki, həmişə xəttinin xəyalı ilə təbiətimin dəftəri təmizdir.

[5] Əməllərimin dəftərinin xətti etdiyim xətalardan qaradır, məhşər qorxusunu xəyal etdikcə gözüm qan tökər.

[6] Əgər cəza günü göz yaşımın incisi dərgaha (Allah dərgahına) məqbul olmasa, göz yaşım məhşəri selə verər.

[7] Füzuli, göz yaşı eşq dənizinin incisidir, ancaq elə bir incidir ki, haqqın lütfü ona müştəridir.



* * *

Ey xoş ol günlər ki, rüxsarın mənə mənzur idi,
Çeşmi-ümmidim çirağı-vəsldən pürnur idi[1].

Qürb şövqi afiyətbəxşi-təni-bimar idi,
Vəsl zövqi rahətəfzayi-dili-məhcur idi[2].

İzzətim şəm'i münəvvər, taleim əzmi qəvi,
Dövlətim hökmü rəvan, eyşim evi mə'mur idi[3].

Daməni-iqbalimə gərdi-təərrüz yetməyib,
Çeşmi-hasid çöhreyi-cəmiyyətimdən dur idi[4].

Adəm idim, qürbi-dərgahında bolmuşdum qəbul,
Mənzilim cənnət, meyim kövsər, ənisim hur idi[5].

Bəxt mətlubim müyəssər qılmağa məhkum olub,
Dəhr əsbabin mühəyya qılmağa mə'mur idi[6].

Hər dua qılsam təvəqqüfsüz olurdu müstəcab,
Hər təmənna eyləsəm, ehmalsız məqdur idi[7].

Hicr vəhmindən yetirməzdim küdurət könlümə,
Gərçi dövranın müxalif gəzməgi məşhur idi[8].

Nola gər salsa Füzulini qəmi-hicranə çərx,
Vəsl əyyamında ol qafil ikən məğrur idi[9].

---

[1] Xoş o günlər ki, üzün mənə görünürdü, ümidimin gözü vüsal çırağı ilə çox işıqlı idi.

[2] Yaxınlıq şövqü xəstə bədənimə sağlamlıq bəxş edirdi, vüsal zövqü yaralı ürəyimin rahatlığını artırırdı.

[3] İzzətimin şamı işıqlı, taleyimin əzmi qüvvətli idi, dövlətimin hökmü yeriyir, şənliyimin evi abad idi.

[4] Bəxtimin ətəyinə hücum tozu yetmir, həsəd aparanların gözü cəmiyyətimin üzündən uzaq idi.

[5] Adəm idim, dərgahının yaxınlığına qəbul olmuşdum, mənzilim cənnət, şərabım kövsər, həmdəmim huri idi.

[6] Bəxt mətləbimi yerinə yetirməyə məhkum olub, dünya vasitələrini hazır etməyə əmr almışdı.

[7] Hər dua etsəm dayanmadan müstəcab olurdu, hər təmənna eyləsəm, səhlənkarlıq göstərilmədən mümkün olurdu.

[8] Ayrılıq qorxusundan könlümə qəm yetişməzdi, hərçənd, dövranın zidd hərəkət etməsi məşhur idi.

[9] Çərx Füzulini ayrılıq qəminə salsa, təəccüblü deyil, vüsal dövründə o qafil çox məğrur idi.

* * *

Ey təğafül birlə hər saət qılan şeyda məni,
Vaqif ol kim, öldürər bir gün bu istiğna məni[1].

Zə'fim eldən yaşırıb, əhvalimi saxlar, vəli
Naleyi-biixtiyarımdır qılan rüsva məni[2].

Gər məni xunabeyi-əşkim nihan eylər, nə sud,
Qanda olsam möhnəti-eşqin qılar peyda məni[3].

Valehi-zövqi-ləbi-meygunü çeşmi-məstinəm,
Saqiya, sanma xərab etmiş meyi-səhba məni[4].

Xali etmişdir məni məndən məhəbbət, dustlər,
Eyb qılmın, görsəniz aləmdə bipərva məni[5].

Guşeyi-mehrabə tutmuşdum rəhi-zöhdü səlah,
Qoymadı öz halimə ol nərgisi-şəhla məni[6].

Ey Füzuli, bir sənəm zülfünə könlüm bağladım.
Çəkdi zənciri-cününə aqibət sevda məni[7].

---

[1] Ey xəbərsizliklə hər saat məni dəlicəsinə vurğun edən, bu ehtinasızlıq bir gün məni öldürər.

[2] Zəifliyim eldən gizləyib, əhvalımı saxlayır, ancaq məni rusvay edən ixtiyarsız naləmdir.

[3] Düzdür, məni qanlı göz yaşım gizləyir, nə faydası, harda olsam, eşqin möhnəti məni aşkara çıxarır.

[4] Şəraba bənzər dodağının zövqü və sərxoş gözünün valehiyəm, saqi, zənn etmə ki, məni şərab xarab etmişdir.

[5] Dostlar, məhəbbət məni məndən yox etmişdir, məni aləmdə taqətsiz görsəniz, eyib etməyin.

[6] Zöhd və səlah yolunu mehrabın bucağına tutmuşdum, o ala nərgiz (göz) məni öz halıma qoymadı.

[7] Ey Füzuli, bir gözəlin zülfünə könlümü bağladım, sevda axırda məni dəlilik zəncirinə çəkdi.



* * *

Buraxdı xakə hüsnün afitabi-aləmarayı,
Götürdü yer üzündən mö'cizi-lə'lin Məsihayı[1].

İki gözdən rəvan etmiş sirişkim qamətin şövqi,
Əsayi-mö'cizi gör kim, iki bölmüş bu dəryayı[2].

Bükülmüş qəddimi qurtarə gör qüllabi-zülfündən,
Xətadır, çəkməsin çox bağrı çökmüş bir sınıq yayı[3].

Rüxün üzrə xəmi-əbruni görmək istərəm, əmma
İkən düşvar olur, gün var ikən görmək yeni ayı[4].

Şərabi-nabə lütf et, möhtəsib, qəhr ilə çox baxma,
Mükəddər qılma əksi-tirədən cami-müsəffayı[5].

Yedi gündür ol ayi görmədim, ahim şərarilə
Nola qılsam Bənatün-nə'ş ilə yeksan Sürəyyayı[6].

Füzuli' əşk seylilə pərişan olma, səbr eylə!
Ona həm var ola axir, tutub durarmı dünyayı[7]?

---

[1] Gözəlliyin dünyanı bəzəyən günəşi torpağa buraxdı, dodağının möcüzü Məsihanı (İsanı) yer üzündən götürdü.

[2] Boyunun şövqü göz yaşımı iki gözümdən axıtmışdır, möcüzün əsasını gör ki, bu dəryanı iki bölmüşdür.

[3] Bükülmüş qəddimi zülfünün qarmağından qurtar, bağrı çökmüş bir sınıq yayı çox çəkməsin, xətadır.

[4] Üzündə qaşının əyrisini görmək istəyirəm, ancaq gün var ikən yeni ayı görmək çox çətin olur.

[5] Ey möhtəsib (darğa) saf şəraba qəzəblə çox baxma, lütf elə, saf camı qaranlıq əksdən kədərləndirmə.

[6] Yeddi gündür o ayı görmədim, ahımın qığılcımları ilə, təəccüblü olmaz, Sürəyya ilə Bənatunnəş ulduzunu eyni hala salsam.

[7] Füzuli, göz yaşı seli ilə pərişan olma, səbr eylə, ona da bir son, axır olar, dünyanı tutub durmaz.

* * *

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəm'i yanmazmı[1]?

Qamu bimarinə canan dəvayi-dərd edər ehsan,
Nəçün qılmaz mənə dərman, məni bimar sanmazmı[2]?

Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rovşən,
Desəm ol bivəfa, bilmən, inanarmı, inanmazmı[3]?

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı[4]?

Güli-rüxsarinə qarşu gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı[5]?

Degildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tə'n eyləyən qafil, səni görgəc utanmazmı[6]?

Füzuli rindi- şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır, bu sevdadən usanmazmı[7]?

---

[1] Məni candan usandırdı, yar cəfa etməkdən usanmazmı, fələklər ahımdan yandı, muradımın şamı yanmazmı?

[2] Canan bütün xəstələrinə dərdi üçün dərman bağışlayır, nə üçün mənə dərman etmir, məni xəstə saymırmı?

[3] Mən qəmimi gizli tutardım, dedilər yara aydın elə, desəm, bilmirəm o vəfasız inanarmı, inanmazmı?

[4] Canım ayrılıq gecəsi yanar, ağlar gözüm qan tökər, xalqı əfğanım oyadar, qara bəxtim oyanmazmı?

[5] Üzünün gülünə qarşı gözümdən qanlı su axar, sevgilim bu, gül fəslidir, axar sular bulanmazmı?

[6] Mən sənə mail deyildim, sən mənim ağlımı zail etdin, mənə tənə edən xəbərsiz səni görəndə utanmazmı?

[7] Füzuli vurğun bir rinddir xalqın yanında rüsvaydır, soruşun ki, bu nə sevdadır, bu sevdadan usanmazmı?



* * *

Gecələr ta halimə gərdun təmaşa etmədi,
Tərk edib bidadını, bir mehr peyda etmədi[1].

Navəkin gör kim, yarub əşkim, tutar göz pərdəsin,
Ey deyən Musa əsası qət'i-dərya etmədi[2].

Hər dəmindən min Məsiha zindeyi-cavid olur,
Sən edən izhari-e'cazi Məsiha etmədi[3].

Aşiyan ta rovzeyi-kuyində tutdu mürği-dil,
Keçdi tovfi-Kə'bədən, uçmağə pərva etmədi[4].

Hiç abid anmadı lə'lin ki, gözdən qan töküb,
Səcdədən durduqca təğyiri-müsəlla etmədi[5].

Zə'fi-tale' kəsdi dünyadan nəsibin zahidin,
Yoxsa öz rəyilə zahid tərki-dünya etmədi[6].

Etmədi eldən nihan bir gecə tovfi-kuyini
Ki, Füzulini sədayi-nalə rüsva etmədi[7].

---

[1] Elə ki, gecələr fələk halıma tamaşa etmədi, zülmünü tərk edib bir mehr göstərmədi.

[2] Oxuna bax ki, göz yaşımı yarıb göz pərdəsini tutar, ey deyən Musanın əsası dəryanı qət etmədi.

[3] Hər nəfəsindən min Məsiha əbədi dirilik tapar, sən göstərən möcüzəni Məsiha etmədi.

[4] Elə ki, sənin cənnətə bənzər olduğun yerdə könlüm quşu yuva qurdu, Kəbənin başına fırlanmaqdan keçdi, cənnətə rəğbət etmədi.

[5] Heç bir abid ləl dodağını yad etmədi ki, gözdən qan töküb, səcdədən durduqca namaz-dua yerini dəyişdirməsin.

[6] Taleyin zəifliyi zahidin dünyadan payını kəsdi, yoxsa zahid öz rəyi ilə dünyanı tərk etmədi.

[7] Olduğun yerin başına dolanmağı bir gecə eldən gizlətmədi ki, nalə sədası Füzulini rüsvay etmədi.

* * *

Fariğ etdi mehrin özgə məhliqalərdən məni,
Hirz imiş eşqin sənin, saxlar bəlalərdən məni[1].

Könlüm aldın, göstərib min lütfü minnət canıma
Eylədin müstəğni özgə dilrübalərdən məni[2].

Vamiqü Fərhad tək rüsvayə qılmın nisbətim,
Bir fəqirəm, sanmınız ol xüdnümalərdən məni[3].

İşvəvü naz ilə dəf' etdin qəmü ənduhimi,
Sehr ilən biganə etdin aşinalərdən məni[4].

Qıl təkəllüm, zülfün ənduhini könlümdən gedir,
Bir füsun ilə xilas et əjdəhalərdən məni[5].

Qayəti-zöhdü vərə zahid vüsali-hur isə,
Vəchi yox mən' etməgin huriliqalərdən məni[6].

Hər cəfa etsən, Füzuli tək, şikayət qılmazam,
Eşq ətvarında sanmın bivəfalərdən məni[7].

---

[1] Sənin məhəbbətin məni özgə ay simalılardan azad etdi, sənin eşqin məni bəlalardan saxlayan bir tilsim (dua) imiş.
[2] Canıma min lütf və minnət göstərib könlümü aldın, özgə ürək alanlara ehtiyacdan məni qurtardın.
[3] Məni Vamiq və Fərhad kimi rüsvalara bənzətməyin, bir yoxsulam, məni o özünü göstərənlərdən hesab etməyin.
[4] İşvə və naz ilə qəm və kədərimi yox etdin, sehr ilə məni dostlara biganə etdin.
[5] Danış, zülfünün qəmini könlümdən çıxart, bir əfsun ilə məni əjdahalardan qurtar.
[6] Zahid, zöhd və haramdan çəkinmənin son həddi huri vüsalı isə hurisifətlilərdən məni çəkindirməyin əsası yoxdur.
[7] Hər cəfa etsən, Füzuli tək şikayət etmərəm, eşq hallarında məni vəfasızlardan hesab etməyin.



* * *

Yar qılmazsa mənə cövrü cəfadən qeyri,
Mən ona eyləməzəm mehrü vəfadən qeyri[1].

Ey deyən qeyrə könül vermə, qanı məndə könül,
Səri-zülfündə olan bəxti-qəradən qeyri[2].

Qıldı Məcnun kimi çoxlar həvəsi-eşq, vəli
Dözmədi dərdə, məni-bisərü padən qeyri[3].

Mişki-Çin zülfün ilə eyləsə də'va, nə əcəb,
Nə olur üzü qara qulda xətadən qeyri[4]?

Ləbinə çeşmeyi-heyvan deməzəm kim, ləbinin
Var bir canə yarar feyzi, bəqadən qeyri[5].

Hiç kim bilmədi təhqiq ilə ağzın sirrin,
Sirri-ğeybi nə bilir kimsə xudadən qeyri[6].

Ey Füzuli, bizə təqdir qəm etmiş ruzi,
Qılalım səbr, nədir çarə rizadən qeyri[7].

---

[1] Yar mənə zülm və cəfadan başqa bir şey etməsə də, mən ona sevgi və vəfadan başqa bir şey etmərəm.
[2] Ey mənə özgəyə könül vermə deyən, məndə onun zülfündə olan qara bəxtdən qeyri könül hanı?
[3] Çoxları Məcnun kimi eşqə həvəs göstərdi, ancaq mən başsız-ayaqsızdan qeyri bir kəs dərdə dözmədi.
[4] Çin mişki zülfünlə dava etsə, təəccüblü deyil, üzü qara qulda xətadan qeyri nə olar?
[5] Dodağına dirilik çeşməsi demərəm, çünki dodağının cana əbədilikdən başqa bir feyzi də (faydası da) var.
[6] Heç kim aramaqla ağzın sirrini bilmədi, görünməyən sirri xudadan qeyri kimsə nə bilir?
[7] Ey Füzuli, qədər bizə qəmi ruzi etmişdir, səbr edək, razı olmaqdan qeyri çarə nədir?

* * *

Yıxdı saqi bir ayağ ilə məni-əfkarı,
Bir təpik eylədi viran bu kühən divarı[1].

Gah mə'mur qılır badə məni, gah xərab,
Görünüz gah yapıb, gah yıxan me'marı[2].

Gün çıxınca saçaram gövhəri-əşk əncüm tək,
Gecələr yadimə gəldikcə məhi-rüxsarı[3].

Dil yaqar dağ gözün fikri ilə hicr günü,
Bu çirağiləmi saxlar gecə ol bimarı[4]?

Yox özündən xəbəri kim ki, gəlir dünyayə,
Bəzmdən dışra qomaz piri-müğan hüşyarı[5].

Bizə çün qədr bulunmaz, çıxalım dünyadən.
Müştəri yox, necə bir bəkliyəlim bazarı[6].

Qeydi-islam, Füzuli, sənə bir afətdir,
Bir həsar edə gör ondan özünə zünnarı[7].

---

[1] Saqi bir badə ilə mən dərdlini yıxdı, bu köhnə divarı bir təpik uçurdu.
[2] Şərab məni gah abad edir, gah xarab edir, gah uçurub, gah tikən memara baxın.
[3] Gecələr ay üzü yadıma gəldikcə gün çıxana qədər göz yaşı incilərini ulduzlar kimi saçıram.
[4] Ürək ayrılıq günü gözün fikri ilə dağ yandırar, gecə o, xəstəni bu çıraq iləmi saxlayır?
[5] Kim ki, dünyaya gəlir, özündən xəbəri yoxdur, muğlar piri ayıq olanı məclisdən çölə buraxmaz.
[6] Bir halda ki, bizə qədir-qiymət tapılmır, dünyadan çıxaq, müştəri yoxdur, bazarı necə gözləyək?
[7] Füzuli, islama bağlılıq sənə bir bəladır, zünnarı ondan özünə bir hasar et.



* * *

Nə görər əhli-cəfa məndə vəfadən qeyri,
Nə bulur şəm'i yaqan kimsə ziyadən qeyri[1].

Ey olan sakini-məscid, nə bulubsan bilmən
Buriyasında onun buyi-riyadən qeyri[2].

Gəl xərabatə, nəzər saqiyə qıl kim, yoxdur
Rüxi-safü meyi-safində səfadən qeyri[3].

Sərbəsər vadiyi-möhnətdirü qəm mülki-vücud,
Bir fərağət yeri yox şəhri-fənadən qeyri[4].

Cümleyi-xəlq mənə yar üçün əğyar oldu,
Qalmadı kimsə mənə yar xudadən qeyri[5].

Əzmi-kuyində könül yarlıq istər bizdən,
Əlimizdən nə gəlir xeyr-duadən qeyri[6].

Fəqr imiş fəqr, Füzuli, şərəfi-əhli-vücud,
Özünə eyləmə həmdəm füqərадən qeyri[7].

---

[1] Cəfa əhli məndə vəfadan qeyri nə görər? Şamı yandıran kimsə onda işıqdan qeyri nə tapar?
[2] Ey məsciddə sakin olan, bilmirəm, onun buriyasında ikiüzlülük qoxusundan qeyri nə tapmısan?
[3] Meyxanaya gəl, saqiyə bax ki, onun saf üzündə və saf şərabında səfadan (könül xoşluğundan) qeyri heç nə yoxdur.
[4] Varlıq mülkü başdan-başa möhnət və qəm vadisidir, yoxluq şəhərindən qeyri bir rahatlıq yeri yoxdur.
[5] Bütün xalq yar üçün mənə düşmən oldu, Allahdan başqa mənə yar olacaq kimsə qalmadı.
[6] Onun olduğu yerə getmək üçün könül bizdən yarlıq istəyir, xeyir-duadan qeyri əlimizdən nə gəlir?
[7] Füzuli, varlıq əhlinin şərəfi yoxsulluq imiş, yoxsulluq, özünə yoxsullardan qeyrisini həmdəm eləmə.

* * *

Hasilim yox səri-kuyində bəladən qeyri,
Qərəzim yox rəhi-eşqində fənadən qeyri[1].

Neyi-bəzmi-qəməm, ey ah, nə bulsan yelə ver,
Oda yanmış quru cismimdə həvadən qeyri[2].

Pərdə çək çöhrəmə hicran günü, ey qanlı sirişk
Ki, gözüm görməyə ol mahliqadən qeyri[3].

Yetdi bikəsliyim ol ğayətə kim, çevrəmdə
Kimsə yox cizginə, girdabi-bəladən qeyri[4].

Nə yanar kimsə mənə atəşi-dildən özgə,
Nə açar kimsə qapım badi-səbadən qeyri[5].

Pozma ey movc gözüm yaşı hübabın ki, bu seyl
Qoymadı hiç imarət bu binadən qeyri[6].

Bəzmi-eşq içrə, Füzuli, necə ah eyləməyim,
Nə təməttö bulunur neydə sədadən qeyri[7]?

---

[1] Sənin olduğun yerdə bəladan qeyri bir qazancım yoxdur, eşqinin yolunda heç olmaqdan qeyri məqsədim yoxdur.
[2] Qəm məclisinin neyiyəm, ey ah, oda yanmış quru bədənimdə havadan qeyri nə tapsan yelə ver.
[3] Ey qanlı göz yaşı, ayrılıq günü üzümə pərdə çək ki, gözüm o ay sifətlidən özgəsini görməsin.
[4] Kimsəsizliyim elə bir son həddə yetdi ki, ətrafımda bəla burulğanından başqa bir kimsə yoxdur ki, fırlana.
[5] Ürəyimin atəşindən başqa nə kimsə mənə yanar, nə səhər yelindən qeyri kimsə qapımı açar.
[6] Ey dalğa, göz yaşımın köpüyünü pozma, çünki bu sel bu binadan başqa heç bir tikili qoymadı.
[7] Füzuli, eşq məclisi içində necə ah eyləməyim, neydə səsdən başqa nə fayda tapılır?



* * *

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halım görən surət xəyal eylər məni[1].

Mehr salmazsan mənə, rəhm eyləməzsən bunca kim
Sayə tək sevdayi-zülfün payimal eylər məni[2].

Zə'fi-tale' maneyi-tovfiq olur, hər necə kim
İltifatın arizuməndi-vüsal eylər məni[3].

Mən gəda sən şahə yar olmaq yox, əmma neyləyim
Arizu sərgəşteyi-fikri-mühal eylər məni[4].

Tiri-qəmzən atma kim, bağrım dələr, qanım tökər,
İqdi-zülfün açma kim, aşüftəhal eylər məni[5].

Dəhr vəqf etmiş məni növrəs cəvanlar eşqinə,
Hər yetən məhvəş əsiri-xəttü xal eylər məni[6].

Ey Füzuli, qılmazam tərki-təriqi-eşq kim,
Bu fəzilət daxili-əhli-kəmal eylər məni[7].

---

[1] Ey büt, surətini gördükdə heyrət məni lal edər, mənim halımın surətini görən məni surət xəyal edər.
[2] Mənə o qədər məhəbbət salmazsan, rəhm etməzsən ki, saçının sevdası kölgə kimi məni ayaq altına salar.
[3] Taleyin zəifliyi yardıma mane olur, hər necə ki, iltifatın məndə vüsal arzusu oyadır.
[4] Mən gədanın sən şaha yar olmağı yoxdur, amma neyləyim, arzu məni çətin bir fikir avarası etmişdir.
[5] Qəmzə oxunu atma, bağrımı dələr, qanımı tökər, saçının bağını açma ki, məni həyəcana salar.
[6] Zəmanə məni yeniyetmə cavanlar eşqinə yazmışdır, hər yetən ayabənzər gözəl məni xətt və xal əsiri edir.
[7] Ey Füzuli, eşq yolunu tərk etmərəm, çünki bu keyfiyyət məni kamal sahibləri cərgəsinə daxil edir.

* * *

Aldı gülzar içrə su əksi-üzari-alini,
Çəkdi güllər surətin mənzur edib timsalini[1].

Adın etmiş gün alıb bir əks mir'ati-fələk,
Sübh göstərdikdə sən rüxsari-fərrüxfalini[2].

Şərhə bir gün qıldığın bidadi çəkməz həşrədək,
Ol mələk kim, yazmaq istər nameyi-ə'malini[3].

Seyli-xun xalın xəyalilə pozub göz mərdümün,
Mərdüm etmiş çeşmi-xunbarə xəyali-xalini[4].

Mürği-dil qalmadı kim, seyd olmadı, ey şux çeşm,
Sakin et pərvazdən şəhbazi-mişkinbalini[5].

Qoymadın bir kimsə cövrün çəkməyə, rəhm et dəmi,
Mən' qıl xunrizlikdən qəmzeyi-qəttalini[6].

Qəm günü üstümdə səndən qeyri yox, ey dudi-ah
Lütf qıl, məndən götürmə sayeyi-iqbalini[7].

Ey Füzuli, bəs ki, qəmnak oldu əhvalın sənin,
Qəmdən ölsən, hiç kim sormaz dəxi əhvalini[8].

---

[1] Gülzarda su qırmızı yanağının əksini aldı, güllər onun timsalını nəzərdə tutub surətini çəkdilər.
[2] Sübh vaxtı sən xeyir fallı üzünü göstərdikdə fələyin güzgüsü bir əks almış və adını günəş qoymuşdur.
[3] Sənin əməllərinin yazısını yazmaq istəyən mələk bir gün etdiyin zülmü həşrə qədər şərhə çəkə bilməz.
[4] Xalının xəyalı ilə qan seli göz bəbəyini pozub, xalının xəyalını qanyağdıran gözə bəbək etmişdir.
[5] Ey şux gözlü, bir könül quşu qalmadı ki, ovlanmasın, mişkin qanadlı şahbazını uçmaqdan dayandır.
[6] Gövrünü çəkmək üçün bir kimsə qoymadın, bir an rəhm et, qatil qəmzəni qan tökməkdən çəkindir.
[7] Ey ahımın tüstüsü, qəm günü üstümdə səndən özgəsi yoxdur, lütf elə, bəxt kölgəni məndən götürmə.
[8] Ey Füzuli, yetər ki, sənin əhvalın qəmli oldu, qəmdən ölsən də heç kim sənin əhvalını soruşmaz.



* * *

Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı,
Sayə tək bir yerdə durmağa qərarım qalmadı[1].

Bir gün olmaz təl'ətin görmək müyəssər, ah kim,
Zərrəcə ol gül yanında e'tibarım qalmadı[2].

Pak qıldı surətimdən z'əf, dəhr ayinəsin,
Öylə məhv oldum ki, bir zərrə qübarım qalmadı[3].

Qəm günü həmdəmlərim qərq oddular göz yaşınə,
Silməyə göz yaşimi bir qəmgüsarım qalmadı[4].

Ruzigarım xoş keçirdi, ah kim, dövran dönüb,
Oldu əhvalım xərab, ol ruzigarım qalmadı[5].

Rahi-eşq içrə mənə ancaq fəna məqsud idi,
Şükr kim, məqsudə yetdim, intizarım qalmadı[6].

Ey Füzuli, el qamu əğyarım oldu yar üçün,
Suzi-dildən qeyri bir dilsuz yarım qalmadı[7].

---

[1] O günəş camalını gördüm, ixtiyarım qalmadı, kölgə kimi bir yerdə durmağa qərarım qalmadı.
[2] Bir gün simanı görmək müyəssər olmaz, ah ki, o gülün yanında zərrəcə etibarım qalmadı.
[3] Zəiflik surətimdən zəmanə aynasını təmizlədi, elə məhv oldum ki, bir zərrə tozum da qalmadı.
[4] Qəm günü həmdəmlərim qərq oldular göz yaşına, göz yaşını silməyə bir qəmgüsarım qalmadı.
[5] Ruzgarım xoş keçirdi, ah ki, dövran dönüb, vəziyyətim xarab oldu, o rüzgarım qalmadı.
[6] Eşq yolunda mənə ancaq məqsəd yox olmaq idi, şükür ki, məqsədə yetdim, intizarım qalmadı.
[7] Ey Füzuli, bütün el yara görə düşmənim oldu, ürək yanğısından başqa bir ürəyi yanan yarım qalmadı.

* * *

Hər görən eyb etdi abi-dideyi-giryanimi,
Eylədim təhqiq, görmüş kimsə yox cananimi[1].

Ləhzə-ləhzə xublar gördüm ki, dil qəsdindədir,
Parə-parə eylədim mən həm dili-suzanimi[2].

Çox yetirmə göylərə əfğanım, ey kafir, saqın.
İncinir nagəh Məsiha eşidib əfğanimi[3].

Qılma hər saət məni rüsvayi-xəlq, ey bərqi-ah,
Eyləmə rovşən şəbi-qəm külbeyi-əhzanimi[4].

Çıxma, ey divanə, bazari-məlamətdən deyər,
Müttəsil çaki-giribanim tutar damanimi[5].

Qansı bütdür bilməzəm imanımı qarət qılan,
Səndə iman yox ki, sən aldın deyim imanimi[6].

Ey Füzuli, canə yetmişdim könüldən, şükr kim,
Bağladım bir dilbərə, qurtardım ondan canimi[7].

---

[1] Hər görən ağlar gözümün yaşını mənə eyib tutdu, aydınlaşdırdım ki, cananımı görmüş bir kimsə yoxdur.

[2] Zaman-zaman gözəllər gördüm ki, ürəyin qəsdindədir, mən də göynəyən ürəyimi para-para eylədim.

[3] Ey kafir, əfğanımı çox göylərə yetirmə, çəkin, birdən Məsiha əfğanımı eşidib inciyər.

[4] Ey ahımın ildırımı, məni hər saat xalq arasında rüsvay etmə, qəm gecəsi qəmli daxmamı işıqlandırma!

[5] Həmişə parçalanmış yaxam ətəyimi tutub deyər: ey divanə danlaq bazarından çıxma!

[6] Bilmirəm, mənim imanımı talan edən hansı bütdür, səndə iman yoxdur ki, deyim imanımı sən aldın.

[7] Ey Füzuli, könüldən cana yetmişdim, şükür ki, bir dilbərə bağladım, ondan canımı qurtardım.



* * *

Giryədir hər dəm açan qəmdən tutulmuş könlümü,
Əşkdir xali qılan qan ilə dolmuş könlümü[1].

Ey pərivəşlər, cəfa rəsmin unutmın, lütf edin,
Eyləmin bədxu cəfa mö'tadı olmuş könlümü[2].

Və'deyi-vəsl ilə, ey gülrüxlər, etmin müztərib
Möhnəti-hicran ilə aram bulmuş könlümü[3].

Xəncəri-bidad ilə hərdəm görər zəxm üzrə zəxm,
Hiç bir dəm görmədim önmüş, önülmüş könlümü[4].

Payibəndi-lütf olub, bir yerdə sakin bulmadım,
Dəşti-heyrətdə tərəddüddən yorulmuş könlümü[5].

Simbərlərdən gələn daşları yığmış çevrəmə,
Eşq mə'mur eyləmək istər pozulmuş könlümü[6].

Hər zaman bir atəşinrüxsar sevdasın çəkər,
Ey Füzuli, gör bu odlarə urulmuş könlümü[7].

---

[1] Hər an qəmdən tutulmuş könlümü açan ağlamaqdır, qan ilə dolmuş könlümü boşaldan göz yaşıdır.

[2] Ey pərisifətlilər, cəfa qaydasını unutmayın, lütf edin, cəfaya adət etmiş könlümü pis xasiyyətli etməyin.

[3] Ey gülüzlülər, ayrılıq qəmi ilə aram tapmış könlümü vüsal vədəsi ilə iztiraba salmayın.

[4] Zülm xəncəri ilə hər an yara üzərindən yara görür, heç bir an könlümü sağalmış, sağaldılmış görmədim.

[5] Lütf əsiri olub, heyrət çölündə tərəddüddən yorulmuş könlümü bir yerdə aram tapmış görmədim.

[6] Gümüş qoyunlulardan gələn daşları çevrəmə yığıb eşq pozulmuş könlümü abad etmək istəyir.

[7] Ey Füzuli, bu odlara vurulmuş könlümə bax, hər zaman bir atəşüzlü gözəlin sevdasını çəkər.

* * *

Sanma kim, bülbül açar uçmağa balü pərini,
Gül yaxıb onu savurmuş göyə xakistərini[1].

Gözümü üzüm arasında çəri çəkdi müjəm
Ki, gözümdən su çıxıb yumaya xaki-dərini[2].

Mövci-əşkim görüb, əbruyə salır çin, nə əcəb
Ki, su urmaq çıxarır ol qılıcın cövhərini[3].

Düşdü vəsfi-düri-dəndani ağızdan ağıza,
Eşidib saldı biyabanə dəniz gövhərini[4].

Göz üzün görməsə qanlar tökülər, ah, nola,
Fitneyi basə, müşərrəf qıla göz mənzərini[5].

Rəşheyi-cam bizi tutdu, nola gər saqi
Gələ qurtara bizi, alə əyaği-tərini[6].

Oldu nəzzarəmizə cəm', Füzuli, ətfal,
Gəl tutalım bu sipah ilə cünun kişvərini[7].

---

[1] Sanma ki, bülbül uçmaq üçün qol-qanad açır, gül onu yandırıb, külünü göyə sovurmuşdur.

[2] Gözüm və üzüm arasında kirpiyim qoşun çəkdi ki, gözümdən su çıxıb qapının torpağını yumaya.

[3] Göz yaşımın dalğalarını görüb qaşına çin salır, nə əcəb, su vurmaq o qılıncın cövhərini çıxarır.

[4] Dişinin incilərinin tərifi ağızdan-ağıza düşdü, dəniz eşidib öz gövhərini çölə saldı.

[5] Göz üzünü görməsə, qanlar tökülər, ah, nə ola, fitnəni basa, göz surətini şərəfləndirə.

[6] Camın sızıntısı bizi tutdu, nə ola, əgər saqi, gələ təzə qədəhini götürə və bizi qurtara.

[7] Füzuli, bizə tamaşa etmək üçün uşaqlar yığıldı, gəl bu qoşunla dəlilik ölkəsini tutaq.



* * *

Tabi-suzi-sinədən əksilməsəydi göz nəmi,
Göz yumub-açınca seylabə verərdim aləmi[1].

Hər gözüm pürmövc dəryadır, o dərya üzrə kim,
Hər qaşımdır mövcdən bir sərnigun olmuş gəmi[2].

Muyi-julidəmdədir cəm'iyyəti-əsnafi-qəm,
Mülki-sevdanın budur guya səvadi-ə'zəmi[3].

Hicr var, ey didə, vəsl əyyami tökmə xuni-dil,
Saxla kim, əlbəttə, onun həm gələr bir gün dəmi[4].

Adəmidən çox olur zahir pərivəşlər, vəli
Az olur vaqe pərivəşlərdə sən tək adəmi[5].

Vəsl yadilə, könül, söndürmə ahım atəşin,
Külbeyi-tarimdən ikrah etməsin hicran ğəmi[6].

Ey Füzuli, qıldı canım riştəsin pürpiçü tab,
Bir pərivəş dilbərin sevdayi-zülfi-pürxəmi[7].

---

[1] Sinədəki yanğının hərarətindən gözümün nəmi azalmasaydı, göz açıb-yumunca dünyanı selə verərdim.

[2] Hər gözüm çox dalğalı bir dəryadır, o dəryanın üzərində hər qaşım bir çevrilmiş gəmidir.

[3] Qəm sənətçilərinin yığnağı dağınıq saçımdadır, sevda mülkünün böyük yazısı guya budur.

[4] Ey göz, ayrılıq var, vüsal əyyamı ürək qanı tökmə, saxla ki, əlbəttə, bir gün onun da vaxtı gələr.

[5] Adamlardan pərikimilər çox görünür, ancaq pərikimilərdə sənin kimi bir adam az olur.

[6] Könül, vüsalı yad edib ahımın atəşini söndürmə, qaranlıq daxmamdan ayrılıq qəmi ikrah etməsin.

[7] Ey Füzuli, canımın ipini bir pərisifətli dilbərin qıvrım-qıvrım zülfünün sevdası qarmaqarışıq etmişdir.

* * *

Qərqi-xunabi-dil etdi dideyi-giryan məni,
Onca qan tökdüm ki, bu rəng ilə tutdu qan məni[1].

Hər tərəf yüz qəm həlakim qəsdin etmiş, tanrıçün
Bir dəm, ey gözdən axan xunabə, qıl pinhan məni[2].

Yox məcalim özgə gülrüxsarə sənsiz baxmağa,
Eyləmiş hicri-rüxün öz halıma heyran məni[3].

Ruzi-hicr, ey gün, çəkib bir tiğ minnət qoy mənə,
Yoxsa minnətsiz həlak eylər şəbi-hicran məni[4].

Qərqi-xunab oldu cismi-xaksarim, ah kim,
Dürdvəş saldı ayaqlarə qəmi-dövran məni[5].

Pənbeyi-dağim nihan etmiş sərasər cismimi
Kim, məlamət qılmaya hər kim görüb üryan məni[6].

Bir məhi-bimehrəyəm mail, Füzuli, yox əcəb
Qılsa hər yan, zərrə nisbət, çərx sərgərdan məni[7].

---

[1] Ağlar göz məni ürək qanına qərq etdi, o qədər qan tökdüm ki, bu rəng ilə qan məni tutdu.
[2] Hər tərəfdən yüz qəm məni həlak etmək üçün qəsd etmişdir, tanrı üçün, ey gözdən axan qanlı su, bir an məni gizlət.
[3] Sənsiz özgə bir gülüzlüyə baxmağa imkanım yoxdur, üzünün ayrılığı məni öz halıma heyran etmişdir.
[4] Ey gün, ayrılıq günü bir qılınc çəkib mənə minnət qoy, yoxsa ayrılıq gecəsi məni minnətsiz həlak edər.
[5] Düşkün bədənim qanlı suda qərq oldu, ah ki, dövranın qəmi xılt kimi məni ayaqlara saldı.
[6] Dağımın pambığı başdan-başa bədənimi gizləmişdir ki, hər kim məni çılpaq görsə, qınamasın.
[7] Füzuli, bir mehrsiz aya mail olmuşam, əgər məni çərx bir zərrə kimi hər yana sərgərdan gəzdirsə, təəccüblü deyildir.



* * *

Xoşdur irmək ol bədən vəslinə pirahən kimi,
Gəh əl öpmək asitin tək, gəh ayaq damən kimi[1].

Əks salmaz peykərim güzguyə baxsam zə'fdən,
Aləmi-surətdə bir şeyda bulunmaz mən kimi[2].

Cəm'dir könlün sənin kim, var mən tək çoxların,
Mən pərişanəm ki, tapılmaz mənə bir sən kimi[3].

Bu çəmən gülrüxlərinə dərdi-dil qılmaz əsər,
Yüz dilin var isə xamuş ol, könül, susən kimi[4].

Gər dilərsən edəsən nəzzareyi-didari-yar,
Kənduzin görmə aradə dideyi-rovşən kimi[5].

Damənin doldursa gərdun dürr ilən, tök əbr tək,
Dürr üçün təlx etmə kamın bəhri-tərdamən kimi[6].

---

[1] Köynək kimi o bədənin vüsalına çatmaq, gah qolçaq kimi əlini öpmək, gah ətək kimi ayağını öpmək xoşdur.
[2] Güzgüyə baxsam, zəiflikdən surətim əks salmaz, surət aləmində mənim kimi bir şeyda tapılmaz.
[3] Sənin könlün topludur ki, mənim kimi çoxların var, mənim könlüm pərişandır ki, mənə bir sənin kimisi tapılmaz.
[4] Bu çəmənin gülüzlülərinə ürək dərdi təsir etməz, yüz dilin varsa, ey könül, susən kimi sus.
[5] Əgər yarın camalına tamaşa etmək istəyirsənsə, işıqlı göz kimi arada özözünü görmə.
[6] Fələk ətəyini inci ilə doldursa, bulud tək tök, ətəyi yaş dəniz kimi inci üçün damağını acı etmə.

Sal nəzərdən lə'li həm görsən sirişki-al tək,
Lə'l üçün hər daşə urma başını, mə'dən kimi[7].

Karigahi-sündən bir surət et nəqşi-zəmir,
Min xəyalın tutmagil, sərriştеyi-suzən kimi[8].

Göz yaşilə danə-danə cəm'i-əsbab etmə kim,
Yelə verər dəhr onu pamal edib xirmən kimi[9].

Bəhrlər seyr eyləsən mütləq tər olmaz damənin,
Gər həvayi-eşq ilə məmlüvvsən yelkən kimi[10].

Qanda olsan, qapı lövhi tək gözət ismət yolun,
Açma göz divarlardan hər evə, rövzən kimi[11].

Ey Füzuli, mənzili-məqsudə yetmək istəsən,
Hiç rəhbər yoxdurur ətvari-müstəhsən kimi[12].

---

[7] Qırmızı göz yaşı kimi görsən də, incini nəzərdən sal, incidən ötrü başını mədən kimi hər daşa vurma.

[8] Yaradıcı işxanadan təbiətinin nəqşini bir surət elə, iynənin ucundakı sap kimi min xəyalını tutma.

[9] Göz yaşı ilə dənə-dənə əşyalar topl'ama ki, dünya onu xırman kimi ayaq altına salıb yelə verər.

[10] Əgər eşq havası ilə yelkən kimi dolu olsan, dənizlər seyr etsən də, ətəyin mütləq tər olmaz.

[11] Harada olsan, qapı lövhəsi kimi ismət yolunu gözlə, pəncərə kimi divarlardan hər evə göz açma.

[12] Ey Füzuli, məqsəd mənzilinə yetmək istəsən, gözəl davranışlar kimi bir rəhbər yoxdur.



* * *

Mərhəm qoyub önərmə sinəmdə qanlı dağı,
Söndürmə öz əlinlə yandırdığın çirağı[1].

Uymuş cününə könlüm, əbrunə der məhi-nov,
Nə e'tibar ona kim, seçməz qaradan ağı[2].

Qəddin qəmində sərvin sormağə zəfi-halın,
Gülzardən kəsilməz irmaqların ayağı[3].

Dür tək dişin sözünü hərdəm eşitmək istər,
Bəhrin müdam onunçun sahildədir qulağı[4].

Zülfü siyəh sənəmlər olmuş sənin əsirin,
Eşqində hər birinin öz zülfü boynu bağı[5].

Gər mişk dersə aşiq ol buyi-zülfə, saqi,
Tünd olma, bir qədəh ver, tər eyləsin dəmağı[6].

Dövran həvadisindən yox bakimiz, Füzuli,
Darül-əmanımızdır meyxanələr bucağı[7].

---

[1] Mərhəm qoyub sinəmdəki qanlı dağı sağaltma, öz əlinlə yandırdığın çırağı söndürmə.

[2] Könlüm dəliliyə uymuşdur, qaşına yeni ay deyir, ona nə etibar olar ki, qaradan ağı seçmir.

[3] Boyunun qəmindən sərvin halının zəifliyini soruşmaq üçün irmaqların ayağı gülzardan kəsilmir.

[4] İnci kimi dişin sözünü hər an eşitmək istər, həmişə dənizin qulağı ona görə sahildədir.

[5] Saçı qara sənəmlər sənin əsirin olmuşdur, eşqində hər birinin öz zülfü boynunun bağıdır.

[6] Əgər aşiq o zülfün qoxusuna mişk deyirsə, saqi, tünd olma, bir qədəh ver, damağını islatsın.

[7] Füzuli, dövranın hadisələrindən qorxumuz yoxdur, meyxanalar bucağı bizim əmin-amanlıq evimizdir.

* * *

Qamətin xidmətinə sərvin, əyilməz başı,
Nə bilir əhli-təriqin rəvişin ol naşı[1].

Ögünür didə ki, heyranəm əzəldən üzünə,
Oldu mə'lum bu lafında ki, çoxdur yaşı[2].

Əşk lə'li rəhi-eşqində tutubdur ətəyim,
Qorxuluqdur, necə salıb gedəlim yoldaşı[3]?

Yetdi ol qayətə zə'fim ki, çəkər təsvirim,
Hər zaman daireyi-heyrətə min nəqqaşı[4].

Möhtəsib, tanrı üçün gəl mənə çox vermə əzab,
Meyli-məscidmi edər meykədələr ovbaşı[5]?

Kəsdi mən şiftədən əhli-səlamət yolunu,
Bəs ki, ətrafıma cəm' oldu məlamət daşı[6].

Ey Füzuli, nə bəla oxları kim, gəlsə mənə,
Səbəb ol qaşları yayin gözüdür, ya qaşı[7].

[1] Boyunun xidmətində sərvin başı əyilməz, o naşı yol əhlinin yerişini hardan bilsin.

[2] Göz öyünür ki, əzəldən üzünə heyranam, bu danışığından məlum oldu ki, yaşı çoxdur.

[3] Göz yaşı ləl dodağının eşqi yolunda ətəyimi tutubdur, qorxuludur, yoldaşı necə qoyub gedək?

[4] Zəifliyim o son həddə yetişdi ki, təsvirim hər zaman min nəqqaşı heyrət dairəsinə çəkir.

[5] Möhtəsib (darğa), tanrı üçün gəl mənə çox əzab vermə, meyxanalar alçağı məscidə meyl edərmi?

[6] Ətrafıma o qədər danlaq daşı toplandı ki, mən vurğundan salamatlıq əhlinin yolunu kəsdi.

[7] Ey Füzuli, mənə nə bəla oxları gəlsə, səbəb o qaşları yayin gözüdür, ya qaşı.



* * *

Ayinə sevər candan rüxsareyi-canani,
Bir qayətə yetmiş kim, ayrılsa çıxar cani[1].

Fəryad ki, əks oldu ol kim görəyim derdim,
Ayineyi-rüxsarın lövhi-dili-heyrani[2].

Ol çahi-zənəxdanda derdim görərəm könlüm,
Könlümdə görər oldum ol çahi-zənəxdani[3].

Azadələrin könlün cəm' etmiş ikən qəflət,
Təprətmə səba, billah, ol zülfi-pərişani[4].

Yarə qəmi-pünhanim izhar edə bilməzdim,
Şadəm ki, rəvan oldu gözdən cigərim qani[5].

Dərdü qəmi-pünhanim fəhm etdi el ahimdən,
Yüz ah ki, faş oldu dərdü qəmi-pünhani[6].

Hicran gecəsin görgəc duzəx ələmin bildim
Kim, ruzi-qiyamətdir yarın şəbi-hicrani[7].

Candan keçəli buldum rahət qəmi-aləmdən,
Xoş hikmət ilə buldum ol dərdə bu dərmani[8].

Yarəb, nə səbəbdəndir kim, hiç əsər qılmaz,
Dildarə Füzulinin fəryad ilə əfğani[9].

[1] Ayna cananın üzünü candan sevir, elə bir həddə çatmışdır ki, ayrılsa, canı çıxar.

[2] Fəryad ki, o görüm dediyim üzünün aynası heyran ürəyin lövhəsində əks oldu.

[3] Deyirdim o çənənin quyusunda könlümü görərəm, o çənənin quyusunu könlümdə görəsi oldum.

[4] Xəbərsizlik azadələrin könlünü bir yerə yığmış ikən, səhər yeli, Allah üçün, o pərişan zülfü tərpətmə.

[5] Yara gizli qəmimi bildirə bilməzdim, şadam ki, ciyərimin qanı gözdən axdı.

[6] Gizli dərd və qəmimi el ahımdan anladı, yüz ah ki, gizli dərd və qəm açıldı.

[7] Ayrılıq gecəsini görən kimi cəhənnəmin əlamətini bildim, bildim ki, yarın ayrılıq gecəsi qiyamət günüdür.

[8] Candan keçəli aləmin qəmindən rahatlıq tapdım, yaxşı bir hikmətlə o dərdə bu dərmanı tapdım.

[9] Yarəb, nə səbəbdəndir ki, Füzulinin fəryad və fəğanı dildara heç təsir etmir?

* * *

Xoş gəldi dün ol ayə sirişkim nəzarəsi,
Böylə olur ki, aşiqin işlər sitarəsi[1].

Ey hər mərəz ilacinə hökm eyləyən həkim,
Bimari-dərdi-eşq olanın yoxmu çarəsi[2]?

Çıxmaq dilər səfineyi-tən cünbüşilə can,
Dəryayi-eşqdən ki, ədəmdir kənarəsi[3].

Derlər ki, var Vamiqü Məcnun, əcəb degil,
Dağılmış ola atəşi-eşqim şərarəsi[4].

Noldu gətirmədin ələ sədparə könlümü,
Vəhm eylədinmi əl kəsə bu şişə parəsi[5]?

Səndən həmişə tiri-bəladır gələn mənə,
Böylə olurmu aşiqü mə'şuqin arəsi[6]?

Ey söyləyən Füzuliyə eşq içrə səbr qıl,
Söylə, bu mərhəm ilə kimin bitdi yarəsi[7].

---

[1] Gecə o aya göz yaşımın tamaşası xoş gəldi, belə olur ki, aşiqin ulduzu işləyir.

[2] Ey hər xəstəliyin əlacına hökm eyləyən həkim, eşq dərdinin xəstəsi olanın çarəsi yoxdurmu?

[3] Bədən gəmisinin hərəkəti ilə can sahili yoxluq olan eşq dəryasından çıxmaq istəyir.

[4] Deyirlər ki, Vamiq və Məcnun var, əcəb deyil, eşqimin atəşinin qığılcımları dağılmış ola.

[5] Nə oldu yüz parça olmuş könlümü ələ gətirmədin, qorxdunmu ki, bu şüşə parası əl kəsə.

[6] Səndən mənə gələn həmişə bəla oxudur, aşiqlə məşuqun arası beləmi olur?

[7] Ey Füzuliyə eşq içrə səbr et söyləyən, söylə bu dərman ilə kimin yarası sağaldı?



* * *

Məhşər günü görüm, derəm ol sərvqaməti,
Gər onda həm görünməsə, gəl gör qiyaməti[1].

Tərki-mey etdin, ey könül, əyyami-gül gəlir,
Əlbəttə, bu işin çəkilir bir nədaməti[2].

Məcnun ki, padşahi-sipahi-vühuş idi.
Mən tək müsəxxər etmədi mülki-məlaməti[3].

Səhranəvərd ikən, mənə təsviri-Kuhkən
Öyrətdi şəhri-eşqdə rəsmi-iqaməti[4].

Səngi-məlamət ilə çəkin çevrəmə həsar,
Əşkim fənayə verməsin əhli-səlaməti[5].

Zahid, çox etmə tə'n mey üftadəsinə kim,
Çoxları yıxdı piri-müğanın kəraməti[6].

Qəm zülmətində bulmağa dərdü bəla məni
Bəsdir, Füzuli, atəşi-ahim əlaməti[7].

---

[1] Deyirəm, o sərv qamətli gözəli məhşər günü görüm, əgər onda da görünməsə, gəl qiyamətə bax!

[2] Ey könül, şərabı tərk etdin, gül vaxtı gəlir, əlbəttə bu işin bir peşmanlığı çəkilər.

[3] Məcnun vəhşilər qoşununun padşahı idi, danlaq mülkünü mən tək fəth etmədi.

[4] Çölləri dolaşarkən Dağçapanın çəkdiyi təsvir eşq şəhərində sakin olmaq qaydasını mənə öyrətdi.

[5] Danlaq daşı ilə çevrəmə hasar çəkin, salamatlıq əhli olanları göz yaşım fənaya (heçlik) verməsin.

[6] Zahid, şərab düşkününə çox tənə etmə ki, muğlar pirinin (meyxana ağsaqqalının) kəraməti çoxlarını yıxdı.

[7] Qəm zülmətində dərd və bəlanın məni tapması üçün Füzuli, ahımın atəşinin əlaməti bəsdir.

* * *

Ey hər təkəllümüm xəti-səbzin hekayəti!
Virdim həmişə müshəfi-rüxsarın ayəti[1]!

İrmiş səhih nəql ilə ərvahi-qüdsdən,
İsayə mö'cizi-ləbi-lə'lin rəvayəti[2].

Dil kişvərini qarət edərlərdi xubilər,
Mən' etməsəydi şəhneyi-şövqün himayəti[3].

Bildim təriqi-eşq xətərnakdır, vəli
Mən dönməzəm bu yoldan ölüm olsa qayəti[4].

Qəddin həlakiyəm, düşə bilmən ayağına,
Bir dərdə düşmüşəm ki, bulunmaz nihayəti[5].

Bəs kim, səni görəndə gedər məndən ixtiyar,
Gəlməz bəyanə möhnəti-eşqin şikayəti[6].

Şükr et, Füzuli, qılma fəğan yar qılsa cövr
Kim, əhli-eşqə cövrdür onun inayəti[7].

---

[1] Ey hər danışığım yaşıl xəttinin (xırda tüklərin yaratdığı xətt) hekayəti olan, dilimin əzbəri həmişə üzünün kitabının ayələri olan!
[2] Müqəddəs ruhlardan dəqiq bir söyləmə ilə ləl dodağının möcüzünün rəvayəti İsaya çatmışdır.
[3] Şövqünün darğasının hamiliyi qadağan etməsəydi, gözəllər ürək ölkəsini qarət edərdilər.
[4] Eşq yolunun qorxulu olduğunu bildim, ancaq mən bu yoldan sonu ölüm olsa da, dönmərəm.
[5] Boyunun ölüsüyəm, ayağına düşə bilmirəm, bir dərdə düşmüşəm ki, axırı tapılmır.
[6] Səni görəndə məndən ixtiyar elə gedir ki, eşq möhnətinin şikayəti dilə gəlmir.
[7] Füzuli, şükr elə, yar zülm eləsə fəğan etmə, çünki eşq əhlinə onun qayğısı zülmdür.



* * *

Göz qarası əşki-gülgunimdə xalın sədqəsi
Əşki-gülgunim güli-rüxsari-alın sədqəsi[1].

Dudi-ahimdən qararmış zarü sərgərdan tənim,
Atəşin rüxsar üzə mişkin hilalın sədqəsi[2].

Şövqi-vəslin-yandıran naqis vücudum, mah tək
Zərrə-zərrə afitabi-bizəvalın sədqəsi[3].

Aşiyani-təndə mürği-ruhi etmən tərbiyət,
Olmasa pərvanə tək şəm'i-cəmalın sədqəsi[4].

Hicrinə başım fəda olsun ki, canım almadın,
Etdim axir müjdeyi-zövqi-vüsalın sədqəsi[5].

Yusifi-gümgəştə kimdir kim, sənə manənd ola?
Yüz ona manənd hüsni-bimisalın sədqəsi[6].

Əfv edər xidmətdə hər nöqsanımız piri-müğan,
Ey Füzuli, canımız əhli-kəmalın sədqəsi[7].

---

[1] Gülrəngli göz yaşımda gözümün qarası xalına sadağa, gülrəngli göz yaşım qırmızı yanağının gülünə sadağa!
[2] Ahımın tüstüsündən qaralmış ağlar və sərgərdan bədənim atəşli üzündəki mişkin hilalına sadağa!
[3] Vüsalının şövqünün yandırdığı naqis bədənim ay kimi zərrə-zərrə həmişəlik olan günəşinə sadağa.
[4] Pərvanə kimi gözəlliyinin şamına sadağa olmasa, bədən yuvasında can quşumu bəsləmərəm.
[5] Ayrılığına başım qurban olsun ki, canımı almadın, axırda onu vüsal zövqünün müjdəsinə sadağa etdim.
[6] İtkin düşmüş Yusif kimdir ki, sənə bənzəyə? Yüz ona bənzəyən bənzərsiz gözəlliyinə sadağa.
[7] Muğlar piri qulluğunda nöqsanımızı bağışlayar, ey Füzuli, canımız kamal əhlinə sadağa!!!

* * *

Ləbin əksi gözüm yaşini mey tək laləgun etdi,
Zənəxdanın muradım dəstgahın sərnigun etdi[1].

Sənə əksin müqabil durduğiçün hüsn lafilə,
Onu cam içrə qeyrət qərqeyi-girdabi-xun etdi[2].

Özün nisbət qılırdı zülfünə zəncir hər saət,
Bu sevdalər onu sərhəlqeyi-əhli-cünun etdi[3].

Onun tək kim, pərişanlıq ziyasın artırır şəm'in,
Mənə cövrün ziyad olmaq, sənə meylim füzun etdi[4].

Müjən xəncərlərin könlüm basır bağrına, vəhm etməz
Ona cadu gözün guya ki, tə'limi-füsun etdi[5].

Bəqayi-surəti-Şirin üçün tövfiq me'marı,
Binayi-eşqi-Fərhadın əsasın Bisütun etdi[6].

Füzulidən səbatü səbrü cövrü qəhr az istə
Kim, ol biçareyi dərdü qəmin bihəd zəbun etdi[7].

---

[1] Dodağının əksi gözümün yaşını şərab kimi laləngli etdi, zənəxdanın (çənənin quyusu) muradımın dəstgahını alt-üst etdi.

[2] Əksin gözəllik iddiası ilə sənə qarşı durduğu üçün qısqanclıq onu camın içində qan burulğanına qərq etdi.

[3] Zəncir hər saat özünü zülfünə bənzədirdi, bu sevdalar onu dəlilik əhli olanlar həlqəsinin başçısı etdi.

[4] Onun kimi ki, pərişanlıq şamın işığını artırır, zülmünün mənə çox olmağı sənə meylimi artıq etdi.

[5] Könlüm kirpik xəncərlərini bağrına basır, qorxmur, sanki cadu gözün ona əfsun təlimi keçir.

[6] Şirinin surətinin baqi olması üçün ilahi yardım memarı Fərhadın eşqinin binasını Bisütun etdi.

[7] Füzulidən dözüm, səbr, cövr və qəzəb az istə ki, o biçarəni dərd və qəmin hədsiz dərəcədə aciz etdi.



* * *

Ey saçın fikri qamu sövdalərin sərmayəsi!
Olmasın başimdən əskik sərvqəddin sayəsi[1].

Baş qoyar hər sübhdəm xurşid xaki-payinə,
Bu səadətdən onun gəldikcə artar payəsi[2].

Sən səlamət kisvətin zivər qıl, ey əhli-səlah!
Kim mənə bəs, muyi-julidəm cünun pirayəsi[3].

Görməmiş məhdi-zəmin bir tifl sən tək, ta fələk
Dəhr zalın qılmış ətfali-rəyahin dayəsi[4].

Bərqi-ahindən Füzulinin göyərdi bixəbər,
Dünlər əfğanilə bidar olmasa həmsayəsi[5].

---

[1] Ey saçın bütün sövdaların mayası, başından sərv boyun kölgəsi əskik olmasın.

[2] Hər sübh çağı günəş ayağının torpağına baş qoyar, bu səadətdən onun rütbəsi gəldikcə artar.

[3] Ey yaxşılıq əhli olan, sən salamatlıq paltarını bəzə ki, mənə dəlilik bəzəyi kimi dağınıq saçım yetər.

[4] Fələk dünya qocasını gül uşaqlarının dayəsi edəndən torpaq beşiyi sənin kimi bir uşaq görməmişdir.

[5] Gecələr qonşusu əfğanı ilə oyanmasa, Füzulinin ahının ildırımından xəbərsiz yanardı.

* * *

Dün könül dilbərə şərhi-qəmi-pünhan etdi,
Cəm ikən, könlünü bir parə pərişan etdi[1].

Yer tutam derdi könül nalə ilə kuyində,
Yetmədi bir yerə hər necə ki, əfğan etdi[2].

Və'də verdi çigərim qanın içə müjganın,
İntizar ilə bu həsrət cigərim qan etdi[3].

Qəmzə tiğilə gözün könlümü yüz parə qılıb,
Hər birin bir hədəfi-navəki-müjgan etdi[4].

Qıldı mehrabə qaşın fikri fəqihi mail,
Gör necə kafiri ol və'z müsəlman etdi[5].

Görəyin çox yaşasın didə ki, mərdümlük edib,
Qəm hücumində məni əşk ilə pünhan etdi[6].

Ey əcəl, can təməin qılma Füzulidən kim,
Bir kəmanəbruyə çoxdan onu qurban etdi[7].

---

[1] Gecə ürək dilbərə gizli qəmini şərh etdi, könlümü toplu ikən bir para dağıtdı.
[2] Könül nalə ilə onun olduğu yerdə yer tutum deyirdi, hər necə ki, əfğan elədi, bir yerə yetmədi.
[3] Kirpiyin vədə verdi ki, ciyərimin qanını içsin, bu həsrət gözləməklə ciyərimi qan etdi.
[4] Gözün qəmzə xəncəri ilə könlümü yüz para edib, hər birini bir kirpiyinin oxuna hədəf etdi.
[5] Qaşının fikri fəqihi mehraba meyl etdirdi, o vəz (öyüd) gör necə kafiri müsəlman etdi.
[6] Gözü, görüm, çox yaşasın, insanlıq edib, qəm hücumunda məni göz yaşı ilə gizlətdi.
[7] Ey əcəl, Füzulidən can tamahı etmə, onu çoxdan bir yayqaşlıya qurban etdi.



* * *

Ey göz, ol nərgisi-xünxarə nigah etmə dəxi,
Ruzigarım qəmi-eşq ilə siyah etmə dəxi[1]!

Ey gözüm yaşı, bu sərgəştəliyin tərkin qıl,
Sərvqamətlərə qət'i-səri-rah etmə dəxi[2]!

Ey könül, ömrümü verdin yelə aşıqlik ilə,
Baxma hər qönçələbü gülruxə, ah etmə dəxi[3]!

Baxma, ey can, xətü rüxsarına məhbublərin,
Ehtiyat eylə, günah üzrə günah etmə dəxi[4]!

Qılma, ey eşq, mənə ərz pəriçöhrələri,
Surəti-halimi ləhv ilə təbah etmə dəxi[5]!

Götür, ey nəfs, həvavü həvəsin aləmdən,
Hərzə-hərzə tələbi-rif'əti-cah etmə dəxi[6]!

Ey Füzuli, meyü mə'şuq məzaqın tərk et,
Özünü asiyi-dərgahi-ilah etmə dəxi[7]!

---

[1] Ey göz, bir də o qaniçən nərgizə baxma, bir də günümü eşq qəmi ilə qara etmə!
[2] Ey gözüm yaşı, bu heyranlığı tərk elə, bir də sərvboyluların yolunun qabağını kəsmə!
[3] Ey könül, aşiqlik ilə ömrümü yelə verdin, hər qönçə dodaqlıya və gülüzlüyə baxma, bir də ah etmə!
[4] Ey can, gözəllərin xətt və yanağına baxma, ehtiyat elə, bir də günah üstdən günah etmə.
[5] Ey eşq, mənə pəriçöhrələri göstərmə, bir də halımın surətini əyləncə ilə puç etmə.
[6] Ey nəfs, dünyadan hava və həvəsini götür, bir də hərzə-hərzə rütbənin yüksəlməsini tələb etmə.
[7] Ey Füzuli, şərab və məşuq ləzzətini tərk et, özünü bir də ilahi dərgaha asi etmə!

* * *

Könül, yetdi əcəl, zövqi-rüxi-dildar yetməzmi?
Ağardı muyi-sər, sevdayi-zülfi-yar yetməzmi[1]?

Yetirdi başini gərdun ayağə bari-möhnətdən,
Xəyali-həlqeyi-giysuyi-ənbərbar yetməzmi[2]?

Sənə yetdi əcəl peymanəsin nuş etməyə növbət,
Həvayi-çeşmi-məstü qəmzeyi-xunxar yetməzmi[3]?

Yetər oldu qulağə bangi-rəhlət dəhr bağından
Nə durmuşsan, tamaşayi-güli-rüxsar yetməzmi[4]?

Yetər, cəm' eylə bari-mə'siyət, təğyiri-ətvar et,
Həya qıl, yoxmudur insafın, ol kim var yetməzmi[5]?

Hidayət mənzilinə yetdilər sə'yilə əqranın,
Zəlalət içrə sən qaldın, sənə ol ar yetməzmi[6]?

Füzuli, demə yetmək mənzili-məqsudə müşküldür,
Sana damani-şər'i-Əhmədi-Muxtar yetməzmi[7]?

---

[1] Könül, əcəl yetdi, dildarın üzünün zövqü yetməzmi? Başının saçı ağardı, yarın zülfünün sevdası yetməzmi?

[2] Möhnət yükündən fələk başını ayağa yetirdi, ənbərsaçan hörüklərin həlqəsinin xəyalı yetməzmi?

[3] Əcəl peymanəsini nuş etmək növbəsi sənə yetdi, sərxoş gözün və qaniçən qəmzənin havası yetməzmi?

[4] Dünya bağından köçmək sədası qulağa gəldi, nə durubsan, yanağın gülünə tamaşa etmək yetməzmi?

[5] Yetər, günah yükünü topla, tövrlərini dəyişdir, həya elə, insafın yoxdurmu, nə varsa, o yetməzmi?

[6] Tay-tuşların səy ilə rəhbərlik mənzilinə yetdilər, alçaqlıq içində sən qaldın, sənə bu ar yetməzmi?

[7] Füzuli, məqsəd mənzilinə yetmək demə çətindir, Əhmədi-Muxtar şəriətinin ətəyi sənə yetməzmi?



# QƏSİDƏLƏR

## 1

Həva ərayisi-gülzarə oldu çöhrəgüşa,
Bahar gülşənə geydirdi hilleyi-xəzra[1].

Çəmən əyalətinə oldu nəsb xösrov gül,
Həvayə əbrsifət hökmün etməyə icra[2].

Yazıldı səbzeyi-növxizdən xəti-əhkam,
Çəkildi sayeyi-mətbu'i-sərvdən tuğra[3].

Səriri-abi-rəvanü səfiri-mürği-çəmən,
Nükati-təhniyeyi-məqdəm etdilər inşa[4].

Zəbani-süsəni-azadü səbzeyi-növxiz,
Sənayi-rif'əti-iclalə oldular guya[5].

Şəqayiq alni zəminbusdən olub məcruh,
Bənəfşə qaməti oldu təvazö ilə düta[6].

Mürəttəb eylədi bir bəzm gülşən içrə bahar
Ki, verdi zövqi-tamaşası nəş'əyi-səhba[7].

---

[1] Hava gülzar gəlinlərinin üzünü açdı,
Bahar gülşənə yaşıl ipək geyindirdi.

[2] Çəmən əyalətinə gül padşah oldu ki,
Bulud kimi hökmünü havaya icra etsin.

[3] Təzə qalxan yaşıllıqdan hökmlər xətti yazıldı,
Sərvin ətirli kölgəsindən fərman çəkildi.

[4] Axar suyun yatağı və çəmən quşunun fışqırığı
Qədəmlərinin təbrik etmə mənalarını yazdılar.

[5] Azad süsənin və təzə çıxan göy otun dili,
Calal ucalığına səna-alqış deyən oldular.

[6] Lalələrin alnı səcdədən yaralandı,
Bənövşənin qaməti təvazödən ikiqat oldu.

[7] Bahar çəməndə bir məclis düzəltdi ki,
Onun tamaşası şərab nəşəsi verdi.

Ənadil etdi bəyani-məratibi-nəğəmat.
Qəmari oldu təranəkəşü sürud sərа[8].

Sədayi-mürğ buraxdı büzürgü kuçigə şövq,
Sürudi-ab ilə üşşaqə hasil oldu nəva[9].

Bilindi qönçədə gül bərgi zahir olmağ ilə
Ki, qönçə başinə yağdirdi jalə səngi-cəfa[10].

Cərahət olmasa ə'zadə zahir olmaz qan,
Tərəşşöh eyləməz əlbəttə sınmadan mina[11].

Hümayvəş vərəqi-yasəminü bərgi-səmən,
Uçub həvayə gülüstanə düşdü zilli-hüma[12].

Bahar taciri Misri-çəmən qənilərinə,
Buraxdı Yusifi-gül ərz eyləyib qovğa[13].

Bu zövq saldı Züleyxayi-laləyə bir şövq
Ki, lə'lü mişk töküb, verdi ağırınca bəha[14].

Hədiqə təxteyi-tə'lim olub, rəyahindən,
Yazıldı möhmələ möcəm ona hürufi-həca[15].

---

[8] Bülbüllər nəğmələrin mərtəbələrini bəyan etdilər,
Qumrular nəğmə oxuyan və nəğmə yaradan oldular.
[9] Quşların sədası böyük və kiçiyə şövq buraxdı,
Suyun nəğməsi ilə aşiqlərə bir pay yetişdi.
[10] Qönçədə gül yarpağı aşkar olmaqla bilindi ki,
Şeh qönçənin başına cəfa daşı yağdırdı.
[11] Bədəndə yara olmasa, qan görünməz,
Mina sınmasa, əlbəttə, tərləmə olmaz.
[12] Yasəmənin vərəqi və səmənin yarpağı hüma kimi
Havaya uçdu və gülüstana hüma kölgəsi düşdü.
[13] Bahar taciri çəmən Misrinin dövlətlilərinə
Gül Yusifi buraxıb dava göstərdi.
[14] Bu zövq lalə Züleyxaya bir şövq saldı ki,
Ləl və mişk töküb ağırı qədər qiymət verdi.
[15] Bağ güllərdən bir təlim taxtasına çevrildi,
Ona nöqtəli, nöqtəsiz əlifba hərfləri yazıldı.



Müzəyyən eylədi övraqi-laləyi şəbnəm,
Hürufi-lalədə olmaz əgərçi nöqtə rəva[16].

Götürdü şəbnəmi əzhardən hərarəti-mehr,
Şükufə nöqtələrin gərçi kim edər imla[17].

Dəbiri-bad verib tifli-əndəlibə səbəq,
Götürdü çöhreyi-əzhardən niqabi-xəfa[18].

Qamü dirəxt bulub rəf'i-istiqaməti-hal,
Şükufə həmli ilə kəsr buldular illa[19].

Nihali-bibədəli-sərv kim, qalıb mənsub
Səbati-hal ilə onlardan oldu müstəsna[20].

Sədayi-seyl çəkər məddi-müttəsil, yə'ni
Ki, məddi-müttəsil ilə olur qiraəti-ma'[21].

Göründü hey'əti-abi-rəvanda şəkli-hübab,
Sübutə yetdi səbati-nücumü seyri-səma[22].

---

[16] Şeh lalənin yarpaqlarına ziynət verdi,
Hərçənd lalənin hərflərində nöqtə rəva deyildir.
[17] Günəşin istisi güllərdən şehi götürdü,
İmla, hərçənd şükufə nöqtələrini yazmağı hökm edir.
[18] Yel katibi bülbül uşağına dərs verib
Güllərin üzündən görünməzlik örtüyünü götürdü.
[19] Bütün ağaclar öz vəziyyətlərinə uyğun ucaldılar,
Gül hamiləliyi ilə çatladılar, ancaq.
[20] Sərvin bənzərsiz ağacı dik dayanaraq
Sabit (dəyişməz) halı ilə onlardan seçildi.
[21] Selin səsi ardıcıl olaraq uzanır, yəni
Ardıcıl uzanma ilə suyun oxuması baş verir.
[22] Axan suyun surətində köpük şəkli göründü,
Ulduzların sabitliyi və səmanın hərəkəti sübuta yetdi.

Xütuti-müxtəlifü müstəqimi ənharın,
Çəməndə saldı zəvayayi-gunə-gunə bina[23].

Riayəti-türuqi-müstəqimdən, necə kim,
Olur hüsul məqamati-cənnətül-mə'va[24].

Həvayi-bağidən etdim bu hikməti mə'lum
Ki, e'tidaldədir sihhəti-həvasü qüva[25].

Fəzayi-gülşəni əzhar ilə görüb məmlu,
Yəqinim oldu ki, mümkün deyil vücudə xəla[26].

Nəzərdə olmaq ilə sübhü şam, qönçəvü gül
Bədihi oldu kəmal əhlinə hüsuli-səfa[27].

Nəticə salibə olmaq xilafi-adətdir,
Olunca mucibi-süğrayə müttəfiq kübra[28].

Zəmiri-gülbünə gül rəngi saldı atəşi-bim
Ki, hümrə qanə olur nəfs evində rahnüma[29].

Gül atəş üzrə qılır iqdi-Zöhreyi-şəbnəm
Tədarüki-qəmərü şəms edər səbahü məsa[30].

---

[23] Çayların düz və müxtəlif xətləri çəməndə növ-növ çuxurlar açdı.
[24] Düz yollara əməl edilməklə cənnət kimi yerlər əmələ gəlir.
[25] Bağın havasından bu hikməti məlum etdim ki, həvəslər və qüvvənin sağlamlığı mötədillikdədir.
[26] Gülşənin üzünü güllərlə dolu gördükdə mənə yəqin oldu ki, vücudda boş yer olması mümkünsüzdür.
[27] Sübh və şam, qönçə ilə gül nəzərdə olmaqla kamal sahibinə bir tamaşa yetişdiyi aydın oldu.
[28] Kiçiyə böyük müttəfiq olması vacib olunca
Bir nəticə olması inkarçı üçün adətə ziddir.
[29] Gülün rəngi gül ağacının canına qorxu odu saldı, çünki qırmızılıq nəfs evində qana yolgöstərən olur.
[30] Gül atəş üzərində şeh Zöhrəsinin (gözəlinin) kəbinini kəsir, axşam və sabah ay və günəş tədarük görür.



Bu kimiya səbəbindən əcəbmidir olsa,
Əlində daneyi-ərzən məsabəsində tila[31].

Şükufə siminə fərz eylədi xüruci-zəkat,
Mədari-hövlü büluği-nisabi-istinma[32].

Hüqüq dəf'i üçün əğniyayi-əşcarə,
Səhayifi-çəmən oldu əyadiyi-füqəra[33].

Bahardan təni-gülbündə eyləyib həyəcan,
Hərarəti-dəməvi qıldı ğüddələr peyda[34].

Boyandı qanı ilə səfheyi-çəmən gül-gül,
Məgər ki, fəsdinə hökm eyləmiş təbibi-həva[35].

Hibali-sehrə dönüb cünbüşi-cədavili-ab,
Kəlimi-sərv ona əksdən buraxdı əsa[36].

Olub tərənnümi-bülbül əzayimi-təsxir,
Çəmən pərilərinə lazım oldu ərzi-liqa[37].

---

[31] Bu kimya səbəbi ildə əlində bir darı dənəsi qızıl miqdarında olsa, qəribədirmi?
[32] Gülün gümüşünə qorxu dairəsi və yetginlik dərəcəsində zəkat səpməyi borc bildi.
[33] Çəmən səhifələri ağac dövlətlilərinin hüququnu dəf etmək üçün yoxsullara əl tutdu.
[34] Bahar vaxtı gül ağacının bədənində bir həyəcan oyatdı, qanın hərarəti puçurlar göstərdi.
[35] Çəmənin səhifələri gül-gül qan ilə boyandı, yoxsa hava təbibi ondan qan almaq hökmü vermişdir.
[36] Su arxlarının axını bir sehir buxovuna dönüb
Sərv İsası ona qarşıdan bir əsa buraxdı.
[37] Bülbülün tərənnümü fəth üçün məramlar olub, çəmən pərilərinə öz simasını göstərmək lazım gəldi.

Büsati-gülşənə dün eylədim güzər ki, dəmi,
Qılam nəzarəyi-asari-qüdrəti-mövla[38].

Əcəb niza'də gördüm çəmən zəriflərini,
Təəssüf ilə qamu saliki-təriqi-xəta[39].

Qamu güman ilə müstəd'iyi-təriqi-nəcat,
Vəli, qamusuna batil dəlili-istid'a[40].

Salıb şükufə məbadi sünufə əşcari,
Qılırdı bəhs ki, caiz təəddüdi-qüdəma[41].

Verib təsəlsülə qüvvət təbiəti-kəci-ab,
Olurdu nafiyi-isbat-illəti-ula[42].

Xəyali-məhz sanıb kainatı nərgisi-məst,
Qılırdı cəhl ilə nəfyi-həqayiqi-əşya[43].

Edirdi bülbüli-kafirnihad səcdeyi-gül,
Təəbbüdi-sənəm ilə tutub nəcati-rica[44].

[38] Dünən gülşənin xalısına tərəf getdim ki, bir dəm möylanın qüdrətinin izlərini seyr edim.

[39] Çəmən zəriflərini qəribə bir qovğada gördüm
Hamısı təəssüf hissi ilə səhv yolun yolçuları idilər.

[40] Hamısı güman ilə nicat yolunu arzu edir, ancaq hamısının istədiyinin dəlili batil (puç) idi.

[41] Güllər ağacları əvvəldən siniflərə salıb bəhs edirdi ki, qədimlərin çoxluğu mümkündür.

[42] Suyun kəc təbiəti zəncir kimi uzanmaya qüvvət verib ən ağlabatan səbəbin isbatını inkar edirdi.

[43] Sərxoş nərgis kainatı məhz bir xəyal sanır, nadanlıqla əşyanın həqiqətlərini inkar edirdi.

[44] Kafir təbiətli bülbül gülə səcdə edirdi, sənəmə (bütə) ibadətlə nicat tapmağı xahiş edirdi.



Nəsim vaqif olub bu fəsadı mən' etdi
Ki, ey güruhi-pərişan, tutun təriqi-hüda[45]!

Bu karixanə bir ustaddan deyil xali,
Gərək bu qüdrətə əlbəttə qadirü dana[46].

Qılır dəlaləti-illət vücudi-hər mövcud
Vəli, nə sud ki, sahibnəzər deyil ə'ma[47].

Mükəvvinatə hüdus ol qədimdəndir kim,
Kəmali-zatinə mümkün degil qəbuli-fəna[48].

Qədirü müqtədirü qadirü müqəddirü həyy
Əlimü alimü əllamü ə'ləmü ə'la[49].

Zəhi təkəvvüni-kamil ki, qüdrətindəndir,
Pəriliqalərə lütfi-tənasübi-ə'za[50].

Məlahəti-ləbi-meygunü ləhceyi-şirin,
Nəzakəti-qədi-mövzunü çöhreyi-ziba[51].

Səfayi-cismi-lətifü qəbuli-cövhəri-pak,
Lətafəti-xəti-mişkinü zülfi-ənbərsa[52].

[45] Səhər yeli anlayıb bu fəsadı (nifaq) qadağan etdi ki, ey pərişan dəstə doğru yolu tutun.

[46] Bu karxana (dünya) bir ustaddan boş deyil, bu qüdrətə, əlbəttə, bacarıq və bilik lazımdır.

[47] Hər bir varlığın vücudu səbəbin dəlilini göstərir. Ancaq nə fayda ki, kor nəzər sahibi deyildir.

[48] Yaranmışların əmələ gəlməsi o qədimdəndir ki, onun zatının kamilliyinin fəna (heç olma) qəbul etməsi mümkün deyildir.

[49] Ən qüdrətlidir, qüdrəti olandır, qadir və müqəddirdir, canlıdır
Çox bilən, bilici, hər şeyi bilən, ən alim və əladır.

[50] Əhsən o kamil yaradıcıya ki, pəriüzlülərdə olan lətafət və bədən mütənasibliyi onun qüdrətindəndir.

[51] Al şəraba bənzər dodağın və şirin ləhcənin məlahəti
Ölçülü boyun və gözəl çöhrənin nəzakəti.

[52] Lətif bir bədənin duruluğu, təmiz təbiətin məqbulluğu,
Mişkətirli xəttin və ənbər ətirli zülfün lətafəti.

Kəmali-qüdrəti-elminədir şəvahidi-ədl,
Üqudi-silsileyi-karixaneyi-dünya[53].

Bəsaitə şərəfi- məhrəmiyyəti-vəhdət,
Mürəkkəbatə qəbuli-tərəkkübi-əcza[54].

Həvayi-məkrəmətindən qəbuli-feyz qılıb,
Mürəbbiyi-çəmən olmuş bəhari-ruhəfza[55].

Nəsibi-mərhəmətindən alıb ifadeyi-cud,
Cahanı əşki-cinan eyləmiş nəsimi-səba[56].

Səfayi-lütfi-əmimi nüfuz edib, qılmış,
Mizaci-namiyeyi müstəiddi-nəşvü nəma[57].

Fəzayi-gülşəni-lütfi mərabei-əhbab,
Hədaiqi-rəhi-qəhri məhaliki-ə'da[58].

Sühayə lütfi əgər qılsa zərrəpərvərlik,
Yetər məqami-müsavati-afitabə süha[59].

[53] Dünya işxanasının zəncirlərinin həlqələri onun elminin qüdrətinin kamilliyinin ədalətli şahidləridir.

[54] Sadə cisimlərə vəhdətinin (birliyinin) yaxınlığının şərəfi, mürəkkəb cisimlərə üzvlərin mürəkkəb birləşməsinin qəbulu.

[55] Sənin nəcib rəftarından bir nemət qəbul edib çəmən dayəsi ruh oxşayan bir bahar olmuşdur.

[56] Sənin mərhəmətindən əldə etdiyi qismətlə səxavət ifadəsi alan səba yeli dünyanı cənnətin qibtə etdiyi bir yer etmişdir.

[57] Hamıya şamil olan lütfünün təmizliyi nüfuz edərək böyümək mizacına göyərib cücərmə bacarığı vermişdir.

[58] Mehribanlığının gülşəninin fəzası dostlar üçün qazancdır, qəzəb yolunun bağçası düşmənin həlak yeridir.

[59] Əgər onun mehribanlığı Sühaya (ulduz) zərrəpərvərlik göstərsə, Süha Günəşə bərabər bir yer tutar.



Vər olsa qəhrinə məzhər ənasirü əflak,
Nigah əqdin üzər ümməhatdən aba[60].

Hesabi-rizqini qılmış təmamiyi-bəşərin,
Hənuz Adəmə peyvənd qılmadan Həvva[61].

Bəyani-halinə yetmiş cəmii-məxluqun,
Hənuz pərdəyə əyani çəkmədən əsma[62].

Kəmali-tərbiyəti növki-xarə vermiş rəng,
Lətif edib, ləqəbin eyləmiş güli-rə'na[63].

Gül atəşin bir ovuc xaki-rəhgüzarə salıb,
Kül eyləyib qomuş adını bülbüli-şeyda[64].

Türabi-dərgəhinə ittisal şövq ilə,
Kəfi-təzərröi-dəryadə dəməni-səhra[65].

Ziyarəti-hərəmin qılmamaq cəzası üçün
Həvalə xəncəri-seylabə sineyi-dərya[66].

[60] Və əgər ünsürlər və fələklər qəzəbinə düşsələr,
Atalar ünsürlərdən nəzər bağını üzər.

[61] Hələ Həvva Adəmə bağlanmadan bütün bəşərin ruzisinin hesabını aparmışdır.

[62] Hələ əyanları adlar pərdəyə çəkmədən bütün yaranmışların halını bəyan etmişdir.

[63] Onun yetişdirib böyütmə kamilliyi tikanın ucuna rəng vermişdir, onu lətif edib, ləqəbini incə gül qoymuşdur.

[64] Gülün odunu bir ovuc yol torpağına salıb, kül eyləyib adını şeyda bülbül qoymuşdur.

[65] Onun qapısının torpağına birləşmək şövqü ilə dəryanın xahiş əli dəryanın ətəyindədir.

[66] Hərəmini ziyarət etməmək cəzası olaraq sellərin xəncəri dəryanın sinəsinə saplanmışdır.

Cəmii-vəqt şəfaxaneyi-ətasından,
Cəmii-xəlqə müyəssər, cəmii-dərdə dəva[67].

Rümuzi-hekmətin eylər bəyan məratib ilə,
Cəmii-hali bəşər, xah fəqrü xah ğina[68].

Mərizi-arizeyi-nəqsdir, nüfus tamam,
Kiminə faidə pəhriz edər, kiminə ğida[69].

Şərif zatlərə övci-imtəhanından,
Vəsileyi-şərəfi-qürb olur nüzuli-bəla[70].

Xəsis nəfslərə gənci-iltifatından
Məzidi-illəti-idbar olur vüfuri-əta[71].

Dəlili-zilləti-üsyandır təərrüzi-hal,
Təriqi-hüsni-rizası cəmii-halə riza[72].

Zəhi kərəm ki, nəzər qılmayıb ədavətinə,
Müyəssər eyləmiş iblisə e'tibari-bəqa[73].

Zəhi kərim ki, ifrati-lütf ehsanı,
Məsihi eylədi mehrabi-səcdeyi-tərsa[74].

---

[67] Bütün vaxtlarda onun bəxşiş şəfaxanalarından bütün insanlara bütün dərdlərinə görə dərman qismət olur.
[68] Bütün bəşərin halı, istər yoxsul, istər varlı onun hikmətinin rəmzlərini mərtəbələrlə şərh edir.
[69] Bütün nəfslər yarımçıqlığın törətdiyi xəstəlikdir,
Kiminə pəhriz faydalıdır, kiminə yemək.
[70] İmtahanının yüksək zirvəsindən şərafətli kəslərə ona yaxın olmaq vasitəsi olaraq bəla enir.
[71] Xəsis nəfslərə onun iltifat (mehribanlıq) xəzinəsindən talesizlik səbəbini artıran bəxşişinin çoxluğu olur.
[72] Vəziyyətə etiraz üsyan zəlilliyinə dəlildir. Bütün vəziyyətlərə razı olmaq onun razılığının gözəlliyinin yoludur.
[73] Əhsən kərəminə ki, düşmənçiliyinə baxmayıb iblisə bəqa (əbədi olmaq) etibar etmişdir.
[74] Əhsən o kərəm sahibinə ki, hədsiz mehribanlığının ehsanı Məsihi (İsanı) tərsaların səcdə mehrabı etdi.



Fəqiri-dərgəhinə ləzzəti-rizası ilə,
Təəllüqati-təriqi-fənadən istiğna[75].

Əsiri-möhnəti-eşqinə zövqü şövqü ilə
Xilafi-qaidə meyli-təbibü zikri-şəfa[76].

Zəhi həqiqəti-zatında lafi-əql cünun,
Qapın məqami-müsavati-padişahü gəda[77].

Nəimi-ləmyəzəli onda kim, sənə vasil,
Müəzzəbi-əbədi ol ki, səndən ola cüda[78].

Təvafi-Kə'beyi-vəslin təhəssürilə müdam,
Sürudi-seylə səfirü, xüruşi-rə'də səda[79].

Mühəymina, səmada! Bəndeyi-siyəhruyəm,
Səhifeyi-əməlim mə'siyyət xətilə qəra[80].

Tərəhhüm et ki, məni qaməti-şikəstə ilə,
Bənəfşeyi-çəməni-dərd qıldı bari-ina[81].

Nihali-gülşəni-dərdəm ki, su yerinə verər
Mənə həmişə ciyər qanı bağibani-qəza[82].

---

[75] Qapısının yoxsulları onun razılığının ləzzəti ilə fəna yolunun əlaqələrinə ehtiyac duymayacaqdır.
[76] Onun eşqinin qəminə əsir olanlara zövqü və şövqü ilə qaydanın ziddinə olaraq təbibə meyl və sağalma söhbəti lazım deyildir.
[77] Əhsən! Zatının həqiqətində əqlin iddiası dəlilik! Qapın padşahla dilənçinin bərabərlik məqamıdır.
[78] Kim ki, sənə qovuşur, əbədi nemət ondadır,
Kim ki, səndən ayrı ola, əbədi əzabda olar.
[79] Sənin vəslinin Kəbəsinin başına dolanmaq həsrəti ilə həmişə selin nəğməsində fit, ildırımın gurultusunda səda vardır.
[80] Ey qoruyan, mehriban və əbədi olan! Üzü qara bir bəndəyəm, əməlimin səhifəsi günah xətti ilə qaradır.
[81] Rəhm elə ki, sınıq qamətimlə iztirab yükü məni dərd çəməninin bənövşəsi etmişdir.
[82] Mən bir dərd gülşəni ağacıyam ki, qəza bağbanı həmişə su yerinə ciyər qanı verir.

Diriğü dərd ki, əncamə yetdi ömr, hənuz,
Xərabi-badeyi-zərqəm, əsiri-dami-həva[83].

Əzabi-ruzi-cəza vəhmi ilə şamü səhər,
Bir iztirabü əzab içrəyəm məni-rüsva[84].

Kim, ol əzabi məgər iqtizayi-ədl verə,
Əzabi-ruzi-cəza münkirinə ruzi-cəza[85].

Əgərçi qüssə tutar ruzü şəb giribanım,
Əlimdən eyləmən ümmid damənini rəha[86].

Müqimi-hücreyi-şövqəm fəzayi-qürbündən,
Həmişə səm'i-ümidimdə iştiyaqi-səda[87].

Ki, ey fəqir, hərimi-visalə bismillah,
Təəllül etmə ki, dəmdir əmanət ola əda[88].

Səhabi-feyz əməl gülşənin qılıb sirab,
Güli-murad açılıb ola müstəcab dua[89].

[83] Əfsus və dərd ki, ömür sona yetdi, hələ hiylə şərabından xarabam (sərxoşam) və istək torunun əsiriyəm.

[84] Cəza (qiyamət) gününün əzabının qorxusu ilə gecə-gündüz bu rüsva mən bir iztirab və əzab içindəyəm.

[85] Bəlkə ədalət tağazası o əzabı cəza günü cəza gününün əzablarını inkar edənə verə.

[86] Gecə-gündüz yaxamı qüssə tutsa da, ümid ətəyini əlimdən buraxmaram.

[87] Şövq hücrəsinin sakiniyəm, sənin yaxınlıq fəzandan həmişə ümid qulağımda bir səs həvəsi vardır.

[88] Ki, ey fəqir, vüsal hərəminə bismillah elə, bəhanə axtarma, vaxtdır, əmanət qaytarılsın.

[89] Nemət buludu əməl gülşənini suya doydurub murad gülü açılıb, dua müstəcab ola (qəbula keçə).



Ümid var ki, ayineyi-zəmirimdən
Həmişə seyqəli-ehsanın ola jəngzida[90].

Ümid var ki, lütfündən olmaya nomid,
Dili-Füzuliyi-aşüftəhalü bisərü pa[91].

Müyəssər ola ona şahrahi-eşqində,
Dəvami-hüsni-qəbulü səbati-rəsmi-vəfa[92].

[90] Ümid var ki, mənim könül aynamdan həmişə sənin bəxşiş sığalın pası silə.

[91] Ümid var ki, çaşqın hallı, əlsiz-ayaqsız Füzulinin ürəyi ümidsiz olmaya.

[92] Ona sənin eşqinin böyük yolunda qəbulunun gözəlliyi davamlı və vəfa qaydasının sabitliyi müyəssər ola.

## 2

Saçma, ey göz, əşkdən könlümdəki odlarə su
Kim, bu dəklü tutuşan odlara qılmaz çarə su[1].

Abgundur günbədi-dəvvar rəngi, bilməzəm,
Ya mühit olmuş gözümdən günbədi-dəvvarə su[2].

Zövqi-tiğindən əcəb yox, olsa könlüm çak-çak
Kim, mürur ilə buraxır rəxnələr divarə su[3].

Vəhmlən söylər dili-məcruh peykanın sözün,
Ehtiyat ilə içər hər kimdə olsa yarə, su[4].

Suya versin bağiban gülzarı, zəhmət çəkməsin,
Bir gül açılmaz üzün tək versə min gülzarə su[5].

Oxşada bilməz qübarini mühərrir xəttinə,
Xamə tək baxmaqdan ensə gözlərinə qarə su[6].

Arizin yadilə nəmnak olsa müjganım, nola,
Zaye olmaz gül təmənnasilə vermək xarə su[7].

Qəm günü etmə dili-bimardən tiğin diriğ,
Xeyrdir vermək qaranqu gecədə bimarə su[8].

[1] Ey göz, göz yaşlarından könlümdəki odlara su saçma ki, bu cür odlara tutuşana su çarə etməz.
[2] Dövr edən günbədin rəngi su rəngində olmuşdur, bilmirəm, ya gözümdən olan su dövr edən (fırlanan) günbədə çevrə olmuşdur.
[3] Qılıncının zövqündən könlüm para-para olsa, əcəb deyil, çünki su tədriclə divara çatlar verir.
[4] Yaralı ürək peykanın (kirpiyin) sözünü qorxu ilə söyləyir, hər kimdə yara olsa, suyu ehtiyatla içər.
[5] Bağban gülzarı suya versin, zəhmət çəkməsin, gülzara min su versin, üzün tək bir gül açılmaz.
[6] Yazı yazan qələm kimi baxmaqdan gözünə qara su ensə də, öz tozunu sənin xəttinə oxşada bilməz.
[7] Yanağını yad etməklə kirpikləri yaş olsa, nə olar, gül təmənnası ilə tikana su versən, zay olmaz.
[8] Qəm günü xəstə ürəyimdən qılıncını əsirgəmə, qaranlıq gecədə xəstəyə su vermək xeyirdir.



Mən ləbin müştaqiyəm, zühhad -Kövsər talibi,
Netəkim məstə mey içmək xoş gəlir, hüşyarə su[9].

İstə peykanın, könül, hicrində şövqüm sakin et,
Susuzam, bir gəz bu səhradə mənimçün arə su[10].

Rövzeyi-kuyinə hərdəm durmayıb eylər güzar,
Aşiq olmuş, qaliba, ol sərvi-xoşrəftarə su[11].

Su yolun ol kuydən torpaq olub tutsam gərək,
Çün rəqibimdir, dəxi ol kuyə qoyman varə su[12].

Dəstbusi arizusundan gər ölsəm, dustlar,
Kuzə eylin torpağım, sunun onunla yarə su[13].

Sərv sərkəşlik qılır qümri niyazından, məgər,
Damənin tuta, əyağinə düşə, yalvarə su[14].

İçmək istər bülbülün qanın, məgər bir rəng ilə
Gül budağının mizacına girə, qurtarə su[15].

Tinəti-pakini rövşən qılmış əhli-aləmə,
İqtida qılmış təriqi-Əhmədi-Muxtarə su[16].

[9] Mən dodağın müştaqıyam, zahidlər kövsər istəyirlər, neyləmək olar, sərxoşa şərab içmək xoş gəlirsə, ayığa su içmək.
[10] Peykanını istə, ey könül, ayrılığında şövqümü sakitləşdir, susuzam, bu səhrada mənə bir dəfə su axtar.
[11] Sənin astananın bağına durmadan hər an üz tutur, çox güman ki, su o xoş yerişli sərvə aşiq olmuşdur.
[12] Gərək torpaq olub suyun o yerə yolunu tutam, çünki rəqibimdir, dəxi o astanaya qoymaram su gedə.
[13] Dostlar, onun əlini öpmək arzusundan ölsəm, torpağımı kuzə eyləyin, onunla yara su verin.
[14] Qumrunun yalvarışından sərv özünü çəkir, istəyir ki, su ətəyini tuta, ayağına düşə, yalvara.
[15] Su bir hiylə ilə yoxsa bülbülün qanını içmək istəyir, gül budağının mizacına girib qurtarmağa can atır.
[16] Su dünya əhlinə təmiz təbiətini açıqlamış və Əhmədi Muxtarın yolunu təqlid etmişdir, tutmuşdur.

Seyyidi-növ'i-bəşər, dəryayi-dürri-istifa
Kim, səpibdir mö'cüzatı atəşi-əşrarə su[17].

Qılmaq üçün tazə gülzari-nübüvvət rövnəqin,
Mö'cüzündən eyləmiş izhar səngi-xarə su[18].

Mö'cüzi bir bəhri-bipayan imiş aləmdə kim,
Yetmiş ondan min-min atəşxaneyi-küffarə su[19].

Heyrət ilən barmağın dişlər, kim etsə istima,
Barmağından verdiyin şiddət günü-ənsarə su[20].

Dusti gər zəhri-mar içsə olar abi-həyat,
Xəsmi su içsə dönər, əlbəttə, zəhri-marə su[21]

Eyləmiş hər qətrədən min bəhri-rəhmət mövcxiz,
Əl sunub urğac vüzu üçün güli-rüxsarə su[22].

Xaki-payinə yetəm der, ömrlərdir müttəsil,
Başını daşdan-daşa vurub gəzər avarə su[23].

Zərrə-zərrə xaki-dərgahinə istər sala nur,
Dönməz ol dərgahdan, gər olsa parə-parə su[24].

---

[17] Bəşər növünün ağası, paklıq incisinin dəryası ki, möcüzələri yamanlıq odu üzərinə su səpmişdir.

[18] Peyğəmbərlik gülzarının rövnəqini təzələmək üçün möcüzü ilə qara daşdan su çıxarmışdır.

[19] Möcüzü aləmdə bir sonsuz dərya imiş ki, ondan kafirlərin atəşxanalarına min-min su yetmişdir (yəni atəşxanaların odunu söndürmüşdür).

[20] Çətin gündə barmağından tərəfdarlarına su verdiyini hər kim eşitsə, heyrət ilə barmağını dişləyər.

[21] Əgər dostu ilan zəhəri içsə, dirilik suyu olar, düşməni su içsə o su ilan zəhərinə çevrilər.

[22] Əl uzadıb vüzu (dəstəmaz) üçün gül üzünə su vurarkən hər damcıdan bir rəhmət dənizi dalğalandırmışdır.

[23] Su ardıcıl olaraq ömürlər müddətində başını daşdan-daşa vurub avara gəzir ki, onun ayağının torpağına çatsın.

[24] Zərrə-zərrə istəyir ki, onun qapısının torpağına nur salsın, su para-para olsa da, o qapıdan dönməz.



Zikri-nə'tin dərdinə dərman bilir əhli-xəta,
Eylə kim, dəf'i-xumar üçün içər meyxarə su[25].

Ya Həbibullah! Ya xeyrül-bəşər! Müştaqinəm,
Eylə kim, ləbtəşnələr yanıb-dilər həmvarə su[26].

Sənsən ol bəhri-kəramət kim, şəbi-me'racdə,
Şəbnəmi-feyzin yetirmiş sabitü səyyarə su[27].

Çeşmeyi-xurşiddən hər dəm zülali-feyz enər,
Hacət olsa, mərqədin təcdid edər me'marə su[28].

Bimi-duzəx, nari-qəm salmış dili-suzanimə,
Var ümidim əbri-ehsanın səpə ol narə su[29].

Yumni-nə'tindən gühər olmuş Füzuli sözləri,
Əbri-nisandan dönən tək lö'löi-şəhvarə su[30].

Xabi-qəflətdə olan, bidar olanda rüzi-həşr
Əşki-həsrətdən dolanda dideyi-bidarə su[31].

Umduğum oldur ki, məhrum olmayam didardən,
Çeşmeyi-vəslin verə, bu təşneyi-didarə su[32].

---

[25] Xəta sahibi olanlar sənin tərifini zikr etməyi öz dərdinə dərman bilir, necə ki, şərab içənlər öz xumarlıqlarını götürmək üçün su içərlər.

[26] Ey Allahın sevdiyi dostu! Ey bəşərin xeyirlisi! Mən sənin müştaqınam, necə ki, dodağı su üçün yananlar daim su istəyər.

[27] O kəramət dənizi sənsən ki, merac gecəsində sənin feyzinin (xeyrinin) şehi sabit və səyyar ulduzlara su vermişdir.

[28] Günəş dairəsindən hər an sərin su neməti enər, ehtiyac olsa, qəbrin yenidən memara su verər.

[29] Cəhənnəm qorxusu yanan ürəyimə qəm odu salmışdır. Ümidim var ki, ehsan buludun o oda su səpə.

[30] Sənin tərifinin (nətinin) bəxtindən Füzuli sözləri gövhər olmuşdur, sanki neysan buludundan su şahanə lələ çevrilmişdir.

[31] Qəflət yuxusunda olan qiyamət günü ayılanda, ayıq gözlərə həsrət yaşlarından su dolanda.

[32] Umduğum odur ki, sənin camalını görməkdən məhrum olmayam, sənin vüsal çeşmən bu camalını görmək təşnəsinə su verə.

## 3

Çəkər birəhmlər yanında hər saət zəban xəncər,
Günahım sabit eylər, ölməyim-xatirnişan xəncər[1].

Zülali-vəslinə ləbtəşnəyəm bir türki-bədxuyin
Kim, ondan qətreyi-ab istəsəm, dartar rəvan xəncər[2].

Verir pərvanə öz-canın-sənə çün ixtiyar ilə,
Nə hacət şö'lədən, ey şəm', çəkmək hər zaman xəncər[3]?

Həzər qıl, gəzmə çox pərvasız, ey bülbül ki, qətlinçün
Tikəndən daməni altında qılmış gül nihan xəncər[4].

Müjən qanım töküb, qəmzən alır canım, əcəb sanma
İşidir töksə qan ox, adətidir alsa can xəncər[5].

Qaşınla gözlərindir hər tərəf, ya bir niza' üzrə
Çəkibdir bir-birinə iki sərxoş türkman xəncər[6]?

Xəyali-qəmzən ilə bəs ki, rahət getdi cismimdən,
Sanasan pəhlüyi-çakimdədir hər üstüxan xəncər[7].

[1] Rəhmsizlər yanında hər saat xəncər dil çəkər. Günahımı sübut edər, ölməyimi yada salar.

[2] Bir yaman xasiyyətli türkün (gözəlin) vüsalının saf çeşməsinə dodaqlarım təşnədir ki, ondan bir damcı su istəsəm, o saat xəncər çəkər.

[3] Pərvanə öz canını sənə öz ixtiyarı ilə verirsə, hər zaman şölədən xəncər çəkməyə nə ehtiyac var?

[4] Həzər eylə, ey bülbül, ehtiyatsız gəzmə, sənin qətlin üçün gül ətəyinin altında tikandan gizli xəncər saxlayır.

[5] Kirpiyin qanımı töküb, qəmzən canımı alır, təəccüblü sayma, oxun qan tökməsi onun işidir, xəncər can alırsa, adətidir.

[6] Qaşınla gözlərindir hər tərəfə, ya bir qalmağal üzrə iki sərxoş türkmən bir-birinə qılınc çəkibdir.

[7] Qəmzənin xəyalı ilə bədənimdən rahatlıq o qədər gedibdir ki, sanasan ki, parçalanmış böyrümdə hər sümük bir xəncər olmuşdur.



İlətsəm xəncərin şövqini qəbrə, hər bahar olğac,
Olur səbzə yerinə xaki-qəbrimdən əyan xəncər[8].

Qucar zərrin kəmərlə belini, vəh bu nə tale'dir
Ki, altun qüvvətilə beylə olmuş kamiran xəncər[9].

Xiyali gözdədir, kirpiklərin dəprətmə, ey mərdüm
Ədəb şərti deyil mehmanə çəkmək miziban xəncər[10].

Göz açıb busitanə xətti-səbzinsiz nəzər qılsam,
Görünür gözlərimə səbzəyi-hər busitan xəncər[11].

Dəhanın yox demişlər, söylə bu göftar qandandır,
Belin peyda deyil, de qanda dutmuşdur məkan xəncər[12]?

Məhali-əqldir kim, ola müjganın kimi xuni,
Əgər ustad əlindən su yerinə içsə qan xəncər[13].

Ruxi-zərdim salıbdır xəncərin güzgusinə əksin,
Və ya simin əlində dutduğundur zərnişan xəncər[14].

Zəbani-tiz ilə ortaya girmiş müttəsil guya,
Olam der madihi-peyğəmbəri-axirzəman xəncər[15].

[8] Xəncərin şövqünü qəbrə qoysam, hər bahar gələndə mənim qəbrimin torpağından göy oxlar yerinə xəncər görünər.

[9] Qızıl kəmərlə belini qucaqlayar, vəh bu nə taledir ki, qızıl gücü ilə xəncər belə murada çatmışdır.

[10] Xəyalı gözdədir, ey bəbək, kirpiklərini tərpətmə, süfrə sahibinin qonağa xəncər çəkməsi ədəb şərti deyil.

[11] Göz açıb sənin göy xətlərin olmadan bustana nəzər salsam, bustandakı hər göy ot gözlərimə xəncər kimi görünür.

[12] Ağzın yoxdur demişlər, söylə bu söhbət hardandır, belin aşkar deyil, söylə xəncər harda qərar tutub?

[13] Sənin kirpiklərin kimi bir qanlı olduğu ağıla sığmaz. Əgər xəncər ustad əlindən su yerinə qan içmiş ola.

[14] Sarı bənizim xəncərin güzgüsünə əks salıb, və ya gümüş əlində zərlə işlədilmiş xəncər tutmusan?

[15] Xəncər iti dil ilə ardıcıl olaraq ortaya girmiş və axır zaman peyğəmbərin məddahı olum deyir.

Şəhənşahi ki, tiği-abidari zahir olduqda,
Əlindən saldı Xosrov nizəvü Nuşirəvan xəncər[16].

Yəməndən baş çəkəndə məhçeyi-rayati-iqbali,
Buraxdı tirə torpağə şəhi-Hindüstan xəncər[17].

Səfarayi-müsafi Bədrdir izhari-mö'cizdə,
Şikafi-pərniyani-bədr üçün qılmış nişan xəncər[18].

Əduyi-cahinin qət'i-həyatiçün çəkər hər ay.
Ğilafi-lacüvərdidən hilali-asiman xəncər[19].

Səhər feyzi ki, dün tək tirə qılmazdı dili-safın,
Günəş tək qəsdinə çəksəydi min namehriban xəncər[20].

Səxi təb'i ki, rüxsarə süpər tək çin buraxmazdı.
Əgər qəsdinə çəksəydi qamu əhli-zəman xəncər[21].

Olurdu dideyi-bədbinə izhari-nübüvvətdə,
Onun göndərdiyi hər nameyi-möcizbəyan xəncər[22].

Qəzalərdə duayi-cövşənində çarə qılmazdı,
Özün hər necə qılsa təcrübə tir, imtəhan xəncər[23].

---

[16] O şahlar şahı sulu qılıncı ilə zahir olduqda Xosrov əlindən nizəni saldı, Nuşirəvan xəncər.
[17] Tale bayrağının ayparası Yəməndən baş çəkəndə Hindistan padşahı bayrağı qara torpağa buraxdı.
[18] Möcüz göstərməklə Bədr döyüşünün səf düzəldənidir, ayın ipəyini yarmaq üçün xəncəri nişan etmişdir.
[19] Dövlətinin düşməninin həyatını kəsmək üçün hər ay mavi qılafdan göyün hilalı xəncər çəkər.
[20] Onun qəsdinə günəş kimi min namehriban xəncər çəksə də, səhərin xeyri saf ürəyini gecə kimi qara etməzdi.
[21] Əgər onun qəsdinə bütün zəmanə əhli xəncər çəksə də, onun səxavətli qəlbi üzünə qalxan kimi qırış buraxmazdı.
[22] Bədbin gözlərə peyğəmbərliyi bildirməklə onun göndərdiyi hər möcüz dilli məktub bir xəncər olurdu.
[23] Döyüşlərdə onun dəri geyimindəki dualarda ox nə qədər özünü təcrübə, xəncər nə qədər özünü imtahan etsə də, bir çarə edə bilməzdi.



Əya şahi ki, baxsan xəncəri-şər'in nizamiçün,
Çəkibdir min şəhənşəh tiğü min sahibqiran xəncər[24].

Əgər namusi-şər'in olmasaydı xəlqə müstəvli,
Nə bir pürdil çəkərdi tiğü, nə bir pəhlivan xəncər[25].

Nəqizi-hökmünün qət'i-fəsadiçün əliflərdən,
Kəlamüllah bihəd tiğ çəkmiş, bikəran xəncər[26].

Münafiq edə bilməz şə'rinə mədxəl ki, çevrəndə,
Məlaik pərrü balın görsə div eylər güman xəncər[27].

Bihəmdillah ki, hala dideyi-bədxahə nə'tində,
Füzuli nəzminin hər sətridir bir cansitan xəncər[28].

Zəbani-xaməsi isbati-e'cazında küffarə,
Gəhi dilduz navək göstərir, gəh xunfəşan xəncər[29].

Şəfiül-müznibina, məhşər əyyami ki, duzəxdən
Çəkər hər ləhzə mücrim qəsdinə bir biəman xəncər[30].

Budur ümmid kim, məhfuz olam hisni-pənahində,
Ğilaf içrə nəçük kim, saxlanır, görməz ziyan xəncər[31].

---

[24] Ey o şah ki, sənin şəriətinin xəncərinin nizamı üçün min şahlar şahı, min qüdrətli hökmdar xəncər çəkibdir.
[25] Əgər şəriətin düzlüyü xalq arasında yayılmasaydı, nə bir ürəkli adam qılınc çəkərdi, nə bir pəhlivan xəncər.
[26] Hökmünə əks olan fəsadları kəsmək üçün əliflərdən Allah kəlamı saysız qılınc çəkmiş, hədsiz xəncər.
[27] Nifaq əhli sənin şəriətinə giriş tapa bilməz, çünki çevrəndə mələklərin qol-qanad açdığını görən div elə güman edər ki, xəncərdir.
[28] Allaha şükür indi Füzuli nəzminin hər sətri sənin nətində (tərifində) bədxahın gözünə bir can alan xəncərdir.
[29] Qələminin dili sənin möcüzünü kafirlərə sübut etməkdə gah bir ürək deşən ox, gah qan tökən bir xəncərdir.
[30] Ey günahkarları bağışlayan, məhşər vaxtı ki, cəhənnəmdə hər an günahkar qəsdinə bir amansız xəncər çəkər.
[31] Ümidim budur ki, sənin pənahının hasarında qorunam, necə ki, xəncər qılaf içində saxlanar və ziyan görməz.

4

Çıxdı yaşıl tərdədən ərz eylədi rüxsar gül,
Sildi mir'ati-zəmiri-pakdən jəngar gül[1].

Cam dut, saqi, ki, gülbünlər gül izhar etdilər,
Sən dəxi bir gülbüni-rə'nasən, et izhar gül[2].

Gəldi ol dəm ki, ola izhari-hikmət qılmağa,
İnşirahi-sədr ilə sədri-səfi-əzhar gül[3].

Yetdi ol mövsim ki, açmağa könüllər mülkünü,
Ola gülşəndə rəyahin xeylinə sərdar gül[4].

Adəm isən bağ seyrin eylə bu mövsimdə kim,
Bağı rəngü buy ilə qıldı behiştasar gül[5].

Çarsuyi-bağ seyranı bu gün mərğubdir
Kim, şükufə onda sərraf oldu vü əttar gül[6].

Çıxmış ikən bəzmi-gülşəndən yenə övd eyləyib,
Cami-mey andırdı əhli-tövbəyə təkrar gül[7].

[1] Gül yaşıl pərdədən çıxdı, üzünü göstərdi,
Gül pak ürək güzgüsündən pası sildi.

[2] Saqi, cam tut ki, gül budaqları gül göstərdilər, sən də bir rəna gül kolusan gül göstər.

[3] O an gəldi ki, gül güllər səfinin başçısı kimi yaxasını açıb hikmət izhar etsin (bildirsin).

[4] O mövsüm yetdi ki, gül könüllər mülkünü açmaq üçün gülşəndə güllər dəstəsinə başçı olsun.

[5] Əgər insansansa, bu mövsümdə bağı seyr elə ki, gül bağı ətir və rəng ilə cənnət sayaq etmişdir.

[6] Bu gün bağın dörd yanını gəzmək xoşa gələndir, çünki çiçəklər onda sərraf oldu və gül ətir satan.

[7] Gülşən məclisindən çıxmış ikən gül yenə qayıdıb tövbə sahibinə şərab camını xatırlatdı.



Həbsdən Yusif çıxıb sultani-Misr olmuş kimi,
Oldu, açıb qönçəsin arayişi-gülzar gül[8].

San Züleyxa xəlvətidir qönçeyi-dərbəstə kim,
Çıxdı ondan daməni-çakilə Yusifvar gül[9].

Çak olub bulmuş səfa badi-səhərdən sanasan,
Baddır Cibrilü qəlbi-Əhmədi-Muxtar gül[10].

Şəbnəmi-gülzari-rüxsari-rəsulüllahdır,
Nəşri-ətrilə qılır hərdəm-ona iş'ar gül[11].

Dürri-şəbnəm saçdı rəngin bərglərdən hər tərəf,
Lə'li xəndan xublar tək etdi gövhərbar gül[12].

Surəti-halinə heyran eylədi aqilləri,
Açdı irfan əhlinə gəncineyi-əsrar gül[13].

Səbzə üzrə gəzdirər badi-səba gül bərgini,
Sanki səbzə asimandır, kovkəbi-səyyar gül[14]!

[8] Həbsdən çıxıb Misir sultanı olmuş Yusif kimi, gül qönçəsini açıb gülzarın (gül bağının) bəzəyi oldu.

[9] Qapısı bağlı qönçə sanki Züleyxa xəlvətidir, gül oradan Yusif kimi ətəyi cırılmış şəkildə çıxdı.

[10] Sanki səhər yelindən cırılıb saflıq tapmış Cəbrayıl yel, Əhmədi Muxtarın (Məhəmməd peyğəmbərin) qəlbi isə güldür.

[11] Allahın rəsulunun üzü gülzarın şehidir, gül ətrini yaymaqla hər an onu yazıb xəbər verir.

[12] Hər yana əlvan ləçəklərdən şeh inciləri saçdı, gül gözəllər kimi ləlini (dodağını) açaraq gövhərlər səpdi.

[13] Gül aqilləri öz halının surətinə heyran eylədi, ürfan sahiblərinə sirlər xəzinəsini açdı.

[14] Səba yeli gül ləçəklərini yaşıl otlar üzərində gəzdirir, sanki yaşıl otluq asimandır, gül isə göylərdə gəzən ulduzdur.

Qıldı pünhan qönçəsin lə'b ilə gözdən höqqəsin
Bulmaq olmaz hiç rəng ilə, zəhi əyyar gül[15]!

Yüz çevirmiş xardən ayrılmaq istər bisəbəb
Mün'imi-nakəs kimi əslindən eylər ar gül[16].

Xari-qeyrət nola gər sancılsa gülbün bağrına,
Ayrılıb ondan olur həmsöhbəti-əğyar gül[17].

Yeridir odlara yansa həsrət ilə xar kim,
Ondan alır ziybü ziynət, qeyrə olur yar gül[18].

Bivəfalıq adətin tutmuş onunçündür bu kim,
Ömrdən olmaz cahan bağında bərxurdar gül[19].

Qanğı bülbül qanı dutmuş bilməzəm kim, müttəsil
Gəh əsiri-xar olur, gəh mübtəlayi-nar gül[20].

Seyri-bağ etdim səhər, gördüm açıb məcmuəsin,
Hifz edib bu mətləi eylərdi istehzar gül[21].

[15] Qönçənin mücrüsünü oyun oynayaraq gözdən gizlətdi, heç bir hiylə ilə tapmaq olmaz, əhsən sənə hiyləgər gül!
[16] Tikandan üz çevirmiş, səbəbsiz olaraq ondan ayrılmaq, istəyir, alçaq bir varlı kimi gül əslindən ar eyləyir.
[17] Gül kolunun bağrına qeyrət tikanı sancılsa nə olar, gül ondan ayrılıb əğyarın (rəqibin) həmsöhbəti, dostu olur.
[18] Tikan həsrət ilə odlara yansa, yeridir, gül ondan bəzək, ziynət alıb özgəyə yar olur.
[19] Gül vəfasızlıq yolu tutmuşdur, ona görə də dünya bağında ömürdən xeyir görmür.
[20] Hansı bülbülün qanı tutubdur, bilmirəm, gül həmişə gah tikana əsir olur, gah oda yanır.
[21] Səhər bağı gəzməyə çıxdım, gördüm hamısı açılıb, gül bu mətləyi yadında saxlayıb çağıraraq söyləyirdi.



Aşiq olmuş hüsnünə, ey sərvi-xoşrəftar gül,
Çak-çak etmiş səninçün sineyi-əfkar gül[22].

Gül nə nisbətdir sənə, səndən ona yüz fərq var,
Sən büti-pərdənişinsən, şahidi-bazar gül[23].

Öylə pünhan eyləmiş köksündə sirri-eşqini
Kim, ayağından asarlar eyləməz iqrar gül[24].

Tutiyayi-çeşm üçün hər sübhdən yollar tutub,
Xaki-dərgahın səbadən eylər istifsar gül[25].

Seyri-gülzar etdiyin peyki-səbadən fəhm edib,
Gənci-zər qılmış mühəyya, qılmağa iysar gül[26].

Bərgi-gül sanman ki, rəngin xiştlər cəm eyləmiş,
Çəkməyə ol gənci-zər hifzinə bir divar gül[27].

Ta səriri-səbzəyi dəprətməyə təhriki bad,
Sayəsindən urdu hər lövhinə bir mismar gül[28].

[22] Ey xoş yerişli sərv, gül sənin gözəlliyinə aşiq olmuşdur, səndən ötrü dərdli sinəsini para-para etmişdir.
[23] Gülün sənə nə bənzəri var, səndən ona yüz fərq var, sən pərdədə olan bir bütsən, gül bazar şahididir (gözəlidir).
[24] Gül eşqinin sirrini köksündə elə gizlətmişdir ki, ayağından asarlar boynuna almaz.
[25] Gül göz tutiyası üçün hər sübhdən yollar tutub sənin qapının torpağını səbadan soruşur.
[26] Sənin gülzarı seyr etdiyini səba elçisindən anlayıb, gül qızıl xəzinəsi hazırlamışdır ki, sənə bağışlasın.
[27] Gül yarpağı zənn etməyin, gül rəngli kərpiclər toplamışdır ki, qızıl xəzinəsini qorumaq üçün divar çəksin.
[28] Yaşıl taxtını yel hərəkəti tərpətməsin deyə gül öz sayəsindən hər lövhəsinə bir mismar vurdu.

Hər səhər gülzar lövhində çəkər yüz dairə,
Qaliba minqari-bülbüldən alır pərgar gül[29].

Eyş üçün gülşən şəbistanın münəvvər qılmağa
Hər ağacdan asdı bir qəndili-pür ənvar gül[30].

Bunca qəndili füruzan eylədi, əmma nə sud,
Dudi-dildən qıldı bülbül rüzigarın tar gül[31].

Dari-dünyayı fəzayi-cənnətə döndərdi, leyk
Qönçə kimi bülbülə dünyayı qıldı dar gül[32].

Bir zəbanı haldır hər yarpağı fəhm etsələr,
Pərdədari-xak olanlardan verir əxbar gül[33].

Bülbüli-zar etdiyi fəryadlar tə'siridir,
Bisəbəb xabi-ədəmdən olmamış bidar gül[34].

Bağiban, sultani-adil dövrüdür, tənbih qıl,
Urmasın gülzarə atəş, zülm edib zinhar gül[35].

---

[29] Hər səhər gülzarın lövhəsində yüz dairə çəkər, çox güman ki, gül pərgarı bülbülün dimdiyindən alır.

[30] Eyş məclisi üçün gülşənin yataq otağını işıqlandırmaq üçün gül hər ağacdan bir gur işıqlı qəndil asmışdır.

[31] Bu qədər qəndil yandırdı, amma nə fayda, bülbül ürək ahları ilə gülün gününü qara eylədi.

[32] Dünya evini cənnət fəzasına döndərdi, ancaq gül dünyanı bülbül üçün qönçə kimi dar elədi.

[33] Anlasalar, hər yarpağı bir halın dilidir, gül torpaq pərdəsi altında olanlardan xəbər verir

[34] Ağlar bülbülün etdiyi fəryadların təsiridir, gül səbəbsiz olaraq ədəm yuxusundan oyanmayıb.

[35] Bağban, adil sultan dövrüdür, tənbih elə, gül, zinhar, zülm edib gülzara od vurmasın.



Cövr əlilə qönçənin pirəhənin çak etməsin,
Cünbüşi-namö'tədildən qılsın istiğfar gül[36].

Yoxsa nagəh surəti-hali olur sultanə ərz,
Qəhrə uğrar müqtəzayi-vəz'i-nahəmvar gül[37].

Ol güli-bağı-xilafat kim, bəhari-dövləti,
Aləməfruz olalı görməz cəfayi-xar gül[38].

Oldu dövründə həva məhbusi-zindani-hübab,
Qaliba görmüş həvadən şəmmeyi-azar gül[39].

Bərgi-gül gəzdirməz oldu məhmili-badi-səba,
Həddi yox kim, çəkdirə badi-səbayə bar gül[40].

Sərsəri-qəhri-cəhansuzindən agah olalı,
Açmaz oldu busitani-fitneyi-əşrar gül[41].

Xəlvəti-lütfünədir nuri-dili-mö'min çirağ,
Gülşəni-qəhrinədir daği-dili-küffar gül[42].

Şahi-din Sultan Süleymani-səadətmənd kim,
Kəsb edər xülqi-xoşundan nüzhəti-ətvar gül[43].

---

[36] Zülm əli ilə gül qönçənin köynəyini cırmasın, mülayim olmayan hərəkətdən tövbə etsin.

[37] Yoxsa birdən vəziyyətin surəti sultana məlum edilər, kobud hərəkətlərin tələbi ilə gül qəzəbə düçar olar.

[38] O xilafət (canişinlik) bağının gülünün dövlətinin baharı dünyanı işıqlandırandan gül tikandan zülm görmür.

[39] Onun dövründə hava köpük zindanında məhbus oldu, görünür ki, gül havadan bir az əziyyət görmüşdür.

[40] Səba yelinin kəcavəsi gül yarpağını gəzdirməz oldu, gülün həddi yoxdur ki, səba yelinə yük çəkdirə.

[41] Dünyanı yandıran qəzəb yelindən ağah olalı, gül yaman fitnələr bustanını açmaz oldu.

[42] Onun lütfünün xəlvətində çırağı mömin ürəyinin nurudur, qəzəbinin gülşənində gül kafirlərin ürəyinin dağıdır.

[43] Din şahı səadətli Sultan Süleyman ki, onun xoş xasiyyətindən gül hərəkət sevinci əldə edir.

Başə salmış mehrini ruzi-əzəldən çərxi-pir
Eylə kim, gülrüxlər eylər ziynəti-dəstar gül[44].

İnqilabi-dövrdən bulmazdı hərgiz ixtilal,
Alsa ondan hökminə fərmani-istimrar gül[45].

Zövq bazarında bulmazdı bu rəng ilə rəvac
Etməseydi nəqşi-möhrün sikkeyi-dinar gül[46].

Olmaq üçün mütribi-bəzmi, dutub bir dairə
Ögrənir hər sübh bülbüldən fəni-ədvar gül[47].

Mətbəxi-cudinə kim, dudinə sünbüldür qulam,
Xarkəşlik sən'ətin dutmuş, degil bikar gül[48].

Qurtulur fəth etdigi kişvər bəlayi-fitnədən
Kim açıldıqda tikəndən ayrılır naçar kul[49].

Şərh edib susənlərə övsafi-xülqün, gəzdirir
Qönçədən hər sübh açıb gülşəndə yüz tumar gül[50].

[44] Qoca çərx əzəl gündən onun məhəbbətini başına salmışdır, sanki gülüzlülər çalmaya güldən ziynət vermişdilər.

[45] Əgər gül ondan hökmünə davam etmə fərmanı alsa idi, zamanın dəyişməsindən əsla bir qarışıqlıq tapmazdı.

[46] Əgər gül onun möhrünün nəqşini dinar sikkəsi etməsəydi, zövq bazarında bu rəng ilə rəvac tapmazdı.

[47] Onun məclisinin mütrübü olmaq üçün gül hər sübh bir dairə tutub bülbüldən dövrlər elmini (muğam dövrləri) öyrənir.

[48] Onun səxavət mətbəxindəki sünbül onun tüstüsünə qulamdır, gül tikan daşıyandır, bekar deyildir.

[49] Fəth etdiyi ölkə fitnə bəlasından qurtulur, çünki gül açılanda naçar tikandan ayrılır.

[50] Gül onun xasiyyətini tərifləyərək süsənlərə şərh edir, hər sübh qönçədən açıb gülşəndə yüz fərman (tumar) gəzdirir.



Qətreyi-şəbnəmmidir, ya əl açıb sail kimi,
Xazini-lütfündən almış lö'löi-şəhvar gül[51].

Qoymayıb dövrində viran kargahi-gülbüni
Bir ayağ üzrə durub olmuş ona me'mar gül[52].

Ədli əyyamında şəbnəm sanmanız kim, bülbülün
Beyzəsin qoynunda hifz etmiş olub qəmxar gül[53].

Daməni-pakiylə ol bəhcətfəzayi-mülkdür
Gər cahan bağında cənnət güllərindən var gül[54].

Vəz'i-aləmdən fələk məqsudi oldur kim, olur,
Bəsləməkdən xari mənzuri-ülül-əbsar gül[55].

Qədrinə verməz xələl dünyayə qılmağ iltifat,
Ziybü ziynət verdigiçün xarə olmaz xar gül[56].

Meyvə ol sultani-adildir nəhali-dövlətə,
Sabiqən gəlmiş səlatini-fələkmiqdar gül[57].

[51] Gül bir damla şehdirmi, ya bir dilənçi kimi əl açıb onun lütf xəzinədarından şahanə bir lölö (inci) almışdır.

[52] Onun dövründə gül kollarının iş yerini viran qoymayıb, gül bir ayaq üstə duraraq ona memar olmuşdur.

[53] Onun ədaləti dövründə şeh hesab etməyin, gül bülbülün yumurtasını qoynunda qorumuş və qəm çəkmişdir.

[54] Əgər cənnət güllərindən dünya bağında gül vardısa, o da təmiz ətəyi ilə ölkənin gözəlliyini artırandır.

[55] Aləmi icad etməkdə fələyin məqsədi odur ki, tikanı bəsləməkdə bəsirət sahiblərinin (uzaqgörənlərin) niyyəti güldür.

[56] Dünyaya iltifat göstərməsi onun qədir-qiymətinə ziyan verməz, gül tikana yaraşıq və ziynət verdiyi üçün xar olmaz.

[57] Dövlət ağacının meyvəsi o ədalətli sultandır, əvvəl gəlmiş fələk qədirli sultanlar isə gül gəlmişlər.

Nola gər sabiqlər oldisə fəna, oldur qərəz
Meyvə göstərdikdə tökmək rəsmdir əşcar gül[58].

Qıl, Füzuli, mədhin ol şahin ki, bağı-mədhinin
Bülbülü olurdu, bulsa qüdrəti-göftar gül[59].

Gərçi yoxdur e'tibarın, mədhin et izhar kim,
Adəti-dövri-zamandır xarə vermək bar gül[60].

Var ümidim necə kim rəsmi-mədari-dəhrdir,
İldə bir gəz aləmə ərz eyləmək didar gül[61].

Fəth bağından ona hər dəm xilafi-bağı-dəhr,
Tazə-tazə aça lütfi-iyzədi-cabbar gül[62].

[58] Nolar, əgər əvvəlkilər heç oldularsa, məqsəd odur ki, ağac meyvə gətirdikdə gül tökülər.
[59] Füzuli, o şahın mədhini et ki, gülün əgər danışmaq qüdrəti olsaydı, onun mədhinin bağının bülbülü olardı.
[60] Etibarın yoxdursa, onun mədhini söylə ki, tikana gül yükü vermək zamanın dövrünün adətidir.
[61] Ümidim var necə ki, dünya işinin qaydasıdır, gül ildə bir dəfə aləmə öz camalını göstərir.
[62] Dünya bağının əksinə olaraq fəth (qələbə) bağından qüdrət sahibi olan Allah ona hər an təzə-təzə güllər aça.



## 5

Bu bəhri niylgun min mövc hər saət əyan eylər,
Ülül-əbsarə bir-bir kəşfi-əsrari-nəhan eylər[1].

Nişani-kəsrəti-əşya dəmadəm əhli-təqlidə
Rümuzi-nükteyi-tovhidi-həq xatirnişan eylər[2].

Bəyani-macərayi-masələf hal əhlinə bir-bir
Zəbani-halilən keyfiyyəti-qüdrət bəyan eylər[3].

Tənə'ümdə qüruru fəqrdə hirman şüar etmə
Ki, hikmət bu iki halətdə xəlqi imtəhan eylər[4].

Verür fəqr içrə şükr əhlinə qədri-Musiyi-İmran
Tənə'üm içrə tərk əhlin Süleymani-zaman eylər[5].

Xoşa ol kim, bilib fəqri tənə'üm, mülki-dünyanın
Yoxun eylər təsəvvür var, varın yox güman eylər[6].

Ziyanü sudini dəhrin fəna fəhm eyləyən arif,
Həyatın sud sövdasilə sərf etsə, ziyan eylər[7].

[1] Bu nilrəngli (mavi) dəniz hər saat min dalğa göstərər, nəzər sahiblərinə bir-bir gizli sirləri kəşf edər.
[2] Təqlid əhlinə əşyanın çoxluğunun nişanı anbaan Allahın birliyi fikrinin rəmzlərini xatırladar.
[3] Keçmiş hadisələrin bəyanı hal əhlinə bir-bir vəziyyətin dili ilə ilahi qüdrətin keyfiyyətini bildirər.
[4] Varlılıqda qüruru, yoxsulluqda məhrumiyyəti şüar eləmə, çünki hikmət bu iki halda insanı imtahan edir.
[5] Şükür əhli olanlara yoxsulluq içində olanda İmran oğlu Musa qədir-qiyməti verir, var içində tərk əhlini zamanın Süleymanı edir.
[6] Əhsən o adama ki, yoxsulluğu varlılıq bilib, dünya mülkünün yoxunu var təsəvvür edir, varını yox güman edir.
[7] Dünyanın ziyan və xeyrini fəna (heç) hesab eyləyən arif (sufi) həyatını xeyir, fayda sevdası ilə sərf etsə, ziyan eyləyər.

Yamanlıq, yaxşılıq keyfiyyətin mə'lum edən aqil
Yamanlıq edənə yaxşılıq etməzsə, yaman eylər[8].

Fələk guya dəgil əhli-fərasət kim, fəna əhli
Cəfasından onun peyvəstə fəryadü fəğan eylər[9].

Mən ondan istərəm tə'zimü təkrimü təvanalıq,
Məni gün-gündən ol zarü zəifü natəvan eylər[10].

Tənimdə zə'fdən bir üstüxan qalmış durur, gərdun
Müdam ol üstüxani ğəm xədənginə nişan eylər[11].

Nəçün kim xakidani-aləmi-süflidə adətdir,
Kəmandar ox atan saət nişanın üstüxan eylər[12].

İrişməz kimsədən əhvalimə feyzi-nəzər, bəs kim
Məni zə'fi-bədən daim nəzərlərdən nihan eylər[13].

Könül viranəsin mə'mur qılmaq qəsdinə çeşmim,
Üzarim üstünə cədvəl çəkib, sular rəvan eylər[14].

[8] Yamanlıq və yaxşılığın keyfiyyətini məlum edən ağıllı adam yamanlıq edənə yaxşılıq etməzsə, yaman etmiş olar.

[9] Guya fələk fərasət sahibi deyildir ki, fəna əhli olanlar onun cəfasından fəryad və fəğan edir.

[10] Mən ondan ehtiram, hörmət, güc-qüdrət istəyirəm, o, məni gün-gündən ağlar, zəif və gücsüz edir.

[11] Bədənimdə zəiflikdən bir sümük qalmışdır, fələk müdam o sümüyü qəm oxuna hədəf edir.

[12] Necə ki, bu alçaq aləmin küllüyündə adətdir, kaman çəkənlər oxatan kimi sümüyü hədəf edər.

[13] Mənim vəziyyətimə bir kimsədən bir xeyir nəzər yetişməz, çünki, məni bədən zəifliyi həmişə nəzərlərdən gizlədir.

[14] Könlümün xarabalığını abad etmək məqsədilə gözüm, yanağım üstünə kiçik arxlar çəkib sular axıdır.



Bieyni eylə kim, cədvəl çəkib sular qılıb cari,
Əmiri-kamiran viranə yerlər abadan eylər[15].

Məhi-ovçi-səxa Əlvənd bəg, kol mə'dələt pişə
Ki, ədli hər zaman ruhi-rəsuli şadiman eylər[16].

Zəhi saleh ki, daim iqtidayi-əmri-mə'rufun
İtaət əhlini asibi-duzəxdən zəman eylər[17].

Ona qılsın itaət buyruğiylən eyləsin taət,
Qiyamət vəqti hər kim meyli-gülzari-cinan eylər[18].

Verir Qur'an yerinə sihhəti-taət əgər zahid,
Namaz içrə duayi-dövləti virdi-zəban eylər[19].

Əgər tə'lim versə surəti-divarə əhli-dil,
Qılıb kamil qamu mə'nidən onu nüktədan eylər[20].

Əya pakizə əxlaqü fələk qədrü mələk siyrət
Ki, hər nakamə yetsə iltifatın kamiran eylər[21].

[15] Eyni ilə o cür xoşbəxt əmir arx çəkib sular axıdaraq xaraba yerləri abad edir.

[16] Səxavət zirvəsinin ayı olan Əlvənd bəy, o ədaləti peşə edən ki, onun ədaləti hər zaman peyğəmbərin ruhunu şad edir.

[17] Əhsən ey yaxşı (saleh) insan ki, sənin məlum əmrinə tabe olmaq itaət edənlərə cəhənnəm müsibətindən daim zəmanət verər.

[18] Hər kim qiyamət vaxtı cənnət gülzarına meyl edirsə, ona itaət etsin, onun buyruğu ilə ibadət etsin.

[19] Əgər zahid Quran yerinə doğru ibadət verirsə, namaz vaxtı onun dövlətinə dua etməyi dilində əzbər edər.

[20] Əgər ürək əhli divardakı surətə təlim versə, onu kamilləşdirib hər mənadan incə mənaları bilən edər.

[21] Ey təmiz əxlaqlı, fələk qədrli (qiymətli) və mələk xasiyyətli, hər bəxtsizə sənin iltifatın (mehribanlığın) yetsə, onu xoşbəxt edər.

Bahar əyyaminə gər feyzi-əxlaqın əsər salsa,
Havasini qılır canbəxşü əbrin dürfəşan eylər[22].

Xəzan fəslini gər təb'i-lətifin tərbiyət qılsa,
Tökər altun vərəqlər adını bərgi-xəzan eylər[23].

Kəmali-himmətin çün mülk tə'mirinədir sai,
Qamu səhraləri, əlbəttə, bağü busitan eylər[24].

Bu gündən sonra qalmaz hiç viran mülk, heyranəm
Ki, cüğd abad yerdən qaçsa xanda aşiyan eylər[25].

Bu gündən sonra səhralər olur mərdümnişin, yarəb,
Əgər vəhşi gəlib ram olmasa, qanda məkan eylər[26]?

Verir tə'mir mülki-bayirə barani-ehsanin,
Nəçük kim, abi-Xizr əmvati həyyi-cavidan eylər[27].

Sənə taət yetər ancaq bu kim, daim həvadisdən
Xəlayiq hifzini məhruseyi-əmnü əman eylər[28].

[22] Bahar vaxtına əgər əxlaqının xeyrindən bir iz düşsə, havasını canbağışlayan edər, buludunu inci saçan edər.

[23] Xəzan (payız) fəslini əgər sənin lətif təbin tərbiyə etsə, qızıl yarpaqlar tökər, adını xəzan yarpağı qoyar.

[24] Sənin kamil fikrin ölkəni abad etməyə çalışdığı üçün bütün çölləri, əlbəttə, bağ və bustan edər.

[25] Bu gündən sonra heç yerdə viran mülk qalmaz, heyranam ki, bayquş abad yerdən qaçsa, harda yuva qurar.

[26] Bu gündən sonra çöllər insanlarla məskunlaşır, yarəb, əgər vəhşi heyvanlar gəlib ram olmasa, harda yer tapar.

[27] Sənin ehsan yağışın əkilməyən (xam) torpaqlara abadlıq verir, necə ki, Xızr suyu ölüləri əbədi canlı edir.

[28] Sənə taət (ibadət) yetər ancaq buna görə ki, daim hadisələrdən insanların qorunmasını əmin-amanlıq ölkəsi yerinə yetirər.



Xüdavənda, sənə mənsubdur əhkami-şər'iyyə
Nəçük gərdun mənə dövründə çövri-bigəran eylər[29].

Nə heyf etdim ona kim, dönə-dönə heyf alır məndən
Nəsin öldürmüşəm kim, ləhzə-ləhzə qəsdi-can eylər[30]?

Günahsız bağrımı qan eylədi caizmidir beylə
Rizayi-həqq üçün bir sor ki, nahəqq nişə qan eylər[31].

Füzulidən götürmə sayeyi-əltafü ehsanın,
Kəmali-ədlini zikr ilə məşhuri-cahan eylər[32].

Ümidim var ki, ta asimandır dövrlən dair,
Sənin rə'yincə olsun dövrlər kim, asiman eylər[33].

[29] Ey sahib, şəriətin ehkamları sənə mənsubdur, nə üçün fələk dövründə mənə sonsuz zülmlər verir.

[30] Ona pislik etdim ki, məndən dönə-dönə heyf alır, nəyini öldürmüşəm ki, anbaan canıma qəsd edir.

[31] Günahsız bağrımı qan elədi, belə mümkündürmü? Allah rızası üçün bir soruş, nahaqdan niyə qan edir.

[32] Lütflərinin və bəxşişlərinin sayəsini Füzulidən götürmə, o sənin ədalətinin yüksək olduğunu zikr etməklə dünyada məşhur edər.

[33] Ümidim var ki, ta asiman dövr edərək fırlanır, asimanın elədiyi bu dövrlər (fırlanmalar) sənin rəyincə olsun.

## 6

Ğönçə bağrı dəhr bidadilə əvvəl qan olur,
Sonra yüz lütf ilə könlü açılır, xəndan olur[1].

Qətreyi-baran ki, bir müddət sədəf həbsin çəkər
Yox ikən qədri, tapıb qiymət düri-qəltan olur[2].

Danə torpaq içrə şiddət çəkdiyiçün neçə gün
Baş çəkib xərmənlənir, arayişi-bustan olur[3].

Qəhrdən inkar edənlər lütfə olmaz müstəhəq,
Müstəiddi-dərd olanlar qabili-dərman olur[4].

Möhnətə səbr eyləyən rahət tapar, çün Yusifə,
Səltənət təxtinin əvvəl payəsi zindan olur[5].

Gər riza olsa qəzayə müşkül olmaz hiç hal,
Arifə səbr ilə hər müşkül ki var, asan olur[6].

Fe'ldir əsli-rizayi-həq nə kim əslü nəsəb,
Xaki-fərmanbər bəşər, asi mələk şeytan olur[7].

---

[1] Qönçənin bağrı zəmanənin zülmü ilə əvvəlcə qan olur, sonra yüz incəliklə könlü açılır, gülür.

[2] Yağış damcısı ki, bir müddət sədəfin içində həbsdə olur, qiyməti yox ikən yumru bir inciyə çevrilib qiymət tapır.

[3] Dən torpaq içində neçə gün çətinlik çəkdiyi üçün baş qaldırıb xərmənlənir, bustanın (bağın) bəzəyi olur.

[4] Əzabdan ikrah edənlər mehribanlığa layiq görülməzlər, dərdə qabiliyyəti olanlar dərmana qabil (yararlı) olurlar.

[5] Möhnətə səbr eyləyən rahatlıq tapar, necə ki, Yusifin hakimiyyət taxtına çıxmasının əvvəl pilləsi zindan olub.

[6] Bir hadisə baş verməsinə razılıq olsa, heç bir hal çətin olmaz, arifə (sufiyə) səbirli olmaqla hər çətinlik asan başa gəlir.

[7] Allahın razılığının əsli əməldir, əsl-nəsəb deyildir, əmrə tabe olan torpaq bəşər, asi (üsyan edən) mələk isə şeytan olur.



Sairi-məxluqdən bir kimsə olsa pakdil,
Əhli-beytin firqəsindən sayılır, Səlman olur[8].

Xah seyyid, xah ami kam tapmaz biədəb,
Fe'li müstəhsən olan müstövcibi-ehsan olur[9].

Yüz məşəqqət çəksə kami-dil tapar əncami-kar,
Hər kimin aləmdə mövlası Şəhi-Mərdan olur[10].

Tirə olmaz raströv gər çəksə bəndi-ahənin,
Raströv tirü xədəngin zivəri peykan olur[11].

Tabei-fərman edər hökmünə cümlə aləmi,
Mürtəza hökmünə hər kim tabei-fərman olur[12].

Ol şəhənşah kim, əgər bir murə qılsa iltifat,
Mur hökm eylər, Süleyman üstünə sultan olur[13].

Ol imami-dinü dünya kim, onun düşmənliyi,
Müşrikin dininə vü dünyasına nöqsan olur[14].

---

[8] Başqa məxluqdan hər kim təmiz ürəkli olsa, ailə üzvləri cərgəsindən sayılır, Salman (fars Salman) olur.

[9] İstər ağa (seyyid), istər adi adam-ədəbsiz murada catmır, əməli gözəl olan ehsana layiq olur.

[10] Hər kimin dünyada mövlası (havadarı) Şahi-Mərdan (hz. Əli) olarsa, yüz məşəqqət çəksə də, işin sonunda ürəyinin istədiyinə çatar.

[11] Düz yolla gedən dəmir bəndə düşsə də, qaranlıq görməz, çünki düz gedən ox və nizənin bəzəyi peykan olur.

[12] Hər kim Murtəzanın (hz. Əli) hökmünə itaət etsə, bütün aləmi öz hökmünə tabe edər.

[13] O şahlar şahı ki, əgər bir qarışqaya iltifat (mehribanlıq) göstərsə, qarışqa hökm sahibi olar, Süleymanın üzərində sultanlıq edər.

[14] O din və dünya imamının düşmənliyi müşriklərin din və dünyasına nöqsan yetirir.

Daş olur aslan, əgər qəhr ilə qılsa bir nəzər,
Hökm qılsa düşmənin qəsdinə daş aslan olur[15].

Zərreyi-mehri-rüxündən tapsa pərtöv asiman,
Asiman üzrə tamam əncüm məhi-taban olur[16].

Feyzi-lütf ilə əgər insanı etsə tərbiyət,
Qədr ilə insan mələknisbət əzimüşşan olur[17].

Vər mələk həm tapsa eyni-iltifatından nəzər,
Əqli-kamil kəsb edib, əlbəttə, bir insan olur[18].

Lütfü qəhrindən tapar müqbil əta, müdbir cəza,
Qət'ü fəsli-həşr üçün ol ləhzə kim, divan olur[19].

Kövsəri-cənnət onun hökmindədir ol vəch ilə,
Cümlə nəslindən həmin Adəm ona mehman olur[20].

Nuh onun sənduqinə kəşti tək aparmış pənah,
Ehtiyat eylər ki, nagəh bir dəxi tufan olur[21].

[15] Qəhr ilə (qəzəblə) bir nəzər salsa, aslan daşa dönür, düşmənin qəsdinə bir hökm etsə, daş aslana çevrilər.

[16] Asiman (göy) üzünün günəşindən bir zərrə parıltı tapsa, göy üzündə bütün ulduzlar parlaq ay olar.

[17] Öz mehribanlıq neməti ilə insan tərbiyə etsə, öz qiymətinə görə insan mələk kimi böyük şan-şərəf qazanar.

[18] Əgər mələk onun iltifat gözündən bir baxış görsə, yetkin bir ağıl əldə edib əlbəttə insan olar.

[19] Məhşər fəslində və keçid vaxtında divan qurulacaq onda onun mehribanlığından bəxtli bəxşiş, qəzəbindən bəxtsiz cəza tapar.

[20] Cənnətdəki kövsər onun hökmündədir o səbəbdən ki, onun nəslinin nümayəndələrindən biri olan həmin Adəm onun qonağı olur.

[21] Nuh bir gəmi kimi onun sandığına (tabutuna) pənah aparmışdır, ehtiyat edir ki, birdən yenə tufan olar.



Gərçi İsmailə qurban göydən enmiş qədr üçün
Həq bilir qədr üçün İsmail ona qurban olur[22].

Mö'cizi bir gülşəni-pakizədir kim istəsə,
Əndəlib ol gülşənə Davudi-xoşəlhan olur[23].

Hər kim ixlas ilə xaki-mərqədindən zərreyi
Alsa, onunla təbabət eyləsə Loğman olur[24].

Dusti gər mə'siyət qılsa olur ğüfranpəzir,
Düşməni min taət etsə, mucibi-üsyan olur[25].

Sayeyi-lütfü kərəm gər salsa xaki-tirəyə,
Cirmi-xaki-tirə rəşki-rövzeyi-rizvan olur[26].

Əql kim qəvvasi-dəryayi-kəmali-elmdir,
Cövhəri-zatın təsəvvür eyləsə, heyran olur[27].

Fəhm kim, səyyahi-iqlimi-diyari-dərkdir,
Vadiyi-idrakini seyr etsə, sərgərdan olur[28].

[22] Düzdür, qədrinə görə İsmayıl üçün göydən qurban enmişdir, Allah da bilir ki, qədri üçün İsmayıl ona qurban olur.

[23] Onun möcüzü elə təmiz bir gülşəndir ki, xoş nəğməli Davud istəsə, o gülşənə bülbül olar.

[24] Hər kim onun qəbrinin torpağından təmiz ürəklə bir zərrə götürsə, onunla təbiblik (həkimlik) etsə, Loğman olar.

[25] Dostu əgər günah etsə, bağışlanır, düşməni min itaət etsə, üsyana səbəb olar.

[26] Qara torpağa mehribanlıq və kərəm kölgəsi salsa, qara torpağın bədəni cənnət bağının həsədinə səbəb olar.

[27] Elm kamilliyinin dəryasının üzgüçüsü olan ağıl onun zatının cövhərin təsəvvür eləsə, heyran olar.

[28] İdrak ölkəsi iqliminin səyyahı olan fəhm onun idrakının vadisini seyr etsə, avara olar (dəli-divanə olar).

Dövri onun alü əshabindən almaz ruzigar,
Dövr onundur, dövrilən hər necə kim, dövran olur[29].

Qəsri-vəsfinin binasın qılsa me'mari-xirəd,
İzzü cahü dövlətü iqbal dörd ərkan olur[30].

Ol sipehri-dövlətü iqbaldən üzdöndərər,
Dövlətü iqbal hər kimdən ki, rugərdan olur[31].

Var ümidim feyzi-dövlətdən, Füzuli, kim, müdam,
Ta dilimdə qüvvəti-nitqü tənimdə can olur[32].

Dəm uram övsafi-övladi-Əlidən netə kim,
Mədhi-övladi-Əli müstövcibi-ğüfran olur[33].

---

[29] Zəmanə dövrü onun əshabələrinin nəslindən almaz, dövr onundur, devrilən isə hər necə olursa, dövran olur.

[30] Ağıl memarı onun qəsrini tərif etməyin binasını qoysa, izzəti, cah-cəlalı, dövləti və bəxti dörd rükn (əsas) olar.

[31] Hər kimdən dövlət və bəxt üz döndərsə, o, dövlət və bəxt göyündən üz döndərər.

[32] Füzuli, həmişə dövlətin nemətindən ümidim var, çünki nə qədər ki, dilimdə nitq qüvvəti və bədənimdə can var.

[33] Əli övladının vəsfindən (tərifindən) dəm vurum, çünki Əli övladının mədhi bağışlanmanın səbəbidir.



## 7

Bir gün ki, dey əlamətin etmişdi aşikar,
Tutmuşdu üz füsürdəliyə təb'i-ruzigar[1].

Badi-xəzan yetib hərəkati-şəni'ilə,
Hər yan dirəxt rəxtini etmişdi tarimar[2].

Sərsər hücumi qarəti-bustanə əzm edib,
Əslilə qoymamışdı ağaclarda bərgü bar[3].

Bərgini şaxi-gül yelə vermişdi sərbəsər
Yə'ni təcəmmülünə cahanın nə e'tibar[4]?!

Təyy qılmış idi səbzə bisatını bustan
Yə'ni ki, mö'təbər degil əsbabi-müstəar[5]!

El böylə fəsllərdə təmənnayi-künc edər,
Mən eylədim səba kimi gülşən yana güzar[6].

Bir bağə düşdü rəhgüzarim gördüm onda cəm',
Tərtibi-eyş qılmağa əsbab hər nə var[7].

---

[1] Bir gün ki, dey (İran təqvimində onuncu ay, 22 dekabr - 20yanvar) əlamətini göstərmişdi, havanın təbi soyumağa üz qoymuşdu.

[2] Xəzan yeli pis hərəkəti ilə yetib, hər yanda ağacın paltarını tarmar etmişdi.

[3] Soyuq küləyin hücumu bustanı qarət etməyə girişib, ağaclarda əsla yarpaq və meyvə qoymamışdı.

[4] Gül budağı yarpağını büsbütün yelə vermişdi, yəni dünyanın bər-bəzəyinə nə etibar?!

[5] Göy otların büsatını bustan büküb yığmışdı, yəni ki, alınmış vasitələr etibarlı deyil.

[6] Camaat belə fəsillərdə bir künc istəyər. Mən səba yeli kimi gülşən sarı getdim.

[7] Yolum bir bağa düşdü, orda şadlıq etmək üçün bütün alətlər; hər nə var toplanmışdı.

Dolmuş qədəh şərab ilə gəlmiş araya kim,
Gər lalə getdi isə mənəm şəm'i-laləzar[8].

Minayi-səbz lütflə durmuş ayağə kim,
Gər qönçə fani oldu, mənəm ömri- payidar[9].

Gəlmiş kəbab dövrə və söylə ki, ey qədəh,
Hərgiz tutarmı xidməti yaran edən qərar[10]?!

Hər türfə nəxl bərgi-xəzanilə bağlamış,
Meyli-imarət eyləyibən taqi-zərnigar[11].

Yığmış fəzayi-bağə xəzan bərgi xiştlər,
Guya həva hücuminə tutmaq dilər həsar[12].

Əlqissə, ol büsatidə mən gərmi-şövq olub,
Aldım mətai-zövq, verib nəqdi-ixtiyar[13].

Oldum tamam qərqeyi-dəryayi-şövqü zövq,
Tutdum təriqi-rabiteyi-əqldən kənar[14].

Hərdəm bir iltifatə fəda eylədim xirəd,
Hər ləhzə bir həvəsdə nisar eylədim vüqar[15].

---

[8] Qədəh şərab ilə dolmuş və araya gəlmişdir ki, əgər lalə getdisə, laləliyin şamı mənəm.
[9] Yaşıl mina lütflə ayağa durub ki, əgər qönçə heç oldusa, daim ömür tapan mənəm.
[10] Kabab dövrə gəlib söyləyir ki, ey qədəh, dostlara xidmət edən əsla qərar tutarmı?
[11] Hər dürlü ağac xəzan yarpağı ilə abadlığa meyl edərək qızılla bəzədilmiş tağ bağlamışdır.
[12] Xəzan yarpağı bağın üstünə kərpiclər yığmışdır, sanki havanın hücumuna hasar tutmaq istəyir.
[13] Bir sözlə, mən o məclisdə qızğın bir şövqlə olan ixtiyarımı verib zövq malı aldım.
[14] Büsbütün şövq və zövq dəryasına qərq oldum, ağılla əlaqədə olmaq yolundan kənar olmaq yolu tutdum.
[15] Hər an bir mehribanlığa ağlımı fəda elədim, hər ləhzədə vüqarımı bu həvəsdə bəxşiş verdim.



Hər kim əyağ sundu mənə, mən ayağına,
Cinsi-həvasü nəqdi-xirəd eylədim nisar[16].

Ərvahi-qüds bəzmi imiş, onu bilmədim,
Mən məstü bixud oldum, olar qaldı huşiyar[17].

Bihuş düşmüşəm mütəğəyyir mizac ilə,
Qafil ki, leyldirmi keçən dövr, ya nəhar[18].

Olmuş hücumi-hadisədən huş münhəzim,
Qılmış səfayi-əql meyi-tirədən fərar[19].

Bir ləhzeyi ki, seyqəli-idraki-müstəqim,
Nagəh götürdü ayineyi-təb'idən qübar[20].

Açdım gözümü görmədim ol bəzmdən əsər,
Həqqa budur təbiəti-dünyayi-bimədar[21].

Qılmaz qamu qəziyyədə əmrinə müstədam,
Olmaz cəm'ii- əmrdə bünyadi üstivar[22].

Gördüm yerim fəzayi-büsati-sürur ikən,
Olmuş məziqi-məzbəleyi-əczü inkisar[23].

---

[16] Hər kim mənə bir qədəh verdisə, mən onun ayağına həvəs (istək) və ağıl nəqdimi səpdim.
[17] Müqəddəs ruhlar məclisi imiş, bilmədim, mən məst olub özümdən getdim, onlar ayıq qaldılar.
[18] Mən dəyişmiş bir təbiətlə huşsuz düşmüşəm, xəbərim yoxdur ki, keçən dövr gecədirmi, yoxsa gündüz.
[19] Hadisənin hücumundan huşum məğlub olmuş, aydın ağlım tutqun şərabdan (qorxub) qaçmışdır.
[20] Bir an ki, sağlam idrakın sığalı təbimin aynasından birdən tozu götürdü.
[21] Gözümü açdım, o məclisdən bir əsər görmədim, əsası olmayan dünyanın təbiəti həqiqətən budur.
[22] Bütün hadisələrdə öz işində daimi qərar etməz. Bütün işlərdə əsası möhkəm olmaz.
[23] Gördüm yerim sevinc təmtərağının göyündə ikən acizlik və boyun əymək zibilliyinin darısqallığı olmuşdur.

Həmsöhbətim cəmaəti-əhli-qəbul ikən,
Olmuş nədimü həmnəfəsim neçə murü mar[24].

Cismim cəfayi-şiddəti-bərd ilə natəvan,
Başım bəlayi-hadisə daşilə səngsar[25].

Əhli-cəfa tənimdə olan kisvətim alıb,
Qoymuş məni bürəhnəvü lərzanü xarü zar[26].

Nə bir rəfiq kim, ola ol dəmdə dəstgir,
Nə bir ənis kim, ola ol qəmdə ğəmgüsar[27].

İyzəd üzümə bağlamış əbvabi-rəhmətin,
Yə'ni budur nəhayəti-üsyani-badəxar[28].

Çox badə bəzmi-dövrdə nuş etmişəm, vəli,
Mən hiç meydə görməmişəm bu sifət xumar[29].

Həm zillət ilə dərgəhi-xaliqdə münfəil
Həm heyrət ilə xəlq arasında şərmsar[30].

Dövranə eylədim bu müsibətdə e'tiraz,
– Key çərxi-bimürüvvətü bəd əhdi-nabəkar[31]!

---

[24] Söhbət yoldaşım qəbul olunan insanlar olduğu halda, həmsöhbət və həmnəfəsim bir neçə ilan və qarışqa olmuşdur.
[25] Bədənim soyuğun şiddətinin cəfasından gücsüzləşib, başım hadisələrin bəla daşı ilə daşqalaq edilib.
[26] Zülm edənlər bədənimdəki paltarımı alıb, məni çılpaq, titrək, zəlil və ağlar qoyublar.
[27] Nə bir yoldaş ki, o, əlimdən tuta, nə bir həmdəm ki, o, qəmdə qəm yoldaşı ola.
[28] Tanrı mərhəmət qapılarını üzümə bağlayıb, yəni şərab içənin üsyanının axırı budur.
[29] Dövrün məclisində çox şərab içmişəm, ancaq mən heç bir şərabda bu cür xumarlıq görməmişəm.
[30] Həm rüsvayçılıq ilə Allah dərgahında xəcalətli, həm heyrət ilə xalq arasında üzü qara.
[31] Bu müsubətdə dövrana etiraz etdim ki, ey mürvətsiz çərx və ey yaman əhdli yaramaz!



Bir ömrdür ki, məcməi-əhli-kəmaldə,
Eyşü nişat ilə içirəm cami-xoşgüvar[32].

Hərgiz özümü görməmişəm böylə bişüur,
Hərgiz özümü görməmişəm böylə xakisar[33].

Meyxanələr məcalisətindən alıb sürur,
Mey təb'imə olurdu fərəhbəxşü sazigar[34].

Hala nə vaqe' oldu ki, verdin bu gün mənə,
Nöqsani-irzü malü şikəsti-təni-fikar[35]?!

Dövran cavab verdi məni-natəvanə kim:
– Ey xəstə! Bu müsibətə səbr eyləgil şüar[36]!

İyzai-cismü can nəsihətdürür sənə,
İdrak əhlisən, bu nəsihətdən etmə ar[37]!

Aldanma mey nişatinə vü demə dəmbədəm
Kim, nişə belə onu həram etdi kirdgar[38]?

---

[32] Bir ömürdür ki, kamal sahiblərinin yığıncağında eyş və şadlıqla ləzzətli şərab içirəm.
[33] Heç vaxt özümü belə şüursuz görməmişəm, heç vaxt özümü belə qəmli halda görməmişəm.
[34] Meyxanalarda oturub durmaqdan sevinc alıb, şərab təbimə fərəh verir və münasib olurdu.
[35] İndi nə hadisə oldu ki, mənim ad-sanıma və malıma əskiklik, yaralı bədənimə sınıqlıq verdin.
[36] Dövran mən zəifə cavab verdi ki, - Ey xəstə, bu münasibətə səbr etməyi şüar elə!
[37] Ey vay, cism və can sənə nəsihətdir, İdrak əhlisən, bu nəsihətdən ar etmə!
[38] Şərabın sevincinə aldanma və anbaan demə ki, Allah nə üçün onu belə haram etdi?

Hər əmrü nəhyə ibrət ilən e'tibar qıl,
Hər işdə e'tibari şüar eylə zinhar[39]!

Dəf' oldu ol müsibətü ondan əyan olan,
Təhqiqi-sirri-hikməti-həq qaldı payidar[40].

Vər getdi rəxt, nəxl kimi qılma iztirab,
Səbr et kim, kudurətə həm yoxdur e'tibar[41].

Bu rəsmdir bürəhnə olub qışda hər dirəxt
Təcdidi-kisvət eyləmək əyyami-növbahar[42].

Sən həm nihali-növrəsi-gülzari-eşqsən,
Gər getdi bərg, xatirinə yetməsin gübar[43].

Kəsmə bahari-lütfü kərəmdən ümidini,
Təcdidi-rəxti-tazəyə olgil ümidvar[44].

Cüz'i xəsarət ilə məlul olma, şükr qıl,
Bəg xaki-dərgəhinə fəda böylə səd həzar[45].

---

[39] Hər əmr və qadağaya ibrətlə etibar et, hər işdə etibarlı olmağı şüar elə, zinhar!
[40] Müsibət yox olub getdi, ondan Allah hikmətinin sirrinin əyan olan doğruluğu (həqiqəti) daimi qaldı.
[41] Əgər paltar getdisə, xurma ağacı kimi iztirab çəkmə, qəm-qüssəyə də etibar yoxdur.
[42] Bu qaydadır hər ağac qışda çılpaq olub, növbahar vaxtı paltarını təzələyər.
[43] Sən də eşq gülzarının yeniyetmə fidanısan, əgər yarpaq getdisə, könlünə toz qonmasın.
[44] Lütf və kərəm baharından ümidini kəsmə, təzə paltarın yeniləşməsinə ümid elə.
[45] Cüzi xəsarətə görə, qəm yemə, şükr elə, bəyin qapısının torpağına yüz min belə (şeylər) fəda olsun!



**8**

Vəh nədir ol tairi-fərxəndəbalü tiz pər
Kim, olur bir türfə ayin ilə hərdəm cilvəgər[1]?

Ağzı açıq, çıxmaz avazı, ayağı yox, yürür,
Caniləndir seyri, amma demək olmaz canəvər[2].

Bir dəmirdən daşlu divar ilə müstəhkəm həsar,
Bir əsasi-qir ilən qaim, binayi-mö'təbər[3].

Yengi aydır hey'əti, amma yeni aylar kimi
Bədr olmaz, necə kim, göy üzrə sərgərdan gəzər[4].

Adəti uçmaqdır, amma quşların əksi müdam,
Uça bilməz müttəsil balü pəri olmasa tər[5].

Gəh Zəkərya kimi çəkmiş çox cəfalar bıçqıdan,
Gəh büti-Azər kimi olmuş giriftari-təbər[6].

Boynu bağlı bir qara quldur həvası qaçmağa,
Bulduğun alıb qaçar, saxlamasan şamü səhər[7].

---

[1] Bəh nədir o xoşbəxt qanadlı, tez uçan quş ki, hər dəm bir dürlü qayda ilə cilvələr göstərir?
[2] Ağzı açıq, səsiçıxmaz, ayağı yoxdur, yüyürür, tamaşa etməyi can ilədir, ancaq demək olmaz canlıdır.
[3] Bir dəmir daşlı divar ilə möhkəm hasarı var, bir əsası qır ilə bərkidilib, mötəbər binadır.
[4] Yeni ay görkəmindədir, amma yeni aylar kimi bədr olmaz, necə ki, göy üzərində sərgərdan gəzər.
[5] Adəti uçmaqdır, amma quşların əksi olaraq qanadı və pəri həmişə yaş olmasa uça bilməz.
[6] Gah Zəkəriyya kimi bıçqıdan çoxlu cəfalar çəkmişdir, gah Azər bütü kimi baltanın əsiri olmuşdur.
[7] Boynu bağlı bir qara quldur həvəsi qaçmağadır, gecə-gündüz saxlamasan tapdığını alıb qaçar.

Bir mübəssirdir ki, daim dideyi-heyrət açıb,
Asiman təhqiqi-əhvalinə salmışdır nəzər[8].

Sayılır pəhlulərinin üstüxani zə'fdən,
Böylə zə'filən ağır yüklər çəkər, eylər hünər[9].

Yerdə gəzməz vəhş tək, amma yürür ondan rəvan,
Göydə uçmaz teyr tək, amma uçar ondan bətər[10].

Gər bükülmüşdür qədi, eyb eyləmə bir pirdir,
Nuh dövründən verər bir-bir, sual etsən, xəbər[11].

Baş açıb yağmürlara, suya batırmış kisvətin,
Yaş uşaqdır, lövhi sadə, hiç bilməz xeyrü şər[12].

Canı yox, lakin riyazi-xəlq hasil qılmağa
Gəh aşağa, gəh yuxaru yügürüb canlar çəkər[13].

Divə bənzər gəzdirər başda Süleyman təxtini
Yoxsa kandır, saxlanır köksündə qiymətli gühər[14]?

---

[8] Bir baxıcıdır ki, daim heyrət gözünü açıb göyün vəziyyətini öyrənməyə nəzər salır.
[9] Zəiflikdən böyürlərinin sümükləri sayılır, belə zəiflikdə ağır yüklər çəkir, hünər göstərir.
[10] Vəhşilər kimi yerdə gəzməz, amma ondan daha rəvan gedər, quş kimi göydə uçmaz, amma ondan betər uçar.
[11] Əgər qəddi bükülmüşdürsə, eyib saymayın, bir qocadır, sual etsən bir-bir Nuh dövründən xəbər verər.
[12] Başını yağmurlara açıb paltarını suya batırmışdır, yaş uşaqdır, lövhəsi (urəyi) sadə heç xeyir və şər bilməz.
[13] Canı yox, ancaq xalqın razılığını qazanmaq üçün gah aşağı, gah yuxarı yüyürüb canlar çəkər.
[14] Divə bənzər başında Süleyman taxtı gəzdirər, yoxsa mədəndir, köksündə qiymətli gövhər saxlanır.



Yoxsa zövrəqdir, anı qılmış mürəttəb seyr üçün
Veys bəy həzrətləri, ol şəhriyari-namivər[15]!..

Ey bəqayi-izzü cahin mucibi-təmkini-mülk,
Vey sənayi-lütfü qəhrin mənşəi-nəf"ü zərər[16].

Xaki-payindən əgər bir zərrə tapsaydı sədəf,
Bəsləməzdi irtifai-qədr üçün mütləq gühər[17].

Eylə əmniyyətdir əyyamında kim, mün"imlərin,
İşrət israfından özgə malına yoxdur xətər[18].

Tişeyi-bənnayə derdi ərreyi-nəccar dün
Zülmümüzdən həm həcər asudə oldu, həm şəcər[19].

Eylə kim ədlün zərər rəsmin götürdü mülkdən,
Ehtiyat üçün gərəkməz kimsəyə divarü dər[20].

Düşmənin məğlub olub daim zəfər bilməz nədir
Sən qaçan kim əfv qılsan ol sanur onu zəfər[21].

---

[15] Yoxsa qayıqdır, onu Veys bəy həzrətləri, o adlı-sanlı Şəhriyar gəzmək üçün düzəltmişdir.
[16] Ey izzət və rütbəsi ölkənin təmkinliyinə səbəb olan, ey lütf və qəzəbinin tərifi xeyir və zərərin mənşəyi olan!
[17] Ayağımın torpağından əgər sədəf bir zərrə tapsaydı, qədrinin yüksəlməsi üçün mütləq gövhər (inci) bəsləməzdi.
[18] Sənin zamanında elə əmin-amanlıqdır ki, dövlətlilərin işrətə sərf etdiklərindən özgə bir şey malına ziyan yoxdur.
[19] Gecə dülgərin bıçqısı bənnanın külüngünə deyirdi: zülmümüzdən həm daş asudə oldu, həm ağac.
[20] Ədalət zərər qaydasını ölkədən elə götürdü ki, ehtiyat üçün bir kimsəyə divar və qapı gərək deyildir.
[21] Düşmənin həmişə məğlub olub, qələbə nə olduğunu bilmir, sən nə vaxt bağışlasan, onu o, qələbə sayır.

Yol aparsaydı sənin ehsanına bir zərrəcə
Afitabın minnətin çəkməzdi nur üçün qəmər[22].

Zövq üçün şövqün tapıb sərməst olan ariflərə
Hacət olmaz cami-mey içmək, sənin şövqün yetər[23].

Şami-bəzmin eylə rövşəndir ki, hər kim şəm' tək
Tapsa onun zövqünü, qılmaz təmənnayi-səhər[24].

Vəsfi-zatin həddən əfzundur, şəha, mə'zur tut
Kim, qılır ibram xovfindən Füzuli müxtəsər[25].

Var ümidim, ta bu dərya üzrə kəştiyi-hilal
Gah gəşti-xavər eylər, gah seyri-baxtər[26].

Baxtərdən xavərə olsun səlayi-sovlətin,
Şöhrətindən olmasın xali fəzayi-bəhrü bər[27].

[22] Sənin ehsanına bir zərrəcə yol aparsaydı, ay işıq üçün günəşin minnətini çəkməzdi.

[23] Zövq üçün sənin şövqünü tapıb sərməst olan ariflərə şərab camını içməyə ehtiyac olmaz, sənin şövqün yetər.

[24] Sənin məclis axşamın elə işıqlıdır ki, hər kim şam kimi onun zövqünü əldə etsə, səhəri təmənna etməz.

[25] Sənin şəxsiyyətinin tərifi həddindən artıqdır, ey şah, üzürlü tut ki, Füzuli, israr qorxusundan müxtəsər deyir.

[26] Ümidim var, ta bu dərya üzərində aypara şəkilli gəmi gah şərqi gəzər, gah qərbi seyr edər.

[27] Sənin şöhrətinin şiddəti Qərbdən Şərqə qədər olsun, su və qurunun fəzası sənin şöhrətindən boş qalmasın.



## 9

Bu sürahi məsələn bir sənəmi-rə'nadır
Ki, dəmadəm tərəbəngizü nişatəfzadır[1].

Sərv tək qaməti-dilcu ilə üşşaqfirib,
Şəm' tək pərtövi-rüxsar ilə bəzmaradır[2].

Gülbüni-bağı-tərəb, qönçeyi-gülzari-fərəh,
Gül kim, ondan açılır, cami-meyi-səhbadır[3].

Rəngi-zərdü meyi-sürxün görən eylər heyrət
Ki, xəzan içrə əcəb bu, nə güli-həmradır[4].

Gah həmsilsileyi-aşiqi-xunindil olub,
Boynu zənciri-cünun qeydi çəkən şeydadır[5].

Gah yüz aşiqi-şeydayi qılıb məstü xərab,
Eyləməz hiç tərəhhüm, işi istiğnadır[6].

Bəzm üçün hər tərəfin türfə igidlər tutmuş,
Sanasan xəl'əti-zərbəft' ilə bir mirzadır[7].

Batini-safilə bir sufiyə bənzər ki, müdam,
Səcdəsində əsəri-sidqü səfa peydadır[8].

[1] Bu sürahi (şərab şüşəsi) bir incə gözəldir ki, anbaan şənlik yaradır və şadlıq artırır.

[2] Sərv kimi ürəkoxşayan boyu ilə aşiqləri aldadır, şam kimi üzünün parıltısı ilə məclis bəzəyir.

[3] Şənlik bağının gül ağacı, fərəh gülzarının qönçəsi, gül ki, ondan açılır, qırmızı şərab camıdır.

[4] Sarı rəng və qırmızı şərabı görən heyrət edər ki, xəzan içində bu nə əcəb qızılgüldür.

[5] Gah ürəyi qanlı aşiqin zəncir yoldaşı olub boynu dəlilik zəncirinin qeydini çəkən bir vurğundur.

[6] Gah yüz vurğun aşiqi sərxoş və xarab edir, heç rəhm eləməz, işi nazlanmaqdır.

[7] Məclis üçün hər tərəfini dürlü igidlər tutmuşdur, elə sanırsan ki, qızıl toxumalı xələt geymiş bir şahzadədir.

[8] Saf batini ilə bir sufiyə bənzəyir ki, həmişə səcdə etməsində sədaqət və saflıq izi görünür.

Kəhrəbayi don ilən bir büti-sərkəşdir kim,
Cilveyi-naz ilə şah məclisinə zibadır[9].

Ol şəhənşah ki, feyzindən umar kam müdam,
Bəzmi-vəhdətdə əgər Xizrü, əgər İsadır[10].

Çakəri-çakəri fəğfur ilə xaqan oluban.
Bəndeyi-bəndəsi İskəndər ilə Daradır[11].

Cəmü Cəmşid deyil bəzmdə həmtası onun,
Sərvəri-bibədəlü xosrovi-bihəmtadır[12].

Xani-adil həm onun pərtövi-iqbalından,
Bir əsər tapdı ki, sahibnəzəri-binadır[13].

Nəş'eyi-zövq bulan cami-rizasından kim,
Bəzmi-eşqində qamu ömr qədəhpeymadır[14].

Ey Füzuli, dünü gün eylə dua sidq ilə kim,
Ola bu dövlətü iqbal ilə ta dünyadır[15].

---

[9] Kəhrüba (sarı) rəngli paltar ilə qürurlu bir gözəldir ki, nazının cilvəsi ilə şah məclisinə gözəllik verir.

[10] O şahlar şahı ki, onun nemətindən vəhdət (birlik) məclisində istər Xızr və istər İsa olsun həmişə bir dilək umar.

[11] Nökərinin nökəri fəğfur və xaqan olub, bəndəsinin bəndəsi İskəndər ilə Daradır.

[12] Cəm və Cəmşid məclisdə onun tayı deyil, əvəzsiz bir başçı və tayı olmayan bir hökmdardır.

[13] Ədalətli xan da onun bəxtinin parlaqlığından bir təsir gördü ki, nəzər sahibi və görəndir.

[14] Onun razılığının camından zövq nəşəsi kamını tapan bütün ömrü boyu eşqinin məclisində qədəh gəzdirəndir.

[15] Ey Füzuli, gecə-gündüz sidq ilə dua elə ki, nə qədər dünya var, bu dövlət və bəxt var olsun!



## 10

Mən kiməm? - bir fəqiri-bisərü pa,
Kəmtərin bəndəvü kəminə gəda[1].

Sayiri-kargahi-səbrü sükun,
Saliki-şahrahi-fəqrü fəna[2].

Nə mizacimdə irtikabi-qürur,
Nə fialimdə ehtimali-riya[3].

Künci-üzlətdə fəqrü faqə ilə,
Olmuşam öylə məhv kim, məsəla[4]:

Mərkəzi-xaki etsə zirü zəbər,
Bulamaz gərdimi nəsimi-səba[5].

Əzl qılmış məni əməllərdən
Amili-karxaneyi-dünya[6].

Qılmazam karü bari-aləmə meyl,
Çəkməzəm əzlü nəsb üçün qovğa[7].

---

[1] Mən kiməm? Başsız, ayaqsız bir yoxsul, ən kiçik bir bəndə və kiçik bir gəda.

[2] Səbr və asayiş işxanasını seyr edən, yoxsulluq və yoxluq yolunun yolçusu.

[3] Nə xasiyyətimdə qürur qarışığı, nə əməllərimdə ikiüzlülük ehtimalı.

[4] Tənhalıq bucağında yoxsulluq və ehtiyac ilə elə məhv olmuşam ki, məsələn.

[5] Torpağın mərkəzini alt-üst etsələr, səhər yeli tozumu belə tapmaz.

[6] Dünya iş evinin məmuru məni əməllərdən kənar etmişdir.

[7] Dünyanın iş-gücünə meyl etmərəm, işdən çıxarılmaq, işə qəbul edilmək üçün dava çəkmərəm.

Mənə vermiş cahan qamu fəqrin,
Nola ursam cahanə istiğna[8].

Aləmi-üzlətin yeganəsiyəm,
Qafdan-qafə yox mənə həmta[9].

Surətim fəqrü siyrətim mün'im,
Hey'ətim murü himmətim ənqa[10].

Rif'əti-qədrim iltifat etməz
Gər Süleyman qılırsa ərz əta[11].

Faniyi-mütləqəm, qəbul etmən
Minnəti-Xizr ilə zülali-bəqa[12].

Deməzəm vəhşiyəm, təbiət ilə
Talibi-zövqi-söhbətəm, əmma[13],

Bir diyar içrəyəm ki, xəlqindən,
Eyləməz hiç kim mənə pərva[14].

Kimsə yox dərdim eyləyim izhar,
Eyləyim ondan iltimasi-dəva[15].

---

[8] Dünya bütün yoxsulluğunu mənə vermişdir, cahana etina etməsəm, təəccüblü deyil.
[9] Təklik dünyasının bir dənəsiyəm, Qafdan Qafa qədər mənə tay yoxdur.
[10] Surətim yoxsul və təbiətim varlıdır, görkəmim qarışqa və himmətim ənqadır.
[11] Əgər Süleyman mənə bəxşiş versə, qədrimin yüksəkliyi etina etməz.
[12] Mütləq faniyəm (heçəm), yenə Xızrın minnətlə verdiyi əbədilik zülalını qəbul etmərəm.
[13] Demərəm, vəhşiyəm, təbiət ilə ünsiyyət zövqü axtarıram, amma
[14] Bir diyar içindəyəm ki, xalqından heç kim mənə rəğbət etməz.
[15] Dərdimi deməyə bir kimsə yoxdur ki, ondan dava-dərman xahiş edim.



Lə'lvəş daş içindədir vətənim,
Gül kimi, xarı qılmışam mə'va[16].

Dün bu hal ilə məhvi-heyrət ikən,
Gəldi bir qasidü gətirdi mana[17].

Bir əcəb nameyi-fərəhtə'sir,
Məhz hüsni-ibarətü imla[18].

Zahiri dilpəzirü feyzrəsan,
Batini feyzbəxşü ruhəfza[19].

Nəqşi-xəttində əltəfi-surət,
Tərzi-ləfzində əşrəfi-mə'na[20].

Cilvəgahi-nəzərdə hər ləfzi,
Bir pəripeykərü mələksima[21].

İşvəvü şivəvü kirişmə ilə,
Dil edər seydü əql edər yəğma[22].

Fəhm qıldıqda hüsni-məzmunun,
Qıldım onda sürurlər peyda[23].

---

[16] İnci kimi vətənim (yerim) daş içindədir, gül kimi tikanda yer tutmuşam.
[17] Dünən bu hal ilə heyrətdə məhv olurkən, bir qasid gəldi və mənə gətirdi.
[18] Bir qəribə fərəhləndirici məktub ki, ibarə və imla gözəlliyinə nümunə idi.
[19] Zahiri ürək bəyənən və fayda yetirən, batini feyz bağışlayan və ruhu şadlandıran.
[20] Xəttinin nəqşində surət lətafəti, ifadələrinin tərzində məna şərafəti.
[21] Gözün önündə cilvələnməkdə hər kəlməsi bir pəri görkəmli və mələk simalı.
[22] İşvə, şivə və kirişmə ilə ürək ovlayır, ağlı qarət edir.
[23] Məzmun gözəlliyini anladıqda onda sevinclər aşkar etdim.

Bəndəyi lütf birlə yad etmiş
Həzrəti-seyyidi-xücəstəliqa[24].

Ol fələkqədr kim, ona vermiş
Hikməti-həq kəmali-sidqü səfa[25].

Zati-paki cəmii-aləmdən,
Şərəfi-rütbə ilə müstəsna[26].

Feyzi-elmi ifadeyi-bəşəri,
Ona ərvahi-qüdsdən ilqa[27].

Əslidir nuri-paki-müstəfəvi,
Hökmüdür rövnəqi-səriri-qəza[28].

Elmidir baisi-rəfahəti-xəlq,
Fe'lidir mucibi-rizayi-xuda[29].

Az olur bir arada cəm olmaq,
Hökmü elmü səyadətü təqva[30].

Mir seyyid Məhəmmədi-qazi,
Mənbəi-elmü helmü cudü səxa[31].

[24] Bəndəni lütf ilə xoşbəxt simalı Həzrət Seyyid yad etmişdir.
[25] O fələkqədrli ki, haqqın hikməti ona doğruluq və saflıq kamalı vermişdir.
[26] Pak zatı bütün aləmdən rütbə şərəfi ilə müstəsnadır.
[27] Elminin faydası insanlıq ifadəsi, ona müqəddəs ruhlardan həvalə olunub.
[28] Əsli Mustafanın pak nurundandır, hökmü qəza (məhkəmə) işləri taxtının rövnəqidir.
[29] Elmi xalqın rifahının baisidir, işi Allahın rizasının zərurətidir.
[30] Hökmün, elmin, hakimiyyətin və təqvanın bir arada olması az olur.
[31] Mir Seyyid Məhəmməd qazi, elm, helm, səxavət və comərdlik mənbəyidir.



Əzzəməllahü qədrəhül-ali,
Rəfəəllahü şə'nəhül-ə'la[32].

Zəyyədəllahü izzə rif'ətihi,
Nəffəzəllahü hökmihi əbəda[33].

Ey qəzahökm kim, müyyəssərdir,
Zatinə iqtidari-izzü əla[34].

Güli-gülzari-itrəti-nəbəvi
Çəmənarayi-milləti-Zəhra[35].

Nuri-çeşmi-təmamiyi-sadat,
Müqtədayi-cəmii-əhli-zəka[36].

Mənə təqsir hökmün etmişsən,
Demək olmaz bu hökmə hökmi-xəta[37].

Leyk bir bəndeyi-həqirəm mən,
Əməlim əhli-xeyrə xeyr-dua[38].

[32] Allah onun qədrini və şənini yüksək etsin.
[33] İzzətini artırsın, hökmünü əbədi etsin.
[34] Ey qəza hökmlü sənin zatına izzət və ağalıq müyəssərdir.
[35] Peyğəmbər əqrəbasının gülzarının gülü, Zəhra millətinin çəmənini bəzəyənsən.
[36] Bütün seyyidlərin gözünün nuru, bütün zəka əhli olanların başçısı.
[37] Mənə təqsir hökmü edibsən, bu hökmə xəta hökm demək olmaz.
[38] Ancaq mən bir aciz bəndəyəm, işim xeyir əhlinə xeyir-duadır.

Sahibi-üsrətəm, mənə nə düşər,
Kim, olam həmnişini-əhli-ğina[39]?

Məhzi-cəhləm, mənə nə nisbətdir,
Ki, qılam meyli-söhbəti-füzəla[40].

Gərçi əflakə rəğbət eylər xak,
Yetməz ə'layə rütbeyi-ədna[41].

Lütf səndən mənə münasib ikən,
Məndən olmaq mütaləbət nə rəva[42]?

Ey Füzuli, bu növ, də'vadə,
Məsləhətdir tutam təriqi-riza[43].

Hal müşküldür onda kim, bir ola
Sahibi-hökmü sahibi-də'va[44]!

Var ümidim ki, ta müəssir ola,
Sabitü sayir ilə ərzü səma[45].

Ola hökmi-qəza ilə baqi,
Qaziyi-ğaziyi-xücəstəliqa[46].

---

[39] Zəhmət sahibiyəm, mənə nə düşər ki, varlılarla bir oturum.
[40] Xalis cahiləm, mənə nə yaraşar ki, fazillərin dostluğuna meyl edəm.
[41] Doğrudur, torpaq göylərə meyl edir, ancaq alçaq rütbə yüksəkliyə yetməz.
[42] Səndən mənə lütf münasib ikən məndən haqqını tələb etmək nə rəva?
[43] Ey Füzuli, bu cür bir davada razılıq yolu tutmağım məsləhətdir.
[44] Vəziyyət onda çətindir ki, dava sahibi ilə hökm sahibi bir ola.
[45] Ümidim var ki, nə qədərki yerə və səmaya sabit və səyyar (ulduzlar) təsir edir.
[46] Uğurlu simalı qazilər qazisi qəzanın hökmü ilə baqi olsun!



## TƏRCİBƏNDLƏR

### I

Mən kiməm? - Bir bikəsü biçarəvü bixaniman,
Taleim aşüftə, iqbalım nigun, bəxtim yaman[1],

Nəmli əşkimdən zəmin məmlü, ünümdən asiman,
Ahü naləm navəki peyvəstə, xəm qəddim kəman[2],

Tiri-ahim bixəta, tə'siri-naləm bigüman,
Müttəsil qəmxaneyi-sinəmdə yüz qəm mihman[3],

Qanda bir qəm itsə, məndən istəsinlər, mən zəman,
Yox mənə qeydi-bəlavü dami-möhnətdən aman[4],

Çıxmadı könlümdən ənduhü qəmü möhnət həman,
Ey mənim canım sənü könlüm səninlə şadiman[5],

Sənsiz olman ayrı möhnətdən, bəladən, bir zaman,
Əl'əman, hicran bəlavü möhnətindən əl'əman[6]!

* * *

Fariq idim cümlə aləmdən, bilir aləm məni,
Eyb edərdi bixəbər sanib, bəniadəm məni[7],

Qoymadı dövrani-çərx öz halimə xürrəm məni,
Şad ikən aləmdə çərx etdi əsiri-qəm məni[8],

---

[1] Mən kiməm? Bir kimsəsiz, biçarə və evsiz-eşiksiz, taleyim çaşqın, iqbalım ağzıüstə, bəxtim yaman.
[2] Nəmli göz yaşımdan yer dolu, ünümdən asiman, ah və nalənin oxu daimi, əyri qəddim kaman.
[3] Ahımın oxu xəta bilməyən, nalənin təsiri gümansız, həmişə sinəmin qəmxanasında yüz qəm qonaqdır.
[4] Harda bir qəm itsə, məndən istəsinlər, mən zamin, mənə bəla əsirliyindən və möhnət torundan aman yoxdur.
[5] Könlümdən kədər, qəm və möhnət heç çıxmadı, ey könlüm sənin olan, könlüm sənin ilə şaddır.
[6] Bir an sənsiz möhnətdən, bəladan ayrı olmuram, əlaman, ayrılıq bəla və möhnətindən əlaman!
[7] Aləm məni bilir ki, mən bütün aləmdən asudə idim, adamlar məni bixəbər hesab edib eyib tutardı.
[8] Çərxin dövranı məni öz halımla şad olmağa qoymadı, mən aləmdə şad ikən çərx qəm əsiri etdi.

Eşq nagəh oldu peyda, tutdu müstəhkəm məni,
Saldı yüz sevdayə ol giysuyi-xəm dərxəm məni[9]

Şimdi Məcnundan rəhi-eşq içrə sanmın kəm məni
Yar xud qılmaz hərimi-vəslinə məhrəm məni[10].

Sən ki, məhrəmsən səba billah anıb hər dəm məni,
Söylə, ey gül, kim sənə, bəxt eyləməz həmdəm məni[11].

Sənsiz olman ayrı möhnətdən, bəladən bir zaman,
Əl'əman, hicran bəlavü möhnətindən əl'əman[12]!

* * *

Bülbülü-zarəm, güli-rüxsari-alindən cüda.
Tutiyi-laləm, şəkərnisbət məqalindən cüda[13],

Der idim səbr eyləyim olsam cəmalindən cüda,
Bilmədim düşvar imiş olmaq vüsalindən cüda[14],

Tirə oldu ruzigarım, zülfü xalindən cüda,
Oldu səhra mənzilim, vəhşi qəzalindən cüda[15].

Mu tək incəldi tənim, nazik nəhalindən cüda,
Xəm gətirdi qamətim, mişkin hilalindən cüda[16],

---

[9] Birdən eşq peyda oldu, məni möhkəm tutdu, o qıvrım-qıvrım olmuş saçlar məni yüz sevdaya saldı.

[10] İndi eşq yolu içində məni Məcnundan kəm saymayın, yar özü məni vüsalının hərəminə məhrəm bilmir.

[11] Səhər yeli, Allah üçün sən ki, məhrəmsən, hər an məni xatırlayıb, söylə ki, ey gül, bəxt məni sənə məhrəm etmir.

[12] Sənsiz bir an möhnətdən, bəladan ayrı olmaram, əlaman, ayrılıq bəla və möhnətindən əlaman!

[13] Qırmızı yanağının gülündən ayrı ağlar bülbüləm, şəkərəbənzər danışığından ayrı lal tutiyəm.

[14] Deyirdim, camalından ayrı olsam, səbr eyləyim, vüsalından ayrı olmağın çətin olduğunu bilmədim.

[15] Zülfündən və xalından ayrı günüm qara oldu, vəhşi ceyranından ayrı mənzilim səhra oldu.

[16] Nazik ağacından ayrı bədənim tük kimi incəldi, mişk ətirli hilalımdan ayrı boyum əyildi.



Çıxdı cani-natəvan, şirin zülalindən cüda,
Oldum, əlqissə, rüxi-fərxəndəfalindən cüda[17],

Sənsiz olman ayrı möhnətdən, bəladən bir zaman,
Əl'əman, hicran bəlavü möhnətindən əl'əman[18]!

* * *

Sinə çakü didə nəmnakü bədən əfkardir,
Can-həzin, xatir-qəmin, şeyda könül bimardir[19].

Mən bu qəm içrə ki, dəf'in eyləmək naçardir,
Məsləhət sordum, dedilər məsləhət izhardir[20].

Söylədim dərdi-dilimi, bildi ol kim yardir,
Qılmadı bir rəhm bəs kim, zalimü xunxardir[21].

Dəxi izhar edəmən, nə hacəti-təkrardir,
Eyləyim səbrü təhəmmül ta həyatım vardir[22].

Canə yetgəc ta ki, məndə qüvvəti-göftardir,
Söylərəm, ey gül ki, səndən ayrılıq düşvardir[23];

Sənsiz olman ayrı möhnətdən, bəladən bir zaman
Əl'əman, hicran bəlavü möhnətindən əl'əman[24]!

---

[17] Şirin zülalından ayrı gücsüz canım çıxdı, sözün qısası, uğurlu fallı üzündən ayrı düşdüm.

[18] Sənsiz bir an möhnətdən, bəladan ayrı olmaram, əlaman, ayrılıq bəla və möhnətindən əlaman!

[19] Sinə yaralı, gözüm nəmli, bədən dərdli, can hüznlü, xatir qəmli, vurğun könül xəstədir.

[20] Mən bu qəm içində, onu yox etmək naçardır, məsləhət soruşdum, dedilər məsləhət bildirməkdir.

[21] Ürəyimin dərdini söylədim, o yar olan bildi, bir rəhm etmədi, nə qədər zalım və qaniçəndir!

[22] Bir də açıb deməərəm, təkrara nə ehtiyac var, nə qədər ki, həyatım var, səbr etmək və dözmək lazımdır.

[23] Cana yetən kimi ta nə qədər danışmağa qüvvəm var, söyləyərəm ki, ey gül, səndən ayrılıq çətindir.

[24] Sənsiz bir an möhnətdən, bəladan ayrı olmaram, əlaman, ayrılıq bəla və möhnətindən əlaman!

* * *

Yar bilgəc halimi, bir rəhm peyda eyləyə,
Anlayıb dərdi-dilimi, bir müdava eyləyə[25].

Olmaya qafil, mənə minbə'd pərva eyləyə,
Rəhm edib, ancaq məni aləmdə rüsva eyləyə[26],

Ta özün könlüm onun eşqində şeyda eyləyə.
Tuta damanin onun, vəslin təmənna eyləyə[27],

Qılmaya ikrah cövründən, müdara eyləyə,
Düşməyə ondan cüda, kuyində mə'va eyləyə[28],

Gər özündən onu yar ayırsa qovğa eyləyə:
Dəmbədəm yüz şövq ilə bu beyti inşa eyləyə[29]:

Sənsiz olman ayrı möhnətdən, bəladən bir zaman,
Əl'əman, hicran bəlavü möhnətindən əl'əman[30]!

* * *

Aqibət ahim mənim ol mahə tə'sir etməsə,
Bunca əfsunum, pərivəş yarı təsxir etməsə[31],

Yar hali-zarimə bir fikrü tədbir etməsə,
Bivəfalıq rəsmini gəldikcə təğyir etməsə[32],

[25] Yar halımı bilәndә bir rәhm peyda eylәyә, ürәyimin dәrdini anlayıb bir dәrman eylәyә.

[26] Qafil olmaya, bundan sonra mәnә rәğbәt eylәyә, rәhm edib ancaq mәni alәmdә rüsva eylәyә.

[27] Ta könlüm özünü onun eşqi ilә şeyda (vurğun) eylәyә, onun әtәyindәn tuta vüsalını tәmәnna eylәyә.

[28] Zülmündәn ikrah etmәyә, yola gedә, ondan ayrı düşmәyә, olduğu yerdә yurd eylәyә.

[29] Əgәr yar onu özündәn ayırsa savaşa, anbaan bu beyti şövq ilә yaza

[30] Sәnsiz bir an möhnәtdәn, bәladan ayrı olmaram, әlaman, ayrılıq bәla vә möhnәtindәn, әlaman!

[31] Axırda mәnim ahım o aya tәsir etmәsә, bu qәdәr әfsunum o pәrisifәtli yarı әlә gәtirmәsә.

[32] Yar ağlar halıma bir fikir vә tәdbir etmәsә, vәfasızlıq qaydasını gәldikcә dәyişdirmәsә.



Ol cəvani-nazənin meyli məni pir etməsə,
Tutaram bir yar mən, gər ömr təqsir etməsə[33],

Yar, yar olmaz könül üşşaq ilə bir etməsə,
Zülfünü aşiqlərin boynuna zəncir etməsə[34],

Aşiqin qeydinə yüz neyrəngü təzvir etməsə,
Görmüyən saətdə yüz üzr ilə təqrir etməsə[35]:

Sənsiz olman ayrı möhnətdən, bəladən bir zaman,
Əl'əman, hicran bəlavü möhnətindən əl'əman[36]!

* * *

Fəqr eşq içrə, Füzuli, izzü cahimdir mənim,
Şiveyi-mehrü məhəbbət rəsmü rahimdir mənim[37].

Dərdimi sabit qılan üşşaqə, ahimdir mənim,
Ah bu də'vadə bir adil güvahimdir mənim[38],

Gərçi qəm məqsudu, qətli-bigünahimdir mənim,
Qəm degil, çün, künci-meyxanə pənahimdir mənim[39],

[33] O nazәnin cavan mәn qocaya meyl etmәsә, bir yar tutaram, әgәr ömür tәqsir etmәsә.

[34] Yar yar olmaz könlünü aşiqlәr ilә bir etmәsә, zülfünü aşiqlәrin boynuna zәncir etmәsә.

[35] Aşiqi әsir etmәk üçün yüz hiylә vә kәlәk etmәsә, görmәdiyi saatda yüz üzr ilә anlatmasa.

[36] Sәnsiz bir an möhnәtdәn, bәladan ayrı olmaram, әlaman, ayrılıq bәla vә möhnәtindәn әlaman!

[37] Eşq alәmindә yoxsulluq, Füzuli mәnim izzәtim vә hörmәtimdir, sevgi vә mәhәbbәt şivәsi mәnim qaydam vә yolumdur.

[38] Dәrdimi aşiqlәrә bildirәn mәnim ahımdır, ah bu davada bir adil mәnim şahidimdir.

[39] Hәrçәnd qәm mәnim günahsız qәtlimin mәqsәdidir, meyxana küncü pәnahım olduğumdan qәm deyil.

Dərgəhi-piri-müğan ümmidgahimdir mənim,
Mən onun bir çakəri, ol padişahimdir mənim[40],

Ey ki, hər cürm olsa lütfün üzrxahimdir mənim
Ayıran səndən məni, bəxti-siyahimdir mənim[41]

Sənsiz olman ayrı möhnətdən, bəladən bir zaman,
Əl'əman, hicran, bəlavü möhnətindən əl'əman[42]!

[40] Muğlar pirinin (qocasının) qapısı mənim ümid yerimdir, məni səndən ayıran mənim qara bəxtimdir.

[41] Ey gözəl, hər nə günahım olsa, sənin lütfün mənim üzr istəyimdir. Məni səndən ayıran mənim qara bəxtimdir.

[42] Sənsiz bir an möhnətdən, bəladan ayrı olmaram, əlaman, ayrılıq bəla və möhnətindən əlaman!



## II

### 1

Gətir, saqi, qədəh kim, novbahari-aləmaradır!
Zəmin səbzü hava canbəxşü gülşən rahətəfzadır[1]!

Pərişan olma kim, gülbərk tək hala bu gülşəndə
Nəşatü eyş üçün əsbabi-cəm'iyyət mühəyyadır[2].

Açıldı lalə, güldü qönçə, gəldi işrət əyami,
Zəbani-hali-səbzə işrət iymasına guyadır[3],

Gör öz halını, həm çəkmə qəmi-mazivü müstəqbəl
Ki, hala mövsimi-gülgəştü dövri-cami-səhbadır[4],

Səhər gülzarə gir, billah, bu mövsimlərdə kim hərdəm,
Tamaşa qıl gülün divanına kim, xoş tamaşadır[5],

Açıldı qönçə tumarı və mə'lum oldu məzmuni,
Budur kim: fövt qılman mövsimi-gül, cami-gülguni[6]

### 2

Gətir, saqi, qədəh, bilgil təəllül fövti-firsətdir,
Bu firsət var ikən fövt etmə kim, firsət qənimətdir[7].

1

[1] Saqi, qədəh gətir ki, dünyanı bəzəyən ilk bahardır, yer yaşıl, hava can bağışlayan, gülşən rahatlıq artırandır.

[2] Qəmli olma ki, indi bu gülşəndə gül yarpağı tək şadlıq və əyləncə üçün hər vasitənin hamısı hazırdır.

[3] Lalə açıldı, qönçə güldü, işrət vaxtı gəldi, göy otların dili him-cimlə işrətə işarə edir.

[4] Öz halına bax, keçmişin və gələcəyin qəmini çəkmə, çünki indi gül seyrinin mövsümü və şərab camının dövrüdür.

[5] Səhər gülzara gir, Allaha and olsun, bu mövsümlərdə hər an gülün yığnağına tamaşa elə ki, gözəl tamaşadır.

[6] Qönçənin məktubu açıldı və məzmunu məlum oldu, budur ki, gül mövsümündə gül rəngli camı əldən verməyin.

2

[7] Gətir, saqi, qədəh, bil ki, bəhanə axtarmaq fürsəti əldən çıxarmaqdır. Bu fürsət varkən, əldən çıxarma ki, fürsət qənimətdir.

Zəminə, "keyfə yühyil-ərz" yazmış xameyi-səbzə,
Nəzər qıl kim, bu həm asari-rəhmətdən bir ayətdir[8].

Deyirlər cənnət içrə atəş olmaz, bu əcəbdir kim,
Gülüstan atəşin gül birlə rəşki-bağİ-cənnətdir[9].

Cahani rəşki-gülzari-Xəlil etkən bahar olmub,
Bu feyzi-ədli-İbrahim xani-paksiyrətdir[10].

Onun yanında kim, gülbərg gülzari-məanidir,
Onun bəzmində kim, sərvi-rəvani-bağİ-behcətdir[11].

Açıldı qönçə tumarı və mə'lum oldu məzmuni,
Budur kim: fövt qılman mövsimi-gül, cami-gülguni[12].

## 3

Gətir, saqi, qədəh, boldunsa hali-dəhrdən agah!
Ki, dövran üzrədir peyvəstə sübhü şamü salü mah[13].

Xəzan dicuridə gülzar bəzmindan azan bülbül,
Çirağİ-gül yaxıb, xəlvətsərayi-vəslə bulmuş rah[14].

---

[8] Yaşıl otların qələmi yerin üzərinə "yeri necə dirildər" yazmışdır, nəzər et ki, bu da rəhmətin əsərlərindən bir ayədir.

[9] Deyirlər cənnətdə atəş olmaz, bu təəccüblüdür ki, cənnət bağı atəşin gül ilə birlikdə gülüstana həsəd aparır.

[10] Dünyanı Xəlil gülzarının həsədinə döndərən bahar olmayıb, bu təmiz xasiyyətli İbrahim xanın ədalətinin təsiridir.

[11] O şəxs ki, onun yanında qızılgül yarpağı mənalar gülzarıdır, o şəxs ki, onun məclisində nazlı sərv şadlıq bağıdır.

[12] Qönçənin məktubu açıldı və məzmunu məlum oldu, budur ki, gül mövsümündə gül rəngli camı əldən verməyin.

3

[13] Saqi, dünyanın halından agah oldunsa, qədəh gətir ki, həmişə sübh və axşam, il və ay dövr etmək üzrədir.

[14] Xəzan qaranlığında gülzardan azan bülbül gül çırağını yandırıb vüsalın xəlvət sarayına yol tapmışdır.



Gül açmış, xani-vəslin bülbülə təklif edər hərdəm
Ki, gər mehman isən xani-Xəlilüllahə-bismillah[15],

Cahandan dün mükəddərxatir idim fali-fəthi çün,
Bu gün gülzarə girdim gül kitabın açmağa nagah[16]

Açıldı qönçə tumarı və mə'lum oldu məzmuni,
Budur kim: fövt qılman mövsimi-gül, cami-gülguni[17]

## 4

Gətir, saqi, qədəh kim, eyş xoşdur gül zamanında!
Zaman fövt etmə dəhrin qüsseyi-sudü ziyanında[18]!

Qumari "təhtəhəl-ənhar" oxur gülzar vəsfində,
Ənadil "həzihi cənnat" oxur gülzar şanında[19]

Səba qönçə dəhanın pürzər etsə, eyb irməz kim,
Ki, mədhi-xani-xaqanqədrdir qönçə dəhanında[20].

Hava səbzə zəbanin tiz əgər qılsa yeridir kim,
Sənayi-xani-xeyrəncamdır səbzə zəbanında[21].

---

[15] Gül açmış, vüsal süfrəsini hər an bülbülə təklif edir ki, əgər qonaqsansa, Xəlilüllah süfrəsinə bismillah de.

[16] Dünyadan dünən qələbə falı üçün könlüm kədərli idi, bu gün birdən gül kitabını açmaq üçün gülzara girdim.

[17] Qönçənin məktubu açıldı və məzmunu məlum oldu, budur ki, gül mövsümündə gül rəngli camı əldən verməyin.

4

[18] Saqi, qədəh gətir ki, gül zamanında eyş etmək yaxşıdır, dünyanın xeyir və ziyan qüssəsində zamanı əldən vermə.

[19] Qumrular gülzarı tərifləyərək suların altından oxuyur, bülbüllər isə gülzarın şənində "cənnət bunlardır" oxuyur.

[20] Səhər yeli qönçənin ağzını qızılla doldursa, eyib olmaz, çünki qönçənin ağzındakı xaqan qədrli xanın mədhidir.

[21] Hava göy otların dilini itiləyirsə, yeridir, çünki göy otların dilində xeyir axırlı xanın alqışıdır.

Qədəh tutmaqdan ikrah etməzəm ta kim, eşitdim mən,
Səhər bülbül dilində, gül qatında, səbzə yanında[22].

Açıldı qönçə tumarı və mə'lum oldu məzmuni,
Budur kim: fövt qılman mövsimi-gül, cami-gülguni[23].

5

Gətir, saqi, qədəh kim, bağü səhra laləzar oldu!
Əcəb fəsli-xucəstə, mövsimi-xoşruzigar oldu[24]!

Şükufə bərgi torpaq üzrə simin xiştlərdir kim,
Əsasi-eyşi-xəlq ol xiştlərdən üstüvar oldu[25].

Cigər qani kimi getmişdi gözdən tazə gül şəkli,
Yenə daği-dili-əhli-vəfa tək aşikar oldu[26].

Çıxardı səbzəvü gül xakdən çox lə'lü firuzə,
Vəli, yüz şükr kim, xan xaki-payinə nisar oldu[27].

Füzuli, gər xəzan vaxtı irərdin müttəqi hala,
Mey iç kim, mövsimi-gül gəldi, əyyami-bahar oldu[28].

Açıldı qönçə tumarı və mə'lum oldu məzmuni,
Budur kim: fövt qılman mövsimi-gül, cami-gülguni[29].

---

[22] Qədəh tutmaqdan çəkinmərəm, elə ki, səhər bülbülün dilində, gülün qarşısında, göy otların yanında eşitdim.
[23] Qönçənin məktubu açıldı və məzmunu məlum oldu, budur ki, gül mövsümündə gül rəngli camı əldən verməyin.

5

[24] Saqi, qədəh gətir ki, bağ və çöl laləzar oldu, gözəl uğurlu bir fəsil, xoş havalı bir mövsüm oldu.
[25] Açılmış güllərin yarpaqları torpaq üstündə gümüş kərpiclərdir ki, xalqın şadlığının əsası o kərpiclərin sayəsində möhkəm oldu.
[26] Təzə gülün şəkli ciyər qanı kimi gözdən getmişdi, yenə vəfalı insanların ürəyinin dağı kimi aşkara çıxdı.
[27] Göy otlar və gül torpaqdan çox ləl və firuzə çıxardı, ancaq şükür ki, xanın ayağının torpağına səpildi.
[28] Füzuli, əgər xəzan vaxtı pəhrizkar bir hala yetişərdin, mey iç ki, gül mövsümü gəldi, bahar əyyamı oldu.
[29] Qönçənin məktubu açıldı və məzmunu məlum oldu, budur ki, gül mövsümündə gül rəngli camı əldən verməyin.



# TƏRKİBBƏNDLƏR

## I

Mənəm ki, qafiləsalari-karivani-qəməm,
Müsafiri-rəhi-səhrayi-möhnətü ələməm,
Həqir baxma mənə, kimsədən saqınma kəməm,
Fəqiri-padişahasa, gədayi-möhtəşəməm,
Sirişk təxti-rəvandır mənə, bu ah, ələm,
Cəfavü cövr-mülazim, bəlavü dərd-həşəm[1].

Nə mülkü mal mənə çərx versə məmnunəm,
Nə mülkü maldən avarə qılsa məhzunəm,
Əgərçi müflisü pəstü mühəqqərü dunəm,
Dəmadəm öylə xəyal eylərəm ki, Qarunəm.
Könüldə nəqdi-vəfa gənci, leyk pünhani
Gözüm xəzaneyi-lə'lü gühər, vəli fani[2].

Həyat sərf edübən, dərd qılmışam hasil,
Sirişki alü rüxi-zərd qılmışam hasil,
Zəmir güzgüsünə gərd qılmışam hasil,
Təbiəti-səgi-şəbgərd qılmışam hasil,
İşim qara gecə ta sübh naləvü fəryad,
Nə versələr ona şakir, nə desələr ona şad[3].

---

[1] Qəm karvanının sarvanı mənəm, möhnət və dərd çölü yolunun yolçusuyam, mənə aciz baxma, düşünmə kimsədən əskiyəm, padşahsayağı bir yoxsulam, möhtəşəm bir kasıbam, mənə göz yaşı yeriyən taxtdır, bu ah bayraqdır, cəfa ilə cövr mulazimlərim bəla və dərd qulluqçularımdır.
[2] Çərx mənə nə mülk və mal versə sevinərəm, nə mülk və maldan məhrum eləsə kədərlənərəm, hərçənd, müfliş, aşağı, aciz və alçağam, hər an elə xəyal edirəm ki, Qarunam, könüldə vəfa nəqdinin xəzinəsi, ancaq gizlidir, gözüm ləl və inci xəzinəsi, ancaq fanidir (heç olandır).
[3] Həyat sərf edib, dərd qazanmışam, qırmızı göz yaşı və sarı üz qazanmışam, könül güzgüsünə toz (qəm tozu) əldə etmişəm, gecələr gəzən it təbiəti əldə etmişəm, qara gecələr işim sübhə qədər nalə və fəryad, nə versələr, ona şükr edən, nə desələr, ona şad.

Sirişkriz güləndamlar həvasilə,
Şikəstəhal siyəhzülflər bəlasilə,
Zəmanə içrə qəmi-eşq macərasilə,
Həmişə məsləhətim özgələr rizasilə.
Nə dövri-gərdişi-gərdun mənim muradimlə
Nə qayəti-əməlim hüsni-e'tiqadimlə[4].

Həsud surəti-əhvalimə nəzər qılmaz,
Cəfa qılır məni-biçarəyə, həzər qılmaz,
Sanır ki, naləvü zarım ona əsər qılmaz,
Onu mürur ilə aləmdə dərbədər qılmaz.
Zəmanə-içrə mücərrəbdir intiqami-zaman,
Həmişə yaxşıya yaxşı verər, yamanə-yaman[5].

Xoşam ki, xameyi-təqdiri-iyzədi-mütəal,
Vücud lövhinə təsvir edəndə surəti-hal.
Rəqəm qılıb əgər idbardır və gər iqbal,
Olur təğəyyür ona qeyridən bir əmri-məhal,
Səadəti-əzəli qabili-zəval olmaz,
Günəş yer üstünə həm düşsə, payimal olmaz[6].

---

[4] Güləndamlılar eşqi ilə göz yaşı tökən, qara zülflülər bəlası ilə sınıq hallı, zəmanədə eşq qəminin macərası ilə, həmişə məsləhətim özgələrin razılığı ilədir. Nə fələyin hərəkət dövrü mənim muradımladır, nə əməllərimin çoxu etiqadımın gözəlliyi ilədir.

[5] Paxıl halımın necəliyinə baxmaz, mən biçarəyə zülm edər, çəkinməz, elə hesab edir ki, nalə və ağlamağım ona əsər etməz, onu tədricən aləmdə dərbədər etməz, zəmanədə intiqam nə olduğu sınanmışdır, həmişə yaxşıya yazşı verər, yamana yaman.

[6] Xoşam ki, uca tanrının təqdir qələmi varlıq lövhəsinə hər halın necəliyini təsvir edəndə əgər uğursuz və əgər uğurlu yazıbsa, onu bir özgənin dəyişdirməsi bir çətin əmrdir. Əzəli xoşbəxtlik məhvə uğraya bilməz, günəş yer üstünə düşsə də, ayaq altında qalmaz.



Əzizi-həq, həsədi-düşmən ilə olmaz xar,
Həsud hiyləsi iqbalı eyləməz idbar,
Əgərçi gülbünə gahi xəzandan afət var,
Tədarük eylər ona afiyət nəsimi-bahar.
Qərəz ki, hər kim əzəldən olursa dövlətmənd,
Mahaldır yetə asari-dövlətinə gəzənd[7].

Əgərçi bir neçə gün iqtizayi-aləmi-dun,
Cahanda eylədi iqbal rə'yətini nigun,
Zəmanə surəti-əhvalim etdi digərgun,
Vəfa xətinə qələm çəkdi çərxi-buqələmun,
Bu gün zəmanə ol əhvaldən peşimandır,
Əgərçi kafir idi, haliya müsəlmandır[8].

Füzuli, eylədiyin əhdinə vəfa qılğıl,
Yetər şikayət edib şərhi-macəra qılğıl,
Vücudunu hədəfi-navəki-bəla qılğıl,
Qamu cəfalərə səbr eyləyib dua qılğıl.
Kim ola dust rizası həmin sənə hasil,
Rizayi-dustdur əsli-təməttö', ey qafil[9]!

---

[7] Haqqın əzizi olan düşmənin paxıllığı ilə xar olmaz, paxıl hiyləsi bəxti bəxtsizliyə çevirə bilməz, hərçənd gül ağacına bəzən xəzandan bəla dəyir, bahar nəsimi ona sağalma hazırlayar. Qərəz ki, hər kim əzəldən dövlətli olursa, onun dövlətinə ziyan təsirinin olması çətindir.

[8] Hərçənd, bir neçə gün alçaq dünyanın tələbi dünyada bəxtin bayrağını başıaşağı elədi, zamanə əhvalımın necəliyini başqalaşdırdı, buqələmun çərx vəfa xəttinə qələm çəkdi, bu gün zəmanə o işdən peşmandır, düzdür, kafir idi, indi müsəlmandır.

[9] Füzuli, eylədiyin əhdinə vəfa elə, yetər şikayətlənib macəranı şərh etdin, bədənini bəla oxuna hədəf et, bütün cəfalara səbr edib dua elə ki, dostun razılığı sənə qismət ola, ey qafil, əsil fayda dostun razılığıdır.

II

* * *

Nə xoşdur əldə gülgun cam, başda eşq sevdasi,
Könüldə vəsl zövqi, canda cananlar təmənnasi,
Könül bir qaç zaman ənduhi-hicran ilə zar etmək,
Yenə ümmid ilə ahəngi bəzmi-vəsli-yar etmək[1].

* * *

Nə xoşdur ol müsafir kim, səfər əzmini cəzm eylər,
Dutub rahi-təvəkkül mənzili-məqsudə əzm eylər.
Bulub sudin səfərdən, kəsb edib sərmayeyi-işrət,
Dönüb mülkinə hər mənzildə bir tədbiri-bəzm eylər.
Fərəhnak eylə kim, bir nazənin şəhbazi-seydəfkən
Alır seydin, olub xoşvəqtü xürrəm maili-məskən[2].

* * *

Nə xoşdur aşiyandan dəmbədəm şəhbaz pərvazi,
Şikar üzrə həva dutmaqda olmaq çərx həmrazi,
Urub minqar, açıb çəngal, tökmək seydlər qanın,
Yetirmək kəbkü dürracü təzərvə şəhpər avazi.
Alandan sonra seydin şad meyli-aşiyan etmək,
Nəçük kim, fəth edib mülki-Firəngi xosrövi-ğazi.
Səfavü zövq ilə meyli nigaristani-Rum etmiş,
Xilafət təxtini müstəqdəmi-feyzi-qüdum etmiş[3].

---

[1] Nə xoşdur əldə gül rəngli cam, başda eşq sevdası, ürəkdə vüsala çatmaq zövqü, canda gözəllər istəyi! Ürəyin bir neçə zaman ayrılıq dərdi ilə ağlaması, yenə ümid ilə yara qovuşmaq məclisinə üz tutmaq!

[2] Nə xoşdur o müsafir ki, səfərə çıxmaq fikrini qət edər, təvəkkül yolunu tutub məqsəd mənzilinə doğru gedər. Səfərdən fayda tapıb işrət mayası əldə edər. Öz mülkünə dönüb hər mənzildə məclis tədbiri görər. Elə şad olur ki, elə bil ki, ov yıxan bir gözəl şahbaz ovunu alıb vaxtı xoş və şad halda öz məskəninə meyl edir.

[3] Nə xoşdur yuvadan anbaan şahbazın uçuşu, ov üzərində hava tutmaqda çərx ilə sirdaş olmaq, dimdik vurub caynağını açmaq, ovlar qanı tökmək! Kəklik, turac və qırqovula lələk səsi çatdırmaq! Ovunu alandan sonra şad halda yuvasına dönmək! Necə ki, qazi hökmdar Firəng ölkəsini fəth edib xatircəmliklə dönmüşdür. Gəlişinin faydası (feyzi) xilafət taxtına dəvət yetirmişdir.



* * *

Zəhi sultani-rovşən rəy, mülk arayi-dərya dil
Ki, tövfiqi-zəfər iqbalə qılmış cöhərin qabil,
Binayi ehtimamından dəmadəm olmasa möhkəm·
Tilismi-dini-həq, tüğyani-küfr ilə olur batil.
Ülüvvü-iqtidarından peyapey bulmasa rövnəq
Olur nəqşi-səadət səfheyi-əyyamdan zail.
Şəhi-dünyavü din Sultan Süleyman şahi-adil-dil
Rizasin saxlayan həm din, həm dünya qılır hasil.
Həvadis dəfinə aləmdə qadir padişah oldur,
Pənah istərsə aləm, Xosrövi-aləmpənah oldur[4].

* * *

Hərimi-həq çirağı, səltənət şəmi-şəbistani,
Riyazi-ədl sərvi, övci-rəhmət mahi-tabani,
Xilafətdə vilayət əhlinin himmətli sərdari,
Vilayətdə xilafət təxtinin dövlətli sultani.
İskəndər təxtinin iqbal ilə məqbul Darasi,
Süleyman mülkünün isbat ilə varis Süleymani.
Məlazi-məmləkət, məmduhi-millət, məzhəri-rəhmət,
Hər afət dəfi, hər ğəm çarəsi, hər dərd dərmani.
Şəriət ziyvəri, din rövnəqi, islam ayini,
Mürüvvət mənbəi, insaf dəryasi, kərəm kani
Ki, hər kim hər dil ilə hər nə vəsfin qılsa, əfzundur,
Ona bənzər şəhənşəh görməmiş ta dövri, gərdundur[5].

---

[4] Əhsən, aydın fikirli dərya ürəkli ölkə bəzəyən sultana ki, qələbəyə nail olması bəxtə onun cövhərini qabil etmişdir. Onun səyinin binası hər an möhkəm olmasa, haqq dininin tilsimi küfrün tüğyani ilə puç olar. Onun qüdrətinin ucalığından dalbadal rövnəq tapmasa, zəmanənin səhifəsindən səadət naxışı yox olar. Ədalətli ürəkli şah, dünya və din şahı Sultan Süleymanın razılığını gözləyən həm din, həm də dünya əldə edir. Hadisələri dəf etmək üçün qüdrətli padşah odur, aləm bir pənah istəyirsə, aləmin pənahı olan hökmdar odur.

[5] Allah həriminin çırağı, səltənətin yataq otağının şamı, ədalət bağının sərvi, rəhm səmasının parlaq ayı, xilafətdə vilayət əhalisinin himmətli (səyli) başçısı, vilayətdə taxtının iqbal ilə məqbul Darası, Süleyman mülkünün sübut ilə varis Süleymanı, ölkənin sığınacağı, millətin mədh etdiyi adam, mərhəmət təcəssümü, hər bəlanı dəf edən, hər qəmin çarəsi, hər dərdin dərmanı, şəriətin bəzəyi, dinin rövnəqi, islamın ainləri, mürüvvət mənbəyi, insaf dəryası, kərəm mədəni ki, hər kim hər dil ilə onu vəsf etsə, ondan artıqdır, fələk dövr edəndən bəri ona bənzər şahlar şahı görməyib.

* * *

Şəhənşahi ki, gərdun dərgəhi-qədrinə çakərdir,
Cəmii-müddəasi feyzi-dövlətdən müyəssərdir.
Nə fərman kim, qılırsa həq rizasına mütabiqdir,
Nə yan kim əzm qılsa, bəxtinə tövfiq rəhbərdir.
Fəzayi-barigahi-ədlinin əyani-məqbuli
Sərasər hər biri ədlinə bir pakizə məzhərdir.
Müqəddəm cümlədən ol sərvəri-sahib səadət kim
Əzəldən tinəti insafü ədl ilə müxəmmərdir.
Nizamül-izzü vəl-iqbal Sultan-Veysi-rövşəndil
Ki darül-mülki-Rum, ənvari-ədliylə münəvvərdir.
Könül, vaqt oldu, ol qütbi-zəman dövründə izhar et,
Nə məqsəd kim, zəmanlar batini-pakində müzmərdir
Ədalət tinətinin tərzini ol pak təndən sor,
Nübüvvət xirqəsinin zövqini Veysül-Qərəndən sor[6].

* * *

Şəha, cənnət dilərdim, həq müyəssər qıldı didarin,
Umardım nuri-rəhmət, ruzi oldu şəmi-rüxsarin.
Muradım Kəbə idi, tövfi-dərgahin nəsib oldu.
Çəkərdim ləl üçün həsrət, irişdi səm'ə göftarin,

[6] O şahlar şahı ki, fələk onun qədr qapısında nökərdir, bəxtinin nemətindən bütün istəkləri yerinə yetmişdir. Nə fərman versə, Allahın razılığına uyğundur, haraya üz tutub getsə, Allah yardımı bəxtinə rəhbərdir. Ədalət sarayının göylərinin xoşa gələn əyanlarının hər biri başdan başa onun ədalətinə ən gözəl bir nümunədir. Hər şeydən əvvəl o səadət sahibi olan başçının tinəti əzəldən insaf və ədalətlə yoğrulmuşdur. İzzət və iqbalın nizamı olan aydın ürəkli Sultan Veys ki, Rum ölkəsinin paytaxtı onun ədalətinin nuru ilə işıqlanmışdır. Könül, vaxt oldu, o zəmanənin qütbünün dövründə uzun zamanlar pak qəlbində gizli olan nə məqsəd varsa, bildir. Ədalət mayasının qaydasını o pak bədəndən soruş, peyğəmbərlik xirqəsinin zövqünü Veysül-Qərəndən soruş.



Qılırdım arizu həqdən kilidi-məxzəni-məqsud,
Göründü dideyi-ümmidimə dəsti-gühərbarin.
Səfayi-tələtin məhv etdi könlümdən ələm nəqşin,
Müalic oldu hazir, qalmadı təşvişi bimarin.
Təriqi-izzü iqbali itirmişdim olub ğafil,
Məni ğəflət yuxusundan oyatdı bəxti-bidarin.
Nə taət əcridir, ya nə dua təsiridir, ya rəb
Ki, mətlübi müyəssər oldu möhnətsiz tələbkarin?
Füzuli hüsni-ətvarilə olmuş qürbünə mail,
Budur tə'siri aləmdə həmişə hüsni-ətvarin.
Səfayi-niyyət ilə yox dua qılmaqda təqsiri
Dua olsa riyasız, beylədir, əlbəttə, tə'siri[7].

[7] Ey şah, cənnət diləyirdim, Allah sənin üzünü görməyi qismət elədi. Rəhmət nuru umardım, üzünün şamı ruzim oldu. Muradım Kəbə idi, qapının başına dolanmaq nəsib oldu, inci üçün həsrət çəkərdim, danışığın qulağıma yetişdi. Allahdan məqsəd xəzinəsinin açarını arzu edirdim, ümid gözünə gövhər saçan əlin göründü. Üzünü görməyim könlümdən qəm nəqşini məhv etdi, müalicə edən hazır oldu, xəstənin təşvişi qalmadı. Qafil olub izzət və bəxt yolumu itirmişdim, oyaq bəxtin məni qəflət yuxusundan oyatdı. Nə taətin mükafatıdır, ya hansı duanın təsiridir, ey Allah ki, axtaranın mətləbi əziyyətsiz baş tutdu. Füzuli gözəl hərəkətlərə görə sənə yaxın olmağa meyl etmişdir, gözəl hərəkətlərin dünyada həmişə təsiri belədir. Saf bir niyyət ilə dua etməkdə heç bir təqsiri yoxdur, dua riyasız olsa, əlbəttə, təsiri belədir.

* * *

Binayi rifətin ta dövri-gərdun var, var olsun!
Mədar etdikcə aləm, dövlətin aləmmədar olsun!
Məqami-irtifai-qədrinə bimi-həvadisdən,
Həmişə dövləti-tövfiqi-həq hisni-həsar olsun!
Sərayi-himmətin kim, xəlqə salmış sayeyi-rəhmət,
Əsasi-nüsrətü fəth ilə daim üstüvar olsun!
Təmamiyi-ümurin hər cəhətdən mucibi-təhsin,
Cəmii-xidmətin mənzuri-eyni-etibar olsun!
Sən olğıl ərcüməndi-mülk, düşmən qeydi-ğəm çəksin,
Sən olğıl sərbüləndi-dəhr, hasid xarü zar olsun!
Fəzayi-büqeyi-Bağdad ədlindən olub rövşən,
Mizaci-pakinə abü həvasi sazikar olsun!
Səriri-hökmi-bürci-övliya səndən bulub ziyvər,
Səfadən hər güni növruzü hər fəsli bəhar olsun!
Sənin vəsfinlə gün-gündən tapub rövnəq mənim nəzmim,
Mənim nəzmimlə vəsfin virdi-əhli-ruzigar olsun!
Zəban olduqca bir dəm getməsin zikrin zəbanimdən,
Xəyali-xidmətin məhv etməsin həq lövhi-canimdən[8].

[8] Nə qədər ki, fələk dövr edir, böyüklüyünün binası var olsun. Aləm durduqca, dövlətin aləmin dayağı olsan. Sənin qədrinin ucalmaq məqamına hadisələrin qorxusundan həmişə Allah yardımının dövləti qoruyucu hasar olsun. Sənin xalqın üzərinə rəhmət kölgəsi salan himmət sarayının əsası qələbə və fəth ilə daim möhkəm olsun. Tamam işlərin hər cəhətdən alqışa səbəb olsun, bütün xidmətlərin etibar gözü ilə görülsün. Sən ölkənin ən hörmətlisi ol, düşmən qəm əsiri olsun. Sən dünyanın ən başı ucası ol, düşmənin xar və ağlar olsun. Bağdad torpağının fəzası ədalətindən işıqlanmışdır, sənin pak təbiətinə onun abü havası uyğun olsun. Övliya bürcünün hökm taxtı səndən bəzək almışdır. Saflıqdan hər günü novruz və hər fəsli bahar olsun. Sənin vəsfinlə (tərifini deməklə) mənim nəzmim (şerim) gün-gündən rövnəq tapmışdır. Mənim nəzmimlə sənin tərifin zəmanə adamlarının dilinin əzbəri olmuşdur. Dil olduqca bir an sənin zikrin (adın) dilimdən getməsin, Allah canımın lövhəsindən sənin xidmətinin xəyalını məhv etməsin.



## MÜSƏDDƏS

Dün sayə saldı başimə bir sərvi-sərbülənd
Kim, qəddi dilrüba idi, rəftarı dilpəsənd.
Göftarə gəldi nagah açıb lə'li-nuşxənd,
Bir püstə gördüm onda tökər rizə-rizə qənd,
Sordum:-məgər bu dürci-dəhəndir-dedim, dedi:
–Yox, yox, dəvayi-dərdi-nihanındurur sənin[1]!

Əymiş hilali üstünə tərfi-gülahini,
Çox dilşikəstənin göyə yetirmiş ahini,
Zülfün dağıtdı, gizlədi əbr içrə mahini,
Gördüm üzündə həlqeyi-zülfi-siyahini,
– Ol piçü tabı çox nə rəsəndir?-dedim, dedi:
– Dövri-rüxümdə rişteyi-canındurur sənin[2]!

[1] Dünən başı uca bir sərv başıma kölgə saldı ki, boyu can alan, hərəkətləri ürək bəyənən idi. Birdən şirin ləl dodağını açıb nitqə gəldi, onda bir püstə gördüm, xırda-xırda qənd tökərdi. Soruşdum: "Bu ağız mücrüsüdür", dedim. Dedi: "Yox, yox, sənin gizli dərdinin dərmanıdır!"

[2] Papağının yanını hilalı üstünə əymiş, çox ürəyi sınığın ahını göyə yetirmiş, saçını dağıtdı, ayını bulud içində gizlətdi, üzündə qara zülfünün həlqəsini gördüm. - O qıvrımları çox nə ipdir? - dedim. Dedi: - Mənim üzümün dövrəsində sənin canının ipidir.

Vermiş füruğ şəm'i-rüxi, gün çirağına,
Salmış şikəst sərv qədi gül budağına.
Dün sərv tək basanda qədəm göz bulağına,
Bir neçə xardən ələm irmiş ayağına,
– Gül bərginə batan nə dikəndir?-dedim, dedi:
– Müjgani-çeşmi-əşkfəşanındurur sənin[3]!

Seyr ilə saldı bağə güzar ol səmən-üzar,
Ənvai-zibü zinət ilə fəsli-novbahar.
Açmış gül üzrə sünbülü giysuyi-mişkbar,
Yaxmış lətif ayağına gülbərg tək nigar,
– Nəsrinə rəngi-lalə nədəndir?-dedim, dedi:
– Qəmzəm xədəngi tökdüyü qanındurur sənin[4]!

Düşmüş üzarı üzrə müənbər sələsili,
Aşüftəhal edib neçə bisəbrü bidili,
Əqlimi valeh eylədi şəklü şəmaili.
Göz gördü qamətin, dilü can oldu maili,
– Vəh bu nə türfə sərvi-çəməndir?-dedim, dedi:
– Mənzuri-dideyi-nigəranındurur sənin[5]!

---

[3] Üzünün şamı günəşin çırağına işıq vermiş, sərv boyu gül budağını sındırmışdır, dünən sərv tək qədəm basanda göz bulağına bir neçə tikandan ayağına əzab dəymişdir. - Gül yarpağına batan nə tikandır? - dedim. Dedi: - Sənin göz yaşları saçan gözünün kirpikləridir!

[4] O yasəmən üzlü gəzmək üçün bağa üz tutdu, ilk bahar fəslində bəzək və ziynət vasitələri ilə birlikdə, sünbül və mişk yağdıran saçını gülün üzərinə açmış, lətif ayağına gül yarpağı kimi rəng yaxmışdır, - Nəsrinə (it burnu gülü) lalə rəngi nədəndir? - dedim. Dedi: - Qəmzənin oxu ilə sənin tökülən qanındır!

[5] Ənbər ətirli zəncir saçları yanağı üzərinə düşmüş, neçə səbirsiz və ürəksizi heyran etmiş, şəkli, surəti ağlımı valeh elədi, göz boyunu gördü, ürək və can onun maili oldu. - Bəh! bu nə dürlü çəmən sərvidir? - dedim. Dedi: - sənin nigaran gözlərinin görmək istədiyidir.



Seyli-sirişkim oldu rəvan xaki-kuyinə,
Can valeh oldu lə'li-ləbü göftguyinə,
Dil düşdü dami-silsileyi-mişkbuyinə,
Ol ləhzə kim, sataşdı gözüm zülfü ruyinə,
– Əqrəb məhi-münirə vətəndir?-dedim, dedi:
– Ey çox xətalı, kəndi qiranındurur sənin[6]!

Dün sübhdəm ki, laləvü nəsrin salıb niqab,
Gül çöhrəsindən atdı səba pərdeyi-hicab,
Gülzarə çıxdı seyr ilə ol rəşki-afitab,
Şəbnəm nisarın etdi yüküş lö'löi-xoşab,
– Bunlar nədir, nə dürri-Ədəndir?-dedim, dedi:
– Əbsəm, Füzuli, əşki-rəvanındurur sənin[7]!

---

[6] Göz yaşımın seli onun olduğu yerə axdı, can ləl dodağının söz-söhbətinə valeh oldu, ürək mişk ətirli zəncir hörüyünün toruna düşdü, o anda ki, gözüm zülfünə və üzünə sataşdı, dedim: - əqrəb işıqlı aya vətəndir? Dedi:- Ey çox xətalı, öz yaxınındır.

[7] Dünən sübh vaxtı ki, lalə və nəsrin niqab salıb, səhər yeli gülün üzündən hicab pərdəsini atdı, o günəşi qısqandıran gəzə-gəzə gülzara çıxdı, şeh çoxlu miqdarda xoş sulu ləl səpdi. Dedim: - Bunlar nədir, nə Ədən incisidir? Dedi: - Sus, Füzuli, sənin gözündən axan yaşındır!

## MÜXƏMMƏSLƏR
### 1

Vay, yüz min vay kim, dildardən ayrılmışam,
Fitnə çeşmi sahirü xunxardən ayrılmışam,
Bülbüli-şuridəyəm gülzardən ayrılmışam,
Kimsə bilməz kim, nə nisbət yardən ayrılmışam,
Bir qədi şümşadü gülrüxsardən ayrılmışam[1].

Qəddi tuba, lə'li firdövsün şərabi-kövsəri,
Xülqü xuyi bir mələk, surətdə əmsali-pəri,
Bürci-əflakin səadətli, şərəfli əxtəri,
Hüsn ara məcmu' xubların sərasər sərvəri,
Bir qədi şümşadü gülrüxsardən ayrılmışam[2].

Dustlar, mən naləvü fəryad qılsam, eyb iməs,
Çərxi-bədmehrin əlindən dad qılsam, eyb iməs,
Qəm diyarın dil ara abad qılsam, eyb iməs,
Bu bina birlə cahanda ad qılsam, eyb iməs,
Bir qədi şümşadü gülrüsxardan ayrılmışam[3].

[1] Vay, yüz min vay ki, dildardan ayrılmışam, fitnəli gözü sehrli və qaniçəndən ayrılmışam, vurğun bir bülbüləm, gülzardan ayrılmışam, kimsə bilməz ki, necə bir yardan ayrılmışam, bir boyu şümşad və gülüzlüdən ayrılmışam.

[2] Boyu Tuba ağacı, ləl dodağı cənnətin kövsər şərabı, xülqü və xasiyyəti mələk, surətdə pəriyə bərabər, fələklər bürcünün səadətli, şərəfli ulduzu, gözəllik içində bütün yaxşıların büsbütün başçısı, bir boyu şümşad və gül üzlüdən ayrılmışam.

[3] Dostlar mən nalə və fəryad etsəm, eyib deyil, bu yaman mehrli çərxin əlindən dad etsəm, eyib deyil, ürəkdə qəm ölkəsini abad etsəm, eyib deyil, bu bina ilə cahanda bir ad eləsəm, eyib deyil, bir boyu şümşad və gülüzlüdən ayrılmışam.



Düşmüşəm qəmxaneyi-hicranə zarü dərdnak,
Naxüni-həsrət bilən edib giribanimi çak,
Gündə yüz gəz hicr tiğilən oluram mən həlak,
Gərdişi-dəvvar cövründən məni-dilxəstənak,
Bir qədi şümşadü gülrüxsardən ayrılmışam[4].

İştiyaqü şövqdən canü tənim aludədir,
Şami-ğəm fərzaneyi-bəxtim mənim uyxudədir,
Ağlamaqdan çeşmü cism-dərdinakim sudədir,
Sanma, ey həmdəm ki, fəryadım mənim bihudədir,
Bir qədi şümşadü gülrüxsardən ayrılmışam[5].

Vəsl umub cövrü cəfasini çəkərkən can hənuz.
Mehr umub şövqində yanarkən dili-suzan hənuz,
Cismi-qəmnakimdə var ikən qəmi-hicran hənuz,
Yetmədən payanə ahü naləvü əfğan hənuz,
Bir qədi şümşadü gülrüxsardən ayrılmışam[6].

[4] Ağlar və dərdli halda ayrılığın qəm evinə düşmüşəm, həsrət dırnağı ilə yaxamı cırmışam, gündə yüz dəfə ayrılıq xəncəri ilə həlak oluram, dövrün hərəkətinin zülmündən mən ürəyi xəstə bir boyu şümşad və gülüzlüdən ayrılmışam.

[5] İstək və şövqdən canım və bədənim vurğundur, qəm axşamı bəxtimin bilicisi yuxudadır, ağlamaqdan gözüm və dərdli bədənim sudadır, ey həmdəm, elə hesab etmə ki, mənim fəryadım boş yerədir, bir boyu şümşad və gülüzlüdən ayrılmışam.

[6] Hələ can vüsal umub cövr və cəfasını çəkərkən, hələ göynəyən ürəyim mehr umub şövqündə yanarkən, qəmli bədənimdə ayrılıq qəmi hələ var ikən, hələ ah, nalə və əfğanım sona yetmədən, bir boyu şümşad və gülüzlüdən ayrılmışam.

Mülki-vəsli dilbərin, könlümdə mə'mur olmadan,
Eşq camindən dilü can məstü məxmur olmadan,
Dərdi-bidərmani-hicrindən tənim dur olmadan,
Həm Füzuli eşqü aşiqliyi məşhur olmadan
Bir qədi şümşadü gülrüxsardən ayrılmışam[7].

[7] Dilbərin vüsal mülkü könlümdə abad olmadan, eşq camından ürək və can məst və xumar olmadan, ayrılığın dərmansız dərdindən bədənim uzaq olmadan, Füzulinin də eşq və aşiqliyi məşhur olmadan bir boyu şümşad və gülüzlüdən ayrılmışam.



2

Ey hərir içrə tənin, mütləq bülur içrə gülab,
Köksün abi-rovşən, ol ab üzrə dügməndir hübab,
Boyləsən məhbub, yox nəzzarənə aləmdə tab;
Vay əgər tezcik çıxıb, sərpib ləçək, salsan niqab
Hiç şək yox kim, səni görgəc olur aləm xərab[1],

Dil çəkib zərrin o tağın, verdi lə'lindən sorağ,
Tutdu ol göftar içün lə'li-binaguşin qulaq,
Zülfünə həmdəm darağ, aşüftə mən ondan irağ,
Diş salıb hər piçü tab açdıqca zülfündən darağ,
Rişteyi-canımğa rəşkimdən düşür yüz piçü tab[2].

Ey üzü gül, köynəyi gülgunü donu qırmızı!
Atəşin kisvət geyib, odlara yandırdın bizi.
Adəm oğlundan sənin tək doğmaz, ey zalım qızı,
Ayü gündür hüsn bəhsində cəmalin acizi,
Guiya atan məhi-tabandır, anan afitab[3].

[1] Ey bədəni ipək içində mütləq billur içində gülab kimi olan, köksün parlaq su, o su üstündə düymən bir köpük, belə sevimlisən, aləmdə sənə tamaşa etməyə tab yoxdur, vay əgər tezcik çıxıb, sərpib ləçək, salsan niqab, heç şəkk yoxdur ki, səni görən kimi aləm xarab olur.

[2] O qızıl tağın dil çəkib ləlindən soraq verdi, o söhbət üçün qulağının dibinin ləli qulaq tutdu, daraq zülfünə həmdəmdir, mən ondan ayrı heyran, diş salıb daraq zülfündən qıvrım və düyünləri açdıqca, canıma qısqanclıqdan yüz qıvrım və düyün düşmüşdür.

[3] Ey üzü gül, köynəyi gül rəngli, donu qırmızı, atəşin paltar geyib bizi odlara yandırdın, ey zalım qızı, adəm oğlundan sənin kimisi doğulmaz, gözəllik bəhsində ay və gün camalının yanında acizdir. Sanki atan işıqlı aydır, anan günəş.

Al saç bağında, mişkin saç pərişan haliyəm,
Sim-saq üzrə qızıl xəlxallər pamaliyəm,
Sanma xalxalın kimi mehrindən, ey məh, xaliyəm,
Arizin dövründə zərrin silsilən timsaliyəm,
Qəmzən oxundan, həzin canımda yüz min iztirab[4].

Sürmədən gözlər qara, əllər hənadan laləreng,
Hiç şahid yox bu rəng ilə ki, sənsən şuxü şəng,
Vəsməli qaşın yaşıl tozlu kəman, qəmzən xədəng,
Qəmzəvü qaşinə meyl eylər Füzuli bidirəng,
Quş əcəbdir qılmamaq tirü kəmandan ictinab[5].

[4] Qırmızı saç bağında mişkin saçından halım pərişandır, gümüş baldırının üstündə qızıl xalxalların məhviyəm, ey ay, sanma ki, xalxalın kimi sənə sevgim yoxdur, üzünün dövrəsində qızıl hörüyün kimiyəm qəmli canımda qəmzənin oxundan yüz min qəm var.

[5] Sürmədən gözləri qara, əllər hənadan lalə rəngli, heç bu rəng ilə bir gözəl yoxdur ki, sənin kimi şux və göyçək olsun, qəmzəli qaşın yaşıl tozlu yay, qəmzən ox, Füzuli dayanmadan qəmzə və qaşına meyl edər, quşun yay və oxdan çəkinməməsi təəccüblüdür.



**3**

Tən pozuldu əşki-çeşmi-xunfəşanimdən mənim,
Göydü can könlümdəki suzi-nihanimdən mənim,
Ta əsər var cismü cani-natəvanimdən mənim,
Ğəm kəm etməz gözü könlüm cismü canimdən mənim,
Bu başımdan savulub, ol getsə yanimdən mənim[1].

Meyli-vəsl əgmiş qədimi çəngi-bəzmi-yar tək,
Rəglərim sızlar əl ursam çəng üzrə tar tək,
Çəngü ney mümkün kəm edə zarlıq mən zar tək,
Bəs ki, məmluyəm həvayi-eşqə musiqar tək,
Min fəğan hərdəm çıxar hər üstüxanimdən mənim[2].

Aləmi tutdu sirişkim qanı, tutmazsan xəbər!
Saldı yaşım rəxnələr yollarə, qılmazsan nəzər!
Qan yaşımdan sarı kim, tutmuş yolun, qıl bir güzər
Meyl qıl, məndən yana hər dəm bu istiğna yetər!
Qanlı isəm dəxi gəl keç şimdi qanimdən mənim[3].

[1] Qan saçan gözümün yaşından bədənim pozuldu, könlümdəki gizli yanğıdan canım yandı, nə qədər ki, zəif bədənimdən və canımdan bir əsər var, gözüm və könlüm bədənimdən və canımdan qəmi əskik eləməz. Bu başımdan sovuşub o, yanımdan getsə.

[2] Vüsal istəyi boyumu yar məclisinin çəngi kimi əymişdir, əl vursam çəng üstündəki tellər kimi damarlarım sızlayar. Çəng və ney mümkündür ki, mən ağlara nisbətən az ah-zarlıq eləsin, eşq havası ilə ney kimi o qədər doluyam ki, hər an hər sümüyümdən min fəğan çıxar.

[3] Göz yaşımın qanı dünyanı tutdu, xəbər tutmazsan, yaşım yollara çatlar saldı, nəzər yetirməzsən, qan yaşım yolunu tutmuşdur, bu yöndən bir ora ayaq bas, mənə bir meyl elə, bu etinasızlıq yetər, qanlı isəm dəxi indi mənim qanımdan gəl keç!

Güz evi tək oldu əşkimdən çox evlər qərqi-ab,
Göz evi tək qıldı çox ev mərdümi-çeşmim xərab,
Aləmi seylabə verdim, ey camalı afitab!
Görünür mərdüm gözünə seyldən qopmuş hübab,
Suyə hər ev kim gedər, əşki-rəvanimdən mənim[4].

Ey xəyalın xəlvəti nəqdi-rəvanım məxzəni,
Göz yaşı olur rəvan hərgəh xəyal etsəm səni,
Lütf umub səndən, səri-kuyində etdim məskəni,
Gəl gözüm nuri, Füzuli tək çox ağlatma məni,
İnciməzmi xatirin ahü fəğanimdən mənim[5].

[4] Çox evlər mənim göz yaşımdan payız evi kimi suya qərq oldu, göz bəbəyim göz evi kimi çox evi xarab etdi, ey camalı günəş, dünyanı selə verdim, adamın gözünə göz yaşımdan suya gedən hər ev bir köpük kimi görünür.

[5] Ey xəyalının xəlvəti canımın varının xəzinəsi, nə vaxt səni xəyal etsəm, göz yaşım axır, səndən iltifat umub olduğun yerdə məskən saldım, ey gözümün nuru, Füzuli kimi məni gəl çox ağlatma, mənim ah və fəğanımdan könlün inciməzmi?



# TƏXMİSLƏR

## 1

Ta cünun rəxtin geyib, dutdum fəna mülkün vətən,
Əhli-təcridəm, qəbul etmən qəbavü pirəhən,
Hər qəbavü pirəhən geysəm misali-qönçə mən.
"Gər səninçün qılmasam çak, ey büti-nazikbədən!
Gorum olsun bu qəba, əynimdə pirahən kəfən"[1].

Gərçi sevdayi-səri-zülfündənəm zarü zəlil,
Keçmən ol sevdadən olduqca mənə ömri-təvil"
Sanma tərk edəm bu sevdayı gər olsam həm qətil,
"Çıxmaya sevdayi-zülfün başdan, ey məh, gər yüz il
Üstüxani-kəlləm içrə dutsa əqrəblər vətən"[1].

Qalib oldu sübhdəm şövqi-güli-ruyin mana,
Seyri-bağ etdim ki, buyi-gül verə təskin mana.
Gül görüb, yadınla dürri-əşk saçdım hər yana,
"Düşdü şəbnəm, bağə gir, ta gül nisar etsin sana,
Səbzənin hər bərginə bir dür ki, tapşırmış çəmən"[3].

[1] Dəlilik paltarını geyinib yoxluq mülkündə vətən tutdum, mən təklik əhliyəm, qəba və köynək qəbul etmərəm. Qönçə kimi hər qəba və köynək geyinsəm, "ey nazik bədənli büt, əgər sənin üçün parça-parça etməsəm, bu qəba gorum olsun, əynimdə köynək kəfən".

[2] Düzdür, zülfünün ucunun sevdası ilə ağlar və zəliləm, ömrüm uzun olduqca o sevdadan keçmərəm, sanma bu sevdanı ölsəm də, tərk edim, "ey ay, əgər yüz il kəlləmin sümüyü içində əqrəblər vətən tutsa da, zülfünün sevdası mənim başımdan çıxmaz".

[3] Sübh çağı gül üzünün şövqü mənə üstün gəldi, bağın seyrini etdim ki, gülün ətri mənə təskinlik verə, gülü görüb, səni xatırlayaraq hər yana göz yaşı inciləri saçdım, "Şeh düşdü, bağa gəl ki, çəmənin göy otların hər yarpağına tapşırdığı bir incini gül sənə nisar etsin!"

Der idim, ey dil, gətirmə hiç dərd əhlinə şəkk,
Ta səni həm salmasın bir dərdə dövrani-fələk.
Almadın pənd, imdi aşiqsən, işin ah eyləmək,
"Ey könül, eşq əhlinə hər şəb gülərdin şəm' tək,
Mən deməzmidim ki, danla ağlıyasıdır gülən"[4].

Xah sincab eyləsin fərşin, Füzuli, xah gil,
Hicr ilə mütləq yuxu görməz göz, əylənməz könül,
Yarsız eşq əhlinin dinlənməgi mümkün degil,
"Necə dinlənsin Həbibi, sənsiz, ey əndami-gül
Kim, batır cisminə təndə hər tük olmuş bir tikən"[5].

[4] Deyirdim, ey ürək, dərd əhlinə heç şəkk gətirmə, ta fələyin dövranı səni də bir dərdə salmasın, nəsihət almadın, indi aşiqsən, işin ah eyləmək, "ey könül, eşq əhlinə hər gecə şam kimi gülərdin, mən deməzdimmi ki, gülən sabah ağlayasıdır".

[5] Füzuli fərşini sincab eləsin, istər palçıq, ayrılıq ilə mütləq göz yuxu görməz, könül əylənməz, yarsız eşq əhlinin təsəlli tapmağı mümkün deyil, "Həbibi sənsiz necə şad olsun, ey əndamı gül ki, hər tük bir tikan olub bədəninə batır".



## 2

Candadır sübhi-əzəldən mehri-rüxsarın sənin,
Nola ta şami-əbəd olsam tələbkarın sənin,
İmdi cana bolmamış min aşiqi-zarın sənin,
Ey əzəldən ta əbəd könlüm giriftarın sənin,
Çarə qıl kim, boldu canım əsrü əfkarın sənin[1]!

Tutdular təşxisi-dərd üçün müalicələr rəgim,
Tapdı bu sihhət ki, sihhətdən yəqindir ölməgim,
Çün yəqin oldu dəvasız dərdilən can verməgim,
Can verir çağında tanrıyçün qaşımğa gəl bəgim,
Bari görmüş bulğa min bir ləhzə didarın sənin[2].

Xubları imtəhan qılmaqda çox çəkdim cəfa,
Naleyi-zarilə bildim dərdi-dil bulmaz şəfa,
Mən sınadım, şimdi sən pəndim eşit, qıl iktifa,
Çünki xublar məzhəbində yox imiş rəsmi-vəfa,
Ey könül, nə yerə yetgay naleyi-zarin sənin[3]?

[1] Əzəl sübhündən sənin üzünün mehri candadır, əbədiyyətə qədər səni istəsəm, nə olar. İndi ey can, sənin min ağlar aşiqin olmamış, "ey əzəldən əbədiyyətə qədər könlüm sənin əsirin olan, çarə qıl ki, canım əsirin və yaralın oldu".

[2] Dərdimi müəyyənləşdirmək üçün həkimlər nəbzimi tutdular, bu aydın oldu ki, ölməyim sağalmağımdan daha yəqindir, elə ki, davasız dərd ilə can verməyim yəqin oldu, "can verən çağımda, tanrı üçün qarşıma gəl, bəyim, barı bir an sənin üzünü görmüş olum".

[3] Gözəlləri imtahan etməkdə çox cəfa çəkdim, ağlar nalələrlə bildim, ürək dərdi şəfa tapmaz, mən sınadım, indi sən öyüdümü eşit və kifayətlən. "Çünki gözəllərin məzhəbində vəfa qaydası yox imiş, ey könül, sənin ağlar nalən haraya çatacaq?"

Könlüm aldı ol iki əyyar çeşmi-pürxumar,
Şimdi can qəsdin həm etmişlər nə məkrilən ki, var,
Ürf içində olsa hər əyyar qövli-istivar,
Şər'ilən gər tutsalar əsrük sözinə e'tibar,
Qanıma vergay danuqluq iki əyyarın sənin[4].

Sanma cövr etsən Füzuli incinib tərkin qılə.
Gər cəfa qıl, gər vəfa canı fəda sən qatilə,
Mən xud öldüm, imdi sən tiği-cəfa alıb ələ,
Lütfünü öldürsən, ey dilbər, cəfa tiği bilə,
Anda həm bolğay mənim ruhim mədədkarın sənin[5].

[4] O iki, çox xumar hiyləgər göz könlümü aldı, indi nə hiylə ilə olur-olsun can qəsdini də etmişlər, qayda içində hər hiyləgərin sözü möhkəm olsa, "əgər şəriət qaydası ilə xəstə sözünə etibar etsələr, qanıma sənin iki hiyləgərin şahidlik verəcək".

[5] Sanma, cövr etsən, Füzuli inciyib səni tərk edə, istər cəfa et, istər vəfa, onun canı sən qatilə fəda olsun, mən özüm öldüm, indi sən cəfa xəncərini ələ al, "Lütfini ey dilbər, cəfa xəncəri ilə öldürsən, onda da mənim ruhum sənin köməyin olsun".



# MÜRƏBBELƏR

## 1

Necə bir vəsvəseyi-əql ilə qəmnak olalım,
Nəş'eyi-mey tapalım, qabili-idrak olalım.
Gəlin alayişi-qəmdən çıxalım, pak olalım.
Məstü mədhuşü xərabatiyü bibak olalım[1].

Rindlər bəzminə sərməst səbu tək giribən,
Zövq bağinə girib, cam gülünü dəribən,
Meyə derlərsə bəha əql mətain veribən,
Məstü mədhuşü xərabatiyü bibak olalım[2].

Payi-bəsti-meyi-safi olalım dürd misal,
Verəlim saqiyə can, eyləyəlim kəsbi-həlal,
Nəş'ədən bilməyəlim aləmi-keyfiyyəti-hal,
Məstü mədhuşü xərabatiyü bibak olalım[3].

[1] Necə bir ağlın tərəddüdü ilə qəmli olaq, mey nəşəsi tapaq, idraka qabil olaq, mey nəşəsi tapaq, idraka qabil olaq, gəlin qəm bulaşığından çıxaq, pak olaq, sərxoş, huşsuz, qorxmaz xarabat əhli olaq.

[2] Sərxoş kuzə kimi rindlər məclisinə girib, zövq bağına girib, can gülünü dərərək, şərabın qiymətini ağıl malına baha verib, sərxoş, huşsuz, qorxmaz xarabat əhli olaq.

[3] Xılt kimi saf meyin əsiri olaq, saqiyə can verib, halal qazanc əldə edək, nəşədən aləmin halının keyfiyyətini bilməyək, sərxoş, huşsuz, qorxmaz xarabat əhli olaq.

Mey hübabı kimi meyxanədə bir ev tutuban,
İqdi-əngur kimi bir araya baş çatuban,
Alsalar, din ilə dünyayi şərabə satuban,
Məstü mədhuşü xərabatiyü bibak olalım[4].

Badədən qeyri ki, qəm dəf'inə bir cam yetər
Nəqdini nisyəyə hər kim verəcək olsa itər,
Ey Füzuli, rəvişi-əhli-riyadən nə bitər?
Məstü mədhuşü xərabatiyü bibak olalım[5].

[4] Şərab köpüyü kimi meyxanada bir ev tutuban, üzüm salxımı kimi bir araya baş çatıban, alsalar, din ilə dünyanı şəraba satıban, sərxoş, huşsuz, qorxmaz xarabat əhli olalım.

[5] Şərabdan başqa qəmi yox etmək üçün bir cam yetər, hər kim nəqdini nisyəyə verəsi olsa, itər, ey Füzuli ikiüzlülərin hərəkətindən nə bitər? Sərxoş, huşsuz, qorxmaz xarabat əhli olalım.



**2**

Pərişan halin oldum, sormadın hali-pərişanım,
Qəmindən dərdə düşdüm, qılmadın tədbiri-dərmanım,
Nə dersən, ruzigarım böyləmi keçsin, gözəl xanım!
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım[1]!

Əsiri-dami-eşqin olalı, səndən vəfa görmən,
Səni hər qanda görsəm, əhli-dərdə aşina görmən,
Vəfavü aşinalıq tərkini səndən rəva görmən,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım[2].

Dəgər, hərdəm vəfasız çərx yayından mənə bir ox,
Kimə şərh eyləyim kim, möhnətü əndühü dərdim çox.
Sənə qaldı mürüvvət, səndən özgə hiç kimsəm yox,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım[3]!

Gözümdən dəmbədəm bağrım əzib yaşım kimi getmə!
Səni tərk etməzəm çün mən, məni sən dəxi tərk etmə!
İkən həm zalım olma, mən kimi məzlumu incitmə!
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım[4]!

[1] Pərişan halın oldum, pərişan halımı soruşmadın, qəmindən dərdə düşdüm, dərman tədbiri etmədin, nə deyirsən, günüm beləmi keçsin, gözəl xanım, gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

[2] Eşqimin torunda əsir olalı səndən vəfa görmürəm, səni harda görsəm dərd əhlinə dost görmürəm, vəfa və dostluğu tərk etməyi səndən rəva görmürəm, gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

[3] Hər an mənə vəfasız çərx yayından bir ox dəyər, kimə şərh edim, möhnət, kədər və dərdim çoxdur, mürüvvət sənə qaldı, səndən özgə bir kimsəm yoxdur, gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

[4] Gözümdən anbaan bağrımı əzib yaşım kimi getmə! Mən səni tərk etmədiyim kimi sən də məni tərk etmə, həm də çox zalım olma, mənim kimi məzlumu incitmə, gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım.

Qatı könlün nədən bu zülm ilə bidadə rağibdir,
Gözəllər nisbəti olmaz cəfa, səndən nə vacibdir.
Sənin tək nazəninə, nazənin işlər münasibdir,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım[5]!

Nəzər qılmazsan əhli-dərd gözdən axıdan seylə,
Yamanlıqdır işin üşşaq ilə, yaxşımıdır böylə?
Gəl, Allahı sevirsən aşiqə cövr etmə, lütf eylə,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım[6]!

Füzuli şiveyi-ehsanın istər, bir gədayindir,
Dirildikcə sənin kuyin yolunda xaki-payindir,
Gərək öldür, gərək qoy, hökm-hökmün, rə'y-rə'yindir,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım[7]!

[5] Qatı könlün nədən bu zülm ilə ədalətsizliyə rəğbətlidir, gözəllərin sifəti cəfa olmaz, səndən nə vacibdir, sənin kimi nazəninə nazənin işlər yaraşır, gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

[6] Dərdlilərin gözündən axan selə baxmazsan, aşiqlərlə işin yamanlıqdır, belə yaxşıdırmı, gəl, Allahı sevərsən, aşiqə cövr etmə, lütf eylə, gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

[7] Füzuli sənin ehsan şivəni (qaydanı) istəyir, bir yolçundur, dirildikcə sənin olduğun yerin yolunda ayaq torpağındır, istər öldür, istər qoy, hökm-hökmün, rəy-rəyindir, gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!



### 3

Hasilim bərqi-həvadisdən, məlamət dağıdır,
Məsnədim kuyi-məlamətdə, fəna torpağıdır,
Zar könlüm təndə zindani-bəla dustağıdır,
Rəhm qıl dövlətli sultanım, mürüvvət çağıdır[1]!

Dövr cövrindən tənü canimdə rahət qalmadı,
Surəti-halimdə asari-fərağət qalmadı,
Möhnətü qəm çəkməyə minbə'd taqət qalmadı,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır[2]!

Könlümün mülkün, cəfa seylabı viran eylədi,
Bəxtimin halin, hücumi-qəm pərişan eylədi,
Bağrımı əndişeyi-dövri-fələk qan eylədi,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır[3]!

İntihasız cövrlər odlarə yandırdı məni,
Acı sözlər dadlı canımdan usandırdı məni,
Xəlqdən bihudə fəryadım utandırdı məni,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır[4]!

[1] Hadisələr ildırımından topladığım danlaq dağıdır, danlaq mənzilində taxtım fəna (yoxluq) torpağıdır, ağlar ürəyim bədəndə bəla zindanının dustağıdır, rəhm elə, dövlətli sultanım, mürüvvət çağıdır!

[2] Dövrün zülmündən bədən və canımda rahatlıq qalmadı, halımın necəliyində asudəlik izləri qalmadı, möhnət və qəm çəkməyə bundan sonra taqət qalmadı. Rəhm et, dövlətli sultanım, mürüvvət çağıdır!

[3] Könlümün mülkünü cəfa seli viran eylədi, bəxtimin halını qəmin hücumu pərişan eylədi, bağrımı fələyin dövrünün fikri qan eylədi, rəhm et, dövlətli sultanım, mürüvvət çağıdır!

[4] Sonsuz zülmlər məni odlara yandırdı, acı sözlər dadlı canımdan məni usandırdı, bihudə fəryadım məni xalqdan utandırdı, rəhm et, dövlətli sultanım, mürüvvət çağıdır!

İstəyib bir çarə, çox yeldim, yügürdüm hər yana,
Rəhm edib, bir kimsə imdad etmədi mütləq mana,
Çarəsiz qaldım, mürüvvət istəyib gəldim sana,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır[5]!

Dadə gəldim ədl divaninə, fəryadım eşit!
Sən ki, adilsən, gör əfğanım nədəndir, ğurə yet!
Şərhi-halim sor, muradım ver, əlim tut, fikrim et!
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır[6]!

Gör Füzulinin rüxi-zərdində əşki-alini,
Pərdeyi-idbar tutmuş surəti-iqbalini,
Dərdiməndindir inayətlər edib, sor halini,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır[7]!

---

[5] Bir çarə istəyib çox qaçdım, yüyürdüm hər yana, rəhm edib bir kimsə, mütləq mənə imdad etmədi, çarəsiz qaldım, mürüvvət istəyib sənin yanına gəldim, rəhm et, dövlətli sultanım, mürüvvət çağıdır!

[6] Ədalət divanına dada gəldim, fəryadımı eşit, sən ki, ədalətlisən, gör əfğanım nədəndir, dərininə yet, halımın şərhini soruş, muradımı ver, əlimi tut, fikrimi et, rəhm et, dövlətli sultanım, mürüvvət çağıdır!

[7] Füzulinin sarı bənizində qırmızı göz yaşını gör, bəxtinin üzünü bəxtsizlik pərdəsi tutmuşdur, sənin dərdlindir, mərhəmət göstər, halımı soruş, rəhm et, dövlətli sultanım, mürüvvət çağıdır!



## QİT'ƏLƏR

### 1

Çox təfaxür qılma cəm'i-mal ilə, ey xacə kim,
Simü zər cəm'iyyəti əhli-qürur eylər səni.
Barigahi-qürbdən cəm'iyyəti-malü mənal,
Hər nə miqdar olsa, ol miqdar dur eylər səni.
Gərçi ne'mət çox, kifayətdən təcavüz qılma kim,
İmtila bari-bədəndir bihüzur eylər səni.

### 2

Əhli-kəmalə cahil əgər qədr qılmasa,
Mə'zurdur, məlamətin etmək rəva degil,
Cahil təbiətində məzaqi-kəmal yox,
Hər nəfsə iqtidai-təbiət xəta degil.
Ülfət həmişə fər'i olur aşinalığın,
Cahil fəzilət əhli ilə aşina degil.

---

**1**

Ey xacə, mal toplamaqla çox fəxr etmə, çünki gümüş və qızıl toplanılması səni qürurlu edər.
Mal-dövlətin çoxluğu nə miqdar olsa, səni Allahla yaxınlıq sarayından o qədər uzaq edər.
Düzdür, nemət çoxdur, ancaq lazım olandan artıq etmə, qanın çoxluğu bədənə yükdür, səni rahatlıqdan qoyar.

**2**

Cahil kamal sahibinə qiymət qoymasa, üzürlüdür, onu danlamaq düz deyil, cahilin təbiətində kamal tamı yoxdur, hər nəfsin öz təbiətini izləməsi səhv deyil. Ülfət həmişə tanışlıqdan törəyir, cahil hünər əhli ilə tanış deyil.

**3**

Ey səfayi-surətin qeydin çəkən, bil kim, hənuz
Jəngdən ayineyi-idrakını pak etmədin.
Jəngdir ayineyi-idrakə hər surət ki var,
Sən hənuz, ey sadə, bu məzmuni idrak etmədin.

**4**

Pərdə çək eybinə zülmət kimi xəlqin daim,
Gər dilərsən ki, nəsib ola sənə abi-həyat.

Qılma xurşid kimi eybnümalıq ki, fələk
Yerə salmayə səni bə'd ülüvvüd-dərəcat.

Cəhd qıl zatın ola məzhəri-asari-qəbul,
Qılma ol cahə təfaxür ki, ola xarici-zat.

Fəzl olur sanma sənə mənziləti-əslü nəsəb,
Cah olur sanma sənə kəsrəti-əsbabü cihat.

Ariyətdən özünə qılma qəmər tək ziynət,
Qeyridən ariyətin nur isə həm yazıya at.

---

**3**

Ey surətinin saflığının qayğısını çəkən, bil ki, hələ idrakının aynası pasdan təmizlənməyib.

Hər bir surət idrak aynasına pasdır, ey sadə, sən hələ bu məzmunu dərk etmədin.

**4**

Əgər sənə dirilik suyu qismət olmasını istəyirsənsə, xalqın eybinin üzünə zülmət kimi bir pərdə çək.

Günəş kimi eyib göstərənlik etmə ki, fələk səni ən yüksək dərəcədən sonra yerə salmaya.

Ona cəhd et ki, qəbul əsərlərinin nümunəsi olasan, o rütbə və malla fəxr etmə ki, zatdan kənar ola.

Əslin-nəsəbin dərəcəsi sanma ki, sənə hünər olsun, vasitə və cəhətlərin çoxluğu sanma ki, sənə rütbə olsun.

Ay kimi özünə borcla ziynət düzəltmə, özgədən aldığın borc hətta işıq olsa da, çölə at.



**5**

Ey müəllim, aləti-təzvirdir əşrarə elm,
Qılma əhli-məkrə tə'limi-məarif zinhar!
Hiylə üçün elm tə'limin qılan müfsidlərə,
Qətli-am üçün verər cəlladə tiği-abidar.
Hər nə təzvir etsə əhli-cəhl ona olmaz səbat,
Məkri-əhli-elmdir, əsli-fəsadi-ruzigar.

**6**

Bəxil qılmasa cəm' etdiyi dirəm sərfin,
Nihali-məqsədi sərsəbz olub səmər verməz
Əlindəki gühəri bəzl qılmasa mümsik,
Şəbi-qəminə əməl müjdeyi-səhər verməz.
Tükənməyincə kəvakib günəş tülu' etməz,
Tökülməyincə şükufə nihal bər verməz.

---

**5**

Ey müəllim, yaman adamlar üçün elm hiylə alətidir, zinhar məkrli olanlara maarif təlimi etmə.

Araqarışdıranlara hiylə üçün elm öyrədən cəllada xalqı qırmaqdan ötrü iti qılınc verir.

Cahillər hər nə hiylə işlətsələr onda sabitlik olmaz, dövrün fəsadlarının əsli elm əhli olanların məkri, hiyləsidir.

**6**

Xəsis yığdığı dirəmi sərf etməsə, məqsəd ağacı yaşıllaşıb meyvə verməz.

Xəsis əlindəki incini bağışlamasa, arzusu qəm gecəsinə səhər müjdəsi verməz.

Ulduzlar tükənməyincə günəş çıxmaz, açılmış güllər tökülməyincə ağac məhsul verməz.

**7**

Ey ki, əndişeyi-mal ilə sərasimə olub,
Dünü gün dəhrdə aşüftə keçər əhvalın.
Cəm'i-mal eylədiyin rahət üçündür, amma
Rahətin əksik olur hər necə artar malın.
Mal çox etmə, həzər eylə əzabından kim,
Rənci artar ağır olduqca yükü həmmalın.

**8**

Mən sübhü şam dudi-dili-suzinak ilə,
Bağrın kəbab edib, verərəm çərxə inqilab,
Hutü Həməl mədari ilə asiman dəxi,
Qan uddurub verər dili-suzanıma əzab.
Dünyadə yox fərağətə ümmid, netəkim,
Qan uddurur oda, netəkim, cizginir kəbab.

**9**

Elm kəsbilə rütbeyi-rif'ət
Arizuyi-mühal imiş ancaq.
Eşq imiş hər nə var aləmdə,
Elm bir qiylü qal imiş ancaq.

---

7

Ey mal fikri ilə ağlını itirən, dünyada gecə-gündüz əhvalın həyəcan içində keçər.
Mal yığmağın rahatlıq üçündür, ancaq malın nə qədər artırsa, narahatlığın da bir o qədər artır.
Çox mal yığma əzabından çəkin ki, hambalın yükü ağır olduqca əziyyəti artar.

8

Mən səhər-axşam yanan ürəyimin tüstüsü ilə bağrımı kabab edib, çərxə dəyişilmə verirəm.
Hut və Həməlin dairəsi ilə göylər də qan uddurub yanan ürəyimə əzab verir.
Dünyada rahatlığa ümid yoxdur, neyləyim, kabab fırlanır və oda qan uddurur.

9

Elm qazanmaqla yüksək rütbə ancaq bir çətin arzu imiş.
Aləmdə nə varsa eşq imiş, elm ancaq bir hay-küy imiş.



**10**

Olsa məqsudunca dövrani-fələk bir neçə gün
Olma məğrur, ey ki, hali-dəhr rovşəndir sənə.
Qatili-abavü əcdadın müaf etmək səni,
Umma onda dustluq rəsmin ki, düşməndir sənə.

**11**

Gəlin, ey əhli-həqiqət, çıxalım aləmdən,
Qeyr yerlər gəzəlim, özgə səfalər görəlim,
Seyri-gərmiyyəti-qovğayi-qiyamət qılalım,
Vəz'i-cəm'iyyəti-həngameyi-məhşər görəlim.
Rəvişi-silsileyi-dəhr məlul etdi bizi,
Necə bir dəhrdə ovzai-mükərrər görəlim.

**12**

Necə bir nəfs təmənnası ilə,
Yeməkü içmək ola dilxahın
Eyləyib zöhdü vərə'dən nifrət,
Taəti-həqdən ola ikrahın.
Mə'bədin mətbəx ola şamü səhər,
Müstərah ola ziyarətgahın.
Bunun üçünmü olubsan məxluq?
Bumudur əmri sənə Allahın?

---

10

Ey dünyanın halını aydın bilən, fələyin dövranı bir neçə gün sənin məqsədincə olsa, məğrur olma!
Ata-ana və əcdadının qatilinin səni bağışlamasına görə ondan dostluq umma, sənə düşməndir.

11

Ey həqiqət əhli olanlar, gəlin dünyadan çıxaq, qeyri yerlər gəzək, özgə səfalar görək.
Qiyamət qovğasının qızğınlığının tamaşasına duraq, məhşər həngaməsinin yığıncağının hərəkətini görək.
Dünyanın hərəkətlərinin zənciri bizi usandırdı, bir dünyada təkrar vəziyyəti necə görək?!

12

Necə bir nəfs təmənnası ilə ürəyin istədiyi yemək və içmək ola.
Zöhd və haramdan çəkinmə əməllərindən nifrət edib, Allaha ibadətdən ikrah edəsən.
Axşam-səhər məbədin mətbəx ola, ayaqyolu ziyarətgahın ola.
Bunun üçünmü yaranmısan, Allahın sənə əmri budurmu?!

## 13

Həmişə dustum oldur derəm ki, mal verib,
Qılır təbiətimi bəsteyi-əlaqeyi-mal.
İbadəti-həqü kəsbi-ülum üçün mütləq,
Qomaz mülahizeyi-zəbti-mal, məndə məcal.
Müdam düşmən ona söylərəm ki, malım alıb,
Mənə müyəssər edər ne'məti-fərağəti-hal.
Hüzuri-qəlb verər rovnəqi-ibadəti-həqq.
Fərağı-xatir olur mucibi-hüsuli-kəmal.
Fəğan ki, dustumu düşmənimdən etmən fərq
Kəmali-cəhl ilə ovqat sərf olur məhü sal.
Bu cəhl ilə özümü əhli-mə'rifət sanıram,
Zəhi təsəvvüri-batil, zəhi xəyali-mühal!

## 14

Ey qaziyi-xücəstəliqa kim, həq eyləmiş,
Sahibsəriri-məsnədi-hökmi-qəza səni!
Cəhd eylə kim, mülahizeyi-nəf'i-dünyəvi,
Hökmi-qəzadə etməyə əhli-xəta səni.
Məqbuli-xəlq qılmış ikən elmü mə'rifət
Mərdudi-xaliq eyləməyə irtişa səni.

---

13

Həmişə dostum odur deyirəm ki, mal verib təbiətimi mal əlaqəsinə bağlayır. Allaha ibadət və elm qazanma üçün mütləq mal almaq mülahizəsi məndə vaxt qoymur.
Həmişə düşmən ona deyirəm ki, mənə halımın rahatlığı nemətini bağışlayır. Haqqa ibadətin gözəlliyi qəlbə dinclik verər, kamal toplamaq zərurəti xatirin dincliyi olur.
Fəğan ki, dostunu düşmənimdən fərq etmirəm, ay və il vaxtımı tam cahilliklə keçirirəm.
Bu cəhl (bilməzlik) ilə özümü mərifət sahibi sayıram, əhsən bu yanlış təsəvvürə! Əhsən bu ağlasığmaz xəyala!

14

Ey xoşbəxt qazi, Allah səni qəza hökmü mənsəbinin taxt sahibi etmişdir.
Cəhd et ki, dünyəvi xeyir mülahizəsi səni qəza (məhkəmə) hökmündə xəta sahibi etməsin.
Elm və mərifət səni xalq tərəfindən qəbul etdirdiyi halda rüşvətxorluq səni yaradanın rədd etdiyi bir adam etməyə!



## 15

Oldur qəzəl ki, feyzi onun am olub müdam,
Arayişi-məcalisi-əhli-qəbul ola.
Virdi-zəbani-əhli-səfavü sürur olub,
Məzmunu zövqbəxş, səriül-hüsul ola.
Ondan nə sud kim, ola mübhəm ibarəti,
Hər yerdə istimain edənlər məlul ola.

## 16

Sərfi-nəqdi-ömr edib mən kəsbi-irfan etmişəm,
Əhli-dünya həm kəmali-cəhl ilə təhsili-mal.
Dəhr bir bazardır hər kim mətain ərz edər:
Əhli-dünya – simü zər, əhli-hünər-fəzlü kəmal.
Kim ki, məndən nəf' bulmaz, istəmən nəf'in onun,
Ol ki, yox nəf 'im ona, nə'fi mənə olmaz həlal.
İstəmən nadan mənə gər versə gənci-simü zər
Kim əvəzsiz malə nadandan təsərrüfdür vəbal.

---

15

Qəzəl odur ki, onun faydası həmişə bütün xalqa yetə, qəbul əhli olanlar məclisinin bəzəyi ola.
Səfa və sevinc məclisi əhlinin dilinin əzbəri olub məzmunu zövq verən və tez anlaşılan ola, ondan nə fayda ki, sözləri anlaşılmaya, hər yerdə dinləyənlər kədərlənə.

16

Ömrümün varını sərf edib mən ürfan qazanmışam, dünyapərəst isə tam cahilliklə mal yığmışdır.
Dünya bir bazardır, hər kəs öz malını göstərir, dünya əhli gümüş-qızıl, hünər əhli isə fəzilət və kamal.
Kim ki, məndən fayda görməz, onun faydasını istəmirəm, o adama ki, xeyrim yoxdur, onun xeyri mənə halal olmaz.
Əgər nadan mənə gümüş-qızıl xəzinəsi versə, istəmirəm, nadandan əvəzsiz olaraq mal ələ keçirmək günahdır.

17

Eyləyib nadanə ərzi-fəzlü izhari-hünər.
Şərmsar etmək, əta ummaq, nədir zülmi-sərih!
Sən bilirsən mücmələn ondan nə alırsan, vəli
Bilməz ol kim, aldığı səndən həsəndir, ya qəbih.
Zahirən satmaq hünər, almaq əta bir bey'dir.
Tifldir nadan, buyurmaz şər' onun bey'in səhih.

18

Hər kimin var isə zatında şərarət küfrü,
İstilahati-ülum ilə müsəlman olmaz.
Gər qara daşı qızıl qan ilə rəngin edəsən,
Təb'ə təğyir verib, lə'li-Bədəxşan olmaz.
Eyləsən tutiyə tə'lim ədayi-kəlimat,
Nitqi insan olur, əmma özü insan olmaz.
Hər uzun boylu şücaət edə bilməz də'va,
Hər ağac kim boy ata, sərvi-xuraman olmaz.

---

17

Nadana fəzilət göstərib hünər bildirmək, utandırmaq, bəxşiş ummaq nədir? Açıq zülm!
Sən ondan nə alırsansa, qısa olaraq bilirsən ki, aldığın gözəldir, ya eybəcər.
Hünər satmaq, bəxşiş almaq aşkarca alış-verişdir, nadan bir uşaqdır və şəriət onun alverini düz saymaz.

18

Hər kimin zatında yamanlıq küfrü varsa, elmi istilahlar öyrənməklə müsəlman olmaz.
Əgər qara daşı qızıl qan ilə rəngləyəsən, təbiətini dəyişdirib Bədəxşan incisi olmaz.
Tutiyə danışıq qaydası öyrətsən, nitqi insan nitqi olar, amma özü insan olmaz.
Hər uzun boylu şücaət iddiası edə bilməz, boy atan hər ağac nazla yeriyən sərv olmaz.



19

Ey xacə, gər qulundan oğulluq murad isə,
Şəfqət gözilə bax ona daim oğul kimi.
Vər oğlunu dilərsən ola sahibi-ədəb.
Əlbəttə eylə zillətə mö'tad qul kimi.

20

Ey vəziri-mülkpərvər kim, nizami-mülk üçün,
İntixab etmiş cəmii-xəlqdən sultan səni.
Həllü əqdin aləmin qılmış müfəvvəz rə'yinə,
Naibi-hökmi-xilafət eyləyib dövran səni.
Qıl həzər kim, olmaya nagəh mizacın münqəlib,
Qılmaya sərməst, cami-şövkəti-divan səni.
Olasan insaf üçün mənsub ikən əhli-fəsad
Edə din əhlinə afət qilləti-iyman səni.
Etməyə mə'mureyi-islami viran, kəndüyə,
Ə'zəmi-ə'vanü ənsar eyləyə şeytan səni.
Etmiş ikən əfzəli-xəlqi-cəhan iqbal ilə,
Ərzəli-əhli-cəhənnəm eyləyə sübhan səni.

---

19

Ey xacə, əgər qulundan oğulluq görmək muradın varsa, ona həmişə oğul kimi şəfqət gözü ilə bax.
Və əgər oğlunu ədəb sahibi görmək istəyirsənsə, əlbəttə, qul kimi əziyyətə öyrət.

20

Ey ölkəni abadlaşdıran vəzir, ölkənin nizamı üçün sultan bütün xalqdan səni seçmişdir.
Aləmin işinin qurulması və həllini sənin rəyinə etibar etmişdir, dövran səni hakimiyyət hökmünün canişini etmişdir.
Çəkin birdən təbiətin dəyişməsin, divan şövkətinin camı səni sərxoş etməsin.
İnsafa mənsub olduğun halda araqarışdıranlar imanın azlığı üzündən səni dindarlara bir bəla edə.
İslamın abad dünyasını viran etməyə böyüklər, yardımçılar, ənsarlar səni özləri şeytan eyləyə.
Səni bəxt ilə dünya xalqının üstün bir adamı etmişkən, sübhan (Allah) cəhənnəm əhlinin ən rəzili edə.

21

Ey ki, aləmdə məhəbbət adini məzmum edib,
Hər zaman bir mah-rüxsarın olursan maili.
Keçdi ömrün, şahidi-məqsəd cəmalın görmədin,
Şahidi-məqsəd sağınmış, sən aradə haili.
Arif isən tuta gör sərriştəyi-feyzi-bəqa,
Tərk qıl bu surəti-faniyyü nəqşi-zaili.

22

Əlindən ahlər, ey əxtəri-bəxti-siyahim, kim,
Məni xəlq içrə aliqədr ikən, qayətdə xar etdin,
Qılıb xurşidi-hirman mətləi-ümmid gərdunun,
Vücudimdən misali-sayə səlbi-e'tibar etdin,
Səvadi-didəmi mütləq bəyazi-eynə döndərdin,
Bəyazi-hüsni-halim xali-ruyi-ruzigar etdin.

23

Ey könül, mütləq ibadət qılmayıb, ömrün tamam
Eylədin sevdayi-zülfi hər pərirüxsarə sərf.
Saç ağardı, gəl, yetər mir'ati-bəxtin tirə qıl,
Ömrdən bir dəm ki, qalmış eylə istiğfarə sərf.

---

21

Ey dünyada məhəbbət adını danlayıb hər zaman bir ay üzlünün maili olan. Ömrün keçdi, məqsəd gözəlinin camalını görmədin. Məqsəd gözəli çəkinmiş, sən arada bir çəpərsən.

Arifsənsə, bəqa (əbədilik) nemətinin ipinin ucunu tut, bu fani surət və zay olaraq naxışı tərk elə.

22

Ey qara bəxtimin ulduzu, əlindən ahlar! Məni xalq arasında uca qədrli olduğum halda, xar elədin.

Ümid səmasını ümidsizlik günəşi edib, vücudumdan kölgə kimi etibarın dar ağacını qurdun.

Gözümün qarasını mütləq gözümün ağına döndərdin, halımın gözəlliyinin ağını rüzgarın (zəmanənin) üzünün xalı etdin (ağ günü qara etdin).

23

Ey könül, mütləq ibadət qılmayıb, tamam ömrünü hər pəriüzlünün zülfünün sevdasına sərf etdin.

Saç ağardı, gəl, yetər bəxtinin güzgüsünü qaralt, ömürdən qalan bir anı günahlarının bağışlanmasına sərf et.



24

Xirədməndi ki, daim aləmi-elm içrə seyr eylər,
Əsalibi-fünuni-şe'rdən, əlbəttə, qafildir.
Məzaqi-şe'r həm bir özgə aləmdir, həqiqətdə
İki aləm müsəxxər eyləmək qayətdə müşkildir.

25

Padişahi-mülk dinarü dirəm rüşvət verib,
Fəthi-kişvər qılmağa eylər mühəyya ləşkəri.

Yüz fəsadü fitnə təhrikilə bir kişvər alır,
Ol dəxi asari-əmnü istiqamətdən bəri.

Göstərən saətdə dövrani-fələk bir inqilab
Həm özü fani olur, həm ləşkəri, həm kişvəri.

Gör nə sultanəm məni-dərviş kim, feyzi-süxən
Eyləmiş iqbalimi asari-nüsrət məzhəri.

Hər sözüm bir, pəhlivandır kim, bulub tə'yidi-həqq
Əzm qıldıqda tutar təcrid ilə bəhrü bəri.

Qanda kim, əzm etsə, mərsumü məvacib istəməz,
Qansı mülkü tutsa, dəyməz kimsəyə şurü şəri.

---

24

O ağıl sahibi ki, həmişə elm aləmində seyr edər, şer fənninin üsullarından, əlbəttə, xəbərsizdir.

Şer damağı da həqiqətdə bir ayrı aləmdir, iki aləmi tutmaq olduqca çətindir.

25

Ölkənin padşahı dinar və dirəm rüşvət verib ölkə tutmaq üçün qoşun hazırlayır.

Yüz fəsad və fitnə hərəkəti ilə bir ölkə alır, o da əmin-amanlıq və sabitlikdən uzaqdır.

Fələyin dövranı bir dəyişmə göstərən kimi özü də heç olur, qoşunu da, ölkəsi də.

Mən gör nə sultanam ki, sözün faydası bəxtimi qələbə əsərlərinin təcəssümü etmişdir.

Hər sözüm bir pəhlivandır ki, Allahın yardımı ilə hərəkət etdikdə tədriclə dənizi və qurunu tutar.

Hara hərəkət etsə, əmək haqqı və maaş istəməz, hansı ölkəni tutsa, kimsəyə hay-küy və ziyanı dəyməz.

Payimal etməz onu asibi-dövri-ruzigar,
Eyləməz tə'sir ona dövrani-çərxi-cənbəri.

Qılmasın dünyada sultanlar mənə təklifi-cud,
Bəs dürür başımda tovfiqi-qənaət əfsəri.

Hər cəhətdən fariğəm, aləmdə haşa kim, ola
Rizq üçün əhli-bəqa, əhli-fənanin çakəri.

**26**

Sədayi-ney həram olmaz dedin, ey sufiyi-cahil
Yelə verdin xilafi-şər' ilə namusun islamın.
Bu əndam ilə vəcdiyyatdan dəm urmaq istərsən,
İlahi, ney kimi surax-surax olsun əndamın.

---

...Ruzgarın dövr etməsinin bəlaları onu tapdamaz, çənbər şəkilli çərxin dövranı ona təsir etməz.

Dünyada sultanlar mənə səxavət təklif etməsinlər, başımdakı qənaət yardımının tacı, mənə bəsdir.

Hər cəhətdən asudəyəm. Haşa ki, aləmdə azuqə üçün bəqa əhli (əbədilər) fəna əhlinin (heç olanların) nökəri ola.

**26**

Ey cahil sufi, dedin: neyin səsi haram olmaz. Şəriətin xilafına olmaqla islamın namusunu yelə verdin.

Bu bədənlə vəcdə gəlməkdən dəm vurmaq istəyirsən, ilahi, onun bədəni ney kimi buğum-buğum olsun!



**27**

Müttəsil mə'rifət əhlini ayaqlarə salıb,
Fələki-süflə qılır möhnətü qəm pamali.
Ol ki, cahildir, edib cümlə muradın hasil,
E'tibar ilə qılır məsnədi-qədrin ali.
Bu səbəbdən bilirəm kim, bu cahan övrətdir.
Övrətin böylədir evladi ilə əf'ali,
Ulu övladi kəsər süddənü tə'dib verər,
Süd verib lütf ilə bağlar beşiyə ətfali.

**28**

Yaxamı pənceyi-təxvifi-rəhi-şər' tutar.
Daməni-mə'rifəti-əhli-riyasət tutsam.
Jəngi-iflas tutar ayineyi-rahətimi,
Tərki-hükkam qılıb, künci-qənaət tutsam.
Hiç halətdə bulunmaz əsəri-rahəti-dil,
Oluram müztəribül-hal nə sən'ət tutsam.

---

**27**

Həmişə mərifət sahiblərini ayaqlara salıb, alçaq fələk möhnət və qəmin ayaqları altında tapdayır.

Kim cahildirsə, bütün istəklərini qazandırır, qədrinin taxtını etibar ilə uca edir.

Bu səbəbdən bilirəm ki, bu dünya övrətdir, övrətin övladı ilə işi belədir.

Böyük övladı süddən kəsir və ədəb öyrədir, körpəni isə süd verib lütf ilə beşiyə bağlayır.

**28**

Başçı olanların mərifət ətəyini tutsam, şəriət yolunun qorxu pəncəsi yaxamı tutar.

Hakimləri buraxıb qənaət küncünü tutsam, rahatlıq aynamı iflas pası tutar.

Nə sənət tutsam, halım rahat olmur, heç bir halda ürək rahatlığı əsəri tapılmır.

**29**

Doğruluq ilə istə ülüvvi-məqam kim,
Gəldikcə halinə verə dövri-fələk rəvac.
Doğruluq ilə hərflərə sədrdir əlif.
Ya hərfini ayağə buraqmışdır e'vicac.
Doğrular ilə gəz ki, səni sərbülənd edə,
Əgrilər ilə eyləmə əlbəttə imtizac.
Ya ixtilatı ilə sərir oldu payimal,
Başda məqam tutdu əlif nüsrətilə tac.

**30**

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzmi-nazik türk ləfzilə ikən düşvar olur.
Ləhceyi-türki qəbuli-nəzmi-tərkib etməyib
Əksərən əlfazi namərbutü nahəmvar olur.
Məndə tovfiq olsa bu düşvarı asan eylərəm,
Novbahar olğac tikəndən bərgi-gül izhar olur.

---

**29**

Doğruluq ilə uca məqam istə ki, gəldikcə fələyin dövrü halına rəvac verə.
Doğruluq ilə "əlif" hərflərə başçıdır, əyrilik "ya" hərfini ayağa salmışdır.
Doğrular ilə gəz ki, səni başı uca etsin. Əyrilər ilə, əlbəttə, qaynayıb qarışma.
"Ya" hərfi ilə qaynayıb qarışma nəticəsində taxt ayaq altında qaldı. "Əlif" hərfinin yardımı ilə tac başda yer tutmuşdur.

**30**

O səbəbdən fars dilində nəzm çoxdur ki, nazik nəzm türk ləfzi ilə çox çətin olur.
Türk ləhcəsi (dili) qarışıq ölçü qəbul etməyib, sözləri çox halda rabitəsiz və kobud olur.
Məndə bacarıq olsa, bu çətini asan edərəm, ilk bahar olanda tikandan gül yarpağı meydana çıxar.



## RÜBAİLƏR

**1**

Derlər ki, qılır qönçə ləbi-yar ilə bəhs,
Gülbərgi-tər ol lə'li-gühərbar ilə bəhs,
Ol bir neçə dilsizlərə töhmətdir bu,
Də'vayə gərək ləhceyi-göftar ilə bəhs.

**2**

Ey faideyi-elminə aləm möhtac,
Xaki-qədəmin əhli-hünər başına tac.
Hər kimdə ki, gördü himmətin sui-mizac,
Ol sui-mizacə qıldı lütf ilə ilac.

**3**

Gül dövrü xoş ol kim, tuta gülfam qədəh,
Bəzmində dəmi tutmaya aram qədəh.
Hər sübh ki, xürşidsifət qaldıra baş,
Bəzmin bəzəyib, gəzdirə ta şam qədəh.

**4**

Mey şövqü olubdur mənə adət, ey şeyx!
Gəldikcə bu şövq olur ziyadət, ey şeyx!
Xoşdur mənə mey, sənə ibadət, ey şeyx!
Rə'y ilə degil eşqü iradət, ey şeyx!

---

**1**

Deyirlər ki, qönçə yarın dodağı ilə bəhs edir, tər gül yarpağı o gövhər saçan ləl ilə bəhs edir, o bir neçə dilsizlərə bu töhmətdir, davaya gərək danışıq ləhcəsi ilə bəhs edəsən.

**2**

Ey elminin faydasına aləm möhtac olan, ayağının torpağı hünər sahiblərinin başına tac olan, hümmətin hər kimdə pis xasiyyət gördüsə, o pis xasiyyətə lütf ilə əlac etdi.

**3**

Gül dövründə xoş o adam ki, gül rəngli qədəh tuta, məclisində bir an qədəh aram tutmaya, hər sübh günəş kimi baş qaldıra, məclisini bəzəyib, axşama kimi qədəh gəzdirə.

**4**

Ey şeyx, şərab şövqü mənə adət olubdur, gəldikcə bu şövq artıq olur, ey şeyx, mənə şərab xoşdur, sənə ibadət, ey şeyx, eşq və istək rəylə deyildir, ey şeyx!

**5**

Gər kuyinə əşkim güzar eylər güstax,
Vər qəddinə çeşmim nəzər eylər güstax
Eyb eyləmə, rəngi-çöhreyi-zərdimi gör
Kim, çoxları aləmdə zər eylər güstax.

**6**

Hər yerdə ki, ol simbərü simin xəd,
Ərz eyləyə ariz, aça sünbül, çəkə qəd;
Rəngi-gülü büyi-sünbülü cilveyi-sərv,
Hökm eyləməzəm kim, ola məqbuli-xirəd.

**7**

Hərdəm mənə yar ərzi-rüxsar eylər,
Hüsnilə məni betər giriftar eylər.
Guya ki, kəmali-eşq dərsin oxudur,
Hərdəm mənə tə'limini təkrar eylər.

**8**

Hicrin cigərini hər kimin qan eylər,
Tədric ilə vəslin ona dərman eylər.
Zülfün kimi kim, müddət ilə kafir idi,
Lə'lin onu bir dəmdə müsəlman eylər.

---

**5**

Əgər göz yaşım olduğun yerə həyasızlıqla yol alırsa, gözüm boyuna həyasızlıqla baxırsa, eyb eləmə, sarı üzümün rənginə bax, çünki dünyada qızıl çoxlarını həyasız edir.

**6**

Hər yerdə ki, o gümüş qoyunlu və gümüş yanaqlı üzünü göstərə, sünbülünü aça, boyunu çəkə, onda hökm verə bilmərəm ki, ağıl gülün rəngini, sünbülün ətrini, sərvin cilvəsini məqbul saya.

**7**

Hər an yar mənə üzünü göstərir, gözəlliyi ilə məni daha artıq əsir edər, sanki eşq kamalının dərsini oxudur, hər an mənə təlimini təkrar edir.

**8**

Ayrılığın hər kimin ciyərini qan edirsə, vüsalın ona tədric ilə dərman edir. Zülfün kimi ki, müəyyən müddətə kafir edir, ləl dodağın onu bir anda müsəlman edir.



**9**

Biz aləmi-eşq aləmaraləriyüz,
Meyxaneyi-dərd dürdpeymaləriyüz.
Gülbərgi-nədamət çəmənidir aləm,
Biz bu çəmənin bülbüli-şeydaləriyüz

**10**

Kimdir ki, qəmində naleyi-zar etməz,
Dərdin sənə nalə ilə izhar etməz.
Fəryadına hiç kimsənin yetməzsən,
Fəryad ki, fəryad sənə kar etməz.

**11**

Canan isə mətlub, təmə' candan kəs!
Mətlub isə can, ümid canandan kəs.
Can sevmək ilə müyəssər olmaz canan,
Ya bundan ümid, ya təmə' ondan kəs.

**12**

Kuyində sənin nə daşə kim, urdum baş,
Qıldım onu qərqi-xun, tökub gözdən yaş.
Göz yaşinə rəhm eylə ki, çox müddətdir,
Bidadinə səbr edib basar bağrına daş!

---

**9**

Biz eşq aləminin dünyanı bəzəyənləriyik, dərd meyxanasının xılt içənləriyik, dünya peşmanlığın gülyarpağı çəmənidir, biz bu çəmənin vurğun bülbülləriyik.

**10**

Qəmində ağlar nalə eyləməyən kimdir, dərdini nalə ilə sənə bildirməyən kimdir, heç kimsənin fəryadına yetməzsən, fəryad ki, sənə fəryad kar etmir.

**11**

Mətləb canan isə, candan tamahı kəs, mətləb can isə, canandan ümidini kəs, can sevmək ilə canan ələ gəlməz, ya bundan ümidini, ya ondan tamahı kəs.

**12**

Sənin olduğun yerdə hansı daşa baş vurdumsa, onu gözdən yaş töküb qana qərq etdim. Göz yaşına rəhm elə ki, çox müddətdir, zülmünə səbr edib bağrına daş basır.

13

Ey kəsbi-kəmalə e'tiqadın naqis,
Təhsili-kəmalə ictihadın naqis!
Ar etmə tələbdə, qıl həzər ondan kim,
Kamillər içində ola adın naqis.

14

Ey bad, qıl əhvalımı cananıma ərz!
Sərgəştəligim sərvi-xuramanıma ərz!
Öldürdü kinayətilə əğyar məni,
Bu zülmi-sərihi eylə sultanıma ərz!

15

Ey covhəri-eşqin əsəri cismü ərəz,
Yox aşiqə səndən özgə aləmdə qərəz.
Çün bildin əsirinəm, tərəhhüm qıl kim,
Tədbir gərək, müşəxxəs olduqda mərəz.

16

Zahid, meyi-nabdəndir ikrah qələt!
Sən xah sözüm səhih tut, xah qələt.
Məscidlərə girdigim degil rəğbətdən,
Sərməstligimdən eylərəm rah qələt.

---

13

Ey kamal qazanmağa inamın naqis olan, kamal toplamağa cəhdin naqis olan, axtarmaqdan ar etmə, ondan çəkin ki, yetkinlər arasında adın naqis ola.

14

Ey yel, vəziyyətimi cananıma bildir, heyranlığımı o nazlı sərvimə bildir, düşmən kinayələri ilə məni öldürdü, bu açıq zülmü sultanıma ərz eylə.

15

Ey eşqinin cövhərinin əsəri bədən və əlamət olan, dünyada aşiqə səndən başqa məqsəd yoxdur, sən bildin ki, əsirinəm, rəhm eylə ki, xəstəlik müəyyən olduqda tədbir gərəkdir.

16

Zahid saf şərabdan ikrah etmək qələtdir (səhvdir), sən istər sözümü düz say, istər qələt; məscidlərə girdiyim rəğbətdən deyildir, sərxoşluğumdan yolu səhv salıram.



17

Mey nəfyini eyləyib şüar, ey vaiz!
Tutdun rəhi-tə'ni-eşqi-yar, ey vaiz!
Tərki-meyü məhbub edəriz cənnət üçün,
Şərh eylə ki, cənnətdə nə var, ey vaiz!

18

Təhdid ilə keçdi ruzigar, ey vaiz!
Fovt oldu şərabü vəsli-yar, ey vaiz!
Gər kövsərü hurisə qərəz, vermə əzab,
Nə tərk buyur, nə intizar, ey vaiz!

19

Pərvanəyə zülmi-bihesab eylər şəm,
Zülm oduna bağrını kəbab eylər şəm,
Güya ki, bilir zülm sərəncamı nədir,
Bihudə degil ki, iztirab eylər şəm.

20

Hər şam yetər vüsali-cananə çirağ,
Ta sübh qalır həmdəmü həmxanə çirağ.
Rəşk oduna yandırdı məni hər saət,
Vəhm eyləməz ahim oduna yanə çirağ.

---

17

Şərabı qadağan etməyi şüar etdin, ey vaiz, yar eşqinə tənə etmək yolu tutdun, ey vaiz, şərabı və gözəli cənnət üçün tərk edirik, şərh eylə ki, cənnətdə nə var, ey vaiz!

18

Ömür hədə ilə keçdi, ey vaiz, şərab və yar vüsalı əldən çıxdı, ey vaiz! Əgər məqsəd kövsər və huri isə, əzab vermə, nə tərk elə, nə gözlə, ey vaiz!

19

Şam pərvanəyə hesabsız zülm edir, bağrını zülm oduna kabab edir, şam sanki, bilir ki, zülmün axırı nədir, boşuna deyil ki, əzab çəkir şam.

20

Hər axşam çırağ cananın vüsalına yetir, sübhə qədər həmdəm və həmxana olur. Məni hər saat qısqanclıq oduna yandırdı, çıraq qorxmur ki, ahımın oduna yana.

**21**

Hər gəh ki, bahar qıldı arayişi-bağ,
Novmidlik urdu laləvəş bağrıma dağ,
Zira tikən üzrə tutdu bülbül məskən,
Gül bad güzərgəhində yandırdı çirağ.

**22**

Sərmənzili-hər muradə rəhbərdir eşq,
Keyfiyyəti-hər kəmalə məzhərdir eşq.
Gəncineyi-kainatə gövhərdir eşq,
Hər sadir olan nəş'əyə məsdərdir eşq.

**23**

Məcnun oda yandı şö'leyi-ah ilə pak,
Vamiq suya batdı, eşqdən oldu həlak.
Fərhad həvəs ilə yelə verdi ömrün,
Xak oldular onlar, mənəm imdi ol xak.

**24**

Əfğandır işim sərvi-xuramanın üçün,
Qandır cigərim qönçeyi-xəndanın üçün
Eşqində qəmü qüssə çəkib, pir oldum,
Mən pirə tərəhhüm et, igit canın üçün.

---

21

Nə vaxt ki, bahar bağı bəzədi, lalə kimi bağrıma ümidsizlik dağı vurdu, zira bülbül tikan üstündə məskən tutdu, gül yelin yolu üstündə çıraq yandırdı.

22

Eşq hər muradın mənzil başına çatmasına rəhbərdir, eşq hər kamalın keyfiyyətinin təzahürüdür, eşq kainat xəzinəsinin incisidir, hər baş verən nəşənin mənbəyidir.

23

Məcnun ahın şöləsi ilə tər-təmiz oda yandı. Vamiq suya batdı, eşqdən həlak oldu, Fərhad həvəs ilə ömrünü yelə verdi, onlar torpaq oldular, indi o torpaq mənəm.

24

Nazlı sərvin üçün işim əfğandır, açılmış qönçən üçün ciyərim qandır, eşqində qəm və qüssə çəkib qocaldım, igid canın üçün mən qocaya rəhm elə.



**25**

Qəddinə dedim ki, sərvi-bustandır, bu!
Tünd oldu ki: ey xəstə, nə hədyandır, bu,
Pabəstəvü urü bizəbandır dediyin,
Xəndanü qəbapuşü xuramandır, bu.

**26**

Dedim: ləbinə, lə'li-Bədəxşandır bu!
Güldü, dedi: ey fəqir, böhtandır bu!
Bir daşə nə rəng ilə qılırsan nisbət,
Şirinü şəkərfəşanü xəndandır bu.

**27**

Rüxsarə səri-zülfi pərişan eylə!
Gözdən güli-rüxsarını pünhan eylə!
Bir neçə pərişanları öz halına qoy,
Hər ləhzə yetər qəsdi-dilü can eylə!

**28**

Gördüm səni, əldən ixtiyarım getdi,
Baxdım üzünə, səbrü qərarım getdi.
Xak oldumü hər yana qübarım getdi,
Əlqissə, qapında e'tibarım getdi.

---

25

Boyuna dedim ki, bu, bustanın sərvidir, acıqlandı ki, ey xəstə bu, nə hədyandır, dediyin ayağı bağlı, çılpaq və dilsizdir, bu, gülən, paltar geyinən və nazla yeriyəndir.

26

Dodağına dedim: bu, Bədəxşan incisidir, güldü, dedi: "Ey fəqir, böhtandır bu, nə rəng ilə bir daşa oxşadırsan, bu, şirin, şəkər saçan və güləndir".

27

Zülfünün ucunu üzünə dağıt, gül üzünü gözdən gizlət, bir neçə pərişanları öz hallarında qoy, hər an ürəyə və cana qəsd etdiyin yetər!

28

Səni gördüm, ixtiyarım əlimdən getdi, üzünə baxdım səbrim, qərarım getdi, torpaq oldum, hər yana tozum getdi, əlqissə, qapında etibarım getdi.

**Asəf** – Süleyman peyğəmbərin çox ağıllı və tədbirli veziri olmuşdur.

Dövrünün iste'dadlı musiqişünası kimi də tanınmışdır.

Füzulinin qəsidələrində Asəfi-zəmanə, Asəfi-dövran kimi müraciətlərlə işlənən bu ad dövrün müdrik, ağıllı şəxsiyyəti mə'nasını daşıyır.

**Babil** – Qədim Babilistanın paytaxtıdır. Dəclə və Fərat çaylarının aşağı hissəsində yerləşir. Qədim Şərq ədəbiyyatında və dini əfsanələrdə bu şəhər haqqında bir çox rəvayətlər vardır. Füzuli şe'rində çox vaxt sehrlər şəhəri kimi təqdim edilir.

**Bağdad** – Ərəb İraqının ən böyük şəhəridir. İraq-Ərəb respublikasının paytaxtıdır. Lüğəti mə'nası "Allahın hədiyyəsi" deməkdir. Orta əsrlər Şərqinin ən böyük mədəni mərkəzi olmuşdur. Asari-ətiqələri və tarixi abidələri ilə məşhurdur.

Füzulinin Bağdadın gözəlliyini vəsf edən (Azərbaycan və fars dilində) iki qəsidəsi vardır.

**Bərcis** – Yupiter planeti.

**Bəsrə** – İraq-Ərəb respublikasının Cənub-Şərqində, Şəttəl ərəb çayının sahilində yerləşir. Ölkənin ən böyük dəniz limanıdır.

**Bəhram** – Sasanilər sülaləsinin 14-cü padşahı olmuş, 420-ci ildə hakimiyyət başına keçmişdir. Yəzdigürdün oğludur. Şücaəti, səxavəti və hünəri ilə fərqlənmişdir. Nizaminin "Yeddi gözəl" poemasının baş qəhrəmanıdır.

**Bisütun** – İranda Kirmanşah şəhərinin 20 kilometrliyində qədim abidələri ilə məşhur olan dağın adıdır. Şərq ədəbiyyatında Fərhadın adı ilə əlaqədardır. Fərhad Şirinin eşqiylə bu dağı çapmışdır.

**Buzğalə** – onuncu bürc, oğlaq bürcü.

**Büraq** – İslam əsatirinə görə Məhəmməd peyğəmbərin me'rac gecəsi mindiyi adam başlı və at bədənli bir məxluqun adıdır.

**Vamiq** – "Vamiq və Əzra" dastanının qəhrəmanı.

Füzuli şe'rində adı eşq fədakarı kimi həmişə Məcnunla yanaşı çəkilir.



**Derlər ki, var Vamiqi Məcnun əcəb degil,**
**Dağılmış ola atəşi-eşqim şərarəsi.**

**Veys** – Osmanlıların Bağdaddakı valilərindən biri olmuşdur. Füzulinin bu şəxsə həsr etdiyi bir neçə qəsidəsi vardır.

**Qarun** – mal və dövlətinin çoxluğu və xəsisliyi ilə tanınmış bir şəxs olmuşdur. Musa peyğəmbərin müasiri idi. Şərq ədəbiy-yatında dövlətlilik və xəsislik rəmzi kimi işlədilir. Rəvayətə görə Musanın qarğışı nəticəsində xəzinələri ilə birlikdə yerə batmışdır.

**Davud** – dinə görə Süleyman Peyğəmbərin atasıdır. Onun çox gözəl səsi varmış, oxuyanda heyvanlar və quşlar da heyran qalıb onu dinlərmiş.

**Dara** – İranın qədim padşahlarından biridir. Eramızdan əvvəl 336-330-cu illərdə hakimiyyət sürmüşdür. Makedoniyalı İskəndərlə müharibə zamanı öldürülmüşdür.

**Dəbəran** – qırmızı rəngli bir ulduz adı.

**Əbunüvas** – Həssan ibn Hari (762-845) ərəb şairidir. Milliyyətcə fars olan bu şəxs Abbasi xəlifələrindən Harun-ər-Rəşid və onun oğlu Məhəmməd Əminin sarayında yaşamışdır.

**Əsəd** – qədim astranomiyada 12 bürcün birincisi, şir bürcü.

**Əhmədi Muxtar** – Məhəmməd peyğəmbərin adlarından biridir.

**Zəhra** – Məhəmməd peyğəmbərin qızı, imam Əlinin arvadıdır. Dində Fatimeyi-Zəhra adı ilə tanınmışdır. Çox səxavətli, rəhmdil, yoxsullara əl tutan, mərdanə bir qadın olmuşdur.

**Zöhrə** – Venera planeti, poeziyada fəza çalğıçısı timsalında işlədilir.

**Zöhhak** – qədim İran əfsanələrinə görə Pişdadiyan sülaləsinin V hökmdarı sayılır. Çiyinlərində iki ilan bitibmiş, o hər gün iki uşağın beynini həmin ilanlara yedirərmiş. Şərq ədəbiyyatında qəddarlıq, zülmkarlıq rəmzi kimi bu ada müraciət edilir.

**Zühəl** – Saturn planeti.

**İskəndər** – (E. ə. 356-323) – Makedoniya hökmdarı, dünyanın böyük sərkərdələrindən və padşahlarından biri olmuşdur. Şərq ədəbiyyatında və Azərbaycan folklorunda onun haqqında

müxtəlif rəvayətlər vardır. Nizaminin "İskəndərnamə" adlı poeması bu böyük şəxsiyyətə həsr edilmişdir.

**İsmayıl** – İbrahim peyğəmbərin oğludur. Atası onu Allah yolunda qurban kəsmək istərkən bu təklifi razılıqla qəbul etmişdi. Rəvayətə görə göydən bir qoç gəlmiş və İbrahim bu qoçu İsmayılın əvəzinə kəsmişdir.

**Yəcuc-məcuc** – 1) əfsanələrdə qısaboylu, qəddar kimi yad edilən bir tayfa; 2) Qorxunc, dəhşətli adam deməkdir.

**Yusif və Züleyxa** – "Yusif və Züleyxa" dastanının qəhrəmanları. Füzulinin şe'rlərində həmin eşq dastanının müxtəlif epizodlarına işarələr vardır.

**Key (Kəyan)** – Şərq ədəbiyyatında qədim İran şahlarının ikinci sülaləsinin adıdır. Lüğəti mə'nası böyük deməkdir.

**Keyvan** – Zühəl planeti, yüksəklik mə'nasında da işlənir.

**Gavi-ənbər;** göbəyindən mişk alınan ceyran cinsi.

**Gavi-fələk.** Buzov bürcü.

**Loğman** – əfsanəvi-filosof, həkim olmuşdur. Eramızdan əvvəl yaşadığı güman edilir. Klassik Şərq ədəbiyyatında bütün xəstələrə dərman edən həkim kimi yad edilir.

**Mədinə** – Səudiyyə Ərəbistanının qədim şəhərlərindəndir. Lüğəti mə'nası şəhər deməkdir. Məhəmməd Peyğəmbərin qəbri oradadır.

**Mərrix** – Mars planeti.

**Məsiha** – İsa peyğəmbərin adıdır. Füzuli şe'rində nəfəsi ilə ölü diriltmək rəvayətinə işarələr vardır.

**Musa** – yəhudilərin peyğəmbərlərindəndir. O, əfsanəvi əsası vasitəsilə mö'cüzələr göstərərmiş.

**Müştəri** – Yupiter planeti.

**Nəmrud** – Qədim Babilistanın əfsanəvi hökmdarlarındandır. Daş ürəkli, sərt, üzügülməz adam mə'nasında da işlənir.

**Nuh** – Yəhudi peyğəmbərlərindəndir. Əfsanəyə görə onu inkar edənlər 40 gün, 40 gecə tufana düşmüş, su altında qalıb məhv olmuşlar. Lakin Nuh öz qayırdığı gəmisiylə bir dağın ətəyinə yanaşaraq tufandan xilas olmuş və öz əqidəsini yaymışdır. Şərq şe'rində Nuh xilaskar mə'nasında işlədilir.



**Səddi İskəndər** – 1) Əfsanəyə görə, İskəndərin yəcuc-məcuclara qarşı çəkdiyi böyük sədd; 2) böyük maneə. Əslində bu Çin səddidir. Rəvayətlərdə İskəndər səddi kimi xatırlanır.

**Səlman** – Məhəmməd peyğəmbərin yaxın əshabələrindən olmuşdur.

Atəşpərəstliyi tərk edib, əvvəl xristianlığı, sonra isə islam dinini qəbul etmişdir. Dövründə məşhur alim kimi tanınmışdır.

**Süleyman** – peyğəmbərlərdən biridir. Onun heyvanların, quşların, balıqların dilini bildiyi, onlara hökmranlıq etdiyi rəvayət edilir. Əfsanəyə görə onun sehrli üzüyündə bütün dünyada olan hadisələr öz əksini taparmış.

**Süleyman** – XVI əsrdə türk sultanı olmuşdur. 1534-cü ildə Bağdadı fəth etmişdir. Füzulinin həmin hökmdara həsr olunmuş bir neçə qəsidəsi vardır. Şair "Leyli və Məcnun" poemasını da həmin hökmdara ithaf etmişdir.

**Sünbülə** – bürc adıdır.

**Tur** – Ərəbistan yarımadası ilə Misir arasında yerləşən Sina yarımadasındakı bir dağın adı. (Əfsanəyə görə Musa peyğəmbər Allahla həmin dağda söhbət aparmışdır.).

**Ütarid** – günəşin ətrafında dolanan, günəşə ən yaxın olub, axşam gün batana kimi, səhər isə gün çıxmadan əvvəl görünən səyyarə Merkuri planeti.

**Fərhad** – Nizaminin "Xosrov və Şirin" poemasının qəhrəmanlarından biri. Füzuli şe'rində sevilə-sevilə tərənnüm olunan eşq fədakarı.

Füzuli onu "Kuhikən" (dağ çapan) də adlandırır.

**Firidun** – İranın qədim əfsanəvi şahlarından biri. Firdovsinin "Şahnamə" sinin qəhrəmanlarındandır.

**Xəlil** – İbrahim Xəlil yəhudi peyğəmbərlərindəndir. Bütpərəstlik əleyhinə təbliğat apardığı və bütləri qırdığı üçün Babil hökmdarı I Nəmrud tərəfindən oda atdırılmışdır. Əfsanəyə görə

od onu yandırmamış, od qalağı çiçəkli bir gülzara dönmüşdür.

**Xızr** – dinə görə peyğəmbərlərdən biridir. Əfsanəyə görə İskəndərlə zülmətə dirilik suyunu axtarmağa gedəndə onun qoşununun bayraqdarı olmuşdur.

**Harun** – Musa peyğəmbərin böyük qardaşı. Musanı Fir'onun zülmündən azad etmək üçün çox əzablar çəkmişdir.

**Harut-Marut** – dini əfsanəyə görə, iki mələyin adıdır. Bu iki mələk yerdə muaşiqəyə alışdıqları üçün Allah tərəfindən cəzalandırılaraq Babilistanda bir quyuda başı aşağı asılmışlar. Əfsanələrdə onlar sehrbaz kimi yad edilirlər.

**Həməl** – Astronomiyada 12 bürcün birincisi. Həməl bürcü, quzu bürcü.

**Həssan** – ərəblərin məşhur şairidir. Məhəmməd peyğəmbərin zamanında yaşamış, ona həsr etdiyi mədhiyyələri ilə şöhrət tapmışdır.

**Hut** – balıq bürcü.

**Cəbrayıl** – dində mələklərdən biridir. Allahın qasidi hesab olunur.

**Cəmşid (Cəm)** – tarixi əfsanələrə görə İranda qədim Pişdadyan sülaləsinin IV şahı olmuşdur. Rəvayətə görə şərab Cəmşid tərəfindən tapılmışdır. Cəmşid adı və "Cami-Cəm" deyilən qədəh Şərq ədəbiyyatında şadlıq rəmzi kimi işlənir.

**Şam** – vaxtilə Suriya və Fələstinin tutduğu əraziyə ərəblərin verdiyi ad olmuşdur. Sonralar həmin yer Dəməşq adlandırılmışdır. Suriya ərəb respublikasının paytaxtıdır. Yaxın Şərqin ən gözəl şəhərlərindən biridir.



## MÜNDƏRİCAT

Mədəniyyət irsimizin Füzuli möcüzəsi . . . . . 3
**Qəzəllər**
Qəd ənarəl-eşqə-lil-üşşaqi minhacəl hüda . . . . . 5
Yarəb, həmişə lütfünü et rəhnüma mana . . . . . 6
Kargər düşməz xədəngi-tə'neyi-düşmən mana . . . . . 7
Ey mələksima ki, səndən özgə heyrandır sana . . . . . 8
Cam içrə mey ki, dairə salmış hübab ona . . . . . 9
Dustum, aləm səninçün gər olur düşmən mana . . . . . 10
Kəmali-hüsn veribdir şərabi-nab sana . . . . . 11
Qəm diyarında əcəl peyki güzar etməz mana . . . . . 12
Canımın cövhəri ol lə'li-gühərbarə fəda . . . . . 13
Qəmdən öldüm, dəmədim hali-dili-zar sana . . . . . 14
Qəmzəsin sevdin, könül, canın gərəkməzmi sana? . . . . . 15
Gərçi, ey dil, yar üçün üz verdi yüz möhnət sana . . . . . 16
Ey bivəfa ki, adət olubdur cəfa sana . . . . . 17
Hər zaman mənzur bir şuxi-sitəmgərdir mana . . . . . 18
Mənim tək hiç zarü pərişan olmasın, yarəb . . . . . 19
Sübh salıb mah rüxündən niqab . . . . . 20
Qılsa vəslin şamımı sübhə bərabər yox əcəb . . . . . 21
Kuhkən Şirinə öz nəqşin çəkib vermiş firib . . . . . 22
Ol ki, hər saət gülərdi çeşmi-giryanım görüb . . . . . 23
Rüzigarım buldu dövrani-fələkdən inqilab . . . . . 24
Dərdi-eşqim dəf'inə zəhmət çəkər daim təbib . . . . . 25
Payibənd oldum səri-zülfi-pərişanın görüb . . . . . 26
Qeyrə eylər bisəbəb min iltifat ol nuş-ləb . . . . . 27
Əksi-rüxsarın ilə oldu müzəyyən mir'at . . . . . 28
Ey əsiri-dami-qəm, bir güşeyi-meyxanə tut . . . . . 29
Mürdə cismim iltifatından bulur hərdəm həyat . . . . . 30
Səba, əğyardan pinhan, qəmim dildarə izhar et . . . . . 31
Xətti-rüxsarın edər lütfdə reyhan ilə bəhs . . . . . 32
Can çıxır təndən könül zikri-ləbi-yar eyləgəc . . . . . 33
Könlüm açılır zülfi-pərişanını görgəc . . . . . 34
Münhərifdir, saqiya, ənduhi-dünyadən mizac . . . . . 35
Ey könül, yarı istə, candan keç . . . . . 36
Gər degil bir mah mehrilən mənim tək zar sübh . . . . . 37
Qansı mahin, bilməzəm, mehrilə olmuş zar sübh . . . . . 38
Kimsədə rüxsarına taqəti-nəzzarə yox . . . . . 39
Nola gör qucsa miyanın kəməri-zər küstax . . . . . 40
Ləblərin tək, lə'lü ləfzin tək düri-şəhvar yox . . . . . 41
Nalədəndir ney kimi avazeyi-eşqim bülənd . . . . . 42
Göz xətindən mərdümin məhv etmədən bulmaz murad . . . . . 43
Ey məzaqi-cana cövrin şəhdü-şəkkər tək ləziz . . . . . 44
Cilveyi-əksi-rüxün ayinədə, ey rəşki-hur . . . . . 45
Gəh gözdə, gəh könüldə xədəngin məkan tutar . . . . . 46
Xoşam kim, dəmbədəm giryan gözüm ol xakipadəndir . . . . . 47
Pərişan xəlqi-aləm ahu əfğan etdigimdəndir . . . . . 48

Qəbrim daşına kim, qəm odundan zəbanədir . . . . . . . . . . . . . . . . .49
Canı kim canani üçün sevsə cananın sevər . . . . . . . . . . . . . . . . .50
Ğübari-səcdeyi-rahin xəti-lövhi-cəbinimdir. . . . . . . . . . . . . . . . . .51
Müjəm sərçeşmlər mənzil qılan aşüftə məcnundur . . . . . . . . . . . .52
Demiş hər qönçəyə aşiqligim razın səba derlər . . . . . . . . . . . . . .53
Ah eylədiyim sərvi-xuramanın üçündür . . . . . . . . . . . . . . . . . . . .54
Qansı gülşən gülbüni sərvi-xuramanınca var? . . . . . . . . . . . . . . .55
Hüsnün olduqca füzun eşq əhli artıq zar olur . . . . . . . . . . . . . . .56
Ey gül, nə əcəb silsileyi-mişki-tərin var . . . . . . . . . . . . . . . . . .57
Tökdükcə qanımı oxun, ol asitan içər . . . . . . . . . . . . . . . . . . . . .58
Məndə Məcnundan Füzun aşiqlik iste'dadı var . . . . . . . . . . . . . .59
Müqəvvəs qaşların kim, vəsmə birlə rəng tutmuşlar . . . . . . . . . .60
Aşiyani-mürği-dil zülfi-pərişanındadır . . . . . . . . . . . . . . . . . . . .61
Saqiya, cam tut ol aşiqə kim qayğuludur . . . . . . . . . . . . . . . . . .62
Məni zikr etməz el, əfsaneyi-Məcnuna maildir . . . . . . . . . . . . . .63
Ol pərivəş kim məlahət mülkünün sultanıdır . . . . . . . . . . . . . . . .64
Mənim kim, bir ləbi-xəndan üçün giryanlığım vardır . . . . . . . . . .65
Hər kitabə kim, ləbi-lə'lin hədisin yazələr . . . . . . . . . . . . . . . . .66
Sərvi-azad qədinilə mənə yeksan görünür . . . . . . . . . . . . . . . . . .67
Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor . . . . . . . . . . . . . . .68
Xəm açıldıqca zülfündən bəlavü möhnətim artar . . . . . . . . . . . . .69
Səbrim alıb fələk, mənə yüz min bəla verər . . . . . . . . . . . . . . . .70
Əzəl katibləri üşşaq bəxtin qarə yazmışlar . . . . . . . . . . . . . . . . .71
Xəm qədilə ağlaram ol türreyi-tərrarsız . . . . . . . . . . . . . . . . . . .72
Aləm oldu şad səndən, mən əsiri-qəm hənuz . . . . . . . . . . . . . . . .73
Razi-eşqin saxlaram eldən nihan, ey sərvinaz . . . . . . . . . . . . . . .74
Fəğan kim, bağrımın ol lalərüx qan olduğun bilməz . . . . . . . . . . .75
Neçə illərdir səri-kuyi-məlamət bəkləriz... . . . . . . . . . . . . . . . . .76
Könüldə min qəmim vardır ki, pünhan eyləmək olmaz . . . . . . . . .77
Təşneyi-cami-visalın abi-heyvan istəməz . . . . . . . . . . . . . . . . . .78
Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz . . . . . . . . . . . . . . . . .79
Mənə badi-səba ol sərvi-gülrüxdən xəbər verməz . . . . . . . . . . . . .80
Kuhkəndən gözükür kuhdə asar hənuz . . . . . . . . . . . . . . . . . . . .81
Məskən, ey bülbül, sənə gəh şaxi-güldür, gəh qəfəs . . . . . . . . . .82
Ey xoş ol məst ki, bilməz qəmi-aləm nə imiş . . . . . . . . . . . . . . .83
Büti-novrəsim nəmazə şəbü ruz rağib olmuş . . . . . . . . . . . . . . . .84
Bilməz idim bilmək ağzın sirrini düşvar imiş . . . . . . . . . . . . . . .85
Dil ki, sərmənzili ol zülfi-pərişan olmuş . . . . . . . . . . . . . . . . . .86
Ta ki, taqi-zərnigarın çərx viran eyləmiş . . . . . . . . . . . . . . . . . .87
Cismimi yandırma, rəhm et yaşimə, ey bağrı daş . . . . . . . . . . . . .88
Xəlqə xublardan vüsali-rahətəfzadır qərəz . . . . . . . . . . . . . . . . .89
Qıl, səba, könlüm pərişan olduğun cananə ərz . . . . . . . . . . . . . . .90
Qılmağıl möhkəm, könul, dünyayə əqdi-irtibat . . . . . . . . . . . . . .91
Dürcdür lə'li-rəvanbəxşin, düri-şəhvar ləfz . . . . . . . . . . . . . . . .92
Dil uzadır bəhs ol ərizi-xəndanə şəm . . . . . . . . . . . . . . . . . . . . .93
Eyş üçün bir türfə mənzildir bahar əyyamı bağ . . . . . . . . . . . . .94
Möhnəti-eşq, ey dil, asandır deyib, çox urma laf . . . . . . . . . . . .95
Qıldı zülfün tək pərişan halimi xalin sənin . . . . . . . . . . . . . . . . .96
Şəm'i-ruyin afitabi-aləmaradır sənin . . . . . . . . . . . . . . . . . . . . .97
Öylə rə'nadır, gülüm, sərvi-xuramanın sənin . . . . . . . . . . . . . . .98
Daği-hicran ilə yanmaqdan cigər qan olsa yey . . . . . . . . . . . . . .99
Qıymadın sakini-kuyin olana peykanın . . . . . . . . . . . . . . . . . . .100
Ey məh, mənimlə dustlərim düşmən eylədin . . . . . . . . . . . . . . .101
Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdin . . . . . . . . .102
Bəqa mülkün dilərsən, fani et varini dünya tək . . . . . . . . . . . . .103
Dəhənin dərdimə dərman dedilər cananın . . . . . . . . . . . . . . . . .104
Ey müsəvir, yar timsalinə surət vermədin . . . . . . . . . . . . . . . . .105
Mülki-Hüsnün böylə zalim padişahi olmağıl . . . . . . . . . . . . . . .106
Eylə müstəsna gözəlsən kim sənə yoxdur bədəl . . . . . . . . . . . . .107
Ey rüxün qibley'i-can, xaki-dərin Kə'beyi-dil . . . . . . . . . . . . . .108
Hiç sünbül sünbüli-zülfün kimi mişgin degil . . . . . . . . . . . . . . .109
Degilsən çoxdan, ey gərdun cahan seyrində yoldaşım . . . . . . . . .110
Tənimdə zəxmi-tiğan çeşmi-xunəfşanə bənzətdim . . . . . . . . . . .111
Eşqdən canımda bir pinhan mərəz var, ey həkim . . . . . . . . . . . .112
Qəmindən başə dün həsrət əlilə ol qədər vurdum . . . . . . . . . . . .113
Dəhnənin şövqünü cansuz güman etməz idim . . . . . . . . . . . . . .114
Nurini mah mehri-rüxündən alır müdam . . . . . . . . . . . . . . . . . .115
Pənbeyi-daği cünun içrə nihandır bədənim . . . . . . . . . . . . . . . .116
Faş qıldın qəmim, ey dideyi-xunbar, mənim . . . . . . . . . . . . . . .117
Ol mah visalilə xoş et bir gecə halim . . . . . . . . . . . . . . . . . . . .118
Əql yar olsaydı, tərki-eşqi yar etməzmidim? . . . . . . . . . . . . . . .119
Zülfi kim ayağın qoymaz öpəm nigarım . . . . . . . . . . . . . . . . . . .120
Canlar verib sənin kimi cananə yetmişəm . . . . . . . . . . . . . . . . .121
Yar hali-dilimi zar bilibdir, bilirəm . . . . . . . . . . . . . . . . . . . . .122
Xoş ol zaman ki, hərimi-visalə məhrəm idim . . . . . . . . . . . . . . .123
Ney ,kimi, hərdəm ki, bəzmi-vəslini yad eylərəm . . . . . . . . . . . .124
Şəm'i şami-firqətəm, sübhi-vüsalı neylərəm? . . . . . . . . . . . . . . .125
Bağə girdim, səri-kuyin anıb əfğan etdim . . . . . . . . . . . . . . . . .126
Tutuşdu qəm oduna şad kördüyün könlüm . . . . . . . . . . . . . . . . .127
Qaçan kim, qamətindən ayrı seyri-busitan etdim . . . . . . . . . . . . .128
Müxalif dövrdən gülgun şərabı qanə dəgşirdim . . . . . . . . . . . . .129
Qıldı ol sərv səhər nazilə həmmamə xüram . . . . . . . . . . . . . . . .130
Ey kəmanəbrü, şəhidi-navəki-müjganinəm . . . . . . . . . . . . . . . .131
Səcdədir hər qanda bir büt görsəm ayinim mənim . . . . . . . . . . .132
Kərəm qıl, kəsmə, saqi, iltifatın binəvalərdən . . . . . . . . . . . . . .133
Yağma canım, naleyi-biixtiyarımdan saqın . . . . . . . . . . . . . . . .134
Ey geyib gülgun, dəmadəm əzmi-cövlan eyləyən . . . . . . . . . . . .135
Nola zahid bilsə küfri-zülfün iman olduğun . . . . . . . . . . . . . . . .136
Dust bipərva, fələk birəhm, dövran bisükun . . . . . . . . . . . . . . .137
Ucaldın qəbrim - ey bidərdlər, səngi-məlamətdən . . . . . . . . . . .138
Budur fərqi, könül, məhşər gününün ruzi-hicrandan . . . . . . . . . .139
Bəzmi-eşq içrə şərabımdır sirişki-laləgun . . . . . . . . . . . . . . . .140
Əgərçi ignə tək keçdim cahanın hərnə varından . . . . . . . . . . . . .141
Şəfa lütf et məni-bimarə lə'li-nuşxəndindən . . . . . . . . . . . . . . .142

Ələ alır gəzicək ol güli-rə'na ətəgin ....143
Görməsəm hər göz açanda ol güli-rə'na üzün ....144
Qurutmuş qaliba şövq odu Fərhadın gözü yaşın ....145
Kuhikən künd eyləmiş min tişəni bir dağilən ....146
Ta sirişki-dideyi-Fərhadi gördü laləgun ....147
Cəm' könlün dövr cövründən pərişan olmasın ....148
Bari-möhnətdən nihali-qamətin xəm olmasın ....149
Gör sirişkim şəbi-hicran, demə kim, qandır bu ....150
Nihali-dərddir Məcnun, yer etmiş sayəsin ahu ....151
Bülbüli-dil gülşəni-rüxsarın eylər arizu ....152
Rəməzan oldu çəkib şahidi-mey pərdəyə ru ....153
Aşiq oldum yenə bir tazə güli-rə'nayə ....154
Olsaydı məndəki qəm Fərhadi-mübtəladə ....155
İstədim mərhəm oxundan cigərim yarəsinə ....156
Bağə gir bülbülə ərzi-güli-rüxsar eylə ....157
Daraldar qönçə həlqin, dürci-lə'lin gəlsə köftarə ....158
Rəhm et, ey şəh, məni-dərviş çəkən ahlərə ....159
Yenə ol mah mənim aldı qərarım bu gecə ....160
Nihali-sərvdir qəddin, qaşın nun ol nihal üzrə ....161
Müshəf deməк xətadır ol səfheyi cəmalə ....162
Həzər qıl ah odundan, cövrünü üşşaqə az eylə ....163
Batalı qanə oxun dideyi-giryan içrə ....164
Arizin görsə fələk, mehr buraxmaz ayə ....165
Yürütməyin ərəqi məclis içrə badə ilə ....166
Könül, səccadəyə basma ayaq, təsbihə əl urma ....167
Ey vücudi-kamilin əsrari-hikmət məsdəri ....168
Ey xoş ol günlər ki, rüxsarın mənə mənzur idi ....169
Ey təğafül birlə hər saət qılan şeyda məni ....170
Buraxdı xakə hüsnün afitabi-aləmarayı ....171
Məni candan usandırdı, cəfadan yar usanmazmı ....172
Gecələr ta halimə gərdun təmaşə etmədi ....173
Fariğ etdi mehrin özgə məhliqalərdən məni ....174
Yar qılmazsa mənə cövrü cəfadan qeyri ....175
Yıxdı saqi bir ayağ ilə məni-əfkarı ....176
Nə görər əhli-cəfa məndə vəfadən qeyri ....177
Hasilim yox səri-kuyində bəladən qeyri ....178
Heyrət, ey büt, surətin gördükdə lal eylər məni ....179
Aldı gülzar içrə su əksi-üzari-alini ....180
Gördüm ol xurşidi-hüsnün ixtiyarım qalmadı ....181
Hər görən eyb etdi abi-dideyi-giryanimi ....182
Giryədir hər dəm açan qəmdən tutulmuş könlümü ....183
Sanma kim, bülbül açar uçmağa balü pərini ....184
Tabi-suzi-sinədən əksilməsəydi göz nəmi ....185
Qərqi-xunabi-dil etdi dideyi-giryan məni ....186
Xoşdur irmək ol bədən vəslinə pirahən kimi ....187
Mərhəm qoyub önərmə sinəmdə qanlı dağı ....189
Qamətin xidmətinə sərvin əyilməz başı ....190
Ayinə sevər candan rüxsareyi-canani ....191
Xoş gəldi dün ol ayə sirişkim nəzarəsi ....192
Məhşər günü görüm, dərəm, ol sərvqaməti ....193
Ey, hər təkəllümüm xəti-səbzin hekayəti ....194
Göz qarası əşki-gülgunimdə xalın sədqəsi ....195
Ləbin əksi gözüm yaşini mey tək laləgun etdi ....196
Ey saçın fikri qamu sövdalərin sərmayəsi ....197
Dün könül dilbərə şərhi-qəmi-pünhan etdi ....198
Ey göz, ol nərgisi-xünxarə nigah etmə dəxi ....199
Könül, yetdi əcəl, zövqi-rüxi-dildar yetməzmi? ....200

**Qəsidələr**

Həva ərayisi-gülzarə oldu cöhrəgüşə ....201
Saçma, ey göz, əşkdən könlümdəki odlarə su ....214
Çəkər birəhmlər yanında hər saət zəban xəncər ....218
Çıxdı yaşıl pərdədən ərz eylədi rüxsar gül ....222
Bu bəhri-niylgun min mövc hər saət əyan eylər ....231
Ğönçə bağrı dəhr bidadilə əvvəl qan olur ....236
Bir gün ki, dey əlamətin etmişdi aşikar ....241
Vəh nədir ol tairi-fərxəndəbalü tiz pər ....247
Bu sürahi məsələn bir sənəmi-rə'nadır ....251
Mən kiməm?-bir fəqiri-bisərü pa ....253

**Tərcibəndlər**

Mən kiməm?-Bir bikəsü biçarəvü bixaniman ....259
Gətir, saqi qədəh kim, novbahari-aləmaradır ....265

**Tərkibbəndlər**

Mənəm ki, qafiləsalari-karivani-qəməm ....265
Nə xoşdur əldə gülgün cam, başda eşq sevdası ....272

**Müsəddəs**

Dün sayə saldı başimə bir sərvi-sərbülənd ....277

**Müxəmməslər**

Vay, yüz min vay kim, dildardan ayrılmışam ....280
Ey hərir içrə tənin, mütləq bulur içrə gülab ....283
Tən pozuldu əşki-çeşmi-xunfəşanimdən mənim ....285

**Təxmislər**

Ta cünun rəxtin geyib, dutdum fəna mülkün vətən ....287
Candadır sübhi-əzəldən mehri-rüxsarın sənin ....289

**Mürəbbelər**

Necə bir vəsvəseyi-əql ilə qəmnak olalım ....291
Pərişan halin oldum, sormadın hali-pərişanım ....293
Hasilim-bərqi-həvadisdən məlamət dağıdır ....295

**Qit'ələr**

1-30 ....297

**Rübailər**

1-28 ....311
**İzahlar ....318**